ŞƏRİF KƏRİMLİ

ÖTƏN İLLƏRİN HARAYI

II cild

ŞƏRİF KƏRİMLİ

ÖTƏN İLLƏRİN HARAYI



"Azərbaycan"ın bu günədək yaranan hər bir sayından gələcək nəsillər dövrümüzün salnaməsini yazmaq üçün bəhrələnəcəklər.
Bu gün biz 1918-20-ci illərdə çıxan "Azərbaycan" qəzetindən ən maraqlı materialları seçib dərc edirik, onların müəllifləri haqda məlumat veririk.
Demokratik Cümhuriyyətimizi bərpa etdiyimiz indiki çağımızda çıxan "Azərbaycan" da beləcə tarixə çevriləcək və haçansa bizim də yazılarımızdan yeni nəsillər ibrət götürəcək.
Mənim onlara yeganə bir arzum var:
tale hər gün bizim dilimizdə səslənən bircə kəlməni heç vaxt onlara qismət etməsin: "Tarix təkrar olunur..."

Şərif Kərimli,
"Azərbaycan" qəzeti, 1992-ci il


The Washington Times
New Baku Post
satılmırıq!
Baki Xəbər
Azərbaycan
ERNEWS
Sabah
The New York Times
ƏDALƏT
YANVAR
ИСЛАМИ БИРЛИК
Azad
AYPARA
Yeni Müsavat
Azərbaycan Müəllimi
Kredo
Milli Azərbaycan
Azərbaycan
Gürcüstan
Русское слово
Zərbaycan
Parallel
Бакинский рабочий
Коммунист
Bizim Yol
The Korea Herald
Совет Кыргызстаны
Baki Xəbər
Türkiyə
Sözcü
Бакы
The Washington Times
Cümhuriyyət
Respublika
525-ci qəzet
Совет Ермənistanı
DAILY NEWS
Geneva's Hometown Newspaper
Thursday 28 April 201
BÜTÖV AZƏRBAYCAN
ŞƏRQ QAPISI
The New York Times

ŞƏRİF KƏRİMLİ

ÖTƏN İLLƏRİN HARAYI

Seçilmiş publisistik əsərlər

3 cilddə

II cild



«Elm və təhsil»
Bakı - 2015

Redaktor:
Dəyanət Osmanlı

ŞƏRİF KƏRİMLİ
ÖTƏN İLLƏRİN HARAYI (*Seçilmiş publisistik əsərlər), üç cilddə, II cild,* Bakı, "Elm və təhsil", 2015, 352 səh.

Kitaba yazıçı-jurnalist Şərif Kərimlinin 40 illik jurnalistlik fəaliyyətinin əsasən "Azərbaycan" və "Sabah", eləcə də "Respublika", "Azərnyus", "Şərq", "525-ci qəzet", "Gün", "Unikal" və s. qəzetlərdə dərc olunmuş publisistik yazıları daxil edilmişdir. Dövrünün hadisələrinə doğru-düzgün münasibət sərgiləyən müəllifin əsərləri sənətkarlıq və peşəkarlıq baxımından çağdaş mətbuatımıza örnək ola biləcək dəyərlərin daşıyıcısıdır. Kitabda jurnalistikanın bütün janrlarında publisistik və bədii-publisistik əsərlər yer almışdır. Prezidentdən başlamış sıravi vətəndaşadək müstəqillik uğrunda əməyi keçən, bu yolda həyatını belə əsirgəməyən igid oğulların mücadiləsi jurnalistin tarixləşdirdiyi əsərlərin baş qəhrəmanıdır.

Üçcildliyə daxil edilmiş yazıların böyük bir qismi müəllifin dogma mövzusuna – Borçalı problemlərinə həsr edilmişdir.

Kitab tarixçilər, sosioloqlar, mətbuat araşdırıcıları, o cümlədən jurnalistika fakültəsinin tələbələri üçün qiymətli mənbədir.

ISBN 978-9952-8282-4-5

© «Elm və təhsil», 2015

"Sabah" qəzeti,
14 may 2002-ci il

Qalammıram bu dünyada...

Zaman – qısa... məkan – dar,
Çat-çat olub məzarlar.
Gəl məni, geri qaytar,
Qalammıram bu dünyada,
Allahım!

Dərd bir aləm – bölən yox,
Yarı – səfil, yarı – tox.
Ayaqüstə ölən çox...
Öləmmirəm bu dünyada,
Allahım!

Yandır – külə dönüm mən,
Şehli gülə dönüm mən,
Özüm olum, özüm mən,
Olammıram bu dünyada,
Allahım!

Yuxumdakı həsrətə,
Gözümdəki möhnətə,
Göstərdiyin o səmtə
Çatammıram bu dünyada,
Allahım!

"Sabah" qəzeti,
29 avqust 2002-ci il

Vətəni unutma, ay oğul!

Allah rəhmət eləsin, ay ana!

Sağlığında kənddən ayrılmaq istəmirdin. Darıxırdın kənddən aralı. Deyirdin, uşaqlar malın-atın dilini bilmir, qapı-bacada, ev-eşikdə az da olsa köməyim dəyir onlara. İndi bir aya yaxındır ki, hər şeyi atıb Bakıdasan, mənimlə birgə dolaşır ruhun. O gün Bakıda Mahirəgilə getdim. Sən də mənimlə getdin. Keçib bir küncdə oturdun. Səssiz-səmirsiz bizə qulaq asdın. Bacımla səndən danışırdıq. Dinməz-söyləməz oturmuşdun. Gözüm üzündə qalmışdı. Danışmasan da gözlərindəki ifadələrlə fikirlərimi cilalayırdın.

Bilirəm narahatsan, ruhun narahatdır, hələ 40 gün narahatlıq içərisində vurnuxacaqsan.

Narahatsan ki, atasız keçən 5 ilimizin ağrı-acısını, qəm-həsrət yükünü çıxarıb öz ürəyinə yüklədiyin halda, indi biz bu yükə dözə biləcəyikmi? Hələ öz dərdin də üstəlik...

Narahatsan ki, birdən evdə böyük-kiçik yeri bilmərik, bir yol göstərən olmaz bizə.

Narahatsan ki, atamızın yurd yeri öləziyər, müqəddəsliyini, hənirini, mehrini-məhəbbətini itirər.

Narahatsan ki, qızların ata ocağından, umanc yerlərindən əllərini kəsər qardaşlar...

Narahatsan ki, haqq dünyasının qapısındakı nişan daşlarınızı unudarıq, ora baş çəkmərik.

Yox, ana, yox! Atamızın da, sənin də əməyiniz-zəhmətiniz, duzunuz-çörəyiniz, suyunuz-südünüz burnumuzdan gələr - əgər öyüdlərinizi, nəsihətlərinizi unutsaq!

Atam mənə həmişə təklikdə deyərdi: "Ananız çox zəhmətinizi çəkib, onun qədrini bilin, onu unutmayın."

Atamız rəhmətə gedəndən sonra sənin mənə ilk öyüdün belə oldu: “Vətəni, eli - obanı unutma, ay oğul!”

Nə atam özü haqqında bir söz dedi, nə də sən. Hardan idi sizdə bu ululuq, bu ürəyigenişlik, bu uzaqgörənlik?!

Deyirdin bacılarınızdan muğayat olun, yad ocaqdadırlar, gözləri həmişə ata ocağındadır. Bu yurda gələndə onları əliboş qaytarmayın.

Yeddi övlad böyütdünüz atamla. Hərəmizi bir diyara pərvazlandırdınız. Fəqət, təkcə bizmi pərvazlandıq? Sizin ürəyiniz də bizimlə uçdu, bizimlə yaşadı - birgə sevindik, birgə kədərləndik.

Yadımdadır, bizi həyət-bacada oynayan görəndə, evdə bekarçılıq edəndə, işdən yorğun qayıdan atam hirslənərdi, deyərdi, utanmırsınız, ananız ev-eşik işlərini tək görür, siz isə avaralanırsınız. Sən isə... atam gedən kimi deyərdin, gedin dərslərinizi oxuyun, mənə kömək lazım deyil. Ev işini də, çöl işini də özüm görərəm. Elə bunun nəticəsində də... 7 diplom qazandın!

70-ci illərdə öz gücünə Azərbaycan Dövlət Universitetinə daxil olmaq böyük qəhrəmanlıq idi! 1972-ci ildə mən Universitetə girməyim barədə qəbul kağızını gətirib atamla sənin qarşına qoyanda, atam üzünü sənə çevirib dedi:

- O əmanəti bəri gətir, a Nazxanım...

Sən dəsmala bükülmüş bir şey gətirdin. Bükülünü açanda gördüm ki, xeyli puldur. Dedin:

-Oğul, fikirləşdik ki, haqq-nahaq dünyasıdı, birdən girə bilməzsən, rüşvət-zad umarlar... Nə isə, bu pul sənindir, necə istəyirsən, elə də xərclə... Halal zəhmətimizlə qazanmışıq...

Bu qədər pulu mən heç vaxt görməmişdim. Bərk sevindim, ani olaraq beynimdə bu pulu necə xərcləməyi götür-qoy etdim. Sonra təsadüfən gözlərim sənin istidən-soyuqdan çat-çat olmuş qabarlı əllərinə sataşdı. Atamın üzünə baxdım, gün çöhrəsini yamanca qaraltmışdı... Alnında bu vaxta qədər fikir vermədiyim qırışlar gördüm. Biz üçümüz də susduq. Birdən ağlıma qəfil bir fikir gəldi. Əlimi atıb puldan 200 manat götürdüm və dedim:

-Bu pula mənə bir dəst kostyum, ayaqqabı və köynək alın, qalanına isə qoy atam getsin bir maşın alsın, özünə...

...Ana, yadındadır, mənim bu təklifimdən siz necə çaşdınız? Durub boynumu qucaqladın, alnımdan öpdün və üzünü atama tutub dedin:

-A kişi, al, oğlun sənə maşın alır...

Atam bu pula gedib təzə bir maşın aldı. Sən həmişə maşına oturanda deyərdin: “Bax, a kişi, unutma ki, bu maşını sənə oğlun alıb.”

***

Ruhun şad olsun, ana, yadındadır, “Borçalı" qəzetinin ilk nömrəsi çıxanda sən nə demişdin? Gözəl şairimiz, rəhmətlik İsa İsmayılzadə, Abbas Abdulla və mən 1990-cı ildə Gürcüstan azərbaycanlılarının hüquqlarının kütləvi şəkildə pozulduğu bir dövrdə - 1989-cu ilin sonu, 1990-cı ilin əvvəllərində “Borçalı” adlı gizli qəzet buraxmışdıq. Qəzetdə gürcü şovinizmi haqqında kəskin yazılar var idi. 20 min tirajla çıxardığımız bu qəzeti mən gizli bir yerdə saxlayırdım. Necə olmuşdusa, qəzetin bir nüsxəsini Akif (Borçalıda “Qeyrət” xalq hərəkatının fəallarından biri, sənin kürəkənin) məndən xəbərsiz götürüb kəndə aparmışdı. Elə bu qəzetin ilk oxucusu və ilk senzoru da sən oldun. Bəzi məsuliyyətsiz müəlliflərimizdən, “qisasçılarımızdan” fərqli olaraq sən elə həmin gün qəzeti diqqətlə oxuyub mənə zəng vurmuşdun. Telefonda ilk sözün bu oldu:

-Ay oğul, o qanlı köynəyi buralara gətirmə!”

Əvvəlcədən mənə izah eləməsən də sənin bu “parolunu” mən başa düşdüm. Mübahisə yersiz idi. Sən düz deyirdin. Qəzetdəki həmin materialın müəllifinə sənin ana narahatçılığını çatdırdım, «gürcülər azərbaycanlılara qarşı genosid siyasəti yeritmişlər və yeridirlər» - ifadəsinin çox ziyanlı olduğunu və böyük qarşıdurmalara gətirib çıxaracağını anlatmağa çalışdım. O isə fikrinə toxunmamağı tələb edirdi.

Mən rəhmətlik İsa müllimi və Abbas Abdullanı müəllifin təsirindən azad etməyə müvəffəq olandan sonra iradəmizi yeritdik

- mətbəədə ştamp düzəltdirib qara boya ilə qəzetdə səni narahat edən yerləri pozduq. Bundan sonra qəzeti Borçalıya göndərdik...

***

Ana, səndən bircə həftə idi ayrılmışdıq, axı. Nəvələrinlə bir yerdə məzuniyyətimin iki həftəsini sənin yanında keçirdik. Bizi ədəb-ərkanla urvatlayıb yola salmışdın. Bəs, bir həftədən sonra niyə geri çağırdın?

Qardaşım Bəkir dedi, vəziyyətin ağırdı...

Bütün gecəni yol getdik.

Yadımdadır, "Azərbaycan" qəzetində bir yazım çıxmışdı - "Borçalıdan Bakıya nə yaxınmış..." Bu, səndən də yaşlı bir nənənin sözləri idi. Gürcüstanda hadisələrin qarışıq dövründə biz Borçalıda olarkən qoca bir nənə məndən soruşmuşdu:

-Ay oğul, Bəkidən neçə günə gəlirsiniz bura?

Mən onda cavab vermişdim:

-İki saata, ay nənə (təyyarə ilə getmişdik).

Nənə gülüb demişdi:

-Bəkidən Boşşalıya nə yaxınmış, ay bala. Bə onda niyə tez-tez gəlmirsiniz, ay sağolmuşlar?!

...İndi gecə qurtarmaq bilmirdi. Bakıdan Borçalıya nə uzaqmış, ay ana?! Bütün yol boyu sənli-sənsiz keçən həyatımı varaqladım. Uşaqlığımdan bu günümə qədər verdiyin öyüdlər içərisində sənin bir kəlmən məni rahat buraxmırdı: "Vətəni unutma, ay oğul!?"

İndi Vətənə gəlirdim. Ana Vətənə gəlirdim, ana! Bilirdim sən əcəllə döyüşməyəcəksən, taleyinlə tez barışacaqsan. Çünki atamla siz Tanrının hökmündən heç vaxt çıxmamısınız. Yol boyu Əzrayıla yalvarmışam ki, aman ver, anamın son nəfəsinə çatım!..

Çatdım! Çatdım və Tanrıya şükürlər etdim ki, bu fürsəti mənə çox görmədi.

Səni belə görməmişdim heç vaxt. Oturmaq nə idi, uzanmaq nə idi, dincəlmək nə idi?.. Bütün günü hərəkətdə idin. Mənisə dostlarım evdə oturmağa qoymurdu. Hərdən gileylənirdin: "Sənə əməlli-başlı qulluq eləyə bilmədim, ürəyin istəyən xörəkləri yedirdə bilmədim. Evdə tapılırsan ki, bir…"

Bu yaşında sənə əziyyət vermək istəmirdim, ay ana. Oturub hərdən sənə gizlincə nəzər yetirirdim. Saçlarının ağına, üzünün qırışına, səsinin kövrəkliyinə dözə bilmirdim. Atam səni ərköyün saxlamışdı. Onun vəfatından sonra sanki sınmışdın, sözünün söykəyi, hökmü sarsılmışdı elə bil.

Siz qəribə adamlar olmusunuz. Sən atamla bizi qorxutmusan, atam sənin iradlarınla bizə təsir edib. Atam səni sevməyi bizə tövsiyə edib, sən atamıza məhəbbət, hörmət aşılamısan.

Eşitdim, məzuniyyətdən Bakıya dönərkən arxamızca baxıb köksünü ötürmüsən: "Gərək mən də onlarla gedəydim..." Ancaq biz sənə təklif eləmişdik, axı. Sən dedin ki, yox, ay bala, Mahirə də gələcək, qoy onu da qarşılayım, sonra gələrəm.

Qonşular mənə dedi ki, sonra da uşaq kimi sevinib demisən:

"Elə rahatlandım ki, elə ürəyimdən oldu ki, uşaqları layiincə yola sala bildim".

İndi budur, gözüyumulu, səssiz-səmirsiz, hərəkətsiz uzanmısan... Bizi görən kimi böyük bacım Xeyransa başını sənə tərəfəyib bərkdən dilləndi:

- Gözünü aç, ay ana, gözünü aç, gör kim gəlib!.. Şərif gəlib Bakıdan, Mahirə gəlib, Gülnarə gəlib...

Sən gözlərini açdın. Sonuncu dəfə isti-ilıq baxışların üzümüzü yaladı. Nəzərlərini bir-bir üzümüzdə dayandırdın. Gözlərin doldu, əksimiz gözlərinə həkk olundu və bizi gözlərinə basıb göz qapaqlarını örtdün - biz ömürlük sənin gözündə qaldıq!

...Biz sənin gözündə qaldıq, sən bizim ürəyimizdə.

Bu tayda biz qaldıq, o tayda Vətən... Sən Ana idin, indi Vətən oldun, Vətənləşdin - Ana Vətən oldun! Sənin sözlərini bütün nəvə-nəticələrinə, kötücə-yadicələrinə ötürəcəyəm, ay ana. "VƏTƏNİ UNUTMA, AY OĞUL!"

Ruhun şad olsun, qoşul köç karvanına, rahat çıx get, haqq dünyasının qapıları taybatay açılıb səni gözləyir. Allah rəhmət eləsin!

Oğlun Şərif,
25 avqust 2002-ci il

Ana, atamıza salam de bizdən…

Köç karvanın qəfil yola çıxardın,
Ana, atamıza salam de bizdən.
Bu karvanda neçə ürək apardın,
Ana, atamıza salam de bizdən.

Yeddi övlad - yeddi çinar böyütdün,
Yeddi evə nur çilədi öyüdün,
Gedişinlə bütün eli göynətdin,
Ana, atamıza salam de bizdən.

De ki, Bəkir, Şərif yurd ağacıdı,
Gülnarə, Mahirə dərd ağacıdı,
Xeyransa Baydarda yurda bacıdı,
Ana, atamıza salam de bizdən.

Salatın çatmadı qəm karvanına,
Safirə qərq olub yaş ümmanına,
Bənövşə qürbətdə az qalır yana,
Ana, atamıza salam de bizdən.

Elə bil əcəllə döyüşmədin sən,
Neçə nəvən ilə görüşmədin sən,
Sanıram, dünyanı dəyişmədin sən,
Ana, atamıza salam de bizdən.

Şərif Həmid oğlu Kərimli,
02 avqust 2002-ci il

"Sabah",
28 avqust 2002-ci il

Haqq sözünlə susdurmusan

Öz ömrü ilə özgələrinə örnək olan elin mübariz, cəsarətli, fədakar, qüdrətli qələm sahibi, sözün əsl mənasında böyük insan, səmimi dost, ürəkləri xeyirxahlığı ilə ovudan, ömrünün mənasını xalqın etimadını layiqli xidmətləri ilə doğrultmaqda görən həssas qəlbli qələm dostum, Borçalı dünyasının yetirməsi Şərif Kərimliyə ithaf edirəm.

İsa ŞUŞALI

BAYDAR KƏNDİ

Sənə layla çalan Ana,
Borçalının Baydar kəndi.
Qəlbində yurd salan Ana,
Borçalının Baydar kəndi.

Ürəyinə verib qürur,
Qoluna güc, gözünə nur.
Sənə dilər böyük uğur,
Borçalının Baydar kəndi.

Nadir şahı mat eyləyən,
Darda qiyamat eyləyən.
Tarixi bir ad eyləyən,
Borçalının Baydar kəndi.

Xramçaya vurulubdur,
Saf suyunda durulubdur.
Mayasıyla yoğrulubdur,
Borçalının Baydar kəndi.

Əzizidir canın qıyan,
Taleyinə şəfəq yayan.
Alınmayan Qala dünyan,
Borçalının Baydar kəndi.

Söz dünyanla birləşibdir,
Kəlamında zərləşibdir.
Ürəyində yerləşibdir,
Borçalının Baydar kəndi.

Ümidini üzməz haqdan,
Qürurunu alıb xalqdan.
Qalib çıxıb hər sınaqdan,
Borçalının Baydar kəndi.

Eşqi ümman aləmindir,
Dərdə dərman aləmindir.
Tər Gülüstan aləminir,
Borçalının Baydar kəndi.

Qoynu ana qucağındır,
Gülü yara sarığındır.
Çağlayan söz bulağındır,
Borçalının Baydar kəndi.

Müsibətlər çəkib başı,
Çatılıbdır qəmdən qaşı.
Bir sipərdir yada qarşı,
Borçalının Baydar kəndi.

Bir mavi göl sonasıdır,
Saf könüllər aynasıdır.
Ər oğul-qız anasıdır,
Borçalının Baydar kəndi.

Qədrin bilən bəxtiyardır,
Könül açan bir diyardır.
Nurani bir ixtiyardır,
Borçalının Baydar kəndi.

Sinə gərib aha, dərdə,
Qəlbində yer verib mərdə.
Görən istər görə bir də,
Borçalının Baydar kəndin.

İlhamını aldığın yer,
Söz rübabın çaldığın yer.
Şərif, səcdə qıldığın yer,
Borçalının Baydar kəndi.

Tər gülünü üzər İsa,
Qartalına bənzər İsa.
Söz nuruyla bəzər İsa,
Borçalının Baydar kəndin.

"Sabah" qəzeti,
18 oktyabr 2002-ci il

Köhnə kişilər

(Valideynlərimin əziz xatirəsinə)

Gözlərindən yaş çıxmırdı, ancaq çöhrəsindəki üzüntüdən, baxışlarındakı hüzndən deyərdin ki, bu insan həyatda hər şeyini itirib. Anasının ağarmış, zəifləmiş saçlarını oxşayırmış kimi, onun məzarı üstündə xəzan ömrü keçirən yumşaq, lakin saralmış, şirəsiz otları əli ilə sığalladı, dərindən bir ah çəkdi və dizlərinə söykənib özünü tarazladı. Son vaxtlar ayaqlarına yığılmış duzun təsirindən keyləşmiş kündələrini barmaqlarının ucu ilə bir az ovxalayıb qamətini dikəltdi. Sanki kimisə yuxudan oyatmaqdan ehtiyatlana-raq ehmalca başdaşına yaxınlaşdı. Üzünü bir vaxtlar soyuqdan qızarıb-göyərmiş balaca, çəlimsiz barmaqlarını öz isti nəfəsi ilə hənirləndirən anasının indi buza dönmüş dodaqlarına söykədi.

-Öp məni, ana, öp... - deyə pıçıldadı. - Sənin nəvazişin üçün darıxmışam, sənin ilıq nəfəsin üçün darıxmışam... Öp məni...

Və birdən-birə yanaqları alışıb- yandı, sanki anasının qaynar öpüşləri gözlərindəki buzu əritdi, köksü qabardı, ürəyindən gələn bir hönkürtü bütün vücudunu titrədib başdaşında əks-səda verdi və gözlərindən çıxan iki damla yaş sinədaşına çırpılıb çilik-çilik oldu...

-Ağla, bala, ağla, boşalt ürəyini!.. - qeybdən gələn bu səsə daha o, vahimələnmədi, başdaşını bir az da bərk qucaqladı, - Ağla, daşda-kəsəkdə yıxılanda yaralarını o qədər ovutmuşam ki... İndi ovuda bilməyəcəyəm səni, çünki bu yara o yaradan deyil. Gözünün bir damla yaşına ürəyimin yağını əritmişəm. İndi ürəyinin bu hönkürtüsü ürəyimə sarı yağ kimi yayılır...Ağla, canım-ciyərim, gözümün işığı, ağrı-acım canımdan çıxır sən ağlayanda, ürəyim dağa dönür göz yaşınla islananda. Öz canın

üçün ağlamağa nə var ki... Sənin bu göz yaşların həyatda ən böyük qazancımdır! Ağla, başına dönüm, get atanı da ağla…

O, ürəyini boşaldıb anasının əksi önündə baş əydi:

-Allah rəhmət eləsin, ay ana, halal xoşun olsun bu göz yaşlarım. Ruhunu az da olsa şad elədimsə, ürəyim rahatlandı, torpağın yumşaq olsun!..

Cib dəsmalını çıxarıb yanaqlarında iz salmış göz yaşlarını və nəmli gözlərini sildi. Atasının qəbirüstü abidəsinə yaxınlaşmamışdan o paltarının toz-torpağını çırpdı, üst-başını qaydaya saldı. Sanki onun "Kişi ağlamaz!" tənəsindən qorxurmuş kimi çöhrəsinə toxdaqlıq verdi. Elə bil bu dəqiqə "Ay əleyküməssalam!" deyərək əllərinin ikisini də irəli uzadıb üstünə yeriyəcək atasına tələm-tələsik: -"Salam ata!" - dedi:

Abidənin qarşısında xeyli dayanıb diqqətlə atasını süzdü. Sanki ilk dəfə idi onu görürdü. Bəlkə də həyatında birinci dəfə idi ki, o, başını qaldırıb atasının üzünə dik baxırdı. Qeyri-ixtiyari ağzından bu sözlər çıxdı:

-Gözəl kişisənmiş, ata...

Və baxışları atasının baxışları ilə toqquşanda... özünü yığışdırdı, sözlərinin kişinin xoşuna gəlmədiyini hiss etdi... Fikirlərini başqa cür izah etməyə çalışdı:

-Kişi kimi yaşamaq nə çətinmiş, ay ata...

Atasının sərt baxışları yenə də onun gileylərini qamçıladı.

-Deyirəm, kişilik dövranı elə siznən də getdi...

-Hər dövran öz kişisini yetirir,bala! Dəyişən insandır, insanlıq yox! Kişilik də insanlığın bir budağıdır...

O, başını aşağı saldı. Bir xeyli fikrə getdi. Atasının çiyinləri üzərindən uzaqlara boylandı. Yarıməsrlik həyat yolunu bircə anda dövrə vurub qayıtdı. Öz-özünə pıçıldadı:

-Sən haqlısan...

"Sən haqlısan" - haqq dünyasının qapısında deyilən bu sözün ağırlığından sanki məzarıstan titrədi, məzarlar yelkənli qayıqlar kimi ləngər vurdu, qəbirdəkilərin sümükləri şaqqıldadı, haqq

yolda şəhid olanların goru çatladı, başdaşıları yumruqlarını düyünləyib hayqırdı: - Biz Haqlıyıq!!!

O, halını belə dəyişmədən, tükləri belə tərpənmədən, kipriklərini belə qırpmadan... doğma, həlim bir səslə mülayimcəsinə təsdiqlədi:

- Siz haqlısınız! Rahat olun, rahat yatın, bir-birinizdən muğayat olun... Siz haqqa qovuşanlarsınız... Sadəcə, indi dünyamızda haqq nazilib, tamam üzülməmək üçün gərək hərdənbir gəlib sizlərin dərgahında haqqa tapınasan. Siz hər şeydə haqlısınız...

O, üzünü atasına tutdu:

-Fəqət, yorulmuşuq, ata, haqqın dalınca qaçmaqdan yorulmuşuq, varmı bu yolun sonu?

-Get, oğlum, var get! Haqq dalınca qaçan yorulmaz! Haqq yolun nə başlanğıcı, nə sonu var... Bu, əbədiyyətdir!..

***

-Kimlə danışırdın, ata?

Kimsə pəncəyinin ətəyini dartdı. O diksinib geri qanrılanda kiçik yaşlı oğlu Həmidi gördü. Onun çiyinlərini qucaqlayıb ağır-ağır dilləndi:

-Köhnə kişilərlə danışırdım, oğlum, köhnə kişilərlə...

Balaca Həmid təəccüblə bir atasına, bir də babası Həmid kişinin daşa həkk olunmuş əksinə baxdı və:

-Deyirlər o vaxtlar kişilər başqa cür olub, hə, ata? - deyə, çox ciddi və müəmmalı tərzdə soruşdu.

Ata oğluna mənalı-mənalı baxdı və heç nə demədən gülümsədi...

"Sabah" qəzeti,
12 iyun 2003-cü il

QONAQ

(Hər birimizin başına gələ biləcək hekayət...)

Azərbaycan-Gürcüstan sərhədini keçən kimi ailəsi ilə birlikdə ata-anasını ziyarətə gedən Hacının maşınını daş-kəsəklə, dəyənəklə silahlanmış kütlə dövrəyə aldı. Azərbaycan dövlət nömrə nişanlı maşının üzərinə yeriyən gözü qızmış adamlar əllərini havada yellədə-yellədə öz dillərində nəsə söyləyirdilər. Maşında əyləşən Hacının həyat yoldaşı, qızları və xüsusən də kiçik oğlu tələş içində idi. Uşaq qorxusundan tir-tir əsir, atasının boynuna sarılıb qışqırırdı:

- Ata, sür, saxlama, sür, bizi öldürəcəklər!..

Hacının həyat yoldaşı isə əksinə, uşaqları və ərini sakitləşdirməyə çalışır, maşını saxlamağı xahiş edir və özü düşüb onlarla dil tapacağını söyləyirdi.

Hacı çıxılmaz vəziyyətə düşmüşdü. Hər şeyi silib-süpürməyə hazır olan bu azğınlaşmış kütlədən nə desən gözləmək olardı.

Maşında yetkinlik yaşına çatmış qızları, ürəyi xəstə həyat yoldaşı, əsəbləri pozulmuş oglu vardı...


Hacı baş verəcəkləri fikirləşəndə onu soyuq tər basır, damarlarındakı qan coşur, qeyrət, namus, kişilik hissləri şahə qalxıb düz gözünün qabağında onu ərşə çəkirdi.

Kimə qulaq assın? Əsim-əsim əsən zəif körpəsinin yalvarışlarınamı, gözəl- göyçək qızlarının, həyat yoldaşının xahişlərinəmi?! Maşını kütlənin üzərinə sürüb aradan çıxsın, yoxsa təhqirlərə, binamusluğa dözüb nakişilik etsin? Nəhayət, ağıl onun hisslərini üstələdi və Hacı maşının əyləcini basdı. Oğlunun qarmaq kimi boynuna ilişmiş barmaqlarını açıb maşından düşdü. Üstünə yeriyən kütlənin bu dəqiqə onu əzib tapdalayacağını ağlına



“Gənclik” jurnalının rəssamı Gündüz Əlizadə qalstuk bağlamağın yeni üsulunu sınaqdan keçirir. 1987-ci il.






Fotoqraf dostum Rasim Sadıqovun yaradıcılığı. 1989-cu il.




Belarusiya. **Soldan:** bacım Salatın, həyat yoldaşı Hüseyn və nəvələri ilə. 2001-ci il.



Əziz qöhumlarımla. Sağdan: bacım oğlu Məcid, dayım Fərzalı, atamın dayısı oğlu Həsrət. Baydar. 2014-cü il.




Qədim türk diyarı Axalsixe sanatoriyasında. Gürcü, azərbaycanlı və ermənilərdən ibarət beynəlmiləl futbol komandamız. 1971-ci il.






Axalsixe. 6 iyun 1971-ci il.



Dostlarım: solda Əmrah, sağda Süleyman. 1971-ci il.



Dostum Avtandillə. 1973-cü il.



Atam Həmidlə. 1964-cü il



Anam gəlinləri – soldan İradə, Mahizər və nəvəsi
Yeganə ilə. 2000-ci il.



Anamla. 1971-ci il.



Anamla. 2001-ci il.



Xoş gördük sizləri, əziz valideynlərim...



1997-ci il.



2001-ci il.



"Şərqin səsi" qəzetinin redaktoru
Müşfiq Borçalı ilə. 2004-cü il.



Şair İsa Şuşalı və "Sabah" qəzetinin
əməkdaşları. 2001-ci il.



Milli Qəhrəman Mübariz İbrahimovun atası
Ağakərim kişi ilə. Biləsuvar, 2012-ci il.

ğətirəndə qolları boşaldı, ilk dəfə həyatda öz acizliyindən xəcalət çəkdi və ani olaraq gözlərini yumdu...

Qolundan kiminsə bərk-bərk yapışıb dartdığını hiss edəndə qəfil gözlərini açdı və sanki bədənindən yüksək ğərğinlikli cərəyan keçdi. Qollarına qüvvət, dizlərinə taqət gəldi. Yumruqlarını düyünləyib, onun qollarını dartan adamın üzərinə cummaq istədi.

Kütlə onunla iki addımlıqda dayanmışdı. Səs-səmir kəsilmişdi. Qəzəbli, eyni zamanda istehzalı baxışlar üzünə tuş-lanmışdı. Hacı ətrafına boylandı. Coşmuş kütlədən onun yanında heç kəs yox idi. Yanında oglu dayanmışdı. Nəmli gözlərini atasının gözünə zilləmişdi. Baxışlarındakı bayaqkı qorxu-hürkü, yalvarış yoxa çıxmışdı. Üzündə sərt, inamlı ifadələr cilvələnirdi. Arıq, sısqa, cansız barmaqları ilə atasının qolunu bərk-bərk sıxmışdı...

Hacı doluxsundu. Qəhər onu boğdu. O əli ilə oğlunun barmaqlarını sığalladı. Donmuş barmaqlar sanki əriyirmiş kimi yumşalmağa başladı.

-Ata, qorxma, mən də sənin ləyəm!

Körpəsinin bu qətiyyətli, inamlı sözləri Hacını bir az da kövrəltdi. Dönüb qızlarına və həyat yoldaşına baxdı. Onlar üzlərini əlləri ilə örtüb için-için ağlayırdılar. Barmaqlarının arasından yaş süzülürdü.

-Oğlum, otur maşında, bacılarından muğayat ol... indi gəlirəm...

Hacı oğlundan azca aralaşmışdı ki, kütlə onu sel kimi apardı. Bir neçə dəqiqədən sonra mitinq keçirilən meydanda mikrafondan Hacının səsi eşidilməyə başladı:

-Bəli, biz azərbaycanlılar burda qonağıq... Biz heç bir torpaq və vəzifə iddiası etmirik. Bu torpaqda bir hakim xalq var, o da sizsiniz. Biz... bura gəlməyik...

***

Hacı bir kəlmə belə danışmadan sükan arxasında əyləşdi. Onun sağ-salamat qayıtmasına nə oğlunun, nə həyat yoldaşının, nə də qızlarının sevinmədiklərini də təbii qarşıladı. Beli qırılmış kimi oturacaqda büzüşdü. Əlləri əsə-əsə xeyli müddət açarları tapıb cibindən çıxara bilmədi. Nəhayət, cib qarışıq açarları çıxaranda əlində saxlaya bilmədi, açarlar qabaqda anasının qoynuna sığınmış oğlunun qucağına düşdü.

Oğlu açarları götürüb atasına uzatdı, Hacı açarları alarkən gözləri oğlunun gözlərinə sataşdı. İlahi! Bu gözlərdə nələr yoxdu! Yazıqlıq, mütilik, sınmış bir inam... Oğlunun bayaqkı şəffaf, büllur gözləri sanki çilik-çilik olmuşdu!..

Çönüb arxaya, qızlarına baxdı... Onlar başlarını aşağı dikmişdilər. Ağlamırdılar, çöhrələri meyit kimi saralmışdı. Həyat yoldaşının üzünü görə bilmədi. O, üzünü yana çevirmişdi...

Hacı qamətini düzəltdi. İlan kimi dikəlib meydana baxdı. Mitinq başa çatmışdı. Meydan boşalmaq üzrə idi. Cəld hərəkətlə maşından düşüb yük yerini açdı. Ehtiyat təkərinin arxasına qoyduğu ət baltasını götürdü. Hirslə qapını örtüb maşının qabaq qapısını açdı.

-Yerinizdən tərpənməyin, maşından düşməyin! - deyib, qapını zərblə çırpdı.

Həyat yoldaşı:

-Ay Hacı, qurban olum, başına dönüm, etmə bunu! Balalarına yazığın gəlsin, - deyərək özünü Hacının ayaqları altına atdı.

-Arvad, sənə dedim, get, otur yerində!

-Hacı, bizi başına dolandır, ayaqlarının altında ölüm, gəl çıxaq gedək!..

Qollarını ərinin ayaqlarına dolayan həyat yoldaşının pəncəsindən çıxmağın mümkün olmayacağını görən Hacı hirslə baltanı tulladı və:

-Sənə dedim, ğet otur yerində, gəlirəm, - deyə, həyat yoldaşının əlindən birtəhər üzülüb meydana tərəf qaçmağa başladı. Meydana çatan kimi bir neçə nəfərin əhatəsində kürsüdən

aşağı enən mitinq rəhbərlərindənbirinə yaxınlaşıb yaxasından yapışdı və qəzəblə, dəlicəsinə qışqırdı:

-Biz gəlmə deyilik! Biz qonaq deyilik! Biz bu torpağın yiyəsiyik! Biz...

Mitinqin lideri çaşqınlıqla ona baxıb, əsəbi halda sinəsindən itələdi və:

-Otstan sluşi, çeqo privezalsya?! - deyib, deyinə-deyinə "Mersedes"ə oturub möhkəm qaz verdi.

Hacı bayaq mitinqdə çıxış edənlərdən başqa birisinə yaxınlaşdı. Onun çiyinlərindən bərk-bərk yapışıb qışqırdı:

-Biz gəlmə deyilik!.. Biz qonaq deyilik!.. Bizim hüququmuz...

Həmin şəxs Hacını ilk dəfə görürmüş kimi bir az istehzalı, bir az da təəssüflə donquldandı:

-Tı sumaşedşiy, çto-li, otsepis!..

Mitinq iştirakçıları Hacının yanından çox etinasız şəkildə ötüb meydanı boşaltmağa başladılar. Hacı isə dizləri üstə torpağa çöküb yalvarırmış kimi zarıyırdı:

-Biz qonaq deyilik... biz gəlmə deyilik!..

O, yumruqlarını düyünləyib yeri döyəcləyirdi:

-Bu torpaqda mənim babalarım yatır!.. Bu torpağa mənim qanım qarışıb!..

Mən bu torpağa qarışacağam!..

Bu zaman Hacının qolundan kimsə tutdu, onu ayağa qaldırmağa çalışdı.

Üz-gözü torpağa bulaşmış, üst-başı toza batmış Hacı başını qaldıranda ixtiyar bir qocanın mehriban nəzərləri ilə qarşılaşdı.

Qeyri-ixtiyari olaraq ayağa durdu.

Qoca:

-Poydyom, bico, poydyom. Ni nado serditsya, vse eto pustyaki... - deyə-deyə, Hacını maşının yanına dartıb gətirdi.

-Ya toje qost. İz Qori ya. - Qoca danışa-danışa çiynindən heybəsini yerə endirdi. Heybənin içərisindən bir az pendir, göyərti, lavaş və bir şüşə qara şərab çıxarıb maşının kapotunun

üzərinə qoydu. Daha sonra heybəsindən dörd-beş dənə sucuq və qırmızı alma çıxarıb maşının içərisində oturanlara uzatdı.

-Berite, berite, poprobuyte naşi yabloki. Eti Qoriyskie yabloki.

Şərabı iki stəkana süzüb birini Hacıyauzatdı:

-Tı komu qovoriş eti slova, a?.. Seyças im ne nujnı tvoi slova. Tı poymi, sluşi, tvoi slova tam nujnı, na mitinqe nujnı, na tribune nujnı. Tı neujeli ne ponimayeş, çto tvoi slova etim lideram nujnı - no, tam nujnı, a ni zdes...

Nu, çort s nimi!.. Davay vıpiem za tvoyo zdarovye! Za tvoyu semyu, za moyu semyu! Ya toje qost, tı toje qost, mı vse qosti na etoy Zemle... Da boq soxranit naşu rodnuyu Zemlyu!.. - deyib, qoca şərabı başına çəkdi və ağzına bir tikə pendir qoyub: - Davay, tı toje vıpiy.

Hacı stəkanı ağzına yaxınlaşdırdı. Sanki daş asılmış kipriklərini sıxdı və iki damla qaynar yaş qara şərabın içərisində çiçəklədi...

Şərabı son damlasına qədər içib ağır-ağır torpağa çökdü. Torpağa layla çalırmış kimi yumşaq otları sığalladı və onlardan bir çəngə qoparıb köklərindəki narın torpağı ovcuna silkələdi. Burnunu ovcuna sıxıb xeyli qoxuladı. Sifətinə xəfif qızartı gəldi, sonra çöhrəsi işıqlandı, gülümsədi. Süfrədən bir tikə çörək götürüb ovcundakı torpağa basdı və iştahla yeməyə başladı...

"Sabah" qəzeti,
21 may 2004-cü il

Sayğısızlıq

Son illərin müşahidələrinə əsaslanıb deyə bilərik ki, əgər neft, qaz sənayesinə, balıq-kürü, tikinti sahələrinə göstərilən qayğının, diqqətin, ayrılan vəsaitin onda bir hissəsi aqrar sektora, heyvandarlığa və yemçiliyə ayrılsaydı, Azərbaycan bu gün şərab, yem, ət, süd, yumurta idxal edən ölkədən kənd təsərrüfatı məhsulları, eləcə də ət və süd məhsulları ixrac edən qüdrətli bir ölkəyə çevrilərdi. Ancaq əfsuslar ki, bu gün Azərbaycan kəndlisi sıxıntılar içərisində boğulmaqdadır. Suyu gələndə işığı kəsilən, işığı veriləndə yanacağı tükənən, yanacağı tapılanda kübrəsi olmayan, kübrəsi olanda texnikası çatışmayan... və s. və i. a. problemlərlə döyüşə-döyüşə, çarpışa-çarpışa məhsul yetişdirib ərsəyə gətirən və məhsulu yetişəndə bazar dərdi çəkən, bazar tapanda Çin səddləri ilə toqquşan biçarə əmək adamı il boyu əziyyət çəkə-çəkə növbəti ilə yenə də borc içində keçir.

Başqa MDB ölkələrinə baxanda, bəli, Azərbaycanın dövlət büdcəsi yaxşı haldadır. Ancaq dövlətin gücü təkcə onun xəzinəsinin aşıb-daşması ilə ölçülmür. Elə Şərq ölkələri var ki, onun varı, dövləti Avropanın ən inkişaf etmiş ölkələrinin var-dövlətindən qat-qat çoxdur. Lakin daxili siyasi rejimin, korrupsiyanın ucbatından əhalisi səfalət içərisində yaşayır.

Azərbaycan dövləti son illər sahibkarlığın inkişafı üçün xeyli qanunlar qəbul edib. Lakin nə faydası? Bu qanunların icrası yerlərdə düzgün aparılmır, əlaqədar strukturların fəaliyyəti uzlaşdırılmır. Məmur özbaşınalığına əncam çəkilmir. Əhalinin, mətbuatın səsi eşidilmir. Xalqın tanıyıb-inandığı adamlar kənarda qalır, pullu, arxalı, müxtəlif klanlara xidmət edənlər vəzifə alır və qısa müddətdə "qoyduqları mayanı" çıxarmaq üçün bit-birə kimi

əhalinin, sahibkarın, iş adamının canına daraşır, qanını sorurlar. Və bu yerdə "mətbuat 4-cü hakimiyyətdir" ifadəsinin puçluğuna təəssüf edərək, azad mətbuatın, senzurasız mətbuatın bir fiksiya, kül olduğunu dərk edib, sovet mətbuatının həsrətini çəkməli olursan...

Rəhmətlik Heydər Əliyev bir dəfə jurnalistlərlə görüşündə demişdi ki, "Kommunist" qəzetində hansısa rayon haqqında qaldırılan bir məsələ Mərkəzi Komitənin plenumunda müzakirə olundu. Lazımi qərarlar qəbul edildi və redaksiyaya təşəkkür elan olundu.

Bu gün məgər azmıdır mətbuatda qaldırılan belə problemlər? Hansına reaksiya verilib?

Mən qəzetlərin iqtidar-müxalifət qütblərinə bölünməsinə pis baxsam da, bir şeyi deməliyəm: bu yaxınlarda hətta dövlət qəzetində yüksək vəzifəli şəxslər, nazirlər haqqında verilən tənqidi (xüsusi qeyd edim ki, haqlı!) yazılara belə ali vəzifəli şəxslər çox passiv və diqqətsiz yanaşdılar.

Və belə yazıların onların fikrinə, qərarına təsir göstərmək iqtidarında olmadığını bildirdilər. Niyə? Nə üçün? Məgər bu tənqidlər haqsız idi? Məgər bunu bütün xalq danışmır? Məgər bunu bütün mətbuat yazmır? Nə üçündü bu biganəlik? Nə üçündü xalqın səsinə, mətbuatın harayına bu sayğısızlıq?

"Sabah",
09 oktyabr 2002-ci il

Türkiyənin bölgədə yeri və rolu

ABŞ və B.Britaniya mətbuatının materialları əsasında

Sovet birliyinin parçalanması ilə əlaqədar yaranan yeni müstəqil dövlətləri öz təsir dairəsinə almaq üçün ABŞ və Avropa dövlətləri ilə yanaşı, Türkiyə də hər cür siyasi-iqtisadi, milli təsir mexanizmlərini işə saldı. Humanitar yardımlardan, iqtisadi köməkliklərdən tutmuş, hərbi yardımadək göstərilən "qayğıların" yeganə bir məqsədi vardı: iqtisadiyyatı dağılmış, dövlətçiliyi hələ inkişaf etməmiş, beynəlxalq aləmdə öz siyasi oriyentasiyasını qəti şəkildə müəyyənləşdirməmiş bu ölkələri Rusiyanın və İranın təsir dairəsindən qoparmaq.

Sovet imperiyasının tərkibindən çıxıb öz müstəqilliyini elan etmiş 6 müsəlman ölkəsinə xüsusi önəm verilirdi. Təbii ehtiyatlarla zəngin olan bu ölkələr təkcə maddi nemətlərinə görə deyil, eyni zamanda xüsusi strateji mövqeyinə görə sadaladığım super dövlətlərin diqqət mərkəzində idi. Əsasən köhnə kommunistlərin rəhbərlik etdikləri, müsəlmançılığın kifayət qədər kök atdığı bu ölkələrə bəs necə təsir etməli? Nə ABŞ, nə Avropa dövlətləri bölgəyə birbaşa və təklikdə girmək iqtidarında deyildilər. Bunun bir çox amilləri vardı. Bunlardan ancaq ikisinin adını çəkmək istəyirəm:

- birbaşa müdaxilə hələ kifayət qədər hərbi və iqtisadi potensiala malik olan Rusiya ilə üzləşmək demək idi;

- yabançı mədəniyyətin, fərqli dini mənsubiyyətin qəbuledilməzliyi təhlükəsi ehtimalı güclü idi.

Belə bir məqamda bütün nəzərlər Türkiyəyə yönəldi. Bu nəzərlər təkcə ABŞ və Avropadan deyil, eyni zamanda Orta Asiya və Qafqazdan da yönəlmişdi.

İmperializm siyasətinin dəfələrlə sınaqdan çıxarılmış priyomlarından olan lokal müharibələri, milli-etnik zəmində münaqişələri, mübahisəli zolaqların bölüşdürülməsi məsələlərini məharətlə işləyib hazırlayan Rusiya bölgədə hələ kifayət qədər təsir vasitələrinə malik idi.

Lakin Türkiyənin özünün də problemləri az deyildi. Amerika Birləşmiş Statlarının bölgədə ən etibarlı partnyoru kimi Körfəz müharibəsində itirdiyi milyardlarla dollarlardan əfzəl Türkiyənin kürd problemi və Avropa Birliyinə üzv qatılmaq arzusu dayanırdı. İllərlə Avropa evinin kandarında növbə gözləyən Türkiyənin Kipr kimi problemi vardı.

ABŞ və Avropanın müstəqil dövlətlərə müdaxilə arzularını gerçəkləşdirmək missiyasını öz üzərinə götürən Türkiyə bunun müqabilində heç olmasa Avropa Evinə daxil olmaq niyyətini eyhamladı. 1963-cü ildən Avropa Birliyində məşvərətçi səslə iştirak edən Türkiyəyə çox soyuqqanlılıqla başa saldılar ki, Kipr və Kürd problemi həll olunmamış bu Evin qapısını döymək əbəsdir.

Məhz belə olan halda Türkiyə öz arzularından müvəqqəti də olsa əl çəkib, üzünü tamamilə Qafqaza və Orta Asiyaya tutdu.

***

Azərbaycanın xarici siyasət kursunun müəyyənləşməsində Türkiyənin müstəsna fəaliyyətini danmaq olmaz. ABŞ və Avropa dövlətləri ilə qurulan siyasi-iqtisadi əlaqələr bu ölkələrin qarşılıqlı maraqlarından yararlanıb. Bir məsələni də qeyd etmək lazımdır, baxmayaraq ki, Türkiyə Qafqaz və Orta Asiya ölkələri ilə ABŞ və Avropa arasında "elçi" rolunu oynayırdı, ancaq onun özünə də sonuncu ölkələrdə ikili münasibət, qısqanclıq və ehtiyatkarlıq meylləri sezilirdi.

Azərbaycanın xarici siyasət problemləri ilə məşğul olanlara və yazdığım elmi işə gətirəcəyi xeyiri nəzərə alaraq ABŞ və digər ingilisdilli ölkələrin mətbuat orqanlarında 1991-1992-ci illərdə dərc olunmuş Türkiyə ilə bağlı və bilavasitə Azərbaycana aidiyyatı olan mətbu yazılar üzərində bir qədər dayanmaq istərdim.

Bostonda çıxan **"Krisçen Sayens Monitor"** qəzetində ABŞ dövlət katibinin keçmiş müavini, hazırda Virciniya ştatındakı Beynəlxalq Münasibətlər Universitetinin professoru Devid Nyusom Türkiyəyə son səfərindən aldığı təəssüratı oxucularla belə bölüşür:

"İstanbulun küçələri Rusiyadan və keçmiş sovet respublikalarından gələn turistlərlə doludur. Türkiyə qəzetləri Orta Asiya və Azərbaycanda - türkcə danışan bu ölkələrdə açılan böyük imkanlardan bəhs edən yazılarla doludur.

Ancaq Türkiyənin diqqəti təkcə Şərqə yönəlməyib. İzmirin mehmanxanaları Yuqoslaviyadan olan qaçqınlarla doludur. Türklər əmindirlər ki, onlar öz maraqlarını Şimalda Qara dənizin narahat sahillərində də axtarmalıdırlar.

Təsadüfi deyildir ki, iyunun 24-də 11 ölkənin liderləri, 6 keçmiş sovet respublikası da daxil olmaqla, İstanbulda "Qara dəniz iqtisadi əməkdaşlığı" haqqında deklorasiya imzalayıblar. Türklərin bu bölgəyə maraqları cari maraqlarla məhdudlaşmır. Onun mənəvi tarixi kökləri var. Vaxtilə Osmanlı imperiyasının tərkib hissələri olan Orta Asiya çöllüklərində, Balkanlarda, Zaqafqaziyada, Qara dənizdə türk xalqının kökləri var.

Kürdüstandakı hərbi aksiyalar, heç şübhəsiz ki, Qərbin ictimai rəyində Türkiyənin nüfuzuna xələl gətirir. Baxmayaraq ki, bu dövlət Qərbin Balkanlardakı və Orta Asiyadakı siyasəti ilə həmrəydir. Müasir Türkiyə Aralıq dənizinin şərqində oynayacağı rola öz cəhdini açıq-aşkar büruzə verir: iqtisadi güc toplayan Türkiyə "Ümumi bazar"a daxil olmaqla səylərini artırır. ABŞ-ın mühüm müttəfiqi və NATO-nun üzvü olaraq o, Orta Asiyada, Azərbaycanda, Qara dəniz və Balkanlarda artıq özünün güclü təsir

imkanlarını nümayiş etdirib. Dünyanın digər güc mərkəzlərinin reaksiyasından indi bir şey asılıdır: "Türkiyə bir vaxtlar Osmanlı imperiyasında olduğu kimi, regionda əsas qüvvəyə çevriləcəkmi?" – Devid Nyusom "Türkiyə tarixin vodovorotunda" adlı yazısını belə nəticə ilə yekunlaşdırır.

"Assoşieyted Press" (AP) agentliyinin Ankara müxbiri Neyl Makfarkuar **"Çikaqo Tribun"** qəzetində dərc etdirdiyi "Türkiyə: yeni imkanlar və təhlükələr" başlıqlı reportajında amerikalı oxuculara bu uzaq ölkə haqqında ən mühüm məlumatlar verdikdən sonra anlaşıqlı və sadə dildə biznesmenlərə və işgüzar dairələrə Türkiyənin xarici siyasətinin mövcud reallıqlarını açıqlayır. Bu yazıda əsas diqqəti cəlb edən cəhətlərdən biri də odur ki, xarici mətbuat bizim regiondakı vəziyyəti öz oxucularına hansı tərzdə çatdırır.

"Türkiyə Qərblə Orta Asiyanın yolayrıcında zəngin bazara çevrilmək ümidindədir. Türk millətçiləri müsəlman və türk millətləri üzərində böyük təsir imkanlarına nail olmaq arzusundadırlar. Ancaq baş verən dəyişikliklər müəyyən sərfəli imkanlar açdığı kimi, bir sıra təhlükələr də doğurur.

Etnik türkləri – (azərbaycanlıları – Ş.K.) müdafiə, Türkiyəni Ermənistan – Azərbaycan müharibəsinə qoşa bilər. Eyni zamanda Orta Asiyada təsir dairəsi üzərində İranın güclü rəqabəti ilə üzləşən Türkiyənin öz evində kürd separatizmi nəzarətdən çıxa bilər."

Reportajına davam edən müxbir Türkiyənin Xarici Siyasət İnstitutunun direktoru Seyfi Taşxanın fikirlərini verir. S.Taşxan deyir: "Bir vaxtlar Qərb dövlətləri üçün sadəcə Avropanın aşağı hissəsində möhkəmləndirilmiş sərhəd zonası rolunu oynayan Türkiyə indi dünyanın bu hissəsində böyük rol oyanaya biləcək güclü və mərkəzi dövlətə çevrilməkdədir".

"Doğru yol" partiyasından olan millət vəkili, Türkiyənin BMT-dəki keçmiş səfiri Coşqun Kırca isə reportajda Türkiyənin mövqeyini belə qiymətləndirir: "Yuqoslaviyadan Çinə qədər

ərazilərdə yaşayan 210 milyonluq türk xalqı Ankaranın təbii müttəfiqləridir. Onların ümumi dili, dini, mədəniyyətləri var... Türkiyə bu ölkələrdə öz səfirliklərini açıb, teletranslyasiyalarını həyata keçirir, latın əlifbasına keçilməsinə çalışır".

Türkiyənin regiondakı fəallığından danışan Neyl Makfarkuar ölkə ictimaiyyətinin ümummilli və dövləti işlərə də münasibətinə diqqət yetirməyi vacib sayır: "Dünyanın biganə qaldığı Bosniya və Azərbaycan müharibələrində öz ölkəsindən onun əsgəri qüvvəsinin istifadə edilməsini tələb edən xalq başa düşmür ki, müharibə qazanılmış potensialı dağıda bilər. Unutmaq lazım deyil ki, 1974-cü ildə Türkiyənin Kiprə intervensiyası oradakı türkləri təhlükə altında qoymuşdu.

1923-cü ildə müasir Türkiyə dövlətinin əsasını qoyan Mustafa Kamal Atatürk imperiya ideyasını birdəfəlik dəfn elədi. Ancaq Orta Asiya və Azərbaycan uğrunda Moskva və Tehran ilə rəqabətdə, görünür, köhnə reflekslər baş qaldırır".

"Nyu-York Tayms" qəzetinin Türkiyə üzrə müxbiri Alan Koyell bölgədə bu ölkənin rolunun dəyişməsi barədə müntəzəm olaraq materiallar verir. O, "Gərginlik çarpazında Türkiyənin yeni rolu" adlı yazısında qeyd edir ki, dörd onillik ərzində Türkiyə kommunizmə qarşı Qərbin şərqi baryeri olmuşdur. İndi hər şey dəyişib... Ermənistan – Azərbaycan müharibəsi türkləri öz köklərini və I Dünya müharibəsi illərində guya ki, onları soyqırıma məruz qoyan ermənilərin daimi ittihamlarını xatırlamağa məcbur edib.

Qəzetə müsahibə verən mərhum prezident Turqut Ozal belə deyir: "Soyuq müharibə" illərində olduğu kimi, Türkiyə indi də ABŞ-ın bölgədə səlahiyyətli nümayəndəsi kimi qalmaqdadır. Ancaq onun vəzifələri indi daha mürəkkəbdir. Sovet İttifaqı ilə qarşıdurma illərində onun vəzifəsi sadəcə olaraq müttəfiqlərin cinahdan hərbi müdafiəsini təmin etmək idisə, indi onun üzərinə İran və Səudiyyə fundamentalistlərinin təsirindən türkəslli xalqları qorumaq və dünyəvi, demokratik, Avropa meylli dövlətin canlı nümunəsini nümayiş etdirmək vəzifəsi düşür".

Türkiyənin bölgədə strateji rolunun dəyişməsi barədə daha çox yazan nüfuzlu Britaniya qəzetləri diqqəti əsasən Türkiyənin xarici siyasətinə yönəltməyə çalışırlar.

Uzun illər Avropa İqtisadi Birliyinin həqiqi üzvü olmaq arzusunda olan Türkiyənin son vaxtlar bu arzunun həyata keçməməsindən o qədər də mütəəssir olmadığını vurğulayan **"Qardian"** qəzetinin Ankara müxbiri Con Palmer "Türkiyə bölgədəki roluna görə AB-yə girməyi təxirə salmağı təklif edir" sərlövhəli məqaləsində aşağıdakıları yazır:

"Türkiyə hökuməti Avropa Birliyinə qoşulmaq üçün yüzilliyin axırınadək gözləməyə hazırdır. Əvəzində o, bölgədə islam fundamentalizminə qarşı iqtisadi və siyasi cəhətdən alternativsiz bir ölkəyə çevrilmək üçün AB-dən kömək istəyir".

Məqalədə daha sonra deyilir:

"Türkiyə prezidenti Turqut Ozal xəbərdarlıq edir: "Türkiyə türkdilli ölkələrə hər cür kömək göstərmək istəyir, hansılarla ki, bizim ümumi dilimiz, mədəniyyətimiz var. Lakin hər çeyin bir həddi var, özümüzün iqtisadi problemlərimiz də kifayət qədərdir. Ancaq Avropanın maraqları naminə biz istəyirik ki, bu bölgənin keçmiş kommunist ölkələri üçün əsl demokratik və müsəlman dövləti modelini nümayiş etdirək".

"Dost ön cərgədə" - Londonun həftəlik qəzeti **"Ekonomist"**dəki redaksiya yazısı belə adlanır. Məqalənin sərlövhəsi altında yarımbaşlıq da verilib: "Avropa Bosniyadan sonra Türkiyəyə daha çox ehtiyac duyur".

1992-ci ilin ikinci yarısında AB-nin bütün orqanlarında sədrlik edən Britaniya hökuməti Birlik üzvlərinin yüksək səviyyədə keçən görüşünün tapşırığı ilə AB və Türkiyə arasındakı münasibətlər və onların perspektivi barədə məruzə hazırlamışdı. "Ekonomist" bu məruzənin şərhini verir. 70 il bundan əvvəl Mustafa Kamal Atatürkün rəhbərliyi altında türklər elə bir dövlət yaratmağa cəhd etdilər ki, həm müsəlman, həm də eyni zamanda müasir bir dövlət qurasan, həm peyğəmbərin göstərişlərinə əməl

edəsən, həm də plüralizmi qoruyasan. Kommunizmin süqutu heç vaxt olmadığı kimi, indi bu istiqamətdə Türkiyənin daha çox uğurlar qazanmasını zəruri edir...

Sovet İttifaqının dağılması islam auditoriyasına daha altı müsəlman ölkəsinin qatılmasına səbəb oldu.

Onlar indi Türkiyəni diqqətlə izləyirlər: bu ölkə digər müsəlman ölkələri üçün model ola biləcəkmi? Əgər Avropa öz şərq qonşuları ilə birgə XXI əsrin sülh əsri olmasını istəyirsə, o zaman lazımdır ki, Pakistandan sonra iri müsəlman ölkəsi olan Türkiyə özünün tarixi eksperimentini uğurla həyata keçirsin".

Məqalədə Türkiyənin daxili milli, iqtisadi, sosial-siyasi problemləri, Yunaıstanla münasibətləri, kürd məsələsi və başqa məsələlər təhlil olunduqdan sonra redaksiya belə qənaətə gəlir ki: "Türkiyə, şübhəsiz ki, Birliyin tam hüquqi üzvü olmaq üçün gözləməlidir. İnsan haqları ilə bağlı onun vəziyyəti hələ qənaətbəxş deyildi. Ancaq AB-yə daxil olmaq istəyənlər arasında onun xarici siyasi əhəmiyyəti daha önəmlidir. Əgər Avropa başını qaldırıb Bosniya dəhşətlərinə diqqətlə baxsa, onda türkdən möhkəm yapışmağın vacib olduğunu görər".

Beləliklə, ingilisdilli mətbuatdan gətirdiyim bu yazıların icmalında çalışdım ki, Azərbaycanın xarici siyasət istiqamətlərinə fayda verə biləcək fikirləri önə çəkim. Hesab edirəm ki, bu mətbu yazılardakı nüfuzlu dövlət xadimlərinin, redaksiya kollektivlərinin, siyasi icmalçıların mülahizələri Azərbaycan dövlətinin öz xarici siyasətində önəm verə biləcəyi anlar ola bilər. Güman edirəm ki, ABŞ, Rusiya, Türkiyə, İran və digər Avropa dövlətləri ilə siyasi-iqtisadi münasibətlərə daha açıq gözlə baxmaq lazımdır.

Mənbə:

1."Krisçen Sayens Monitor" (Boston), 08.07.1992
2."Çikaqo Tribun" 09.06.1992
3."Nyu-York Tayms" 05.04.1992
4."Qardian" (London) 09.03.1992
5."Ekonomist" (London) 12.09.1992

Xüsusi buraxılış
2003-cü il

Gürcüstan – Qərbin ikili standart siyasətinin yeni qurbanı

M.Saakaşvilinin hakimiyyətə gəlişinə həsr olunur

Elmi-populyar dildə yazılmış bu kitabda müəllif son illər Gürcüstanda baş verən hadisələrə nəzər yetirmiş, Borçalı və borçalıların, eləcə də Gürcüstanda yaşayan digər xalqların sosial, siyasi, hüquqi durumu fonunda ölkədəki hakimiyyət krizisini təhlil etməyə çalışmış və son hakimiyyət çevrilişinə, onu zəruri edən amillərə bir aydınlıq gətirmək istəmişdir.

Rəyçi və elmi redaktoru:

Sayad Sayadov,

Azərbaycan Milli Elmlər Akademiyasi Tarix Institutunun "Azərbaycanın Beynəlxalq Əlaqələr Tarixi" şöbəsinin mudiri, tarix elmləri doktoru.

PROBLEM

Dünyanın əzələ nümayişinin meydanına çevrilən Qafqaz Gürcüstan olayları ilə bu əzələləri bir az da gəriltdi. Yer planetindən çox-çox uzaqlarda yerləşən Yupiterin səthində baş verən partlayışların planetimizin canlı aləmində va təbiətdə yaratdığı təlatümlər kimi, dünyanın istənilən düyünlü nöqtələrində kəskin zoqqultular da Azərbaycanın yerləşdiyi bölgədə, eləcə də ölkənin özündə nəzərəçarpacaq çalxalanmalara səbəb ola bilər. Bu mənada Gürcüstandakı siyasi proseslərin təsiri də istisna deyil.

GÖRDÜKLƏRİM...

"80-ci illərin sonlarında Qafqazda xüsusi ehtirasla qızışdırılan milli munasibətlər Borçalının da taleyində ciddi təbəddülatlar yaratdı. Postsovet məkanında yerləşən Azərbaycan və Gürcüstan respublikalarının müstəqillik mübarizəsini milli münaqişələrlə zəiflətməyə və sarsıtmağa çalışan imperiyapərəst qüvvələr va onların xidmətçiləri üç Qafqaz respublikasının mərkəzində yerləşən Borçalını ziddiyyətlərin episentrinə çevirməyə çalışdıar. Təxribat və çaxnaşma yaratmaq metodlarının, demək olar ki, bütün variantları Borçalıda sınaqdan keçirildi. 70 illik sovet beynəlmiləlçiliyi ilə keyləşdirilmiş milli hissiyyatlar oyadıldı və xalqın yaddaş damarları tarıma çəkildi. Gərilmiş əsəblərdə yad havalar səsləndirildi. Lakin şükürlər olsun ki, belə yad havalara qol qaldırıb çılgıncasına süzənlərlə yanaşı, təmkinlə seyr edənlər və nəhayət, bu havaları tədricən milli ruh üstündə kökləyənlər də tapıldı.

Gürcüstanın dövlət müstəqilliyini müdafiə edən, bu məqsəd ugrunda gürcülərlə çiyin-çiyinə dayanan və mübarizənin ön cərgələrində gedən məhz Borçali ziyalıları

oldu.

Bir ucu Türkiyəyə, bir ucu Azərbaycana bağlanan, bir tərəfdən gürcülər, digər tərəfdən ermənilərlə dövrlənən və Böyük İpək Yolunun üzərində dayanan Borçalı türkləri müxtəlif sivilizasiyaların təmas nöqtəsində boy atıb.

"Türküstan, Ərəbistan, Yunanıstan, İran, Türkiyə, Rusiya və başqa ölkələrin əhalisinin Borçalı ilə ticarət ilişkiləri, Avropa və Asiya səyyahlarının buraya səfərləri nəticəsində yerli əhali zəruri mədəni-maarif mübadiləsi imkanı qazanıb."

(Z.Qaralov. "Borçalıda maarifin inkişafı," Bakı, 1998-ci il, "Qaytarılan köç karvanı" toplusundan)

Bəs, bu gün Borçalı - müasir inzibati-ərazi bölgüsüilə Aşagı Kartli adlandırılan bu qədim diyar hansı qayğılarla yaşayır?

Əlbəttə, bütövlükdə Borçalının, eləcə də Gürcüstanda yaşayan sayı artıq yeddi yüz mini ötmüş azərbaycanlıların problemlərini sadalamaq və onları təhlil etmək böyük söhbətin mövzusudur. Bir də ki, Gürcüstanda təkcə azərbaycanlılarınmı problemləri mövcuddur? Gürcüstan bu gün vulkan üstündə qaynayan qazanı xatırladır. Lakin bütün bunlara baxmayaraq, 90-cı illərdə abxazların, osetinlərin, acarların müstəqillik, muxtariyyat iddialari ilə yanaşi, ermənilərin separatçılığı, Ermənistan bayrağının ermənilərin kompakt yaşadığı bir sıra rayonlarda dalğalanması, Gürcüstan dövlət orqanlarının de-fakto nəzarətindən çixması fonunda azərbaycanlıların itaətkar, sədaqətli vətəndaş, torpağını sevən, onun uğrunda canından keçməyə hazırolan bir millət obrazı yaratsa belə, hələ lazımi qiymətini ala bilməyib. Düzdür, son dövrlərdə Gürcüstan parlamentində təmsil olunan azərbaycanlıların kəmiyyətcə artımı, Marneuli rayonunda bir sıra vəzifələrə onların irəli çəkilməsi hələ ki, əhalinin ziyali potensialının istək və arzularını tam ödəmir və impulsiv şakildə də olsa müəyyən gileylərə rəvac verir.

Bakı-Ceyhan neft kəməri barədə sazişin imzalanma

mərasimində Azərbaycan Respublikasının dövlət başçısı Heydər Əliyevin Gürcüstanın xeyrinə olaraq tariflərdən imtina etməsi Gürcüstan azərbaycanlıları tərəfindən fəxarət və qürur hissi ilə qarşılansa da və borçalılar Heydər Əliyevin bu alicənablıq jestinə böyük ümidlərlə baxsalar da, təəssüflə qeyd etmək lazımdır ki, bölgənin ictimai-siyasi, sosial-iqtisadi həyatında bu jestin hələ ki doğura biləcəyi faydalı qarşılıqlı addımlar sezilmir. Bəzi kosmopolit, köhnə beynəlmiləlçilik ideologiyasi ilə tərbiyələnmiş siyəsətçilərin ziddinə olaraq borçalılar belə məntiqin tərəfdarıdırlar: Azərbaycan və Gürcüstan arasında qardaşlıq, dostluq münasibətləri hər iki xalq və dövlət üçün önəmlidir. Bu münasibəti göz bəbəyi kimi qorumaq və möhkəmlətmək lazımdır. Ancaq Azərbaycanın Gürcüstanla olan bütün iqtisadi, siyasi, mədəni və s. münasibətlərində Borçalıya münasibət hər şeyin fövqündə dayanmalıdır. Bu fikri söyləməkdən nə çəkinmək lazımdır, nə də utanmaq. Bunu gürcülər də bilməlidir, azərbaycanlılar da, hətta ermənilər də. Ancaq təəssüflər olsun ki, Gürcüstanda separatçılıqla məşğul olan ermənilərin bu gün respublika daxilində hüquqları azərbaycanlılardan daha çox qorunur. Allah eləməmiş, bir azərbaycanlı bu gün polisə düşə! Olub qalan ehtiyatını, varını-dövlətini, qohum-qardaşının varidatını yığıb-yığışdırıb onlara verməsə, nə vəchlə olur olsun, cibinə nəşə atmaqlamı, qanunsuz silah saxlamaqda yalançı ittihamlamı, saxta şahidlərin izahatları iləmi... o, mütləq ilişdirilməlidir! Rusiyadan alverdən gələn az-gox pul gətirən biçarə didərginlər hansı təzyiqlərə məruz qalır - bunu kim bilmir ki!..

Mən bütövlükdə Gürcüstan Respublikasının hüquq-mühafizə orqanlarını ittiham etmək fikrindən uzağam. Onların sırasında Gürcüstan və Azərbaycan respublikaları arasında bərqərar olan gözəl əlaqələrə, kölgə salmaq istəyənlərə qarşı amansız olanlar daha çoxdur. Lakin müxtəlif qurumlar, "şestoy otdel", "osobıy otdel", "narkootdel" adı ilə dələduzluq edən,

şantajla məşğul olan adamlar borçalılar arasında respublika hökümətinə inamsızlıq və etimadsızlıq yaradırlar. Belə təxribatçıların arasında gürcülər də var, azərbaycanlılar da, ermənilər də. Onların milliyyəti yoxdur. Onların bir amalı var: kimlərinsə dəyirmanına su tökməklə pul qarşısında qul olmaq. Belə təxribatçıların, hüquq-mühafizə orqanlarının adından istifadə edən belə dələduzların qarşısı alınmazsa, hər iki respublikanın bədxahları bu xoşagəlməz olaylardan müəyyən bəd niyyətlər üçün məharətlə istifadə edə bilərlər.

…Tbilisini iki gün gəzdim. 7O-8O-ci illərdə gördüyüm şəhərdən əsər-əlamət qalmamışdı. Gəncliyimin xoş xatiratının neçə-neçə səhifəsində özünə layiqli yer tutan şəhərin bənizi sanki bozarmış, beli bükülmüş, qaşları çatılmışdı. Həmişə haylı-küylü, nəşəli olan Tbilisi elə bil pıçıltı ilə danışırdı. Bakı küçələrində, magazalarında, insanların geyim-gecimində olan zənginlik, təravət bu şəhərdə görünmürdü. Qara saçlı, incə belli, şux qamətli, qaynar gözlü gürcü gözəllərinin çatılmış qaşları qəlbimi ağrıtdı. Tbilisidə çox nadir hallarda rast gəldiyim dilənçilər arasında ixtiyar gürcüləri görəndə ölkədəki iqtisadi vəziyyətin ağırlığının dərinliklərə işlədiyini bir daha dərk etdim.

Gürcüstan parlamentində olarkən azərbaycanlı millət vəkilləri ilə görüşdüm, maraqlı söhbətlərimiz oldu. Erməni deputatlardan fərqli olaraq azərbaycanlılar parlamentin işində fəal iştirak edirlər. Ermənilərsə Qarabağda quraşdırdıqları oyuncaq parlamentsayaq işlərlə Gürcüstanın Axalkalaki rayonunda da məşğuldurlar... Gürcü həmkarlarımdan ölkədəki sosial-siyasi vəziyyət barədə dəyərli məlumatlar öyrəndim. "Gürcüstan" qəzetinin redaktoru ilə informasiya mübadiləsi etdik. Millət vəkillərinin çıxışlarını dinlədim. Və... Gürcüstanın üzləşdiyi sosial-iqtisadi problemlər, geosiyasi çaxnaşmalar, ölkədaxili siyasi qruplaşmalar, müəyyən qüvvələrin təhriki ilə törədilən narazılıqlar... ölkə rəhbərinin üzərinə olduqca çətin və

həlli təxirəsalınmaz vəzifələr qoyur. Bu vəzifələrin çətinliyi, fikrimizcə, respublikada sabitliyin qarantı olan hüquq-mühafizə orqanlarının ilk baxışdaca nəzərəçarpan yarıtmaz işi ilə əlaqədardır.

Bu yaxınlarda qəzetimizin bir qrup əməkdaşı ilə Azərbaycanda yaşayan gürcülərin, gürcüdilli ingiloyların təhsili, maarifi, məişəti, sosial-iqtisadi qayğıları ilə bağlı Qax, Zaqatala, Balakən rayonlarında olmuş və bu barədə qəzetimizdə bir sıra materiallar dərc etmişdik. Bir mətbuat işçisi, qəzet redaktoru kimi tam məsuliyyətlə və fəxrlə deyə bilərəm ki, bu gün Azərbaycanda milli məsələlərlə bağlı heç bir problem yoxdur, milli azlıqların hüquqları tam qorunur və heç bir ayrıseçkiliyə yol verilmədən beynəlxalq normalara uyğun olaraq düzgün siyasi kurs götürülüb.

Lakin adını çəkdiyim bölgənin maarif şəbəkəsində, xüsusilə gürcüdilli təhsil müəssisələrində olan problemlər yox deyil. Bunun da həlli qismən Azərbaycan Respublikasının Təhsil Naziriliyi ilə bağlı olsa da əsas etibarı ilə Gürcüstan hökumətinin və onun Təhsil Nazirliyinin fəaliyyətindən və münasibətindən asılıdır.

Gürcüstana səfərim vaxtı fürsətdən istifadə edib Azərbaycandakı gürcü məktəblərinin spesifik problemləri ilə bağlı ölkənin aparıcı gürcüdilli mətbuatında çıxışlar etdim, - millət vəkilləri, vəzifəli və imkanlı adamlar arasında qəzetimizin qaldırdığı məsələlər - gürcü dilində lazım olan dərsliklərin, proqramların, pedaqoji ədəbiyyatın on ildən yuxarı göndərilməməsi, Gürcüstanın ali məktəblərinə qəbulda verilən imtiyazların təhsilin səviyyəsinə təsiri və s. məsələlər barədə fikir mubadiləsi apardıq. Söhbətimizin nəticəsi olaraq müəyyən imkanlı adamlar bu sarıdan öz köməklərini göstərəcəklərini söylədilər.

Bəs, bu gün Gürcüstanın azərbaycan məktəblərində vəziyyət necədir?

Cavab belədir: işıq yox, qaz yox, yanacaq yox, maaş yox.

Kəndlərdə bir ilə yaxındır maaş almayan məktəblər var. 1998-99-cu illərdən alacağı olanlar var. İl yarımdır qocalar təqaüd üzünə həsrətdirlər. Odunun bir maşını 100-120 dollaradir. Məktəblər hələ də bu vaxtacan odun tədarükü görməyiblər. İşıqlar səhər uşaqlar dərsə gedəndə 1 saat, axşam yatandan sonra 1-2 saat yanır. Məktəblilərin dərsliklə təminatı pis vəziyyətdədir. Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən bu il üçün ayrılan dərslik və dərs ləvazimatları hələ ünvanına çatdırılmayıb. Ordakılar da, burdakılar da sponsor axtarışındadırlar ki, yol xərcini ödətdirsinlər.

Yuxarı sinif şagirdləri təhsil haqqını ödəyə bilmədiklərindən məktəblərdən perik düşüblər. Valideynlər imkansız - iş yeri yox, qazanc yox, dolanışıq pis.

Kəndlərdə içməli və suvarma su problemi. Yollar bərbad gündə. Yanacaq baha - benzinin 1 litri 2 man. 30 qəpiyə. Gediş-gəliş çətin. Borçalıdan əsasən Rusiyanın, qismən Türkiyənin, Avropanın iri şəhərlərinə, o cumlədən Bakıya kütləvi və sürətli axın var. Kəndlər durmadan boşalır, boşaldıqca da qocalır. İş qabiliyyəti zəif, kimsəsiz, imkansız ixtiyarların ixtiyarında qalan yurd yerləri öləziyir, torpaqları əldən çıxır. Gedənlər orda ilişir, qalanlar burda. Rusiyanın, Belarusiyanın iri şəhərlərinin ətrafında Borçalının eyniadlı kəndlərinin "filialları" yarandıqca cavan, güclü, enerjili oğullarından məhrum olur Borçalı. Yurd-yuvaları, buz bulaqları, aranları, yaylaqları, dağları, çayları, çəmənləri üçün burnunun ucu göynəyən, qəbirləri üçün gözü yaşaran, əzizləri üçün ürəyi sıxılan qürbəti vətən seçən borçalılar uşaqlarının adına doğma kəndlərinin adını qoysalar belə... itirilənləri görən kimin ayağına yazacaqlar? Gözü yollarda qalan, atasının üzü belə yadından çıxan körpələrin nəmli gözlərindəki həsrəti, her gələndən omür-gün yoldaşını soraqlayan, umidini Moskvadan göndəriləcək beş-on rubla dikən, qürbətdə isə səhərdən axşamadək bazarlarda hamballıq edib gecələr ivanın artığı ilə barlarda, restoranlarda kef edən məmmədlərin, həsənlərin,

əhmədlərin xəyanətindən xəbərsiz olan, olsa da özünü o yerə qoymayan bir üzü qız, bir üzü gəlin Borçalı qadınlarının yuxusuz gecələrində bir nəvaziş istəyini, için- için yanıb-qovrulmaqdan savayı əlindən bir iş gəlməyən, əlləri göydə, gözləri əldə qalan ahılların ah-ufunu kim ovudacaq, kim?

Mən Gürcüstandakı azərbaycan məktəblərinin vəziyyətindən yazmaq istədim. Ancaq məktəblərin ətrafında cərəyan edən hadisələr o qədər alğac-ulğac olub ki, bu labirintdən çıxa bilmədim. Qoy bu barədə peşəkarlar danışsın. Mən isə jurnalistəm – gördüklərimdən, duyduqlarımdan və yaşadıqlarımdan danışıram."

"Sabah" qəzeti, 1 noyabr 2000-ci il

OXŞARLIQLAR

Gürcü və Azərbaycan xalqlarının taleyində istənilən qədər oxşarlıqlar var. Çox qəribədir ki, onların sevincli günləri bir-birinə bənzədiyi kimi, kədərli anları, faciələri də oxşardır. Hər iki xalq və onun əsrlər boyu məskunlaşdığı ərazilər Çar Rusiyasi tərəfindən əsarət altına salınıb və müstəmləkə vəziyyətində yaşayıblar; əsrin əvvəllərində hər iki xalq müstəqillik qazanıb və hətta bir dövlətdə (qurumda) birləşiblər; il yarim-iki il çəkən bu müstəqillikdən hər iki xalq Sovet Rusiyasının işğalı nəticəsində məhrum olub və dövlətçiliklərini itiriblər; hər iki xalq, demək olar ki, eyni dərəcədə repressiyalara məruz qalıb; əsrin sonlarında işğalçılıq siyasətindən qurtarmaq üçün milli azadlıq hərəkatına başlayan hər iki xalq 8 Aprel və 20 Yanvar qırğınları ilə "mükafatlandırılıb" və nəhayət, hər iki xalq əsrin sonlarında milli müstəqillik əldə edib və öz hüquqi dövlətini yaradıb. Hər iki xalqın dövlətinin başında əvvəlcə qısa müddətdə hərəkatın yetişdirdiyi liderlər, az sonra isə sovet dövlətinin keçmiş rəhbərləri, dünya siyasətində kifayət qədər nüfuza və siyasi çəkiyə malik olan şəxsiyyətlər - Heydər Əliyev və Eduard

Şevardnadze dayanıblar.

Gürcü və Azərbaycan xalqlarının oxşar talelərini yuxarıda dediklərimizlə məhdudlaşdırmaq istəməzdim. Buraya onların qazandıgı müstəqilliyi sarsıtmaq üçün keşmiş imperiya qüvvələrinin qurduğu planlara rəğmən Azərbaycanda Qarabağ müharibəsini, Cənub və Şimal közərtilərini, Gürcüstanda isə Abxaziya, Acariya, Osetiya, Borçali, Axalkalaki konfliktlərini əlavə etsək, onda bu xalqların öz talelərini birgə yaşamaq və çətinlikləri birgə dəf etməkdən başqa çarələri qalmır.

Bunu gözəl dərk edən eks-prezidentlər Heydər Əliyev və Eduard Şevardnadze iki qonşu xalqın, azad, müstəqil yaşaması naminə bir sıra irticaçi qüvvələri neytrallaşdırmaq xəttini xarici siyasətlərinin prioritet xətti kimi götürdülər. Və "Əsrin müqaviləsi" dəmir qollarla bu iki xalqı birləşdirdi.

Lakin onların xarakterlərində və idarəçilik metodlarında müasir dünyanı qane etməyən nüanslara göz yuman siyasət xadimləri və qüvvələr tarazlığını müəyyənləşdirən super dövlətlər bu xəttin uğurla inkişaf etməsində hər iki ölkəyə öz ilıq münasibətlərini gizlətmədilər.

MARAQLAR

Heç bir dövlət başçısı nəzarətdən xali deyil – istər kiçik dövlət olsun, istərsə də böyük. Fərq orasındadır ki, böyük dövlətin başçısına öz xalqı və siyasi müxalifəti nəzarət edirsə, kiçik xalqın dövlət başçısının fəaliyyətinə böyük dövlətin başçıları nəzarət edirlər. Deməli, məntiqlə fikirləşsək, kiçik dövlət daimi olaraq böyük dövlətlərin nəzarəti altındadır və təbii olaraq onların siyasi va iqtisadi maraqlarına xidmət edirlər.

Strateji geosiyasi məkanda yerləşən güclü iqtisadi potensiala malik Azərbaycan və iqtisadiyyatı iflic vəzziyyətə düşmüş Gürcüstan siyasi, iqtisadi, hərbi hegemonluq iddiasında olan dövlətlərin maraqlarının çalın-

çarpaz xətləri üzərində özgürlüyünü qorumaq üçün özünə dost axtarmalı idi. Belə dostu onlar uzaq Amerikada və yaxın Türkiyədə tapdılar. Şimal və Cənubdan diş qıcırdan imperialist qüvvələrin xofu büdrəyə-büdrəyə yenicə yeriməyə başlayan bu iki gənc dövləti Qərbin ağuşuna yuvarladı. Hələ neçə on illər sonra azərbaycan və gürcü xalqı dərk edib qiymətləndirəcəklər ki, Azərbaycan və Gürcüstanın müstəqil bir dövlət kimi yaşamasında dünya sıyasətinə təsir göstərə biləcək iki nəhəng qafqazlı siyasətçi hansı tarixi addımlar atmışlar.

TORPAQ VƏ MILLƏT

Dünyanın ətini yeyə-yeyə ona lənətlər yağdırırıq. İnsan bədəninin sümük üzərindəki təbəqəsi onun ətini, qanını təşkil etdiyi kimi, Yer kürəsinin səthindəki dağlar, dərələr, çaylar, dənizlər, yeraltı, yerüstü sərvətlər, qısaca olaraq, torpaq - onun ətini, qanını, canını təşkil edir.

Azərbaycanlılar yaranışdan torpaq sevən olublar. Torpağı ona görə seviblər ki, onu əkib-becərsinlər, məhsulundan faydalansınlar. Bu zərb-məsəlin də ancaq bizim xalqa məxsusluğu fikrimizi bir daha təsdiq edir: "Torpaq deyir, öldür məni, dirildim səni!" Yaradan bu xalqı gözüdolusu doyuzdurub - ona dağını da verib, aranını da, meşəsini də verib, səhrasını da... Bu xalq heç vaxt qonşuların torpaqlarına tamah salmayıb.

Yaradanın məsləhəti ilə torpaq tamarzısı olan ermənilərdən fərqli olaraq, qonşu gürcülər də, insafən, özgə torpaqlarına göz dikməyiblər. Ancaq bu xalq heç vaxt torpağı əkib-becərməklə ondan kulli miqdarda bəhrələnib varlanmağa ehtiraslı olmayıb. Lap qədim zamanlarda əsasən dağlıq zonalarda yaşayan, dağların güney hissəsində xırda-para əkin-biçinlə gün-güzəran keçirən gürcülər uyuşdurucu içkilərə daha çox meylli olublar. Dağların başında özlərini bütün millətlərdən yüksəkdə hiss edən bu insanlar bircə sağalmaz

mərəzə mübtəla olublar –özlərinə vurğunluq!

İfrat dərəcəyə qalxan və çoxmillətli bir ölkədə, muasir dildə ifadə etsək, millətçilik kimi orta əsr psixologiyasının varlığı gürcülərlə digər xalqların daimi konfliklətlərinin mayasında dayanmışdır.

1988-1990-cı illərdə Gürcüstanda gürcü-azərbaycanlı qarşıdurmasının zəminində də məhz torpaq yox, millətçilik dayanırdı. 1990-cı ildə soydaşlarımıza qarşi millətçi siyasətin kəskinləşməsinin qarşısını almaq məqsədilə Bolnisi rayonunda olarkən ermənilərin və digər etnik qrupların fitvası ilə rayon mərkəzini azərbaycanlılardan boşaltmış gürcülərin vəziyyətini öyrənmək üçün rayon bazarına baş çəkdik və boş piştaxtaları görəndə çöməlib pendir-çörəklə cecə arağından içib başı qızışmış adamlara dedim:"Bunun üçünmü azərbaycanlıları qovurdunuz?"

("Azərbaycan" qəzeti, 31 avqust 1990-cı il)

HƏRƏKAT

Məhz elə bu dövrlərdə Gürcüstanda bir-birinin ardınca siyasi partiyalar, cəmiyyətlər, təşkilatlar yaranmaga başladı. Azərbaycanlılar arasında da belə partiyalar yayılmağa və özlərinə dəstək axtarmağa başladı. Lakin gürcülərin özlərinə olduğu kimi, onların yaratdıqları partiyalara da inamsızlıq nümayiş etdirən borçalılar öz təşkilatlarını yaratmaq və burada birləşməyə üstünlük verdilər. Bu məqsədlə "Ozan", "Qeyrət", "Dayaq" və s. birlik va hərəkatlar meydana gəlməyə başladı.

Lakin çox acınacaqlı da olsa, yaranışının elə ilk günlərindən bu təşkilatlar bir-biriləri ilə didişməyə başladılar. Bu didişmələr o vaxtlar tez-tez baş verən mitinqlərdə, etiraz aksiyalarında açıq mətnlə mübarizəyə keçirdi. Və nəhayət, öz içində didişə-didişə bərkişən bu təşkilatlardan "Qeyrət" xalq hərəkatı ön cərgəyə çixmağa müvəffəq ola bildi. Hətta "Qeyrət" öz namizədini Gürcüstan parlamentinə seçdirə bildi.

İlk vaxtlar qlobal milli məsələlərin həllinə təsir göstərmək iddiasında olan "Qeyrət" və onun deputatı getdikcə təşkilat daxilindəki mənəmlik xəstəliyinə tutulmuş və fərdi maraqlarını qabardan bir sira insanların cığallıqları nəticəsində xalq arasında nüfuzunu itirmək və parçalanmaq təhlükəsi qarşısında qaldi. Və əslində... bu parçalanma baş verdi də...

Hərəkat zəiflədi, "Qeyrət" müstəqil rayon və şəhər təşkilatlarına bölündü. Qazanan vəzifə iddiasında olan bir qrup insan və azərbaycanlıların içinə yeriyən mərkəzdə yaradılmış yalançı va yabançı, təmənnalı partiyalar oldu. Paytaxtda iqtidar və müxalifət arasında baş verən olaylar "Qeyrət"in də içində iqtidar-müxalifət viruslarını yaydı. Hərəkatın bəzi fəalları iqtidar partiyalarında, bəziləri isə müxalifətdə təmsil olunmağa başladı. Lakin buna baxmayaraq, azərbaycanlılar arasından Gürcüstan parlamentinə 5 deputat seçilə bildi. Əfsuslar olsun ki, bu, "Qeyrət"in yox, hakim partiyanın qələbəsi idi. "Qeyrət" bu partiyanı öz yanına yox, bu partiya "Qeyrət"i öz yanına çəkmişdi. 5 deputat yeri və aydın strateji məqsəd – azərbaycanlıları idarə etmək. Bu məqsədə iqtidar, demək olar ki, nail oldu. Müəyyən imtiyazlar və xırda-para paylar alan bəzi deputatlar ara-sıra Gürcüstan parlamentində görünsələr də qlobal ümummilli problemlər unuduldu. Marneuli şəhər meriyasında kiçicik bir vəzifə alan "Qeyrət" liderinin səsi isə Gürcüstan dövlət qurumlarına, pressasına çatmaq əvəzinə, Azərbaycanın telekanallarından eşidildi.

Gürcüstan azərbaycanlılarının təşkilatlanmasından danışarkən Azərbaycanda Borçalı ilə bağlı cəmiyyətlərdən söhbət açmamaq olmaz. Bu mənada "Borçalı" və "Qaraçöp" cəmiyyətlərinin fəaliyyəti təqdirəlayiqdir. Bu sahədə geniş tədqiqat işləri ilə məşğul olduğumuzdan və gələcəkdə onun kitab halında çapının reallaşacağından bu yazımızda həmin məsələlər barədə ötəri bəhs edəcəyik.

Bu cəmiyyətlərin hər ikisi Borçalıda soydaşlarımızın milli-mənəvi diskriminasiyası ilə bağlı yarandı. Yer üzündə

yəqin elə bir xalq yoxdur ki, torpaqlarının tam sahibi olduğunu söyləsin. Dövlətinin böyük və kiçikliyindən asılı olmayaraq, bütün xalqlar torpağının hansısa bir hissəsinin qonşu ölkənin tərkibində olduğunu iddia edir və haçansa onun qaytarılacağı ümidi ilə apardığı mubarizəni nəsildən-nəsilə ötürür. Soydaşlarımızın yaşadıqları Borçalı torpaqları da borsillərin eramızın ikinci minilliyindən üzübəri bizim nəsilə ötürdükləri bir yadigardır. Bu torpaqlar zaman-zaman fars, türk, Azərbaycan, rus, gürcü dövlətlərinin tərkibində olsa da heç zaman milli-mənəvi aşınmaya məruz qalmamış, öz tarixi köklərini və milli xüsusiyyətlərini qoruyub saxlaya bilmişdir. Borçalı Qafqazın sanki məhək daşı kimi hökmdarlar tərəfindən əldən-ələ peşkəş verilmişdir. Vaxtilə Qarapapaq dövləti kimi hətta müstəqillik qazanmaq eşqinə düşən borçalılar 1918-1920-ci illərdə Azərbaycan və Gürcüstan arasında mübahisəli zona hesab edilmiş, lakin elə həmin illərdə Ermənistan-Gürcüstan müharibəsi nəticəsində Borçalının böyük bir hissəsi Ermənistanın ərazisinə qatılmışdır. Yəni, belə müqayisə caizsə, Azərbaycan əsrlər boyu torpaq itirə-itirə kiçildiyi kimi, itirilmiş Borçalı da 1918-20-ci illərdə ərazisinin böyük bir parçasını - Loru, Pəmbək - Dağ Borçalısını itirdi. Hansı ki, həmin torpaqlarda yaşayan borçalılar 1988-89-cu illərdə Ermənistandan "yeraz" kimi qovuldu.

Azərbaycanda fəaliyyət göstərən həmin cəmiyyətlərin proqram istiqamətləri də məhz Borçalının bütövlüyü, orada sabitliyin saxlanması, əhalinin hüquqlarının qorunması və Azərbaycanla Gürcüstan arasındakı siyasi-iqtisadi əlaqələrdə Borçalı sindromunu daim nəzərdə saxlamaqdan ibarət olmuşdur.

Neçə ki bu cəmiyyətlər ("Borçalı" və "Qaraçöp") hər iki ölkənin hökumətlərindən asılı olmadan, xalq diplomatiyası prinsipi ilə müstəqil fəaliyyət göstərirdi – işlərin effekti hiss olunurdu. Elə ki hökumətlər ona barmaq uzatdılar, onda cəmiyyətlər başladı siyasiləşməyə...

Bu cəmiyyətlərin xətti ilə Borçalı əsilli ziyalılar dəfələrlə Gürcüstanın müxtəlif konfliktli bölgələrində - Qabalda, Dmanisidə, Bolnisidə, Marneulidə, Qarayazıda olmuş, soydaşlarımızın hüquqlarının müdafiəsinə qalxmış və gürcü-azərbaycan xalqı arasına salınmış gərginliyi aradan qaldırmağa müvəffəq olmuşlar.

1992-ci ildə Borçalı məsələsi ilə bağlı akademik Kamal Talıbzadə, professor Şamil Qurbanov, şair Abbas Abdulla, "Kirpi" jurnalının sabiq baş redaktoru Eyvaz Borçalı, "Azərbaycan" qəzeti baş redaktorunun birinci müavini Şərif Kərimlinin əvvəlcə Azərbaycan prezidenti Əbülfəz Elçibəylə, sonra isə Gürcüstan prezidenti Eduard Şevardnadze ilə 2 saatlıq görüşləri olmuş va Borçalıdakı problemlər ciddi müzakirə edilmişdir.

Söhbətlərin nəticələri barədə geniş danışmaq istəmirəm, ancaq qısaca olaraq qeyd edim ki, hər iki prezidentə anladıldı ki, yarım milyonluq Borçalıdakı və ondan da artıq Azərbaycandakı Borçalı əsilli insanların taleyinə biganə yanaşmaq olmaz. Dövlətlərarası münasibətlərdə Borçalı məsələsi çox həssaslıqla gündəlikdə dayanmalıdır.

VƏDLƏR… NƏTICƏLƏR…

Kriminal ünsürlərin azğınlaşdığı, vətəndaşların adi insani hüquqlarının tapdalandığı, repressiyaların baş alıb getdiyi Qamsaxurdiya dövründə çəkdikləri böyük əziyyətlərdən sonra borçalılar Eduard Şevardnadzenin gəlişini toy-bayramla, qarşıladılar. Onun sovet dövlətinin tanınmış simalarından biri olmasi, beynəlxalq hüquq normalarını gözəl bilməsi, azərbaycanlılara qarşı normal münasibəti, ölkənin iqtisadi-siyasi hayatına bələdliyi və nəhayət, Heydər Əliyevlə dostluğu Gürcüstan azərbaycanlılarında bir arxayınlıq və sabit gələcəyə ümidlər oyatdı. E.Şevardnadzenin və onun yaratdığı Gürcüstan Vətəndaşlar İttifaqı Partiyasının azərbaycanlılar tərəfindən

dəstək qazanması da məhz bu ümidlərlə bağlı idi. Onun Marneuliyə gəlməsi, azərbaycanlılarla görüşü, dil məsələsinə həssaslıqla yanaşması, azərbaycanlı kadrların dövlət orqanlarında iştirakını təmin etmək barədə vədləri və s. kimi hərəkətləri borçalıların nəzərində onu bir xilaskar qiyafəsində canlandırdı. Ancaq təəssüflər olsun ki, bunlar hamısı vədlərdən başqa bir şey olmadı. On il bu ilğımın illüziyalarına aldanan xalq (özü də təkcə azərbaycanlılar yox, həm də gürcülər və başqa xalqlar), nəhayət, bunun bir aldadıcı effekt olduğunu dərk etdilər.

Bu aldanış öz neqativ təzahürlərini təzə-təzə büruzə verməkdə ikən Azərbaycanın Gürcüstanı böyük neft layihələrinə qoşması və doğrudan da bir qardaş, dost ölkə kimi arxasında dayanması, öz maddi maraqlarına xilaf olsa belə, Gürcüstanın maraqlarını qoruması və bu layihələrdən mümkün qədər onun daha çox faydalanmasına çalışması Gürcüstanda coşmaqda olan ehtirasları nisbətən səngitdi. "Bu gün acından ölməkdə olan xalqa vəd verildi ki, 2015-ci ildə hər şey yaxşı olacaq və firavan yaşayacaqsınız…"(*sitat M.Saakaşviliyə məxsusdur*).

Ölkədə korrupsiya, ruşvətxorluq, hüquq-mühafizə orqanlarının özbaşınalığı, banditizm, adam oğurluğu, soyğunçuluq və s. baş alıb getdiyi halda, xalq işığa, qaza, pula, çörəyə, haqq-ədalətə, güclü dövlətə, insani münasibətə möhtacdır!..

1992-ci ildə E.Şevardnadze ilə yuxarıda dediyim görüşdə biz deyəndə ki, cənab prezident, Qamsaxurdiya dövründə Borçalıda Azərbaycan toponimlərinin böyük əksəriyyəti gürcüləşdirilib, tarixi mədəniyyət abidələrimiz dağıdılır, Kaspi-Karel zonalarında yaşayan soydaşlarımız öz ana dillərində təhsil ala bilmirlər, soyadları belə zorən gürcü adları ilə əvəz olunur, dövlət idarələrinə

azərbaycanlıları yaxın buraxmırlar, Azərbaycan dilində teatrımız yox, televiziyamız yox, xahiş edirik, Siz bu məsələlərin həllində öz **köməyinizi əsirgəməyəsiniz. Onda E.Şevardnadze belə cavab vermişdi: "Sizin nə xahiş etməyə, nə də tələb etməyə haqqınız var. Hər şeyin öz vaxtı var..." Sonra bir az sözünə ara verib pıçıltıya oxşar səslə demişdi: "Yəqin Siz istəməzsiniz ki, gürcü xalqını mənim üstümə qaldırasınız? Sizin dediyiniz məsələləri mən tədricən həll edəcəyəm."**

Bizim gürcü xalqını Sizin üzərinizə qaldırmaq fikrimiz yox idi, cənab Eduard Ambrosyeviç! Biz öz adımızla çağırılmağımızı istəyirdik! Biz istəyirdik ki, öz dilimiz ola-ola ağzımıza özgə bir dili dürtməyələr! Biz istəyirdik ki, bu torpağın köklü xalqı olduğumuz halda, bizi "qonaq" deyə təhqir etməyələr! Biz istəyirdik ki, Gürcüstan dövlətinin bütün vətəndaşları kimi, vahid Gürcüstan Konstitusiyası bizə də şamil olunsun, daha bizim üçün ayrıca qanunlar yazılmasın! Və biz istəyirdik ki, Gürcüstanı - doğma vətənimizi güclü, bütov və müstəqil bir dövlət kimi görək!

Siz isə bütün bunları etməyə borclu olduğunuz halda çox diplomatik tərzdə günahları gürcü xalqının üzərinə atdınız. Guya ki, Sizin əl-qolunuzu bağlayan gürcü xalqıdır. Axı, Siz də, biz də gözəl bilirik ki, bu nəsnələri törədənlər gürcü xalqı yox, hakimiyyət ehtirasından gözü qızmış və xalqı tapdamağa belə hazır olan millətçi ünsürlər idi. Ancaq elə burada mən bir haşiyəyə çıxmaq istəyirəm.

"AZSAYLI XALQLAR"…

2000-ci ildə Azərbaycanın Qax, Zaqatala rayonlarında yaşayan gürcülərin həyatı, məişəti, təhsili ilə bağlı yazılar hazırlamaq üçün gürcü məktəblərində və gürcü ailələrində oldum. "Sabah" qəzetinin 28 sentyabr

2000-ci il tarixli sayında Qax rayonunun Qaxingiloy kənd orta məktəbinin direktoru Natella Otaraşvili haqqında "Azərbaycan torpagi, gürcü şərabı və "azsaylı xalqlar"..." sərlövhəli bir yazı verdim. Həmin müsahibənin sonluğunu oldugu kimi təqdim edirəm:

"...Ürəyimdən keçənləri sanki Natella Otaraşvili oxuyurmuş kimi:

-Bizə gedək,- dedi,- bir tikə çörəyimizi kəsin.

Mən Gürcüstanda gürcü ailələrində çox olmuşam. Ancaq Azərbaycandakı gürcü ailələrində olmaq, onların yaşayışı, məişəti ilə tanış olmaq arzum Natella xanımın təklifi ilə üst-üstə düşəndə məmnuniyyətlə razılaşdım.

...Geniş, yaraşıqlı həyətdəki səliqə-sahman, nəvazişlə qulluq görən rəngbərəng gül kolları, növbənöv üzüm sortlarından düzəldilmiş çardağın altındakı 10-12 nəfərlik qonaq stolu, adama gəl-gəl deyən qırmızıyanaq alma, bal kimi şipşirin şaftalı, gavalı, zoğal agacları və bir də həyətin bir küncündə torpağa basdırıimış şərab küpləri eynən Gürcüstandakı kimi idi. Bircə fərq onda idi ki, məclisin təmtərağını bir az da artıran, yeyib-içənlərin ünsiyyətini bir az da isidən məşhur gürcü sağlıqları orda gürcücə, burda isə Azərbaycanca deyilirdi.

Mən Natella xanımın həyat yoldaşına müraciətlə:

-Şakro, bu badələri də Gürcüstanda və Azərbaycanda yaşayan azsaylı xalqların – gürcülərin və azərbaycanlıların sağlığına qaldıraq, - deyəndə onlar bərkdən güldülər. Mən isə:

-Niyə gülürsünüz, Gürcüstanda yaşayan biz azərbaycanlıları gürcülər, Azərbaycanda yaşayan siz gürcüləri isə azərbaycanlılar azsaylı xalqlar adlandırırlar. Belə çıxır ki, siz də, mən də azsaylı xalqların nümayəndələriyik, - cavabını verəndə gözləri yaşara-yaşara bir az da ürəkdən gülüşdülər. – Əslində isə biz Qafqazın ən qədim və köklü xalqlarındanıq. Biz bir-birimizin adət-ənənələrimizi yaxşı bildiyimiz kimi, dilimizi

də yaxşı öyrənməliyik. Çünki bu iki xalq yanaşı yurd salıb. Deməli, bizim babalarımız mehriban olub, bir-biri ilə dil tapıblar. Bəs, biz niyə bu ənənəni inkişaf etdirməməliyik ?

Mənim sözlərimdən təsirlənən Şakro qucaqlayıb məni öpdü:

-Gözəl sözlər deyirsiniz, qardaşım. Mən inanıram ki, həi ki xalqın xoş günləri hələ qabaqdadır. Nə azərbaycanlılar Gürcüstanı, nə də gürcülər Azərbaycanı tərk eləmək fikrində deyillər. Çunki hər ikisi bizim Vətənimizdir!

Badələr cingildədi. Və bu xoş cingiltinin sədaları altında biz ayrıldıq.

Görüşənədək!"

LİDER

Tanış olmayan bir qapını döyəndə deyərlər: "Evin kişisini çagır."

Borçalıda sayılıb-seçilən kişilər çoxdur. Bir kəndin, bir rayonun, bir elin danəndə, dunyagörmüş kişiləri çox olub. Qaraçöplü filankəs, Başkeçidli filan kişi, Faxralı elinin filan ağsaqqalı, Kəpənəkçi elinin filan ağası, Baydarlı filan ağa və s. və i.a. kimi tanınan onlarla el hörməti qazanmış Borçalı kişisi, di gəl ki, bütöv Borçalı adından danışa bilməyib. Düşmənlərimiz gah sünni-şiə məzhəblərini qabardıb, gah da iki nəfərə bir kreslo təklif ediblər.

2003-cü ilin noyabr mitinqlərinin kəskinləşdiyi anlarda Gürcüstanın dövlət başçısı Acariya rəhbəri Aslan Abaşidzeyə üz tutdu. Bu gərginliyi aradan qaldırmaq, vəziyyəti sabitləşdirmək üçün ondan dəstək və məsləhət istədi.

E.Şevardnadzenin bu jesti çıxılmaz vəziyyətdən doğan bir jest olsa da, ancaq ağıllı addım idi. O, içindəki barışmaz hisslərə qalib gələ bilmişdi.

Bundan təsirlənən və təəssüflənən soydaşlarımız isə - "Niyə bizlə görüşə gəlmədi?" – deyə, incikliklərini

gizlətmədilər. Və bu inciklikdən bəzi hakimiyyətə müxalif qüvvələr çox məharətlə istifadə etdilər.

Bəs inciməyə haqq və səbəb vardımı? Birmənalı şəkildə desək, bəli, vardı! Axı, E.Şevardnadze gərək unutmayaydı ki, axırıncı prezident seçkilərində azərbaycanlılardan həlledici səs çoxluğu qazanmıgdı. Və belə məqamda onlar da saıyılmalıydı. Halbuki bu sədaqətin müqabilində son qalmaqallı parlament segkilərində hakim partiyadan parlamentə cəmi bircə nəfər azərbaycanlı seçilmişdi.

Digər tərəfdən, əlbəttə, bu, dövlət başçısının gorüşə gəlməməsinə bəraət deyil, soydaşlarımıza bir giley və iraddır. Soydaşlarımızdan dövlət başçısına kim qarantiya verəcəkdi ki, onu Borçalıda yaxşı qarşılayacaqdılar? Axı, bu millətin yaşadığı bölgələrdə ömrü boyu ən yüksək məmur postlarında, başqa millətlər dayanıblar. Axı, bu millətin kişilərini ayrı-ayrı partiyalara bölüblər. Axı, bu millətin kişiləri hərəsi özünə bir partiya, təşkilat, birlik yaradaraq millətin birliyini parçalayıblar. Axı, bu millətin bir lideri olmayib…

Bəli, evin kişisini soruşarlar. Ancaq bu kişiləri doğulmağa, doğulsa da boy atmağa məqsədyönlü şəkildə qoymayanlar var.

Bunun birincisi yerli hakimyyət orqanlarıdır. Bayaq dediyimiz kimi, azərbaycanlılar yaşayan bölgələrdə yüksək səviyyəli ziyalılar, mütəxəssislər olmasına baxmayaraq, dəvlət orqanlarında - icra hakimiyyəti strukturlarında, prokurorluqda, polisdə, məhkəmədə, hətta kolxoz, sovxoz direktorluğunda, fabrik, zavod müdirliyində, təhsil, səhiyyə idarələrində, hətta mədəniyyət şöbələrində birinci, ikinci, üçüncü şəxslər azərbaycanlılardan olmamış, onlar ancaq xırda vəzifələrdə təmsil olunmuşlar. Hərbi mükəlləfiyyətdən danışmaq belə yersizdir. Azərbaycanlılara münasibət əsl çar Rusiyasındakı munasibətdir. Ona görə də hamı əsgəri çagırışdan qaçır. Məhz bu səbədən də haqqı, hüququ pozulan, tapdanan vətəndaşlar onları müdafiə edən olmayacağını anladığından fagırlaşmış,

taleyi ilə barışmış, başını aşağı salıb səhərdən axşamadək torpaqda çalışmışdır.

Qanunların işləmədiyi yerdə rüşvət ayaq açar. Gürcüstanda rüşvət yolu ilə istənilən məsələni həll etmək olar.

Kriminogen vəziyyət o həddə çatmışdır ki, azərbaycanlılar yaşayan bölgələrdə insan oğurluğu, soyğunçuluq hüquq-mühafizə orqanlarının tam nəzarətində və himayəsindədir. Hətta polisdə, dövlət təhlükəsizliyi orqanlarında çalışan imkanlı azərbaycanlıların oğurlanması barədə gizli siyahılar da var.

Soydaşlarımızın torpaq, vətəndaş, mülkiyyət və s. hüquqlarının tapdalanması barədə yüzlərlə fakt və dəlillər var. Bu barədə E.Şevardnadzedən fərqli olaraq Gürcüstan Respublikasının prezidentliyinə namizəd M.Saakaşvili də çox deyib. Ancaq məqsədimiz onları sadalamaq deyil. Məqsədimiz borçalılar arasından liderin yetişməsinə əngəl olan amilləri və səbəbləri göstərməkdir. Təzyiq və qorxu altında yaşadılan xalqın irəli çıxan kişisinin də aqibəti, yəqin ki, aydındır.

Borçalıda liderin olmamasının ikinci səbəbi soydaşlarımız özləridirlər. Biz əvvəldə qeyd etdik ki, Gürcüstanda azərbaycanlıların bir neçə təşkilatı fəaliyyət göstərir. 90-cı illərdən bəri özünün yarandığını elan edən bir neçə cəmiyyət, birlik və təşkilatdan bu gün az-çox fəaliyyət göstərəni "Qeyrət" və Gürcüstan azərbaycanlılarının Ziyalılar Birliyidir.

Hər iki təşkilatın yaranması və inkişaf yolu mənim gözlərim qarşısında baş verib. "Qeyrət" xalq hərəkatı Gürcüstanda və Azərbaycanda baş verən milli azadlıq dalğasında boy verən təşkilatdır. Soydaşlarımızın hüquqlarının müdafiəsində bu təşkilatın yaddaqalan xidmətləri çox olub. Vaxtilə onun sıralarında mübarizə aparan Borçalının ən təpərli oğulları varından, canından keçib. Ancaq təəssüflər olsun ki, bu gün onların əksəriyyəti ya küsdürülüb, ya perik salınıb, ya maraqlar toqquşmasında məğlub olub, ya da umacağını alıb və

təşkilatı tərk edib.

Gürcüstan azərbaycanlılarının Ziyalılar Birliyi 2001-ci ildə yaradılıb. Tbilisidə Qriboyedov adına Rus Dram Teatrında (Tbilisidə azərbaycanlıların bağlanmış teatrları hələ də fəaliyyət göstərmir) 700-dən çox ziyalının iştirakı ilə keçirilən qurultayda da qeyd olunduğu kimi, Birliyin qarşısında böyük məqsədlər dayanırdı: Gürcüstan azərbaycanlılarının, ictimai təşkilatların, eyni zamanda müəyyən hakimiyyət strukturlarının köməkliyi ilə respublikada social-mədəni xarakterli problemlərin həllində əhaliyə yardımçı olmaq. O cümlədən azərbaycanlılar yaşayan bölgələrdə təhsil problemləri, mədəniyyət və memarlıq abidələrinin qorunması, milli-mədəni sərvətlərin öyrənilməsi və təbliğ olunması, Gürcüstan qanunvericiliyi çərçivəsində soydaşlarımızın hüquqlarının müdafiəsi, xalqın bacarıqlı ziyalılarının dövlət strukturlarında yerləşdirilməsi, Azərbaycan və gürcü dilinin əhali tərəfindən öyrənilməsinə və inkişaf etdirilməsinə qayğı göstərilməsi, iki xalq arasında mənəvi körpüyə çevrilən ziyalıların tanıtdırılması və s. məsələlər də Birliyin qarşısına qoyduğu vəzifələrdən idi.

Və bu niyyətlərlə qurultay çağıran ziyalılar öz aralarında "Qeyrət"dən heç kəsi görmədilər...

Axı, xalq üçün işləmək şərəfdirsə, nə üçün bu ağırlığı çəkmək istəyən digər vətənkeşlərə qısqanclıqla yanaşırsan?! Nə üçün onun liderlərini satqın adlandırırsan?! Yenicə doğulmuş körpənin gələcəyinə nə üçün çirkablar yağdırırsan?!

Vaxtilə ailəmizin büdcəsindən kəsib Borçalı üçün qəzetlər çap edib göndərmişik. Ancaq haqq sözü eşitmək istəməyən bəzi "millət qəhrəmanları" onu və yazılanları gözdən salmağa cəhd ediblər. Ancaq özünün tərifləmələrini istəyən belələri başqası haqqında xoş sözləri həzm edə bilməmiş və antitəbligatla məşğul olmuşdur.

Bakıda yaradılmış "Borçalı" cəmiyyətinin region üçün etdikləri yardımları, sosial-mədəni tədbirləri də gözü götürməyən, onun şöhrətinə kölgə salacağından ehtiyatlanan, hansı təşkilata və partiyaya mənsubluğunu və adını demək istəmədiyim

"qəhrəmanlar" bu cəmiyyətin də ayağının Borçalıdan kəsilməsinə çalışmış və çox təəssüf ki, qismən də olsa buna nail olmuşlar.

Respublikadan kənar qüvvələrin Borçalıda lider yetişməsində oynadığı mənfi rolu üçüncü səbəb kimi qiymətləndirmək olar. Bunlara Azərbaycanın dövlət orqanları, qeyri-hökumət təşkilatları və siyasi partiyaları aid etmək olar.

Elektorat, regionçuluq xəstəliyinə tutulan bütün siyasi qüvvələr seçki kompaniyaları dövründə Borçalıya ayaq açır, Gürcüstanda və Azərbaycanda yaşayan borçalıların arasında təbliğat, təşviqat və parçalanma işi ilə məşğul olurlar. Azərbaycanda adı məlum bölgələrdən sonra Borçalı və borçalılar daim istər dövlət, istərsə də qeyri-dövlət strukturlarının nəzər nöqtəsindədirlər. Borçalılar öz səsləri ilə Gürcüstanda həlledici söz deyə bildikləri kimi, Azərbaycanda da ciddi təsir imkanlarına malikdirlər.

Beş il bundan öncə artıq üçüncü prezident dəyişərək Azərbaycan dövlətinin ən ali orqanında çalışan bir gəxs, mənim Borçalı ilə bağlı çıxardığım qəzetlərdəki yazılardan əndişələnib - "Oradakıları siyasiləşdirməyin!"– deyərək, dövlət rəhbərinin bundan narahat olduğunu bildirmişdi. Təbii ki, saat yarımlıq söhbətimizdə mən ona anlatmağa çalışmışdım ki, soydaşlarımız da öz hüquqlarını bilməlidirlər, Azərbaycanda və dünyada gedən siyasi proseslərdən baş çıxarmalıdırlar. Azərbaycanla milli-mənəvi, tarixi-mədəni ilişgiləri itirməməlidirlər və öz gələcəklərini yerli şəraitə uyğun özləri müəyyənləşdirməlidirlər.

Bu "narahatçılığın" əks-sədası özünü çox gözlətmədi. Gürcüstan paytaxtına və Borçalıya tez-tez nümayəndə heyətləri göndərilməyə başladı, Gürcüstanın müəyyən hökumət orqanlarında bir-iki soydaşımıza vəzifə verdirildi, Bakıda yaşayan Borçalı əsilli bir neçə nəfər dövlət strukturlarına irəli çəkildi və... Borçalının liderliyə iddiali kişiləri prezidentlərin "arzu olunmayan şəxslər" siyahısına salındı.

Borçalıda "Qeyrət" xalq hərəkatında oldugu kimi, Bakıda "Borçalı" cəmiyyətində də siyasi qütbləşmə kəskinləşdi. İqtidar-müxalifət cəbhələrində əli qılınclı-qalxanlı dayanmış

soydaşlarımız kreslo davasında torpağı unutdular...

Evin kişisi hardadı bəs?! O varmı, doğulubmu, yoxsa hələ doğulacaq?! Qonaq-qara qarşısına kimi çıxaraq bəs, kimi?!

"QƏRB MƏNI SATDI…"

E.Şevardnadzenin bu ittihamı çox düşündürücü ittihamdır. Bu sözü deyən insan yəqin ki, papağını masanın üstünə qoyub saatlarla fikrə dalar və "Niyə satdı?" deyərək, onun cavabını axtarmağa çalışar. Niyəsini tapa bilmədikdə isə, sadəcə: - "Bəs, mən kimi satmışam?" - sualını özünə vermək kifayətdir ki, dərhal "Niyə"nin cavabı tapıla.

E.Şevardnadze ağıllı adamdır. Yəqin o, çox belə "niyə"lərin cavabını bilir, çox güman ki, bu sualın da cavabını bilməmiş deyil...

Ancaq siyasətdən uzaq, sadə zəhmətkeş xalqın əksəriyyəti bu obrazlı sualın niyə bu dərəcədə Gürcüstanda tələş doğurduğunu dərk edə bilmir. Onlar keçmiş dövlət başçısının hələ SSRİ imperiyasının xarici siyasətinə rəhbərlik etdiyi dövrlərdə Almaniyanın birləşdirilməsindəki xidmətlərini, ideoloji müharibənin soyudulmasındakı rolunu və yaxud da SSRİ-nin dağıdılmasında Qorbaçovla birlikdə məharətini yaxşı xatırlayır və bunları E.Şevardnadzenin dilindən bir daha eşidəndə... "Qərb bu kişini, bəs, niyə satdı? Rus bundan üz döndərmişdisə, bəs, Qərb niyə satdı? Qərb onu kimə satdı? Qərbin bu ikibaşlı siyasəti kimə xidmət edirdi?"– deyərək, çiyinlərini çəkirlər.

Ancaq bu sadə kütləyə bircə şey də gün kimi aydındı kı, ölkə qorxunc bir əjdahaya hamilə idi. Haçansa doğulacaq əcaib məxluq öz anasını didib haldan salacaqdı. Nə bilmək olar, Qərb bəlkə də bütöv Gürcüstanı xilas etmək naminə qoca siyasətçini qurban verməyə məcbur oldu...

"Sabah" qəzeti,
06 oktyabr 2009-cu il

Mətbuat tariximizdən

"Azərbaycan" özü bir cəbhə idi

Azərbaycan sözü xalqımızın ən ağır çağlarında birlik və qürur mənbəyinə, qəhrəmanlıq və döyüşkənlik rəmzinə çevrilmişdir. Xalqımızın bu ad altında tarixlər boyu yaşatdığı milli-mənəvi dəyərlər müqəddəslik və toxunulmazlıq haqqı almışdır.

On doqquzuncu əsrin ortalarından – kağız üzərində yazılı mətbuatımızın yarandığı çağlardan "millətinin adı - Azərbaycan, məmləkətinin adı - Azərbaycan, dilinin adı - Azərbaycan!!!" deyərək, beyinlərdəki tozu silib xalqın yaddaşını özünə qaytarmağa çalışan, millətlər içində onun layiqli yerini nişan verən klassik yazıçı və mühərrirlərimiz, millət, xalq fədailərimiz, nəhayət ki, 1918-ci ildə Azərbaycan adlı qədim bir dövlətin bərpa olunduğunu bəyan etdilər. Yenidən qürur mənbəyinə çevrilən bu ad bir sıra dövlət rəmzlərində və rəsmi mətbuat orqanlarında da əbədiləşdi.

Azərbaycan Xalq Cümhuriyyəti elan olunduqdan 19 gün sonra Gəncəyə gələn Azərbaycan hökumətinin ilk qərarlarından biri iyunun 25-də məhz "Hökumət qəzetinin nəşri haqqında" oldu.

"Azərbaycan" qəzetinin ilk nömrəsi Bakının Qafqaz türk-islam ordusu tərəfindən azad edildiyi tarixi qələbə günü Gəncədə işıq üzü gördü. Hökumət Gəncədən Bakıya köçdükdən sonra isə oktyabrın 3-də qəzet 5-ci nömrə ilə nəşrini yeni paytaxtda davam etdirdi.

Məlumdur ki, o dövrdə xeyli sayda siyasi, ədəbi-bədii, kommersiya yönümlü qəzetlər nəşr olunur və onlarda yüzlərlə təcrübəli, tanınmış jurnalist çalışırdı. Rəsmi dövlət qəzetinin redaktorluğuna isə, çox doğru olaraq, heç bir siyasi partiya mənsubluğu olmayan Ceyhun bəy Hacıbəyli (1891-1962) və Şəfi bəy Rüstəmbəyli (1893-1960) təyin olundular. Ancaq təəssüflər olsun ki, ilk bitərəf rəsmi dövlət qəzetinin ömrü Cümhuriyyətin ömrü qədər oldu - o, 1920-ci il aprelin 28-də qapandı.

"Azərbaycan" qəzetinin "bəzilərinə heç Vətən torpağı belə qismət olmamış bir çox yazarları" (Şirməmməd Hüseynov, professor) uzun müddət qürbət ellərdə mühacir həyatı keçirmiş və "Azərbaycan" adını yaratdıqları eyni adlı mətbuat orqanlarında yaşatmağa çalışmışlar.

Və nəhayət, 90-cı illərin gətirdiyi demokratikləşmə ab-havasının üfüqlərində boy verən ümidlər Azərbaycanın müstəqilləşmək arzularını gücləndirdiyi kimi, onun eyni adlı mətbuat orqanının da bərpası ideyasını gündəmə gətirdi. 1989-cu ildə Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə Qarabağa Xalq Yardımı Komitəsi (QXYK) yaradıldı və onun nəzdində "Azərbaycan" adlı xəbərlər qəzetinin çıxarılmasına icazə verildi.

Qəzetin redaksiya heyətini formalaşdırmaq QXYK Rəyasət Heyətinin üzvü, şair-publisist, filologiya elmləri namizədi Sabir Rüstəmxanlıya həvalə olundu. Maraqlıdır ki, bu dəfə də "Azərbaycan" qəzetinin rəhbərliyinə və ümumiyyətlə, redaksiya heyətinə əsasən bitərəf jurnalistlər cəlb olundu. Qısa müddət ərzində başda Sabir Rüstəmxanlı olmaqla burada çalışan Əhməd Elbrus (baş redaktorun müavini), Şərif Kərimli (məsul katib, 1991-ci ildən baş redaktor), Rüstəm Behrudi (publisistika şöbəsinin müdiri, sonralar baş redaktorun müavini), Nicat Verdizadə (rus variantı üzrə baş redaktorun müavini), Şaiq Bəhramoğlu (şöbə müdiri), Oqtay Abbasoğlu (şöbə müdiri), Vidadi Yusifoğlu (şöbə müdiri), Mir Şahin Ağayev, Aydın Sadiq, Nərgiz Sadıxlı, Fəridə Ləman, Şaiq Vəliyev, Dəyanət Osmanlı, Eyvaz Həsənov (məsul katibin müavini), Elman Gədikli,

Gülməmməd Məmmədzadə, Kəmalə İskəndərova, Əlinasir İmanlı, Akif Səttaroğlu (Naxçıvan üzrə xüsusi müxbir), rəssam Fikrət İbrahim, ştatdankənar rəssam Gündüz Əlizadə, foto-müxbirlər Rasim Sadıqov, Şahvələd Eyvazov, korrektorlar Mahizər Hüseynova, Arzu İbrahimova və başqaları "Azərbaycan" qəzetini respublikanın bir nömrəli qəzetinə çevirə bildilər. Ölkənin tarixində ilk dəfə olaraq yarım milyon tirajla qəzet çıxmağa başladı.

Məlumlur ki, sovet dövrü mətbuatı məcburi yazdırılmış abunə hesabına yaşayırdı. Bəs, heç bir məcburiyyət olmadan bu qədər tiraj qazanmaq və hər bir ailənin həsrətlə gözlədiyi bir qonağa çevrilməyin sirri, səbəbi nədə idi?

Qısaca olaraq belə demək olar: **"Azərbaycan" oxucusu - 70 illik totalitar rejim dövründə ilk dəfə olaraq alternativ fikirlər eşitdi; sözdə və əməldə demokratiyanın nə olduğunu bildi; müstəqil cümhuriyyət tariximizin qaranlıq səhifələri ilə tanış oldu; unudulmaqda olan bayrağımızı, gerbimizi, himnimizi gördü; xalqımıza qarşı millətçi, şovinist siyasətin səbəbini bildi; sərhədlərimizin qayçılanmasına tarixi faktlarla inandı; xalqımıza qarşı repressiya siyasətinin mahiyyətini anladı; mühacir həyatı keçirmiş onlarla millət fədaisinin uzun illər boyu nəyin uğrunda mübarizə apardığını eşitdi; imperiya siyasətinin mayasında nələrin dayandığını gördü və... bunlar hamısı "Azərbaycan"ın güzgüsündə əks olundu. "Azərbaycan"ın oxucusu onun tirajından qat-qat çox oldu.**

Bundan başqa, qəzet ilk dəfə olaraq müstəqil düşünmək, yazmaq, danışmağın nə olduğunu, çağdaş jurnalistikanın qarşısında duran vəzifələri, müasir qəzetçiliklə sovet qəzetçiliyinin fərqini, ənənə və novatorluğun qayğıkeş estafetini, yeni tərtibçilik məktəbinin və texnoloji yenilliklərin tətbiqini nəinki göstərdi, eiəcə də öz fəalliyyətində onları uğurla həyata keçirdi.

Ən əsası isə qəzetin ilk baş redaktoru Sabir Rüstəmxanlının birinci nömrədə yazdığı kimi, "...Qarabağa Xalq Yardımı

Komitəsinin qəzeti olsa da, "Azərbaycan" öz qarşısında bir vilayətin, bir dərdin çərçivəsinə sığmayan daha geniş məqsədlər" qoymuşdu. "Xalqımızın keçmişi və gələcəyi, tarixi, mədəniyyəti, mənəvi dünyası, yaradıcılıq aləmi, sosial-iqtisadi problemlərimiz – qısası, bizim hamımızı maraqlandıran, rahatsız edən nə varsa, "Azərbaycan" qəzetinin gözündən" yayınmadı (S.Rüstəmxanlı, "Azərbaycan", N-1, 05.10.1989).

1988-ci ildə erməni-rus sövdələşməsi nəticəsində Qərbi Azərbaycandan soydaşlarımızın qovulmasından, bundan ruhlanan gürcü şovinistlərinin 1989-cu ildə Borçalı türklərini sıxışdırmasından, Qarabağda ermənilərin separatçılıq hərəkətlərindən cana doyub öz etiraz səsini ucaldan, mərkəzin ikiüzlü siyasətindən, respublika rəhbərliyininsə mərkəzə yaltaqlığından təngə gələn xalqın Meydan hərəkatı fonunda "Azərbaycan" qəzeti ideoloji bir tribunaya çevrilməkdə idi.

Meydan tribunasına yaxın buraxılmayan, sözü ağzında qalan, üzərlərinə minbir böhtan atılan, heç bir mətbuat orqanında düşündüyünü deyə bilməyən yüzlərlə ziyalı, sadə zəhmət adamı, iqtidar, müxaifət nümayəndələri "Azərbaycan"da sərbəst, maneəsiz, müdaxiləsiz danışa bilirdi.


Diqqəti yenə də Sabir Rüstəmxanlının birinci nömrədə proqram xarakterli "Redaktordan" rubrikası altında oxuculara ünvanlanmış müraciətinə yönəltmək istərdim: "İnqilab dövrünün mətbuatı yeni, cəsarətli, aşkar sözün - inqilabi sözün carçısı olmalıdır. "Azərbaycan" qeyrət və cəsarət kürsüsünə çevrilməlidir. Başlanan böyük ümumxalq hərəkatına güzgü tutmaqla qəzet demokratik fikrin, milli şüurun inkişafına təkan verməlidir".

Bütün fəaliyyəti boyu qəzet öz ənənəvi prinsipinə-tərəfsizlik və obyektivlik prinsiplərinə sadiq qalmağa çalışırdı. Azərbaycanı bürümüş Meydan hərəkatının zərbə dalğası, partiya-sovet rejiminin qoruyucuları olan güc strukturlarının daha da azğınlaşması, yeni-yeni cəmiyyətlərin, ictimai-siyasi təşkilatların, partiyaların yaranması, daxili-xarici ideoloji qurumların total hücumları, redaksiya əməkdaşlarına qarşı şirnikləndirici və

təhdidedici təkliflər, təxribatlar - "Azərbaycanın 15-20 nəfərlik jurnalist korpusunu yolundan sapındıra bilmirdi.

"Redaksiyada Sabir Rüstəmxanlıdan başqa heç kəs Xalq Cəbhəsinin üzvü deyildi. Çünki "Azərbaycan" özü bir Cəbhə idi." (Şərif Kərimli. "Üç ilin yorğunuyuq biz", "Azərbaycan" qəzeti, N-32, 1992-ci il.)

20 Yanvar qırğınları zamanı "Azərbaycan" müvəqqəti olaraq bağlansa da, onun əməkdaşları dinc oturmadılar - faciə ilə bağlı fotomateriallar, şahid ifadələri, gizli rəsmi sənədlər və s. topladılar ki, bu da az sonra fəaliyyətini bərpa edən qəzetin daha kəskin və barışmaz ruhunu bir az da gücləndirdi. (Həmin günlərdə bu sətirlərin müəllifi də "FV-ÇP" qəzetlərinin gizli yolla nəşrində fəal iştirak etdi.)


ФВ=ЧП

АХЧ-нин ХУСУСИ БУЛЛЕТЕНИ № 2 МАРТ 1990-чы ИЛ

Nəhayət, "Azərbaycan"ın taleyində ən məsuliyyətli məqam 1992-ci ildə oldu. Sabir Rüstəmxanlı Mətbuat və İnformasiya naziri təyin olunduqdan sonra redaksiya üzvləri bu sətirlərin müəllifini qəzetə baş redaktor seçdilər. Ölkədə hakimiyyət dəyişikliyi nəticəsində QXYK-nın maddi cəhətdən sıxışdırılması, öz növbəsində QXYK rəhbərliyinin hələ də demokratik və obyektiv mövqedə dayanan "Azərbaycan"ın fəaliyyətini müxtəlif yollarla əngəlləməsi, bundan başqa, hakimiyyətə yaxın olan bir sıra partiya qəzetlərinin "Azərbaycan"ın tərəfsizlik prinsipinə qısqanclıqla yanaşması, həmin qəzetlərin yanlış fəaliyyəti nəticəsində cəmiyyətdə xalq kütlələrinin təbəqələşməsi və digər

səbəblər onun çoxsaylı oxucularının getdikcə azalmasına gətirib çıxarırdı.

Qəzetin veteran jurnalistlərinin qarşısında iki yol dayanırdı: ya maddi və mənəvi dəstəkləri güclənməklə olan iqtidara yaxın partiyalı mətbuatın təzyiqləri altında "Azərbaycan"ın can verməsini seyr etməli, ya da ağıllı, taktiki əks-hücum təşkil edərək vəziyyəti dəyişməli. Redaksiya ikinci yolu seçdi - Ali Sovetə müraciət olundu: "Azərbaycan" qəzetinin statusu bərpa olunmalıdır. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi dövlət qəzeti kimi fəaliyyət göstərmiş "Azərbaycan"ın bu haqqı özünə qaytarılmalı idi. Çünki üç illik fəaliyyəti ərzində qəzet öz varisilik ənənələrinə sadiq qalaraq məhz belə bir mövqe nümayiş etdirmiş və milyonların hörmət və rəğbətini qazanmışdı.

İnsafən, Ali Sovetin üzvləri bu müraciətə həssaslıqla yanaşdılar. Nəticədə "Azərbaycan" qəzeti dövlətçiliyimizin digər atributları - bayraq, gerb və himn kimi halal haqqını - "Rəsmi Dövlət Qəzeti" statusunu aldı. 1992-ci il sentyabrın 27-də Azərbaycan Respublikası Ali Sovetinin orqanı kimi qəzet əvvəlki başlıq altında nəşrini davam etdirməyə başladı. Bu, Azərbaycanın müstəqilliyi uğrunda canını fəda etmiş Cümhuriyyət şəhidlərinin xatirəsinə ehtiram, Ceyhun bəy Hacıbəylidən günümüzə qədər "Azərbaycan" adlı bir qəzetdə çalışmış bütün jurnalistlərə bir hörmət idi.

Əlbəttə, yubiley xarakterli yazıda qanqaraldıcı məqamlara toxunmaq istəməzdik, lakin söhbət mətbuatımızın tarixinin, eləcə də 80-ci illərin sonlarında başlanan milli-azadlıq hərəkatının ilk carçılarından olan "Azərbaycan"ın tarixinin saxtalaşdırılmasından gedəndə bu, dözülməz olur. Yetər xalqın tarixini, Vətənin tarixini, mətbuatımızın tarixini saxtalaşdırdınız!

Bu gün səviyyəsinə, xalq arasında populyarlığına qibtə olunmayan indiki "Azərbaycan" qəzetinin rəhbərliyinin iradəsindən asılı olmayaraq, hazırda rəsmi dövlət qəzeti kimi fəaliyyət göstərən "Azərbaycan" 1989-1992-ci illərdə çıxan

"Azərbaycan"ın davamıdır. Biz jurnalistik, jurnalist gərək fakta əsaslansın, faktlarsa bunlardır:

1.1992-ci ildə "Rəsmi Dövlət Qəzeti" statusu almaq üçün "Azərbaycan" qəzetinin kollektivinin Ali Sovetə müraciəti;

2.Ali Sovetin "Həyat' qəzeti ilə "Azərbaycan"ın birləşdirilməsi barədə qərarı;

3.Ölkə Prezidentinin və Ali Sovet sədrinin 27 sentyabr 1992-ci ildə bu münasibətlə kollektivə ünvanlanan təbrikləri;

4.Yeni statusla nəşrini davam etdirən qəzetin 2 ay əvvəlki başlıqla çıxması.

Bunlar yəqin kifayətdir ki, deyək: "Azərbaycan" öz-özünə zühur etməyib. Bir məqamı da xüsusi vurğulamaq yerinə düşərdi - qəzetin əvvəlki kollektivi çox səxavətli idi: döşünüzə döyüb onların şöhrətini bölüşə bilərsiniz. Bu, sizə ancaq başucalığı gətirər...

"Azərbaycan"ın ən böyük tarixi missiyalarından biri o oldu ki, "Molla Nəsrəddin", "Füyuzat" ədəbi məktəbləri kimi o da "Azərbaycan"ın qəzetçilik məktəbini yarada bildi.

Bu qəzetdən sonra işıq üzü görən yüzlərlə mətbuat orqanı nəinki məzmun və üslub cəhətdən, eyni zamanda forma və tərtibat baxımından ona oxşamağa çalışdılar. "Azərbaycan”a yaxın adlarla çoxsaylı qəzetlər nəsli yetişdi. Məsləhət üçün "Azərbaycan"a müraciət edənlərin sayı-hesabı yox idi.

Müstəqil qəzet modeli kimi təsisçi və redaksiya arasında münasibətlərin tənzimlənməsi üçün Mətbuat və İnformasiya Nazirliyi ilə birgə məhz "Azərbaycan" tərəfindən ilk hüquqi sənəd - müqavilə forması da hazırlandı.

İlk dəfə olaraq "Azərbaycan" qəzetinin yayımı təkcə respublikada deyil, xaricdə də uğurla həyata keçirildi. QXYK-nın xüsusi şöbəsi tərəfindən dünyanın ən nüfuzlu ölkələrində formalaşmaqda olan Azərbaycan-Türk diasporları bu işdə önəmli yardım göstərdilər.

Qəzetin ABŞ-da çalışan təmsilçisi A.Rəsizadənin fəaliyyəti

isə xüsusi diqqətə layiqdir. O nəinki Azərbaycanla bağlı Amerika mətbuatında dərc olunmuş yazıların xülasəsini və şərhini redaksiyaya göndərir, eləcə də "Azərbaycan"ın bəzi materiallarının Amerika mətbuatında yer tutmasına və Azərbaycan həqiqətlərinin dünyaya yayılmasında misilsiz xidmətlər göstərirdi.

Bu gün "Azərbaycan"ın bərpasından 20 il keçir. Onun dünyasını dəyişmiş bütün əməkdaşlarına Allahdan rəhmət diləyir, harada işləməsindən asılı olmayaraq, indi də fəaliyyət göstərən digər əməkdaşlarına Vətənin, Xalqın azadlığı, xoşbəxtliyi yolunda uğurlar arzulayırıq! Əsas odur ki, Azərbaycan yaşasın. Azərbaycan yaşadıqca, "Azərbaycan" da yaşayacaq.

"Sabah",
27 sentyabr 2006-cı il

"Sabah" qəzeti "Keyfiyyətə görə Beynəlxalq Qızıl Ulduz" (International Star Award for Quality) mükafatı laureatı oldu

1990-cı ildən Gürcüstan türklərinin mətbu orqanı kimi nəşrə başlayan, sonralar iki Qafqaz ölkəsi arasında poçt-kommunikasiya əlaqələrinin çətinləşməsi və xidmət haqqının bahalaşması ucbatından yayım coğrafiyası məhdudlaşan və Azərbaycanın müstəqil ictimai-siyasi qəzetləri ailəsinə daxil olan və daim maddi problemlərlə baş-başa qalan "Sabah" qəzetinə bu günlərdə İspaniyanın Madrid şəhərindən müjdə dolu bir xəbər gəlib. Busines Initiative Directions - BID təşkilatının prezidenti və icraçı direktoru cənab Xose E.Prietoninin imzası ilə göndərilən məktubda nəşr olunduğu müddət ərzində daimi olaraq keyfiyyət mədəniyyətini yüksəltdiyi üçün "Sabah" qəzetinin "Keyfiyyətə görə Beynəlxalq Qızıl Ulduz" (International Star Award for Quality) mükafatı laureatı adına layiq görüldüyü bildirilir.

Mükafatın təqdimolunma mərasimi 30 oktyabr 2006-cı ildə İsveçrənin Cenevrə şəhərində olacaq.

Bu yüksək səviyyəli tədbirdə iştirak edib-etməyəcəyi barədə suala cavab verən baş redaktor **Şərif Kərimli** təəssüf hissilə bildirdi ki, dəvəti böyük məmnuniyyətlə qəbul etsə də, qəzetin maliyyə durumu mükafatın təqdimatında iştirak edib-etməyəcəyimizi sual altında qoyur.

Digər mətbu orqanlarda

"Xəzər dənizçisi",
21 iyul 1973-cü il

Dənizə yol burdan başlanır

Bala, səni uzaq rayondan buraya gəlməyə məcbur edən nədir? Dənizin, daha doğrusu, dənizçinin nə olduğunu bilirsənmi?

Qarşı stulda oturmuş hündürboy, qarayanız, qırğıbaxışlı gənc qəbul komissiyası katibinin üzünə baxaraq dilləndi:

- İlk dəfə Bakıya gəldiyim gündən mavi dənizdə qəhrəman dənizçilərin romantik həyatı məni özünə cəlb edib. Mən qəhrəman dənizçilər haqqında çox eşitmişəm. Onların alman faşizminə qarşı döyüşlərdə necə fədakarlıqla vuruşduqları haqqında oxumuş və çoxlu filmə baxmışam.

Katib sözünə davam etdi:

- Sənə məktəbimizdəki qayda-qanunlar haqqında məlumat verdim. İndi özün fikirləş. Heç kəs səni məcbur etməyib, öz arzunla gəlmisən. Əgər səni bu qayda-qanun, ciddi intizam qorxudursa, hələ gec deyil...

Oğlan qətiyyətlə dilləndi:

- Xeyr, əgər mən qorxsaydım, buraya gəlməzdim.

Qarayanız gənc qalxıb iti addımlarla otaqdan çıxdı.

Bəli, dənizçi olmaq istəyən hər kəs beləcə sual-cavabdan sonra öz yolunu dəqiqləşdirir.

Bəlkə bu sözlər vaxtilə Əli Bayramova, Fedya Qurbanova, Nikifor Roqova, İvan Saraykinə, Qafur Məmmədova da deyilib, onlarla da sual-cavab aparılıb. Onlar da eyni qətiyyətlə cavab vermişlər.

Haqqında danışdığımız məktəb Sovet İttifaqı Qəhrəmanı Qafur Məmmədov adına Bakı dənizçilik məktəbidir. Məktəb 1881-ci ildə təşkil olunub. O zaman təhsil müddəti cəmisi 5 ay idi. Dənizçilik sinifləri adlanan bu məktəb ilk fəaliyyəti ərzində 40-50 şturman və şkiper hazırlayırdı.

1944-cü il martın 5-dən etibarən dənizçilik məktəbi adlanmağa başladı. Məktəbə daxil olarkən divardakı cəsur dənizçilərin şəkilləri elə ilk andan adamı özünə cəlb edir.

Budur, bu şəkillər arasında qısa saqqal qoymuş, iri qaragözlü bir nəfər vüqarla dayanmışdır. Bu, məktəbin ilk müdavimlərindən olan Süleyman İsmayıl oğludur. Şəklin altında isə bir kağız vardır. Bu, 1883-cü ildə Bakı qubernatorunun göstərişi ilə imperator Aleksandr tərəfindən Süleyman İsmayıl oğlunun adına imzalanmış diplomdur.

Onun nəvəsi, ilk azərbaycanlı dənizçilərdən biri Məhərrəm İsmayılov 1930-cu ildə, nəticəsi Əli Süleymanov isə 1935-ci ildə bu məktəbdə oxuyublar. Bu şərəfli familiyanı daşıyanlardan biri isə - Rafiq Süleymanov bir neçə il bundan əvvəl Bakı dənizçilik məktəbinin diplomunu almışdır.

Dənizə məhəbbət – dənizi sevmək, dənizə bağlanmaq deməkdir.

Biz 4 oğul atası Dərya Dadaşovun, 3 oğul atası Leonid Sokolovun şəkillərini öz oğulları ilə bir yerdə görürük. Düşünürsən ki, nə üçün bütün bir ailə dənizi doğma sanmış, onun qoynuna atılmışdır. Adama elə gəlir ki, bura əsl qəhrəmanlar ocağı, şahinlər yuvasıdır.

Həyəcanlı 1917-ci ildə Pavlik Morozov, 1931-ci ildə Sovet İttifaqı Qəhrəmanı Boris Alekseyev, 1930-cu ildə coğrafiya elmləri doktoru, akademik Gül məhz bu ocaqda isinmişlər.

Hal-hazırda dövlətimizin müdrik siyasəti nəticəsində bir çox xarici dövlətlərlə iqtisadi, siyasi və mədəni əlaqələr yaranmışdır.

SSRİ – Əlcəzair arasında işləyən "Naxçıvan" sərnişin teploxodunun baş mexaniki, Sosialist Əməyi Qəhrəmanı Ağarza Eyvazov, SSRİ – Amerika limanları arasında üzən "Aleksandr Puşkin" teploxodunun kapitanı, Sosialist Əməyi Qəhrəmanı Aram Ohanov bu məktəbin yetişdirmələridir.

Geniş vətənimizin müxtəlif guşələrindən gələn gənclər məhz buradan dənizə yola düşürlər. Məktəbi bitirdikdən sonra onlar coşqun dalğaların qoynuna atılırlar.

Şərif Kərimov,
ADU-nun jurnalistika fakültəsinin
I kurs tələbəsi,

"Sovet kəndi",
22 yanvar 1980-ci il

Məşhur pəhləvanlarımız

Rəşid Yusifov

Sovet hakimiyyəti illərində Azərbaycanda idmanın başqa növləri ilə yanaşı, milli güləş də inkişaf etməyə başladı. Sali Süleyman, Eldar Göyçaylı, Qara Rüstəm, Ağayev Şuşinski, Məhəmmədəli Qazaxlı, Kürdoğlu kimi pəhləvanlar gah sirklərdə, gah açıq havada camaat qarşısında çıxışlar edir, milli güləşin inkişafından ötrü böyük səy göstərirdilər. Belə idman fədailərindən biri də Rəşid Yusifov idi.

Rəşid Yusifov 1900-cü ildə Gürcüstan SSR-in Borçalı rayonunun (indiki Marneuli) Gorarxı (Alget) kəndində anadan olmuşdur. Sonralar ailə vəziyyəti ilə əlaqədar olaraq Tiflisə köçmüş və buradakı müsəlman məktəbində oxumuşdur.

Ailə vəziyyəti ağır olduğundan məktəbi yarımçıq buraxıb, erməni Simonun dəmirçixanasında işləməyə başlayır. Rəşid uşaqlıqdan güləşə həvəs göstərirdi. Hətta, yaşca özündən böyüklərlə güləşirdi. Onun bu qabiliyyəti o dövrün görkəmli güləşçilərindən olan Yemelyanov və Maysuradzenin diqqətini cəlb edir. Onlar Rəşidlə məşq etməyə başlayırlar. Qısa müddət ərzində o, sərbəst güləşin bütün qaydalarını mənimsəyir.

Gənc pəhləvanın ilk rəqibi Tiflis camaatının sevimlisi, təcrübəli güləşçi Datiko Berişvili oldu. Heç kəs Datikonun qələbəsinə şübhə etmirdi. Görüş üçün iyirmi dəqiqə vaxt müəyyən edildi. Birinci on dəqiqə pəhləvanların heç birinə üstünlük qazandırmadı. Lakin axırıncı dəqiqələrdə aramsız hücuma keçən Rəşid ən çox sevdiyi bir fəndi işlədərək, rəqibinin kürəklərini yerə vurdu.

Tiflis sirkində işləməyə dəvət olunan Rəşid bütün həyatını sirk pəhləvanlığına həsr etməyi qərara alır. Burada qocaman idmançı Lado Kavsadze onun əsas məşqçilərindən biri olur. 1920-ci ildə Tiflisdə Rəşid türk güləşçisi Mustafa Xamarığı və 1924-cü ildə Ağdaşda İranlı Əli pəhləvanı məğlub edir.

Rəşid pəhləvanın cazibədar bədən quruluşu çoxlarını heyran edirdi. 1924-cü ilə qədərki gürcü kinosunun məşhur rejissoru İ.Perestiani "Üç həyat" və "Tariyel Mklavadzenin işi" filmlərini çəkməyə başladı. Rejissora elə bir adam lazım idi ki, aktyorluq məharəti ilə bərabər gözəl bədən quruluşuna, böyük gücə malik, cəsarətli, ürəkli olsun. Çünki filmdə çoxlu akrobatik hərəkətlər, uca qayalıqdan tullanma, hündür körpüdən köpüklü dağ çayına atılma və sair bu kimi çeviklik və mətanət tələb edən epizodlar var idi. Uzun axtarışdan sonra belə bir adam tapıldı. Bu, Rəşid Yusifov idi. N.Vaçnadze, M.Qelovani, Z.Berişvili, K.Mikebarizde kimi gürcü kino ustaları ilə birlikdə çıxış edən Rəşid bu sınaqdan da üzüağ çıxdı.

1924-cü ildə Rəşid Yusifov ən yaxşı güləşçilərin Tiflis yarışlarında iştirak edir. Burada ona qarşı duran ilk rəqib "fransız güləşinin texniki" adlandırılan Pyotr Praşek olur. Praşek hətta ona az tanınmış bir rəqib seçdikləri üçün əvvəl incimişdi də... O, özündən çox razı halda səhnəyə çıxır və elə ilk tutaşmadaca Rəşidi başı üzərindən atmaq istəyir. Elə həmin andaca əks fənd işlədən Rəşid rəqibini 17 saniyə ərzində yerə "yatırdır".

Həmin çempionatda Rəşid daha bir güclü pəhləvanla qarşılaşır. Bu, "Qırğızıstan səhrasının bahadırı" adlandırılan Hacı Muxanur idi. Çox gərgin keçən görüşün 12-ci dəqiqəsində Rəşid böyük gücə malik Muxanuru məğlub edərək ölkə çempionu olur.

Bir neçə ildən sonra Rəşid Yusifovun afişaları ölkəmizin müxtəlif şəhərlərində görünməyə başladı: "Azərbaycan şiri - Rəşid çiynində teleqraf şalbanını sındırır", "Onun gücü 160 puda bərabərdir", "Rəşid əlləri ilə at nalını sındırır və lövbər zəncirini qırır", "Rəşidin döşü üzərində on beş pudluq daş sındırılacaq". Rəşid Yusifovun adı Moskva, Qorki, Rostov, Daşkənd,

Səmərqənd, Voronej, Suxumi, İjevsk və başqa şəhərlərdə hörmətlə çəkilirdi. Hər yerdə afişalar tamaşaçıları Azərbaycan bahadırına baxmağa dəvət edirdi. Rəşid bir-birinin ardınca parlaq qələbələr qazanırdı. Türk pəhləvanı Mustafa Xamarıq, Qara Yusif, alman Abek Anderson, Rudolf Albert, amerikalı zənci Frank Qud, Çempers Tsipsin və başqaları ona məğlub olmuşdular.

1928-ci ildə Bakı sirkinə dəvət olunan Rəşid burada daha həvəslə çalışmağa başlayır.

1929-cu ildə onun həyatında əlamətdar hadisə baş verir. Taqanroqda qastrolda olan Rəşid əfsanəvi pəhləvan İvan Poddubnı ilə tanış olur. Bu tanışlıq sonralar dostluğa çevrilir və hər iki bahadırın ailələri arasında mehriban əlaqə yaranır. O illəri xatırlayaraq pəhləvan belə deyir:

- Rus pəhləvanı, dünya çempionu İvan Maksimoviç Poddubnıdan çox şey öyrəndim. O, həyatının sonuna qədər mənə həmişə faydalı məsləhətlər verərdi.

Poddubnı ilə Rəşid pəhləvanın çoxlu planları var idi. Axırıncı dəfə onlar vidalaşarkən Bakıda birgə işləmək barədə razılığa gəldilər. Lakin Poddubnının xəstələnməyi və Böyük Vətən müharibəsinin başlanması bu fikrin həyata keçirilməsinə imkan vermədi.

Böyük Vətən müharibəsi... Rəşid Yusifov güclü top atəşinin gurultusu və uçan qəlpələr altında əsgərlər, zabitlər qarşısında çıxışlar edir. Onları qəhrəmanlığa, igidliyə çağırır. Rəşid saysız-hesabsız pulsuz tamaşalar göstərərək müdafiə naminə, qələbə naminə səy göstərir...

Rəşid Yusifov Azərbaycanın idman tarixinə milli sirkin bünövrəsini qoyanlardan biri kimi də daxil olmuşdur. Azərbaycanda ilk səyyar sirk və zorxana yaratmaq məhz Rəşid Yusifova nəsib olmuşdur. Onun təşəbbüsü nəticəsində səyyar sirk bir məktəbə çevrilmiş və burada Cümşüd Yusifov (Rəşidin kiçik qardaşı), Məhəmmədəli Qazaxlı, Eldar Göyçaylı, E.Nəcəfov (Kirovabad), Hüseyn Rəhimov (Yerevan) və başqa onlarca güclü pəhləvan yetişmişdir.

Rəşid Yusifova Azərbaycan SSR-in Əməkdar artisti adı verilib. O, dəfələrlə digər təltiflərə, mükafatlara layiq görülüb.

Söhbətimizin sonunda qocaman pəhləvan belə dedi:

- Səhhətim bir az əl-ayağımı yığışdırıb, yoxsa böyük məmnuniyyətlə kəndlərimizə gedib elə qoluzorlu oğlanlar tapardım ki, bir-iki ayın içərisində yetişib olardılar əsl pəhləvan...

Sonra zarafatla əlavə etdi:

- Qaldı özümə, əgər 15-20 gün müntəzəm məşq eləsəm, elə yenə də "körpü" vəziyyətində üstümdən avtomaşın keçirə bilərəm...

“Баку”,
28 февраля 1980 г.

ЭВМ на службе междугородной

Прошло уже два с половиной года, как на Бакинской междугородной телефонной станции пущена в эксплуатацию автоматизированная технологическая система обработки междугородных переговоров.

За это время абоненты Бакинской МТС уже успели оценить достоинства системы, ведь они получают теперь напечатанную на ЭВМ счетквитанцию с подробнейшей расшифровкой проведенных переговоров. Правда, Бакинский абонент хорошо усвоил, что ЭВМ не забывает и не прощает долги любого срока давности. А наиболее «забывчивым» абонентам ЭВМ отключает телефон.

Ежедневно на Бакинской междугородной телефонной станции регистрируется около тринадцати тысяч переговоров по предварительным заказам (07) и четыре тысячи переговоров по автоматической связи (по коду). Наша МТС сейчас осуществляет свыше 52 процентов всех междугородных переговоров, проведенных в республике. Справедливости ради надо отметить, что потребности бакинцев в автоматических переговорах (по коду) удовлетворяются далеко не полностью.

Но обработка и такого количества междугородных переговоров сейчас немыслима без применения современной вычислительной техники и создания цельной технологической системы.

Разработка автоматизированной технологической системы для Бакинской МТС начата специалистами информационно – вычислительного центра Министерства связи Азербайджанской ССР в 1974 году. Благодаря оригинальным решениям, разработчикам удалось добиться технологически замкнутой модели реализации системы на ЭВМ третьем поколения и в сжатый сроки внедрить ее в производство.

Разработанная система качественно отличается от эксплуатируемых в Москве, Киеве, Вильнюсе и не имеет в стране аналогов. Для сравнения можно отметить, что даже в Москве обработку междугородных переговоров переложили на ЭВМ лишь частично и до сих пор адреса на квитанциях для москвичей находят и надписывают вручную. Вручную подготавливаются и сведения на отключение телефонов и др. Нигде не практикуется и такой повышенный сервис абонентам, как полная расшифровка в счете состоявшегося междугороднего переговора.

Все это не могло не сказаться на технико-экономических показателях Бакинской МТС. Только прямой экономический эффект от внедрения системы превысил 180 тысяч рублей в год.

Кроме разработок, здесь еще осуществляется и постоянная эксплуатация внедренных подсистем, а это возможно только при своевременной и качественной подготовке для ЭВМ информации о междугородных переговорах через 07, оплаченных счетах со сберегательных касс и др. Кстати, информация об автоматических переговорах (по коду) выводится на перфоленту автоматически.

Ежедневно в ИВЦ подготавливают информацию порядка 500 тысяч заказов и тут нельзя не отметить работу операторов. Каждый из них подготавливает за смену

информацию в 52 тысячи знаков и выше. А такой строгий контролер, как ЭВМ, не пропускает ни одной ошибки.

Благодаря полностью автоматизированной технологии обработки междугородных переговоров планомерно производится и подключение на Бакинской МТС новых полуавтоматических и автоматических каналов связи. Это способствует, в конечном счете, более полному удовлетворению все возрастающих потребностей бакинцев в междугородных переговорах.

К важным задачам ИБЦ относится ввод в эксплуатацию второй ЭВМ третьего поколения типа ЕС-1022, которая, «заберет» все возрастающую нагрузку на нынешнюю ЭВМ.

"Sovet kəndi",
15 mart 1980-ci il

Məşhur pəhləvanlarımız

Eldar Göyçaylı

Xalqımızın fəxr etdiyi istedadlı pəhləvanlardan biri də Rəşid məktəbinin yetirməsi Eldar Göyçaylıdır (Sultanov). O, 1908-ci ildə Göyçay rayonunda anadan olmuşdur. Eldarın bacıları Tükəzban, Səfurə və qardaşı Niftalı da (sonralar məşhur güləşçi kimi şöhrət qazanan Qara Rüstəm) qüvvəli pəhləvanlar kimi tanınırdılar.

Eldar hələ 12-13 yaşlarında olarkən rayonlarda qastrolda olan pəhləvanların çıxışlarına böyük maraqla tamaşa edərdi. Bütün qastrol müddəti ərzində həmin pəhləvanların arxasınca kənd-kənd, oba-oba gəzər, onlara heyran-heyran baxardı. O, tamaşadan əvvəl və sonra pəhləvanların məşq otaqlarının yanında dolanar, fürsət düşəndə onların daşlarını atıb-tutardı. Bəzən də onu pəhləvanlar özləri işə buyurar, daşları bir yerə yığışdırmaq, lazım olan əşyaları tapmaq və başqa bu kimi tapşırıqlar verərdilər. Lakin heç kəs idmana qarşı onda olan bu vurğunluğu duya bilmirdi. Ona ilk dəfə qiymət verən Rəşid pəhləvan oldu:

- Biz bir dəfə Göyçayda çıxış edərkən səhnəyə on beş nəfər adam çağırdım. Bu mənim növbəti nömrəm idi. Bir neçə nəfərlə çəkişməli idim. Camaata müraciətimi qurtaran kimi, ötkəm bir səs eşitdim: "Mən təkcə çəkişərəm!"

Çevrilib baxanda bir oğlan uşağını gördüm. Onu səhnəyə dəvət etdim. Çiyinlərindən tutub silkələdim. Möhkəm oğlana oxşayırdı.

- Bacararsan?
- Bacararam!

Onun qətiyyətli cavabı xoşuma gəldi. Buna baxmayaraq, igidə kömək üçün beş nəfər də verdim. Razılaşdı.

Eldarın idman aləminə gəlişi də elə Rəşid pəhləvanla bu görüşdən sonra başlanır. O, təcrübəli güləşçinin yanında pəhləvanlığın bütün sirlərinə bələd olur. Eldarın yaxşı gücə malik olması, hər şeyi öyrənmək həvəsi, çətinlikdən qorxmaması, məğlubiyyətin acısını dadarkən ruhdan düşməməsi, əksinə, özünə qarşı tələbkarlığını artırması və daim güclü rəqiblərlə görüşmək ehtirası tezliklə onu məşhurlaşdırır.

...Artıq Azərbaycanda tanınmış və bir çox yarışların qalibi olan Eldar 1933-cü ildə Gəncədə fransız güləşi üzrə professional pəhləvanların yarışına dəvət olunur. Dövrün ən güclü və məşhur pəhləvanlarının iştirak etdikləri bu çempionat sentyabrın 14-dən 17-nə kimi Lenin parkında böyük müvəffəqiyyətlə keçdi. Burada gənc Eldarla birlikdə Mişiko Moçabeli, Pavel Zaqoruyko, Rakovski, Kandelaki və başqa pəhləvanlar da çıxış edirdilər.

Onu da qeyd edək ki, fransız güləşi Rusiyada XX əsrin əvvəllərindən yayılmağa başlamışdı. Rusiyada onun ilk nümayişçiləri o vaxtın əzəmətli rus bahadırları Poddubnı, Vaxturov və başqaları olmuşlar.

Gəncədə keçirilən çempionat yeni bir güclü rəqibi üzə çıxardı. Bu, Eldar Göyçaylı idi. Hər bir çıxışı gurultulu alqışlara səbəb olan Eldrar Gəncədə özünü bacarıqlı və mahir atlet kimi göstərərək birinci yeri tutdu. Çempionatın birinci dərəcəli diplomunu və mükafatını aldı.

1934-cü ildə Eldar Göyçaylı yenidən Gəncəyə dəvət olunur. SSRİ-nin məşhur hakimi Pyotr Yelizarovun rəhbərliyi altında keçən bu yarış böyük sensasiya doğurdu. Burada güləşmə ilə yanaşı, ağırlıqqaldırma üzrə də yarışırdılar. Eldar Göyçaylı ağırlıq qaldıranlar arasında birinci yeri tutur. Yarışların ikinci mərhələsində çempionat iştirakçıları arasında güləş başlanır. O, bütün professional pəhləvanlarla güləşir və onların əksəriyyətinə qalib gəlir. Pavel Zaqoruyko ilə görüşü isə heç-heçə qurtarır. Beləliklə, Eldar məğlubedilməz güləşçi adını yenidən qoruyub saxlayır. O güləş

texnikası və səhnə mədəniyyəti ilə tamaşaçıların rəğbətini qazanır. 1935-ci ildə çempion adını bir də qoruyur.

Eldar idman aləminə atıldığı gündən ağır və məsul sınaqlardan çıxmalı oldu. Gəncədə məşhurlaşan kimi bir çox pəhləvanlar onu yarışa çağırdılar. Onlardan Bıkov, Yan Krauze, Arkis, V.Şturman və başqaları Bakının böyük sirkində və təmtəraqlı təşkil edilmiş parklarda gənc pəhləvanla güləşdilər. Bu görüşlərdən Eldar qalibiyyətlə çıxaraq, rəqibləri üzərində parlaq qələbələr qazandı.

1938-ci ilin yayı da Eldar üçün çətin və gərgin mübarizələrlə keçdi. O, Çerkassk Dövlət Sirkinə dəvət olunmuşdu. Maraqlıdır ki, həmin sirkin dəvətnamələrinin üzərində yalnız Eldar Göyçaylının şəkli verilmişdi. Artıq görüşdən-görüşə bərkiyən və daha inamla çıxış edən Eldar bu dəfə də V.Boqatıryov, Q.Sedyuk, V.Aes, P.Zaqoruyko, L.Videlman, Q.Petrenko, M.Maçabeli, M.Borisov, Emdkvari (abxaziyalı) kimi nəhənglərlə fransız güləşi və ağırlıqqaldırma üzrə mübarizə apararaq öz azarkeşlərinin ümidini doğrultdu.

Eldar Göyçaylı belə görüşlərlə yanaşı, zəhmətkeşlər qarşısında maraqlı tamaşalar da göstərirdi. 1933-1936-cı illərdə onun Zaqafqaziyaya böyük qastrol səfəri başlanır. Azərbaycanın rayonlarını, kəndlərini qarış-qarış gəzir, Gürcüstanda, Ermənistanda olur. Onun adına Azərbaycan Dövlət Sirkinə Axalsixedən, Gürcaanidən, Borçalıdan, Stepanavandan, Leninakandan, Kirovakandan, Şulaverdən, Allahverdidən, Naxçıvandan, Siqnaxidən, Saqarecodan, Şuşadan, Ağdamdan, Qubadan, Şəkidən və başqa yerlərdən təşəkkürlər, dəvətlər gəlməyə başlayır. Eldarın çıxışlarının zəngin və maraqlı proqramı olurdu.

Böyük Vətən müharibəsi bütün sovet adamları üçün əsas sınaq idi. Hər kəs öz vətəndaşlıq borcunu namusla, şərəflə yerinə yetirməyə çalışırdı. Cəbhədəkilər düşmənlə ölüm-dirim mübarizəsi aparır, arxadakılar gecəni gündüzə qatır, döyüşən orduya maddi və mənəvi yardım göstərərək bir məqsəd – müqəddəs torpağımızı faşist çəkmələrinin tapdağından xilas etmək uğrunda çalışırdılar.

Bu dövrdə Azərbaycan bahadırları da böyük vətəndaşlıq rəşadəti göstərirdilər. Cəbhə üçün kənd təsərrüfatı məhsulları hazırlayan sovxozda direktor vəzifəsində çalışan Eldar Sultanov da

işinin məsulluğuna və çətinliyinə baxmayaraq, Azərbaycan Dövlət Sirkinin atletləri sırasında müxtəlif hərbi hissələrdə, zabitlər klublarında çıxışlar edər və tamaşalardan yığılan pulun müəyyən hissəsini orduya kömək məqsədilə yardım fonduna köçürərdi. Axalsixe Rayon Partiya Komitəsinin katibi Kirvalidze 1941-ci il 29 oktyabr tarixli təşəkkürnamədə yazırdı:

"Tərkibində məşhur pəhləvan Eldar Sultaonovun iştirak etdiyi Azərbaycan Dövlət Sirkinin atletləri rayonumuzda 4 gün çıxış etmişlər. Onlar özlərinin axırıncı çıxışlarından yığılan məbləği tamamilə Qızıl Ordu əsgərləri üçün isti paltar alıb göndərən fonda vermişlər. Yığılan 3.000 manata 60 dəst isti paltar alınıb döyüşçülərə göndərilmişdir. Rayon Partiya Komitəsi onlara öz təşəkkürünü bildirir".

Hərbi hissələrdən, xüsusən Zaqafqaziyaya köçürülmüş qospitallardan göndərilən məktublar dərin hiss-həyəcan, təşəkkür və minnətdarlıqla dolu idi. Qəhrəmancasına vuruşlarda ağır yaralar almış igid əsgər və zabitlər Eldar Göyçaylının çıxışlarından təsirlənərək cəhbədə döyüşçü yoldaşları arasında olmaq istədiklərini bildirirdilər. Onların yazdıqlarından məlum olur ki, çoxları Azərbaycan bahadırının qeyri-adi güc tələb edən nömrələrindən sonra insanın nəyə qadir olduğunu bir daha yəqin edir, "yüngül" bir yara ilə yatdıqlarından xəcalət çəkir və həkimlərdən tələb edirdilər ki, onları cəbhəyə göndərməyə icazə versinlər. Demək olar ki, hər məktubun sonunda pəhləvan bir daha görmək arzusunda olduqlarını yazırdılar.

Ömrünün axırına kimi (1970) idman və sirk fəaliyyəti ilə yanaşı, Kürdəmir və Şamaxı rayonlarında ayrı-ayrı vəzifələrdə çalışan Eldar Göyçaylı faydalı əməyinə görə dəfələrlə müxtəlif mükafat və təltiflərə layiq görülmüşdür.

Onun əfsanəvi gücü yüzlərlə gəncin qəlbində idmana məhəbbət oyatmış və kəndlərimizdə idmanın kütləvi surətdə inkişafına böyük təkan olmuşdur.

"Azərbaycan müəllimi",
10 sentyabr 1980-ci il

20-ci illərin müəllimləri

Vurğunluq

İstər baharda qaranquş kimi, bənövşə kimi, istər ailədə övlad kimi, uşaq kimi, istərsə də bir elin fəxri, vüqarı kimi gəlişi intizarla, ümidlə gözlənilən ilkin olmaq, nübar olmaq bəxtəvərlikdir!

Yaşı səksəni haqlamış Səftər Maqsudov belə bəxtəvərlərdəndir. O, Göyçay rayonunda mükəmməl maarif ziyası ilə qanadlanmış ali təhsilli müəllimlərin nübarıdır, ilkidir.

İnqilaba qədərki mollaxanada təhsil alan Səftər Azərbaycanda Sovet hakimiyyətinin ziyalılar qarşısında açdığı geniş, aydın üfüqlərə pərvazlandı. Savadlı adamlara böyük ehtiyac olduğunu nəzərə alıb, 1920-ci ildə onu altıaylıq müəllimlik kursuna göndərdilər. İnqilabın ilk illərində kəndlərdə, qəzalarda bir-iki nəfər yazı-pozu bilən adamları nəzərə almasaq, kütləvi savadsızlıq, cəhalət hökm sürürdü. Müəllimlik kursunu müvəffəqiyyətlə bitirən Səftər Maqsudov savadartırma kurslarında tükənməz bir həvəslə dərs deməyə başladı. O, bütün gücünü, biliyini həmyerlilərinin beyinlərini, fikirlərini, əqidələrini bürümüş gerilik, mövhumat xəstəliklərindən xilas etmək kimi çətin, məsuliyyətli bir işə sərf edirdi. Avam adamların balalarına, qızlarına, gəlininə savad öyrətmək, qadınla kişinin hüquq bərabərliyindən söhbət açmaq, qadınların dövləti idarə etmələrindən danışmağın özü də o vaxtlar bir igidlik, qəhrəmanlıq idi. Gecələr pəncərəndən qara daşa bürünmüş hədə dolu "kağız" atılanda, qaranlıq bir tində "berqandanın" gülləsi qulağını

yalayanda öz inadından, əqidəndən dönməmək gələcəyə böyük inam idi, onun qələbəsinə, onun yaşayacağına inam idi.

1924-cü ilə kimi rayonun ictimai-siyasi həyatında, eyni zamanda, maarif sistemində dəyərli və xeyirxah iş görən Səftər Bakıya göndərilir. O, burada, fəhlə fakültəsində oxuya-oxuya 40 nömrəli məktəbdə pioner baş dəstə rəhbəri, sonralar 5 nömrəli məktəbdə və Oktyabr rayonunun gecə məktəblərində müəllim işləyir.

Elmə, maarifə, ümumiyyətlə, müəllimliyə böyük həvəsi olan Səftər təhsilini daim artırmağa meyl göstərirdi. Bu məqsədlə o, 1928-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tarix-ictimaiyyət fakültəsinə daxil olur və 1931-ci ildə oranı müvəffəqiyyətlə bitirir.

Ali məktəbi bitirdiyi ildən ta bu vaxta qədər yarıməsrlik bir dövrdə S.Maqsudov şərəfli və gərəkli müəllim ömrü yaşamışdır. Partiya və dövlətimizin elə bir göstərişi, elə nir tədbiri olmamışdır ki, S.Maqsudov onun alovlu təbliğatçısı və təşkilatçısı olmasın. Mədəni inqilab dövründə, kolxoz quruculuğu illərində kütlələr içərisində böyük siyasi iş aparan sovet müəllimlərinin ön cərgəsində addımlamışdır. Göyçay, Ucar, Zərdab, Kürdəmir zonasında mətin bir kommunist müəllim kimi rayon komsomol və partiya komitələrinin təbliğatçısı və təşviqatçısı olmuşdur. Rayonun ictimai-siyasi həyatında fəal iştirak edən S.Maqsudov müəllimlik fəaliyyətini daha da genişləndirmişdir. O, 1932-ci ildən Göyçayda Pedaqoji Texnikumda, Pambıqçılıq texnikumunda, partiya məktəbinin kolxoz kadrları hazırlayan qrupunda dərs deməyə başlamışdır. Sonralar isə kolxoz kadrları hazırlayan məktəbin dərs hissə müdiri olmuşdur.

...1941-ci ildə Vətənimizin üzərini alan qara buludlar qəlbi yaşamaq, öyrətmək, gənc nəslin gələcəyi üçün gözlərinin nurunu gilə-gilə əritmək ehtirası, həvəsi ilə dolu olan Səftərin arzularını yarımçıq qoydu. O, qələmi süngüyə çevirərək, müqəddəs torpaqlarımızın müdafiəsinə qalxdı.

Arxada olduğu kimi, cəbhədə də öz yoldaşları arasında dərin biliyə, Vətənə sədaqətinə, beynəlmiləlçilik duyğularına görə fərqlənən Səftər cəbhə dostlarının hörmət və məhəbbətini qazandı. O, komandanlığın müxtəlif mükafat və təltiflərinə layiq görüldü.

Uzunmüddətli müharibənin törətdiyi fəlakətlər, vurduğu yaralar ağır idi. Evlər dağıdılmış, məktəblər xarabağlığa çevrilmiş, yurdsuz-yuvasız tifillər arxaya köçürülmüş və əksəriyyəti oxumağı-yazmağı belə unutmuşdu.

1945-ci ildə ordudan tərxis olunan Səftər Maqsudov yenidən öz sevimli peşəsinə qayıdır və kimsəsiz uşaqlara ata kimi həyan olur. O, 1947-ci ildən 1952-ci ilə kimi Göyçay uşaq evinə başçılıq edir. Bu müddətdə neçə uşağın sirdaşına, neçə körpənin həmdəminə, neçə kövrəyin təsəllisinə çevrilir, neçə namuslu oğlan və qızın məsləhətçisi, yol göstəricisi, müəllimi olur.

1953-cü ildə Səftər müəllim Göyçay Kənd təsərrüfatını mexanikləşdirmə və elektrikləşdirmə texnikumuna müəllim təyin olunur, az sonra texnikumun ilk partiya təşkilatının katibi seçilir. Hazırda da o, burada çalışır.

60 il müəllim! Bir insan ömrüdür bu təqvim. Ömrünün yarım əsrdən çoxunu yüzlərlə şagirdinin gələcəyinə çıraq etmişdir. Başındakı ağ saçlar neçə şagirdin qayğısıdır, taleyidir. Düşünürsən ki, onda öz sənətinə bu qədər vurğunluq, bu qədər bağlılıq, bu qədər məhəbbət haradandır? Bəlkə Azərbaycanın ən ucqar guşələrinə belə səpələnən, müxtəlif elm sahələrində ad-san çıxaran həkim, müəllim, fizik, mühəndis şagirdləridir ona öz sənətini sevdirən, öz sənətini müqəddəsləşdirən?! Təsadüfi deyildir ki, öz övladlarından da ikisi onun yolunu tutmuşdur. Elə bir yolu ki, onun kələ-kötürü də var, sıldırımlı sahilləri də, daş-kəsəyi də var, yuxusuz gecələri də... Lakin sevinci, nəşəsi, çil-çırağı daha çoxdur. Çünki bu yolda əriyənlər mayak olublar, əbədi məşələ çevriliblər, Səftər müəllimin ömrü kimi!..

"İdman",
18 fevral 1981-ci il

Rəşid Pəhləvanla görüş

Ona Azərbaycan SSR Xalq artisti fəxri adı verilməsi xəbərini rayonda olarkən eşirtdim. Artıq şəhərə qayıdanda aradan bir ay keçmişdi. Tələsirdim. Avtobus dayanacağında səbrim tükəndi, qaçıb bir taksi saxladım. Maşına əyləşən kimi bu dəqiqələrdə bütün fikrimə-zikrimə hakim kəsilmiş bir hissə qapıldım. İndi mən ona nə deyəcəyəm? O yəqin ki, bu xoş xəbərin şirinliyini çoxdan daddığından onun üçün artıq adiləşmişdir. Hər halda bir söz deməli idim. "Sizə daha böyük uğurlar, daha parlaq qələbələr arzu..." Yəni, bu söz yerinə düşərdi? Məgər ömrün xəzan çağında "uğurlar, qələbələr arzu edirəm" demək qeyri-səmimi görünməzdimi?..

...Qapı açılanda soruşdum:

- Rəşid pəhləvan evdədir?

Onun gümrah səsini eşitcək irəli atıldım. Səmimi görüşdük. Damarları çıxmış iri, qüvvətli əlləri çiyinlərimi sıxdı.

- Sağ olsunlar, haqqı-sayı unutmayıblar, – dedi. – Bu qayğı üçün dövlətimizə, xalqımıza minnətdaram.

Yəqin ki, söhbətin Azərbaycanın məşhur pəhləvanı Rəşid Yusifovdan getdiyini hiss elədiniz.

Rəşid Yusifov 1900-cü ildə Gürcüstanın Borçalı mahalının (indiki Marneuli) Gorarxı (Alget) kəndində anadan olmuşdur. Sonralar atası Tiflisə köçmüş və onlar burada daimi məskən salmışlar.

Bir neçə il müsəlman məktəbində oxuyan Rəşid atasının ölümündən sonra maddi cəhətdən korluq çəkdiklərinə görə məktəbi yarımçıq qoyub, erməni Simonun yanında dəmirçilik etmişdir. El şənliklərində, toylarda, məclislərdə özündən

böyüklərlə güləşən və əksər hallarda onlara qalib gələn Rəşidin qabiliyyəti o dövrün güləş ustaları Yemelyanov və Maysuradzenin diqqətini cəlb edir və onlar Rəşidlə məşqə başlayırlar.

Qısa müddət ərzində sərbəst güləşin bütün qaydalarını mənimsəyən gənc pəhləvanın ilk rəqibi tiflislilərin sevimlisi, təcrübəli güləşçi Datiko Berişvili oldu. Datikonun qələbəsi heç kəsdə şübhə doğurmurdu. Görüş üçün ayrılımış iyirmi dəqiqənin birinci yarısı pəhləvanların heç birinə üstünlük qazandırmadı. Lakin axırıncı dəqiqələrdə Rəşid rəqibinin kürəklərini yerə vura bildi.

Bundan sonra Tiflis sirkinə dəvət olunan Rəşid burada qocaman idmançı Lado Kavsadzenin rəhbərliyi altında məşqləri davam etdirdi. 1920-ci ildə türk güləşçisi Mustafa Xamarığı, 1924-cü ildə isə iranlı Əli pəhləvanı məğlub edir.

Onun gözəl, mütənasib bədən quruluşu, çevik və qüvvətli olması kino işində də kara gəlmiş və Rəşid 1924-cü ildə inqilaba qədərki gürcü kinosunun məşhur rejissoru İ.Perestianinin "Üç həyat", "Tariyel Mklavadzenin işi" və "Arsen" filmlərində çəkilmişdir.

1924-cü ildə Rəşid Yusifov ən yaxşı güləşçilərin Tiflis yarışlarında iştirak edir. Burada o, təcrübəli pəhləvan, "fransız güləşinin texniki" adlandırılan, bir çox beynəlxalq yarışların qalibi Pyotr Praşeklə görüşür. Bütün bu gurultulu titullarına, pəhləvanın səhnəyə çıxıb özündən razı halda meydan oxumasına baxmayaraq, Rəşid onu 17 saniyəyə məğlub edir.

Az vaxtdan sonra Rəşid Yusifovun adı Sovet İttifaqının müxtəlif yerlərində çəkilməyə başladı. Moskva, Qorki, Rostov, Daşkənd, Voronej, Suxumi, Krasnodar və s. şəhərlərdə onun afişalarını tez-tez görmək olardı. Onun fəaliyyəti iki istiqamətdə gedirdi. Əvvəla, Rəşid bir pəhləvan kimi müxtəlif yarışlarda iştirak edir və dünya şöhrəti qazanmış məşhur pəhləvanlar üzərində parlaq qələbələr qazanırdı. Alman pəhləvanı Abek Anderson, Rudolf Albert, amerikalı zənci Frank Qud, Çempers

Tsipsin, türk Mustafa Xamarıq, Qara Yusif, habelə Pavel Zoqoruyko və başqaları ona məğlub olmuşdular.

Rəşidin digər fəaliyyəti sirk səhnəsində çağlayırdı. 1928-ci ildə Bakı sirkinin dəvətini həvəslə qəbul edən Rəşidin fəaliyyətinin daha parlaq səhifələri açılmağa başlayır. O, sirkdə müxtəlif maraqlı, orijinal, heyrətamiz nömrələr göstərir, idmanın, bədən tərbiyəsinin yetişdirdiyi insanın nələrə qadir olduğunu öz çıxışları ilə nümayiş etdirirdi.

Böyük Vətən müharibəsi illərində Rəşid pəhləvan müdafiə naminə, qələbə naminə misilsiz xidmətlər göstərirdi. Öz peşəsinə, sənətinə sadiq bir pəhləvan, sirk artisti kimi ölkəmizin müxtəlif yerlərində tamaşalar göstərir, çıxışlarından yığılan məbləği qızıl əsgər ailələrinə kömək fonduna verirdi.

Rəşid Yusifov həm də Azərbaycanın mədəniyyət tarixinə milli sirkin bünövrəsini qoyanlardan biri kimi daxil olmuşdur. Onun təşəbbüsü sayəsində səyyar sirk bir məktəbə çevrilmiş və burada Cümşüd Yusifov, Məhəmmədəli Qazaxlı, Eldar Göyçaylı, E.Nəcəfov, H.Rəhimov və b. kimi güclü pəhləvanlar yetişmişdir ki, onların da Azərbaycan güləşinin gənclər arasında geniş yayılmasına çox böyük köməkləri olmuşdur.

1957-ci ilin fevralında Rəşid Yusifovun ölkə qarşısındakı, xalq qarşısındakı xidmətləri yüksək qiymətləndirildi. Ona Azərbaycan SSR Əməkdar artisti fəxri adı verildi.

Bu yaxınlarda isə onun həyatında daha əlamətdar hadisə baş vermişdir. Milli mədəniyyətimizin, incəsənətimizin inkişafı, təbliği naminə gərgin əmək sərf etmiş qocaman pəhləvana, məşhur sirk atletinə Azərbaycan SSR Xalq artisti fəxri adı verilmişdir.

...Artıq hava qaralmışdı. Ancaq nə onun xatirələri tükənirdi, nə də mənim maraq dünyam. Sevinirdim ki, əsrimizin qüvvətli adamlarından birinin mübarizə dolu, dözümlü və mənalı həyatı ilə tanış oluram.

"Ədəbiyyat və incəsənət" qəzeti,
28 avqust 1981-ci il

Onun bahadırlıq sənəti

Yaşlı nəslə yaxşı məlumdur ki, Rəşid Yusifov Azərbaycan idman tarixində onun güləş, daşoynatma, böyük güc və qüvvət tələb edən müxtəlif milli növlərində özünəməxsus rolu olan novator pəhləvanlardandır.

...Rəşid el şənliklərində, toylarda atası Əliməmməd kişinin çıxışlarına maraqla baxardı. Onda pəhləvanlığa həvəsi də atası oyatmışdı.

İlk qələbələrinin sevincini Rəşid çox erkən duydu. Artıq 10-15 yaşlarında o, Tiflisin idman həvəskarlarının sevimlisinə çevrildi. İllər bir-birini əvəz etdikcə, Rəşid təcrübəli məşqçilərin rəhbərliyi altında pəhləvanlığın sirlərini öyrənir, püxtələşirdi. Bakı sirkinə dəvət olunanadək artıq onu ölkəmizin bir çox şəhərlərində tanıyırdılar. Bakı sirkinə isə 1924-cü ildə dəvət olundu.

Beş il sonra Taqanroqda böyük anşlaqla keçən qastrolun sonuncu günü Rəşidi sirk direktorunun kabinetinə dəvət elədilər. Burada onu dünya şöhrətli İ.Poddubnı gözləyirdi. Məşhur rus bahadırı əlini Rəşidin kürəyinə vuraraq dedi: "Mən sənin haqqında eşitmişdim. Sənin şücaətinin sədası uzaqlara çatıb. Afişana baxanda orada təsvir olunan nömrələri göstərə biləcəyinə inanmırdım. Bu gün səhnədə isə... başqa aləm, möcüzə yaradırdın, - əhsən!"

Təxminən 10 ildən sonra Qorki sirkindən dəvət alan Rəşid Poddubnı ilə ikinci dəfə görüşür. Poddubnının xahişi ilə o, Yeysk şəhər teatrında zəngin proqramla 4 gün çıxış edir. Bu müddət ərzində onların arasında səmimi dostluq telləri yaranır. Poddubnı Rəşidə özünün xarici ölkələrə səfərləri, maraqlı adamlarla

görüşləri barədə danışır, öz təcrübəsindən, güləşin sirlərindən söhbət açır. O söz verir ki, Zaqafqaziya respublikalarının sirklərində Rəşidlə birgə çıxışlar edəcəkdir. Təəssüf ki, Poddubnının xəstələnməsi, sonra isə Böyük Vətən müharibəsinin başlanması onlara öz planlarını, arzularını həyata keçirməyə imkan vermədi.

1942-ci ildə döyüşçülərə və arxa cəbhədə çalışanlara xidmət göstərmək üçün Bakı Dövlət Sirkində briqada yaradıldı. Briqadanın bədii rəhbəri Rəşid Yusifov təyin olundu.

Müharibə illərində briqada məşhur artistlərlə birlikdə dəfələrlə cəbhəyə getmiş, maraqlı çıxışlarla döyüşçüləri mübarizəyə ruhlandırmışdır. Rəşid vətənin ağır günlərində adamlarda öz qüvvəsinə inam tərbiyə edir, insan iradəsinin hüdudsuz imkanlarını göstərirdi. Onu hamı başa düşür, hamı həvəslə qarşılayırdı. O, rus və ukraynalıların, belorus və özbəklərin, qazax və azərbaycanlıların, türkmən və gürcülərin, erməni və qırğızların eyni dərəcədə sevimlisi idi.

...Bir dəfə Rəşid uzaq bir qarnizondakı çıxışını qurtarıb, evə gecədən xeyli keçmiş qayıtdı. Paltosunu çıxarmağa macal tapmamış qapı döyüldü. İçəri iki nəfər daxil oldu. Onlar Sabunçu hərbi xəstəxanasında müalicə olunan yaralı əsgərlər qarşısında çıxış etmək üçün Rəşidə dəvətnamə gətirmişdilər...

Lakin baş həkim Rəşidin çıxışına icazə vermək istəmədi, "onun çılğın hərəkətləri xəstələri öz halından çıxarar, onların sakitliyini pozar", – dedi. Nəhayət, xəstələrin kəskin etirazı baş həkimi öz qərarını dəyişməyə məcbur etdi...

R.Yusifov bir anlığa xəyalən həmin günlərə qayıdır və həmin hadisəni belə xatırlayır: səhəri gün sirkin direktoru məni yanına çağırıb zarafatla dedi: baş həkim səndən yaman şikayət edir. Deyir ki, hərbi xəstəxanadakı əsgərləri yoldan çıxarmısan, hamı düşüb üstümə ki, tez olun, bizi cəbhəyə göndərin...

Bütün bunlarla yanaşı, baş həkim Rəşidə öz minnətdarlığını da bildirmişdi, "bizim bir aylıq müalicəmizi sən bir gündə etmisən", – demişdi.

1944-cü ildə Rəşid Yusifova böyük etimad göstərildi. Ona Azərbaycanda ilk səyyar sirk təşkil etmək tapşırıldı. "Zorxana" adlanan həmin sirk belə yaradıldı. "Bakinskiy raboçiy" qəzetinin 4 iyun 1944-cü il tarixli nömrəsində dərc olunmuş "Azərbaycanın ilk səyyar Dövlət sirki" adlı yazıda "Zorxana" haqqında müfəssəl danışılır.

Sirkin bədii rəhbərliyi Rəşid Yusifova təsadüfi tapşırılmamışdı. O, müxtəlif peşəli, müxtəlif dünyagörüşlü adamlarla işləməyi bacarırdı. Onun ünsiyyəti, mədəniyyəti, təvazökarlığı, ayrı-ayrı teatr və sirk briqadalarında mənimsədiyi müsbət keyfiyyətlər, görüş dairəsinin geniş və çoxcəhətliliyi sirkə rəhbərlik işini asanlaşdırırdı.

Rəşid Yusifov sirkə güclü və bacarıqlı pəhləvanlar dəstəsi cəlb edə bilmişdi. Onlardan Eldar Göyçaylı, Cümşüd Yusifov, Çingiz Göyçaylı və başqaları sonralar Azərbaycan milli güləşinin əsl təbliğatçıları oldular, hər biri müstəqil briqadalar düzəldib, bədən tərbiyəsinin, idmanın inkişafı naminə gərgin əmək sərf etdilər.

Bu yaxınlarda yarıməsrlik səhnə fəaliyyətinə görə Rəşid Yusifov Azərbaycan SSR-in Xalq artisti fəxri adına layiq görülmüşdür. Yaşının səksəni keçməsinə baxmayaraq, Rəşid Yusifovu tez-tez sirk kollektivində, idmançılar arasında görmək olar. Çünki onun ənənələri, arzuları bu kollektivlərin qələbələrində davam etdirilir. Pəhləvan özü isə onların nailiyyət və uğurlarının sevinci ilə yaşayır.

"Azərbaycan müəllimi",
27 yanvar 1982-ci il

Müəllimin kitab rəfi

"Aman ayrılıq!"

Böyük Azərbaycan şairi Seyid Məhəmmədhüseyn Şəhriyar 55 ildən artıqdır ki, yazıb-yaratmaqdadır. O hələ orta məktəbdə oxuyarkən, yaradıcılığa başlamış və oxucuların diqqətini cəlb etmişdir. Şəhriyarın əsərləri toplu (məcmuə) şəklində ilk dəfə 1929-cu ildə şairin 23 yaşı olanda Tehranda çapdan çıxmışdır. Bu əsərə dövrün üç görkəmli ədəbi şəxsiyyəti: şair Məhəmməd Tağı Məliküş-şüəra Bahar, alim Səid Nəfisi və şair Pejman Bəxtiyarı müəqəddimə yazmışlar. Bahar bu müqəddimədə yazırdı: "Şəhriyar gələcəkdə təkcə İranın yox, bəlkə bütün Orta Şərqin iftixarı olacaqdır". Bu həqiqət indi özünü doğrultmuşdur.

1906-cı ildə Təbrizdə ziyalı ailəsində doğulan Şəhriyarın dünyaya gəlməsi məşrutə hərəkatı uğrunda Azərbaycan xalqının Təbrizdə apardığı ölüm-dirim mübarizəsi dövrünə təsadüf edir. Elə buna görə də onu uşaq ikən atası doğma kəndlərinə - Xuşgənaba göndərmişdir. O, uşaqlıq illərini Ucan Abbas mahalının Xoşgənab və Qayışqurşaq kəndlərində, Heydərbaba dağının ətəyində, Səhəng dağının yaxınlığında keçirmişdir.

Uzun müddət doğma yurdundan uzaq düşən şairin vətənə qayıdıb Heydərbabanı ziyarət etdikdə uşaqlıq günləri yenidən xatirində canlanır. O indi vətəndə uşaqlıqda gördüyü dostlar və qohumlardan bir çoxunu görə bilmir. Hadisələr dalğalarının daşdan-daşa vurması, vətəndən ayrılıq kədəri, ilk məhəbbətin nakamlığı – sevgilisi Sürəyyanın, yoxsul olduğu üçün ona verilməməsi, şairin qəlbində böyük bir tufan yaratmışdır. Bu tufanın səsi "Heydər babaya salam" şeiri vasitəsilə iti sürətlə Orta

Şərqi bürüdü. "Heydər baba" 1929-cu ildən sonra şairin toplu şəkildə (1953) çap olunan birinci əsəri idi.

"Heydər babaya salam" Şəhriyarın Azərbaycan dilində yazdığı ilk iri həcmli əsəridir. Bu əsər şairin yaradıcılığında elə böyük dönüş yaratdı ki, bəlkə fars dilində yazıb-yaratdığı misilsiz divanlarını kölgədə qoydu. Türkdilli xalqlar arasında Şəhriyarın şöhrətini göylərə qaldıran bu əsər haqqında İran, Azərbaycan, Türk və İraq mətbuatında saysız-hesabsız məqalələr yazıldı. "Heydər baba"dan ilham alan onlarca şair, hətta şair olmayan alim və başqa sənətkarlar belə "Heydər baba"ya cavab yazdılar. Buradan da görünür ki, "Heydər baba" Cənubi Azərbaycan ədəbiyyatında yeni bir mərhələ - böyük bir dönüşün müjdəçisi oldu.

Doğrudan da "Heydər baba" xalqın dərdlərini, onun arzu və istəklərini bədii şəkildə öz oxucularına çatdırır.

Mən sənin tək dağa saldım nəfəsi,
Sən də qaytar, göylərə sal bu səsi,
Bayquşun da dar olmasın qəfəsi,
Burda bir şir darda qalıb bağırır,
Mürüvvətsiz insanları çağırır.

Həqiqətən də "Heydər baba" yazılarkən, Azərbaycan qəfəsdəki bir şir kimi özünə kömək və imdad istəyir, onu bu qəfəsdən azad edənləri axtarır, ayrı düşənlərini görməyi arzulayırdı:

Bir uçaydım bu çırpınan yelinən,
Bağlaşaydım dağdan aşan selinən.
Ağlaşaydım uzaq düşən elinən,
Bir göreydim ayrılığı kim saldı,
Ölkəmizdə kim qırıldı, kim qaldı.

Şəhriyarın dərdi və arzusunun ən böyüyü ayrılığa son qoymaqdır. Ona görə də bütün yaradıcılığı boyu bu ayrılığın əlindən dad çəkib, fəryad edir:

Bir qəridə qardaşdan uzaqlaşmaq olurmuş,
Qardaş deyə bir ömr soraqlaşmaq olurmuş.

Şəhriyarın əsərləri fars dilində külliyyat halında Tehranda bir dəfə, Təbrizdə iki dəfə, öz ana dilində yazdığı şeirləri toplu halda Bakıda üç dəfə çapdan çıxmışdı.

"Heydər babaya salam" əsəri ilk dəfə 1964-cü ildə ikinci dəfə seçilmiş əsərlərinin tərcüməsi ilə birlikdə 1966-cı ildə, üçüncü dəfə isə 1981-ci ildə "Aman ayrılıq" adlı kitabı çap olunmuşdur. Bu kitab professor H.Məmmədzadə tərəfindən hazırlanıb, "Yazıçı" nəşriyyatında çap olunmuşdur. Yeni kitab nəfis şəkildə buraxılmışdır. "Heydər baba" ilə bağlı olan miniatürlərin kitaba əlavə olunması onun gözəlliyini daha da artırmışdır. "Aman ayrılıq"da Şəhriyarın "Heydər babaya salam" əsərinin birinci və ikinci hissəsindən əlavə, şair Məmməd Rahimə, Süleyman Rüstəmə və Səhəndə yazdığı cavablar, Rüstəm Əliyevə yazılan "Döyünmə və söyünmə", "Tərsa balası", "Bir gəlin" və başqa şeirləri toplanmışdır.

Uzun müddət doğma vətəndən uzaq düşmək nə qədər ağır və nə qədər çətindir. Bu ağırlığı yalnız belə həsrət çəkən ürək və intizarla yollara dikilən göz duya bilər. Şair ətəyində sevilə-sevilə oynadığı Heydər babanı görən kimi ürəyini ona açır, dərdlərini danışır. Axı, ata-anasından ayrı düşən uşaq ilk görüşdə başına gələnləri valideynlərindən başqa kimə danışa bilər? Uşağa ata-anadan yaxın kim ola bilər? Məhz buna görə də şair Heydər babasına öz dərdini belə deyir:

Heydər baba! Gəldim səni yoxlayam,
Bir də yatam, qucağında yuxlayam.
Ömrü qovam, bəlkə burda haqlayam,

Uşaqlığa deyim: bizə gəlsin bir,
Aydın günlər ağlar gözə gəlsin bir.

Böyük cildlərə bərabər olan bu kiçik əsər vətən və xalq üçün misilsiz bir hədiyyə oldu. Şair "Heydər baba"nın birinci hissəsində öz həsrətini təsvir edirsə, ikinci hissədə doğma yurdunu gəzir, uşaqlıqda gördüyü, çilingağac, gizlənpaç və köşkübalaban oynadığı yerləri, gülünü, çiçəyini, meyvəsini dərdiyi bağları, şərbət kimi şirin suyundan içdiyi bulaqları seyr etdikcə bir tərəfdən şad olub vəcdə gəlirsə, o biri tərəfdən də qayıtmayacaq gəncliyinin əlindən getdiyindən kədərlənir. Şairin odlu və alovlu ürəyi yanıb-alışır.

Onun dili sadə və rəvandır. Şeirlərini bir-iki dəfə oxuduqda yadda qalır. Şairin "Aman ayrılıq" adlı şeirlər kitabındakı "Tərsa balası" adlı şeirində Azərbaycan ədəbiyyatında indiyə qədər işlənməyən qəribə beytlərin olması bizi valeh edir:

Mən cəhənnəmdə də baş yastığa qoysam sənlən,
Heç ayılmam ki, durub – cənnəti – məvayə gəlim.
Nənə qarnında səninlə əkiz olsaydım mən,
İstəməzdim doğulub, bir də dünyayə gəlim.

Hər kəs vətənin adət-ənənəsini, gözəl mənzərəsini, bülbülləri valeh edən güllərini, dişləri göynədən buz bulaqlarını, başı qar və ətəyi nar gətirən dağlarını axtarmaq, onlarla tanış olmaq istəyirsə, Şəhriyarın əsərlərini oxusun, orada hər kəs öz istədiyini tapa bilər.

Amansız fələk başı min bəlalar çəkən, yenicə balaları ilə həmnəfəs olan şairin şadlığının uzun sürməsinə imkan vermədi. Sevimli Əzizəsini (ömür-gün yoldaşını) əlindən aldı. "Qara bayquş" şairin "Ağ quşunu çalanda" onun baharını xəzan etdi:

Sən bahar etdiyin çəməndə xəzan,
Hər nə gül, qönçə var sozaltmışdı.

Sən nə yaxşı eşitmədin balalar,
Ana, vay naləsin ucaltmışdı.

Nəhayət, istərdik Şəhriyar pərəstişkarları və ədəbiyyat həvəskarlarına bir müjdə verək. Cənubi Azərbaycanda Şəhriyarın öz doğma ana dilində şeirlər külliyyatı çap olunmuşdur. Yəqin ki, onu bizim oxucular da intizarla gözləyir. Əsərlərini sevə-sevə oxuduğumuz böyük şairimizin təzə əsərlərini də həvəslə oxuyacağıq. Kaş elə bir gün gələydi ki, şairin özü ilə də görüşə biləydik.

"Bakı",
19 mart 1982-ci il

Yeni kitablar

"Yazıçı" təqdim edir

Əzizə Cəfərzadə, "Bakı – 1501...".

İstedadlı yazıçı Ə.Cəfərzadənin tarixi mövzuda yazdığı bu roman üç hissədən ibarətdir: "Bakı – 1501...", "Qanlı-qadalı illər", "Hökmdarın şair ürəyi".

Yazıçı romanda Şah İsmayıl Xətainin həyat və yaradıcılığından, ictimai-siyasi fəaliyyətindən, Səfəvilər dövlətinin tarixindən və bununla bərabər, müharibənin törətdiyi bəlalardan söhbət açır.

Kitabda verilən illüstrasiyaların müəllifi Azərbaycan SSR Xalq rəssamı Maral Rəhmanzadədir.

Aşıq İmran, "Vurğunuyam sənətimin".

İncə və lirik xalq ruhu, doğma torpağa vurğunluq, onun gözəllikləri əməkdar mədəniyyət işçisi, Aşıq İmranın kitabına daxil olan qoşma və gəraylılarda öz bədii ifadəsini tapmışdır. Kitabda toplanmış şeirlərin başlıca qayəsini insana inam, təbiətə məhəbbət kimi fikirlər təşkil edir.

Anatoli Peredreyev, "Şamaxı yolu".

Rus şairi Anatoli Peredreyev respublikamızı, demək olar ki, başdan-başa gəzmiş, xalqımızın adət-ənənələri ilə yaxından tanış olmuşdur. Kitabda verilmiş şeirlərdə şairin Azərbaycan torpağına, onun adamlarına bəslədiyi dərin hörmət və məhəbbət hissi əks edilmişdir. Vətənpərvərlik, xalqlar dostluğunun gücünə sonsuz inam A.Peredreyevin poeziyasının əsas mövzularındandır.

İbrahim Kəbirli, "Ürəyimlə görürəm".

Kitabdakı şeirlərdə əmək qəhrəmanlarının parlaq surəti poetik cizgilərlə verilmişdir. Qurub-yaradan insana, onun halal zəhmətinə həsr edilmiş bu şeirlər maraqla oxunur.

Ağa Laçınlı, "Sevgimizlə sevindirək".

Bu, müəllifin oxuculara təqdim olunan səkkizinci kitabıdır. Burada şairin ictimai-siyasi mövzularda, habelə məhəbbət və təbiət mövzularında yazdığı şeirlər verilmişdir. Müəllif sadə, obrazılı ifadələr işlətməklə canlı və dolğun poetik lövhələr yaratmışdır.

Oqtay Rza, "Yasəmən çiçəkləyəndə".

Kitabda toplanmış bir sıra şeirlərdə Azərbaycanın təbii gözəllikləri, bu sərvəti daha da rövnəqləndirən, ona yeni ruh və həyat verən əmək adamları səmimiyyətlə tərənnüm edilir. Bununla yanaşı, cəmiyyətimizdə hələ də təsadüf olunan tüfeylilər, müftəxorlar, əliəyrilər satira atəşinə tutulur.

Şair uşaqlara da yeni şeirlər həsr etmişdir.

Bayram İsgəndərov, "Bir payız günü".

Hekayələrdən və mənsur şeirlərdən ibarət olan bu kitab müəllifin ilk əsərlər toplusudur. Gənc yazıçı qələmə aldığı mövzunu oxucuya birbaşa, rəngsiz-boyasız çatdırmağa çalışır, aydın, sadə dillə danışmağa meyl edir. B.İsgəndərovun qələmə aldığı mövzular müasirliyi ilə diqqəti cəlb edir.

"Спорт",
14 августа 1991г.

Сабир Рустамханлы,
Главный редактор газеты «Азербайджан», народный депутат республики:

- Каждый, кто не на словах – на деле любит свой народ, свою Родину, должен поступать так.
Карабах никогда не будет армянским! И это лишний раз подтвердил фестиваль!
Нам бы очень хотелось, чтобы в будущем подобную благородную миссию брали на себя и коллеги из других, не менее авторитетных газет и журналов.

Шариф Керимли

Славен Карабах богатырями!

Огромное общественно-политическое звучание получил фестиваль «Шуша бахадырлары». Проведенный Комитетом Народной Помощи Карабаху и редакцией газеты «Азербайджан» в эти тревожные дни, он был сродни юбилею Низами в блокадном Ленинграде 1941 года и лишний раз подтвердил стойкость азербайджанского народа, его непоколебимость в навязанном нам армянскими сепаратистами карабахском вапросе.

Четвертый уже год льется кровь на карабахской земле. Искусно подогреваемая армянскими националистами при молчаливой поддержке могущественных сил Центра, держит эта из пальца высосанная проблема весь наш народ, всю Азербайджанскую Республику в неимоверном напряжении.

Но, как бы нелегко ни приходилось, как бы ни был занят Оргкомитет по НКАО насущнейшими заботами, находится время и час для начинаний, воистину людей от забот отвлекающих, в их души надолго западающих. Вспомним, например, музыкальный фестиваль «Хары бюльбюль», на весь мир прогремевший.

И добавим к нему не менее значимый и не менее привлекательный фестиваль спортивный - «Шуша бахадырлары» (Шушинские богатыри). Посвященный знаменитому азербайджанскому пехлевану Гачаю Гусейнову, проводился он под эгидой Спорткомитета НКАО и Шушинского отдела культуры при активной поддержке Комитета Народной Помощи Карабаху н его печатного органа – газеты «Азербайджан».

Славен Карабах своими прекрасными традициями. В его многовековую историю золотыми буквами вписаны имена героев-пехлеванов, были которые широко известны не только на Ближнем Востоке, но и в России, в Европе.

Поэты посвящали им пламенные строки, ашуги-сказатели слагали о них дастаны. В документах, относящихся к истории Карабаха, упоминаются многие из этих богатырей.

Вот, например, Набат, который жил в Шуше в 30-80-х годах прошлого века. Во всем Карабахе не было ему равных. Из Шеки, Тебриза, Баку, Сараба приглашали самых сильных людей, чтоб более или менее достойную конкуренцию Набату они составляли.

И был у Набата любимый ученик – Сеид Гасан. Однажды приболел Набат, а как раз в это время приехал в Карабах Рустам пехлеван, чтобы с ним сразиться. Так вот Сеид Гасан сам вышел

на ристалище и уложил Рустама на лопатки, не уронил чести к доброго имени своего учителя.

Рассказывает заслуженный строитель Азербайджанской Республики, полковник в отставке, в 82-летний Гулам Агаев:

- В истории карабахского спорта есть такие яркие страницы, которые еще не до конца, к сожалению, изучены. К примеру, роль генерала Джафаркули хана, который, кроме того, что был одним из выдающихся государственных деятелей, уделял огромное внимание богатырским забавам Карабахцев.

А если конкретно говорить о пехлеванах, та надо бы назвать Мухаммеда, который уступал лишь Набату и Сеид Гасану. У него тоже был свой неповторимый борцовский почерк, было имя, была слава.

В начале нашего столетия карабахские пехлеваны создали единый ансамбль. Они участвовали в гастролях, разъезжая по всему Азербайджану, по Грузии, Армении, Северному Кавказу, и везде имели огромный успех.

Гачай Гусейнов, чьим именем и назвал нынешний фестиваль, был, как и Малик Искендеров, Джамал Казымов, широко известен в начале XX века. Снискавший всемирную славу Сали Сулейман называл его кавказским тигром. По его стопам затем пошли сыновья Таваккюль и Аллахверди, внук Рашад.

В свое время знаменитый Рашид пехлеван о Гачае говорил: «Это очень толковый и талантливый парень, наделен нечеловеческой силой. Потому я и пригласил его в «Зорхану».

...В тот день в Шуше был самый настоящий праздник! Давно так от души не улыбались шушинцы, пожалуй, с тех самых горестных дней 88-го, когда впервые здесь прогремели выстрелы и была пролита первая кровь.

Цели своей – хоть на день-два отвлечь шушинцев от невеселых будней – фестиваль, можно утверждать, достиг. Более того, они показали недобрым своим соседям силу и характер азербайджанского народа, его несгибаемость и оптимизм.

Прошел фестиваль на самом высоком уровне, в чем, должен особо подчеркнуть, заслуга председателя Спорткомитета

НКАО Равшана Гасанова. Люди вовремя были оповещены о соревнованиях, даже в самых отдаленных селениях, успели потренироваться и без сбоев выступить перед многотысячной публикой.

Вот только один-единственный, на мой взгляд, недостаток: не везде отнеслись по-серьезному к нашему призыву. В некоторых районах спорткомитеты к отделы культуры посчитали это дело второстепенным.

Тем не менее, представительство было широким. Из Кубы приехал Али Абдулгусейнов, из Шеки – Герай Лойманов, из Борчалы (Грузия) – Мусаллим Хакимов, из Закаталы – Рашид Алекперов.

А самому юному участнику было всего 13 лет. Это был внук Гачая Гусейнова – Рашад.

Участников, словом, было много, и далеко не все чувствовали себя, скажем откровенно, в безопасности. Некоторые даже в пути заблудились, но слава Аллаху, все обошлось... Вы же знаете, что значит, без сопровождения автоматчиков заехать в Степанакерт... Говоря это, я просто хочу подчеркнуть патриотизм наших пехлеванов.

И еще. Пусть не будет это упреком в адрес республиканских спортивных организаций, но, ни в одной из них даже не заинтересовались нашей инициативой, несмотря на то, что мы извещали об этом заранее.

А в будущем вы намерены проводить такие фестивали. И если на этот раз мы не учредили приз для победителя, а просто отметили всех участников, то со следующего года будем вручать ценные награды особо отличившимся. И, думаю, спонсором фестиваля опять будет наш Комитет Народной Помощи Карабаху и газета «Азербайджан».

Haqqımda yazılanlar...

"Sovet Gürcüstanı" qəzeti,
12 may 1973-cü il

Redaksiyaya şeir gəlir...

Poeziya yollarında

Böyük rus tənqidçisi V.Q.Belinski demişdir ki, lirika lal duyğulara həyat verir, onları köksün dar qəfəsindən ədəbiyyatın sağlam havasına çıxarır. Bu baxımdan redaksiyamıza gələn şeirləri təhlil etsək, demək olar ki, onların əksəriyyəti zəif, sönük və məzmunca aşağı səviyyədədirlər. Faktlara keçək. Bolnisi rayonundan çoxlu şeir məktubları göndərən, qəzetimizin səhifələrində "onların çap olunmasını intizarla gözləyən" həvəskarların yazılarından başlayaq.

Saraclı kənd sakini Yusif Bayramov özünün "Başqadır" sərlövhəli "şeirində" yazır.

Göz ilə görməyin dadı başqadır,
Birisi dedisə bil ki, yalandır.
Rahatca əzmlə gedən daşqadır (?)
Mənim keçirdiyim günlər başqadır.

Beş bənddən ibarət olan bu yazı başdan-ayağadək söz yığını olduğuna baxmayaraq, Yusif məktubunun sonunda xahiş edir ki, lazım gəlsə, qəzetinizin növbəti nömrəsində çap etdirəsiniz.

Onun eloğlusu Məhəmməd İsayev isə "şərti şumda kəsmək" istəyir, məktubunun lap əvvəlində xahiş edir. "Hörmətli redaksiya... mənim bu ilk şeirlərimdən öz nömrənizdə çap edəsiniz, həm də xahiş edirəm ki, mənə yazasınız görüm, məndə şeir yazmağa bacarıq varmı". Hörmətli Məhəmməd! Şeir adlandırdığın "Gənclik, hara gedirsən", "Kür çayı", "Vətən" adlı yazıları oxuduq, bunlar nəinki şeir, hətta şeir adına böhtandan başqa bir şey deyildir. Birincisi, şeir yazmağa bacarığın olub-olmadığı haqqında heç kim resept verə bilməz. İkincisi, mətbuat vasitəsilə sənə bildirməyi özümüzə borc bilirik ki, əgər öz üzərində lazımi qədər işləməsən, nəzəri biliyini zənginləşdirməsən, axıra kimi yaradıcılığını bu qaydada davam etdirsən, səndə şeir yazmaq bacarığı ola bilsin ki, heç vaxt olmayacaqdır.

Muşevan kəndindən üç məktub almışıq. Alı İsgəndərovdan, Şıxəli Tomıyevdən və İmdad Sarıyevdən. İmdad və Şıxəli 7-ci sinifdə oxuyurlar. Ona görə də xatirlərinə dəymir və məsləhət görürük ki, düzgün yazmağı, Azərbaycan dilinin və poeziyanın qayda-qanunlarını öyrənsinlər, bədii təfəkkürlərini zənginləşdirsinlər.

Bizim əsas tənqid hədəfimiz Alı İsgəndərovdur. Çünki o, ağbirçək nənələrimizin və babalarımızın da əzbərdən bildiyi və yeri gəldikcə dodaqaltı zümzümə etdiyi Tufarqanlı Abbasın "Öp" rədifli şeirini olduğu kimi köçürüb öz adı ilə redaksiyamıza göndərmişdir. Bu, bədii oğurluq olduğu üçün şairliklə bir araya sığa bilməz.

Qardabani rayonundan Əmirxan Məmmədov, Arif Sadıqov (hər ikisi Qaratəhlə kəndindəndir), Sadəgül Ömərova (Qaracalar) bu il VII sinfi qurtaracaqlar. Onların yazılarından görünür ki, hələ düzgün yazmağı bacarmırlar. Biz onlara dərslərindən yaxşı qiymət almalarını, düzgün, səhvsiz və səlis yazmağı öyrənmələrini arzulayırıq.

Məhəmməd Həsənovun (Qardabani şəhəri), "Ana", "Yenə bahar gəlir", "Ot tayası" sərlövhəli yazılarında şeir qığılcımına və

öz yerində işlədilmiş yaxşı ifadələrə rast gəlirik. Lakin bu şeirlər də səhvsiz deyildir və oxucularımızın bədii zövqünü oxşaya bilməzlər.

Bir neçə söz də Dmanisidən yazan şeir həvəskarları haqqında.

Oxucularımıza az-çox tanış olan Səadət Nəbiyevanın (Qızılkilsə kəndi) yaradıcılığında son vaxtlar, nədənsə bir durğunluq, şeirlərində isə ("Könül", "İnsana yaraşmaz", "Təmiz adın", "Edəcəyəm") pessimizm hiss edilməkdədir. bu isə nə dövrümüzə, nə də müasirlərimizə xas olan xüsusiyyətlər deyildir.

Mehman İsayev (Ormeşən kəndi) "Vətən" şeirini belə başlayır:

Dağlara söykənən qatar qayalar,
Bənzəyir səngərdə qoşuna, Vətən!
Dar gündə ömrünü səngər eyləyən,
İgidlər dolanıb başına, Vətən!

Şeir səmimidir, məzmunca dolğundur. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, bu, redaksiyamızın son poçtunda olan yazıların içərisində hiss-həyəcanla yazılmış yeganə şeirdir.

Marneuli rayonunun Qaçağan kənd sakini Sayad Hacıyevin, "Bəxtəvər uşaqlar", Laqodexi rayonunun Qabal kənd sakini Sərdar Nəbiyevin "Özündən gileylən", Kobuleti rayonunun Kivriki sovxozundan yazan İmanqulu Əliyevin "Dostlar", "Piyanistka", "Qaynana", "N" hissəsindən yazanlardan Murad Sarıyevin "El arasında", T.İsmayılovun "Oldu", "Gürcüstan", "Bizim dağların", "Bizim dağlar" şeirləri də məzmunca, ideyaca və şeiriyyətcə zəifdir.

Redaksiyamıza dilimizin incəliklərini və gözəlliyini duyan, yeri gəldikcə ondan məharətlə istifadə edən şair və həvəskarlar çoxdur. Ə.Binnətoğlunu, Dilsuz Musayevi, İsa Sadiqi, İ.Qurbanini, **Şərif Borçalını**, Nazim Fikrəti, M.Əliyevanı, Nizami Əlini və başqalarını buna misal göstərmək olar. Məhz ona görədir

ki, onların şeirləri bədii təsvir vasitələri ilə zəngin və oxunaqlı olur.

Onu da qeyd etmək lazımdır ki, nəsr janrında yazan gənclərimiz azdır. Halbuki müasir oxucularımızın oynaq dildə yazılmış məzmunlu kiçik hekayələrə tələbatı çoxdur. Heç təsadüfi deyildir ki, Əli Abbasovun qəzetimizin səhifələrində dərc olunan mənsur şeirləri, kiçik, şirin və duzlu hekayələri oxucularımızın hüsn-rəğbətini qazanmışdır.

Yaxşı şeir mətbuatda özünə yer tapır. Forma və məzmun etibarı ilə yüksək səviyyəli kiçik lirik əsərləri yazmaq üçün ələ qələm alan hər kəsin dərin biliyi, zövqü və istedadı olmalıdır. Yalnız bizi əhatə edən xarici aləmdən, doğma Vətəndən, xariqələr yaradan kommunizm qurucularının yaradıcı əməyindən ilham alanlar poeziyanın enişli-yoxuşlu yollarında inamla addımlaya bilərlər.

ANAM QOCALIR

Ayna qarşısından keçən zaman sən,
Hərdən bir qıyqacı göz yetirirsən.
Dən düşmüş saçına baxanda, ana,
Kövrəlib üzünü tutursan yana...

Sıxmasın qəlbini kədər, qüssə, qəm,
Səndən uzaq olsun intizar, ələm!
Ağarmış hər telin tarixi vardır,
Onlar ağır gündən bir yadigardır.

Göylərə baş çəkən vüqarlı dağlar,
Kiçik təpələrdən erkən ağarar.
Buludlar örpək tək bürüyər onu,
Təbiət ağ qardan geydirər donu.

Sən də vüqarlısan bu dağlar kimi,
Saçın ağarsa da dümağ qar kimi.
Qəm yemə, ay ana, bunlar qayğıdır,
Onda bəs nənəmə deyirdin axı:
Başın ağarması üz ağlıdır?!

Şərif Borçalı,
ADU-nun jurnalistika fakültəsinin tələbəsi

"Sovet Gürcüstanı" qəzeti,
14 sentyabr 1974-cü il

DƏNİZ NİYƏ MAVİDİR?..

Deyirsən:
nə üçün mavidir dəniz,
göylər də elə bil ondan
rəng alıb?
- Axı, a göy gözlü qız,
dənizə sən baxmısan –
dəniz səndən rəng alıb.
Gözlərinin mavisi
çöküb dənizdə qalıb...

Şərif Borçalı (Kərimov)

"Sovet Gürcüstanı" qəzeti,
28 dekabr 1974-cü il

Ədəbiyyat həvəskarlarının məktublarına xülasə

Ələ qələm alanda...

Sevimli xalq şairimiz S.Vurğun özünün "Leninin kitabı" poemasında yazırdı:

...Daha mənzillidir şeirin gülləsi,
Bütün sərhədləri o keçəcəkdir,
Tonlardan ağırdır sözün nəfəsi.

Redaksiyamıza şeir göndərən gənclərimizin bəziləri şeirin belə böyük qüdrətini və vüsətini əsasən dərk edir, onun qayda və qanunlarına əməl edirlər. Bu baxımdan Bakıdan **Şərif Kərimovun (Borçalı)**, Qardabani rayonunun Muğanlı kəndindən Sabir Salehin, Tbilisidən Şurəddin Məmmədovun, Marneuli rayonunun Kəpənəkçi kəndindən Bahadır İsmayılovun şeirləri bir çox hallarda forma və məzmun etibarı ilə yaxşı olur. **Şərif Borçalının "Gecənin sirri" və "Doğmalıq"** şeirləri məzmunlu və bitkindir. Onun "Gecənin sirri" şeirində sakit və qaranlıq bir gecədə iki sevgilinin görüşündən bəhs edilir. Şair şeirinin sonunu belə bir lirik parça ilə bitirir:

İki kölgə bir olarkən,
İki ürək bir vurarkən,
Göydən qopub yerə düşən
bir yarpağın xışıltısı,
Ürəklərin çırpıntısı
diksindirdi sevənləri...

Sabir Saleh "Eyham" şeirində yazır:

Yüksələr bir pillə tarixin yaşı,
Günlər qatarlaşıb il olan zaman.
Yerindən oynadar torpağı, daşı,
Damlalar birləşib sel olan zaman.

Şurəddin Məmmədovun "Xatirələr" və "Olsun" şeirləri də lirik və diqqəti cəlb edəndir. Lakin yuxarıda adlarını çəkdiyimiz müəlliflərin şeirləri nöqsansız deyildir.

Bahadır İsmayılovun "Danış" şeirində məna, qafiyə, vəzn və ifadə pozğunluqları daha çoxdur. Bir neçə misal gətirək:

Keçibdir qadalı-qanlı əsrlər,
Unudulmaz qovğa, bu qaldan danış... (?)

***

Çardaxlı Çənlibel olmuş oylağı,
Əsim-əsim əsən əlindən yağı,
Xanlar, paşalara içirdən yağı,
O qoç Koroğludan, Nigardan danış.

***

Şeyx Mahmuddan, Pişəvərdən danış.

Dilimizin qramatikasını, şeirin qayda-qanunlarını yaxşı bilən hər kəs buradakı məna və ifadə pozğunluqlarını, dil və üslub xətalarını o saat hiss edər. Məşhur inqilabçı Pişəvərini Pişvər kimi işlətmək isə Bahadır İsmayılova bağışlanmaz haldır.

Dmanisi rayonundan Məhəmmədəli Mustafayevin, Nizami Şarbanovun (hər ikisi Az Gəyliyən kəndindəndir), Namaz Aslanovun (Hamamlı kəndi), Vəzir Əliyevin (Yırğançay kəndi), Marneuli rayonundan Ülfət Hüseynovun (Qızılhacılı kəndi) şeirlərində də qafiyə, vəzn və məna pozğunluqları çoxdur. Lakin

görünür, onlar az-çox da olsa öz üzərlərində işləyir və yaxşı yazmağa çalışırlar. Həmin müəlliflər tələsməsələr, şeirin qayda və qanunlarını təkrar-təkrar oxusalar, daha yaxşı yaza bilərlər.

Gözdən iraq elə "şeir həvəskarları" da vardır ki, bir az başqa müəlliflərdən köçürüb, bir az da özlərindən toxuyub yazılarını da, özlərini də gülünc vəziyyətə salırlar. Ramiz Yaşarı (Marneuli rayonunun Ağammədli kəndi), Fizuli Novruzovu (Bolnisi rayonunun Akaurt kəndi), Şamxalıl Əmirovu (Bolnisi rayonunun Darbaz kəndi) buna misal göstərmək olar.

İş o yerə gəlib çatıb ki, öz adını düzgün yaza bilməyənlər də: - "Hörmətli redaksiya, xahiş edirəm mənim bu şeirimi qəzetinizin bir nömrəsində çap edəsiniz" – deyə redaksiyamıza müraciət edirlər. Şarbanov bir məktubunda öz adını Nizami, o birisində isə Nizam adlandırır. Novruzov Füzuli əvəzinə adını Fizuli, Əmirov Şamxəlil əvəzinə Şamxalıl yazırlar. Bəziləri də indidən özlərinə təxəllüs seçiblər. Ramiz Yaşar, Qiyas Borçalı, S.Fərman, T.Allahverdi kimi. Elə tutaq ki, onların şeirləri qəzetimizdə dərc edildi, görəsən, onların özlərindən savayı kim onları tanıyacaqdır? Atalar: "Çay görməmiş çirmənmə" məsəlini bəlkə də elə belələri üçün deyiblər.

Münəvvər İsgəndərovanın, Yasin Əhmədovun, Paşaxan Həsənovun, Avtandil İsmayılovun, Zoya Musayevanın, Əlipaşa Məmmədovun, Alı Quliyevin, Mehdi Məmmədovun, Vaqif Eyvazovun ünvanlarını deməyə, "şeirlərini" təhlil etməyə ehtiyac duymadıq. Ona görə ki, onların yazılarında şeirdən əsər-əlamət belə yoxdur.

Qardabani rayonunun Nəzərli kənd sakini Telman Məmmədov redaksiyamıza "Düşünə bilsəm", "Pəncərəndədir", adlı iki şeir və "Sən saydığını say..." adlı bir hekayə göndərmişdir. İnsafən desək, hər iki şeir mənalıdır.

Özümü bəxtiyar sana bilmərəm,
Ömrün hər çağında sevinsəm, gülsəm.
Amma sevincimi dana bilmərəm –

Hər kəsin yerinə düşünə bilsəm, –

deyən Telman burada yeni bir söz deməyə çalışmışdır. O, "Sən saydığını say..." hekayəsində köhnə adət-ənənələri tənqid etmək istəmiş, lakin ona müvəffəq ola bilməmişdir.

Mübariz Orucovun (Marneuli rayonunun Qızılhacılı kəndi) "O sevmədi" hekayəsi, "Dəhşət", "Darelka", "Xüsusi maşınımdır" və "Göl" adlı miniatürlərində o qədər imla səhvləri vardır ki, onları oxuyanda adam doğrudan da dəhşətə gəlir və düşünürsən ki, miniatürlər sözünü "münnaturlar" kimi yazan Mübariz necə olur ki, hekayə və bədii əsərlər yazır.

Hekayələrin içində Şıxəli Tamıyevin (Bolnisi rayonunun Muşevan kəndi) "Corab" adlı yumoristik hekayəsi nisbətən diqqəti cəlb edir. Hekayə sadə yazılmışdır, dil xətaları azdır. Lakin Şıxəli öz hekayəsində yeri gəldikcə yumor janrına xas olan ifadə və təşbehlərdən istifadə edə bilməmişdir.

Ədəbiyyat həvəskarlarından xahişimiz budur ki, ələ qələm alanda böyük Nizaminin:

Şeir ki, dünyada bərabərdir ürəyə,
Satılarmı heç onun abırı bir çörəyə?-

sözlərini yada salsınlar və şeirin, bədii yazıların abırını qəzet və jurnallarda çıxış etməyin xatirinə satmasınlar.

"Müxbir" jurnalı,
09 sentyabr 1988-ci il

Onları unutmayaq

Şöhrət ona çatanların hamısını eyni dərəcədə izləmir. Bəzilərində tez yaddan çıxır, bəzilərində gec. Elələri də var ki, tarix boyu unudulmur. Ancaq burada görülən işlərin böyüklüyü və əzəməti ilə yanaşı, sənət və peşələrin spesifik xüsusiyyətləri də az rol oynamır. Görkəmli əsərlər müəllifi olan sənətkarlar illər, əsrlər ötdükcə nəinki unudulmur, hətta sağlığında olduğundan da artıq şöhrətlənir, dönə-dönə nəşr edilən əsərləri hər zaman müasir səslənir, oxucuları maqnit qüvvəsi ilə özünə cəlb edir, müəllifin özü barədə rəvayətlər, əfsanələr yaranır.

İdmançılar isə nisbətən tez unudulur. Bələləri daha çox fiziki hərəkətlərini, idman nailiyyətlərini görmüş, parlaq qələbələrinin şahidi olmuş müasirlərinin xatirəsində yaşayır. Həm də cavan, gümrah olanda. Onlar yaşlaşıb idmanı tərk edəndə xatirələr də bir növ öləziyir və get-gedə xəyalımızdan silinib gedir. Təəssüf ki, vaxtilə böyük şöhrətə çatmış adlı-sanlı pəhləvanlar barədə indi çox az bilirik.

Hələ sağlığında adı əfsanəyə çevrilmiş Sali Süleyman da belələrindən idi. Onun qeyri-adi gücü, müstəsna pəhləvanlıq məharəti, yüksək insani keyfiyyətləri görənlərin xatirində dərin iz buraxmış, görməyənlər də bu barədə eşitmişlər. Odur ki, jurnalist **Şərif Kərimovun** bir neçə il bundan əvvəl Azərnəşr tərəfindən buraxılmış **"Sali Süleyman"** kitabını oxucular böyük maraqla qarşıladılar. Müəllif əhəmiyyətli mövzuya, işə bələdliklə yanaşmış, pəhləvanın həyat və fəaliyyətinə aid maraqlı faktik materiallardan bacarıqla istifadə etmiş, onun uşaqlıq illərindən şöhrətin zirvəsinə qədər keçdiyi inkişaf yolunu səbr və təmkinlə izləmişdir. Müəllifin qələmə aldıqları, o cümlədən, S.Süleymanın

beş dəfə dünya çempionu İess Pedersen üzərindəki parlaq qələbəsi ilk baxışdan qeyri-adi görünsə də, sənədli-real faktlardır. Buna görə də kitabın tərbiyəvi inandırıcılıq qüvvəsi, təsiri böyükdür...

İddialı ispan güləşçisi Alberto Qonsales məğlubiyyətin hayıfını çıxmaq üçün Hindistandan gətirilmiş iri benqal pələngini onun üzərinə buraxır. Qəflətən vəhşi heyvanın cənginə keçən pəhləvan əlbəyaxa vuruşa başlayır və bu vuruşda "dağların sərt havasında bərkimiş bədən, ikipudluq, üçpudluq daşlar altında döyülüb dəmirləşmiş əzələ, gərgin məşqlər onu ucuz ölümdən qurtardı". O bədənindən "böyük bir tikə qoparmağa müvəffəq olmuş" pələngə qalib gəlir, ancaq heç kim daha idmana qayıda biləcəyinə inanmır. Lakin inad və əzmkarlıqla yenə öz əvvəlki yerini tutur və həsəd, hikkə onu yenidən özünə hədəf seçir. Bu dəfə məğlub olmuş fransız pəhləvanı Raul De Buşe çardaqdan arxayınca oturmuş Sali Süleymanın boynuna ikipudluq daş salır. Pəhləvan buna da dözür. Həm də böyük bir alicənablıqla cinayətkarı cəzalandırmağa qoymur.

...Şərif Kərimov artıq **"Rəşid pəhləvan"** adlı yeni kitabını (Azərnəşr, 1987) oxucuların mühakiməsinə verib. Təsvirdən məlum olur ki, o da böyük idmana ayaq açdığı gündən qələbə dalınca qələbə qazanmış, düzlüyü, xeyirxahlığı, nəcib insani keyfiyyətləri ilə həmişə seçilmişdir. Təcrübəsini səxavətlə gənclərə öyrədib layiqli varislər yetirmiş, Azərbaycan Dövlət Sirkinin əsasını qoymuş, bu sahədə böyük fəaliyyət göstərmişdir.

Müəllif kitabda sənədlərdən və mətbu materiallardan, xatirələrdən, o cümlədən Rəşid pəhləvanın söhbətindən yerli-yerində istifadə etməyə çalışıb və çox zaman buna müvəffəq olub. Oxucu ürəkdən inanır ki, "pəhləvanlıqda da məqsəd aydınlığı olmalıdır", "qeyri-adi güləşçilik istedadına malik olmaq olar, lakin bu istedaddan xeyirxah niyyətlə xalq üçün, Vətən üçün istifadə etməsən, elə san ki, bu da təbiətin bir səhvidir..." yaxud, "sənə verilən kamilliyi – istər fiziki, istər mənəvi olsun, tək mənimsəmək olmaz. Onu insanlarla bölüşməlisən", deyən Rəşid pəhləvan ömrü boyu amalına sadiq qalmış, Eldar Göyçaylı,

Cümşüd Yusifov, Qaçay Hüseynov, Çingiz Göyçaylı, Məhəmmədəli Qazaxlı, Əşrəf Sultanov, Elbrus Nəcəfov, Hüseyn Rəhimov... kimi yetirmələrindən heç nəyi əsirgəməmiş, "Zorxana" adlı ilk Azərbaycan Dövlət səyyar sirkinin yaradılmasında onların qüvvəsindən səmərəli istifadə etmişdir.

S.Süleyman kimi Rəşid pəhləvanın da ürək genişliyi, xalqımıza, ölkəmizə, ictimai ideallarımıza qırılmaz tellərlə bağlılığı Böyük Vətən müharibəsi illərində daha qabarıq şəkildə ortaya çıxıb. O, rəhbərlik etdiyi sirk kollektivi ilə birlikdə dəfələrlə cəbhədə döyüşçülər, arxada yaralı əsgərlər qarşısında çıxıb edib onların ruhunu, qələbəyə inam hissini gücləndirib. Həm də elə bir çıxışı olmayıb ki, yığılan pullardan cəbhəyə, döyüşçü ailələrinə yardım göstərməsin.

Müəllifin dili, ümumiyyətlə aydın və oxunaqlıdır. Lakin "Sali Süleyman"da "...türkün qəfil həmləsindən təngildəyən", "şamdan sonra onlar arasında... söhbət başlandı", "baxmayaraq ki, yaşı 50-yə çatmışdı...", "Rəşid pəhləvan" da "...təngildəyə-təngildəyə gedib üzü divara yapışdı", "...burnunu ...sürtüşdürüb işikləyir...", "rəqibinin hər iki kürəyini (?) yerə yatırdasan..." kimi yad ifadələr də var.

Hər iki kitabda məşhur rus bahadırı İvan Poddubnıdan söhbət açılır, onların inkişafındakı rolundan qədirbilənliklə danışılır. Belə bir yaxınlığın mövcudluğunu biz Sali Süleymanla Rəşid pəhləvan arasında da görmək istərdik. Ancaq bunun konkret faktlar əsasında təsvirinə nədənsə rast gəlmirik.

Bir qeydimiz də nəşriyyatların, digər yaradıcılıq təşkilatlarının ünvanınadır. Azərbaycan güləşinin çox zəngin və maraqlı tarixi, çoxlu görkəmli nümayəndələri var. Onların haqqında müəyyən seriya və sistemlə kitablar nəşr etmək faydalı olardı. Hətta, bu mövzuda sənədli, tammetrajlı filmlər çəkilməsi barədə də fikirləşməyə dəyər. Xalqımızı şöhrətləndirənləri unutmağa bizim haqqımız yoxdur.

Mahmud Ağəlioğlu,
ADU-nun jurnalistika fakültəsinin müəllimi.

"Sovet Gürcüstanı" qəzeti,
15 aprel 1987-ci il

Məşhur pəhləvan haqqında kitab

Möcüzələrin yolu gerçəkliyə qovuşur

Bilmirəm, indi kəndlərə səyyar sirklər gedirmi? O səyyar sirklər ki, arabalarında rəngbərəng çitlər asılır, zınqırovlar səslənirdi. Şərif Kərimovun Azərbaycan Dövlət Nəşriyyatı tərəfindən kitab halında buraxılmış "Rəşid pəhləvan" adlı sənədli povestini oxuyanda nədənsə uşaqlıqda gördüyüm səyyar sirklər yadıma düşdü. İndi bilmirəm, səyyar sirklər kəndlərə gedirmi?

Səyyar sirk arabaları... əlbəttə ki, mən bunları kinoda, televiziyada görmüşəm. Mənim uşaqlıqda gördüyüm səyyar sirksə qara rəngli zəhmli "ZİM"də gələrdi və bir andaca kəndə pəhləvan gəlməsi sədası ev-ev yayılar, döngələri aşaraq qonşu kəndəcən gedərdi.

Bilmirəm, indi kəndə sirk gəlirmi, uşaqlar yel sürəti ilə kəndin mərkəzinə doğru qaçırmı...

Mənim gördüyüm sirk açıq havada, köhnə xırman yerində olardı və qonşu gürcü kəndindən bura çoxlu tamaşaçı gələrdi. Pəhləvan əzələlərini zurna havasında oynada-oynada ortada gəzinər, ikipudluq daşları atıb-tutar, qəribə-qəribə nömrələr göstərərdi. Kəndimizə mərhum pəhləvan Məhəmmədəli Qazaxlı gələndə, mütləq tamaşa vaxtı kişilərdən biri durub soruşardı ki, müəllimin kim olub. Məhəmmədəli Qazaxlı Rəşid Yusifovun adını çəkərdi. Sonra kişilərdən biri pəhləvandan bunu başqalarına eşitdirmək üçün rusca deməsini xahiş edərdi və Məhəmmədəli Qazaxlı bir tərəfdə oturub maraqla ona baxan, qonşu gürcü kəndindən gələn adamlara üzünü tutub deyərdi ki, müəllimi məşhur pəhləvan Rəşid Yusifov olub. Onun əsli bu kənddəndir. Bayaq sual verən kişi çox arxayın və qürurla, təkəbbürlə ətrafa baxar, sonra yerinə çökərdi.

Mənim təsəvvürümdə Rəşid pəhləvan uzun müddət kəndlim, həmyerlim kimi yaşadı. Onun bizim kəndlə qohumluq əlaqəsi həqiqətən də vardı. Amma məsələ bunda deyil, məsələ ondaydı ki,

gözümüzü açandan, ağlımız kəsəndən Rəşid pəhləvanın adı nənələrimizin bizə danışdığı nağıl, əfsanə kimi həyatımıza, uşaq dünyamıza daxil olmuşdu, bizə hopmuşdu. Kənd uşaqları bir-biri ilə tutaşanda Rəşid və Cümşüd pəhləvanın adlarını özlərinə götürüb öyünər, bir-birinə meydan oxuyardılar. Bəli, onların adı bizə uzaq əfsanələrin, qəhrəmanlıq dastanlarının isti, ilıq hənirini, gücünü, sehrini gətirirdi.

Mən indi Rəşid pəhləvan haqqında yazılan kitabın üslubundan, özümə xoş gələn və yaxud zəif hesab etdiyim yerlərdən danışmıram və düşünürəm ki, mənim reseptimə ehtiyac duymadan da oxucu Şərif Kərimovun kitabını arayıb axtaracaq, illərlə ona tanış olan Rəşid pəhləvan əfsanələrinə gerçəyin və həqiqətin kəsə yolu ilə qovuşacaq.

Kitaba "Yenilməz nəhəng" adlı ön söz yazan şair Vilayət Rüstəmzadə sənədli povestin bütün məziyyətləri haqqında ətraflı danışmışdır. Mənsə yalnız onu qeyd etmək istəyirəm ki, müəllif və nəşriyyat bu kitabın işıq üzü görməsində son dərəcə xeyirxah bir iş görmüşdür.

Bu kitabın ən gözəl məziyyəti nədir? Az qala nağıla, əfsanəyə dönmüş Rəşid pəhləvanın adını gerçəyə, həqiqətə, zamanın özünə qaytarmaq, onu daha geniş oxucu kütləsinə, ən əvvəlsə, əlbəttə, gənc nəslə qaytarmaq cəhdi.

...Görəsən, kəndlərə səyyar sirklər gedirmi? Görəsən, pəhləvanlar Rəşid pəhləvanın adını sehr kimi, əfsun kimi özləriylə kəndlərə aparırmı? Çox təəssüf ki, bu sətirlərin müəllifi bunu bilmir. Bir ondan halıdır ki, bu kitab Rəşid pəhləvanın adını uzaq obalara, əbədiliyə aparacaq, orada bu ad şam tək yanacaq, işığı ilə öz varlığını qoruyub saxlayacaq. Müəllif bir də ona inanır ki, kitab əldən-ələ gəzəcək, ev-ev oxunacaq, yəqin ki, neçə-neçə adam onu – Rəşid pəhləvanı doğması, yerlisi kimi qəbul edəcək və fikrində zərrə qədər də yanılmayacaq. Çünki Rəşid pəhləvan bütöv Azərbaycan xalqının idi və onun adı zaman-zaman xalqın ürəyinə təpər, qürur, öyünmək hissi gətirmişdir. Və yəqin bundan sonra da belə olacaq.

E.Həsənov

"7 gün",
05 oktyabr1991-ci il

"Sabah" - bu gün və sabah

Müsahibimiz yenicə nəşrə başlamış "Sabah" qəzetinin redaktoru Şərif Kərimlidir

Şərif müəllim, bilmək olar qəzetinizin məramı nədir?

- Bolşevizmin milli ayrıseçkilik siyasəti nəticəsində bəzi xalqlar müxtəlif dərəcələrdə repressiyaya məruz qalıb. Əhalisinin əksəriyyətini azəri-türkləri təşkil edən Borçalı mahalı 1921-ci ildə parçalanıb və onun bir hissəsi Ermənistana, digər hissəsi isə Gürcüstana verilib. 1940-45-ci illərdə on minlərlə türk Orta Asiyaya sürgün edilib. Sonuncu açıq təzyiq 1989-cu ildən bəri özünü göstərir. Adamlar öz doğma yurd-yuvalarından didərgin salınıb, Azərbaycan dili və mədəniyyəti sıxışdırılır. Təxminən bir əsr xalqımızın ədəbi-mədəni mərkəzi olmuş Tiflis şəhərində zəngin mənəvi irsimiz yatıb qalır. Nəinki bu irs, hətta onu yaradanların qürbət eldə məzarları belə unudulub. Sağlam ziyalı qüvvələrin Bakıya, Gəncəyə və digər iri şəhərlərə axını Gürcüstanda azəritürklərinin milli özünütəsdiq dözümünü və mübarizəsini zəiflədib. Biz bu yaranmış boşluğun işıqlı sabahını açmağa çalışacağıq.

- İndi qəzetlərin sayı xeyli çoxalıb. Müxtəlif məramlı nəşrlərin rəqabətində "Sabah"ı başqalarından fərqləndirə biləcəksinizmi?

- Yaxşı mənada bütün qəzetlərlə rəqabətə girməyə hazırıq. Qəzetçilik peşəmizdir və biz bu sənətin hər cür qəmini, nəşəsini dadmağa borcluyuq.

- Türkiyədə çıxan "Sabah"la qəzetinizin adındakı oxşarlıqda bir əlaqə varmı?

- Qonşu dövlətdə nəşr olunan adaşımızla sıx əlaqə saxlamaq fikrində idik. Lakin o qəzetə Türkiyədə bir qədər mənfi münasibət mövcuddur. Odur ki, hələlik əlaqələrimiz ardıcıl olmayacaq. Bu da sabahın işidir. Görəcəyimiz işlər, nəzərdə tutduğumuz məqsədlər çoxdur. Allah qoysa, hər şeyi qəzetimizin səhifələrindən biləcəksiniz.

"7 gün" qəzeti redaksiyası

"Ziya"
(Azərbaycan Texniki Universitetinin qəzeti),
25 sentyabr 1992-ci il

Gözün aydın, "Azərbaycan!"

Çağdaş demokratik mətbuatımızın qaranquşu olan "Azərbaycan" qəzeti Qarabağa Xalq Yardımı Komitəsinin orqanı kimi öz fəaliyyətini "dayandırıb" və sentyabrın 22-də "Həyat" qəzeti ilə birləşərək Ali Sovetin orqanı kimi yenidən öz oxucularını sevindirdi. Doğrusu, hazırlaşmışdıq ki, Şərif bəy Kərimlinin ünvanına qəzetin üç yaşı münasibəti ilə təbrik məktubu göndərək. Amma gecikdik... Lakin ziyanı yox. Çünki...

...Bu gün ürək sözlərimizi "Azərbaycan"ın öz sözləri ilə ifadə etməyi lazım bildik:

"Gözün aydın, Azərbaycan!". Ruhumuzun bütövlüyü naminə mənəvi haqqın özünə qaytarıldı..."

Gözünüz aydın, Sabir bəy Rüstəmxanlı, Şərif bəy Kərimli!

Gözünüz aydın, "Azərbaycan" qəzetinin bütün əməkdaşları və çoxminli oxucuları!

"Ziya" qəzeti redaksiyası adından
Müşfiq Mədədoğlu

"Yeni Azərbaycan",
22 yanvar 1997

Bəlkə də qırğın baş verməzdi...

Hər dəfə insan geri boylananda, öz tarixi keçmişinə nəzər salanda, özünün yaşadığı dövrü təhlil edəndə, hansı bir hərəkətinəsə düzəliş vermək, o dövrünü daha da mənalı yaşamaq istəyi keçir könlündən... Ümumiyyətlə, xalqımızın taleyi həmişə keşməkeşli, uğursuz, təzadlı hadisələrlə zəngin olub. Bu gün millətimizin 20 yanvar deyilən qanlı-qadalı günlərini yaşayanda istər-istəməz o ağır, dəhşətli günləri xatırlayır, qırğın kino lenti kimi göz önündə canlanmağa başlayır.

Yadımdadır, o vaxtlar - 1990-cı il yanvarın 21-də Şərif Kərimli mənə "FV" (Fövqəladə Vəziyyət) qəzetini çıxarmaq üçün onunla bir yerdə işləməyi təklif etdi. Şəhərdə komendant saatı və fövqəladə vəziyyət tətbiq olunmuşdu. Biz bilirdik ki, Moskvadan gələn yüksək səviyyəli cinovniklər, eləcə də Dövlət Təhlükəsizlik Komitəsinin işçiləri mətbuat orqanlarına ciddi diqqət yetirir, hər sözə, hər cümləyə siyasi don geyindirməyə çalışır, jurnalistləri nəzarət altında saxlayırdılar. Belə bir vəziyyətdə "FV" qəzetini çıxarmaq üçün ilk növbədə baza olmalı idi. Çox axtarışdan, götür-qoydan sonra qəzeti 3 nömrəli mətbəədə çıxarmaq qərarına gəldik. O vaxtlar Ermənistandan didərgin düşən Binnət Süleymanov linotipdə yığmağı öz üzərinə götürdü. Beləliklə, axşam saat 8-dən, 9-dan sonra "FV"-ni yığmağa, onu səhifələməyə başladıq. Səhifənin biri hazır olana kimi onu arabanın üstündə sexin tamamilə başqa tərəfində yerləşən, 40-cı illərindən qalan çap maşınının yanına sürüyürdük. Yük maşınının

təkərindən 3 dəfə böyük dəmir təkəri əllə hərlədib səhifənin bir surətini çıxarmaq üçün yarım saata qədər vaxt itirirdik.

Xatirimdədir, bir gecə **Şərif Kərimli** ilə komendant vaxtına düşməmək üçün tələsik mətbəədən çıxıb redaksiyanın sınıq-salxaq "Moskviç"inə əyləşdik. 12-yə 5 dəqiqə qalmış məni evin həndəvərində düşürən həmkarım evinə - mikrorayona yollandı. Onun evə necə çatacağını fikirləşə-fikirləşə gedirdim ki, nəhəng bir avtomatlı rus əsgəri məni saxladı. Qovluğumda "FV" qəzetinin surətləri olduğu üçün məcbur olub cibimdə olan pulları və əlavə iki qutu siqareti ona rüşvət verib evə gəldim. Çünki həmin qəzeti çıxaranları Moskvanın Dövlət Təhlükəsizlik orqanlarının işçiləri bərk axtarırdılar. Əgər qəzetlə ələ keçsəydim...

Beləcə, nömrə nömrə dalınca. Qəzetin səhifələrində gedən materiallar yəqin ki, oxucuların yadındadır. Bəli, rus ordusu bizə divan tuturdu. Bəli, azadlığımız uğrunda neçə-neçə şəhid verdik. Bəli, çox analar oğulsuz, çox gəlinlər ərsiz, çox bacılar qardaşsız qaldı. Ağrılı-acılı günlərimiz çox oldu. Ancaq bütün bunlar olmaya da bilərdi. Mən əminəm ki, bu zülmü bizə başsız olduğumuza görə etdilər. Hakimiyyət böhranı idi bizə bu günlərin acısını dadmağa vadar edən. Mən qəti əminəm ki, əgər o vaxt respublikamızın prezidenti möhtərəm Heydər Əliyev cənabları Bakıda olsaydı, bu yanvar qırğını da baş verməyəcəkdi.

Dövləti, doğma torpağını düşmən tapdağından qorumaq üçün millətimizin igid oğul və qızları şəhid olub elə bir zirvəyə qalxdılar ki, ordan indi bütün Azərbaycan əl içi kimi görünür. Çox təəssüf ki, Azərbaycanı qurmalı olan o vaxtkı dövlət başçımız və onun həndəvərində gəzən xadimlər bunu etmədilər. Dövləti müdafiə edə bilmədilər...

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

Eyvaz Həsənov,
"Azərbaycan" qəzetinin sabiq məsul katib müavini

"Aypara",
14 iyun 2004-cü il

Şərif Kərimli – 50

Üzü sabaha gedirik...

Yetmişinci illərin sonunda mətbuata yeni nəfəs, demokratik ruh, prinspiallıq, mübarizlik gətirən Azərbaycan jurnalistlərindən biri də "Gənclik" ("Molodost") jurnallarının məsul katibi, "Azərbaycan" qəzetinin baş redaktoru, "Sabah" və "Borçalı" qəzetlərinin təsisçisi, baş redaktoru, Azərbaycanın peşəkar pəhləvanlarının həyatı və mübarizəsindən bəhs edən "Sali Süleyman", "Rəşid pəhləvan", "Pəhləvan Müsəllim" tədqiqat əsərlərinin, sənədli povestlərin, "8712 №li əsir" povest və hekayələr kitabının, "Qaytarılan köç karvanı", "Gürcüstan: Qərbin ikili standart siyasətinin yeni qurbanı" kimi elmi-publisistik kitabların müəllifi, "Qızıl Qələm" mükafatı laureatı Şərif Kərimlidir. Bu günlərdə onun 50 yaşı tamam olur. Bütün mətbuat işçiləri və Azərbaycan ictimayyəti adından Şərif Kərimlini təbrik edir və onunla kiçik müsahibəni oxucularımıza təqdim edirik.

– Şərif müəllim, daha pəhləvanlardan yazmırsınız... Bəlkə bu yaşınızla bağlıdır, ya həvəsiniz ölüb yoxsa?..

- Yox... Hər şey əvvəlki kimidir. Nə yaş, nə həvəs, nə də digər "yoxsa"lar mənim peşəmə, sənətimə, sözümə qarşı dura bilməyib. Sadəcə, pəhləvanlıq zamanı keçdi, qardaş...

– Dünya ki həmin dünyadır...

-Bəlkə də dünya həmin dünyadır, ancaq bizim mikrodünyamız əvvəlki deyil. Ona görə də mən üzümü Allahıma tutub deyirəm:

Zaman-qısa, məkan-dar,
Çat-çat olub məzarlar.
Gəl məni geri qaytar!

Qalammıram bu dünyada,
Allahım!

– 50 ildir bu günün işığına səmt götürmüsünüz. Yolunuz narahat olmayıb ki?

- Siz elə bil ki, ömür yolumun 50-ci mərhələsində razı Şəriflə narazı Şərifin söz güləşdirməsində iştirak etmisiniz...

Yuxumdakı həsrətə,
Gözümdəki möhnətə,
Göstərdiyin o səmtə
Çatammıram bu dünyada,
Allahım!..

-Sizin Azərbaycan mətbuatı qarşısındakı xidmətiniz danılmazdır. "Yazıçı", "İşıq" nəşriyyatları, "Gənclik" ("Molodost") jurnalları, "Azərbaycan", "Borçalı", "Sabah" qəzetləri, "Eksklüziv" İnformasiya Agentliyi, "Üç nöqtə", "Azərnyus" qəzeti... qələminizdən çıxan yüzlərlə vətəndaş mövqeli yazılar... Narazı Şərifi nədi razı salmayan?

– 50 ildir bəşər övladlarının, 30 ildir mətbuatın içindəyəm. Bu dünyanın içində nə vaxtdanam, onu ancaq tanrım bilir. Ömrümün 30 ilindən, jurnalistlik fəaliyyətimin 20 ilindən razıyam. Ondan əvvəl nə yaşamışamsa, nə yazmışamsa – həyatdan zövq almaq üçün etmişəm. Qalanları isə mənim olmayıb – çünki özüm üçün yaşamamıışam... Narazı Şərifin də məhz narazılığı elə bundandır.

Yandır-külə dönüm mən,
Şehli gülə dönüm mən.
Özüm olum, özüm mən!
Olammıram bu dünyada,
Allahım!

– Dünyanın dərdi sənəmi qalıb, ay sağolmuş... Dünyaya yük olanlarla dünyanın yükünü çəkənlər həmişə yanaşı yaşamamışlarmı?..

– Elə dərdi gətirənlərlə dərdi götürənlərin öz vərdişlərinə alışmalarıdır mənim dərdim. Mən öz qələmimi bir tikə çörək

qazanmaq üçün işlədirəmsə-budur mənim dərdim! Mənim qələmimdən çıxan kəlmələr yaralı bir qəlbi ovundurmursa-budur mənim dərdim. Sözümün kəsərindən bir müstəbidin əli kəsilmirsə-budur mənim dərdim! Ürəyimdən keçənləri qələmim başqa cür yazırsa-budur mənim dərdim!

Dərd bir aləm-bölən yox,
Yarı səfil, yarı tox.
Ayaq üstə ölən çox,
Öləmmirəm bu dünyada,
Allahım!

– "Sabah"ı yaşada bilirsinizmi?

– "Sabah"la yaşayıram, sabah üçün yaşayıram. "Sabah"a "Borçalı"dan adlamışam. Dünənə kimi Borçalı uşaqlığımın itkin düşdüyü bir diyar, qəlbimin ilk sevdalarının dəcəllik etdiyi ətirli gülüstan, dünyadan bezəndə pənah yerim, ağlayanda ovunduranım, qaralanda duruldanım, əyiləndə düzəldənim, döyüləndə yaralarıma məlhəmimdi... Borçalı-inanc yerim, Borçalı-inam yerim, Borçalı - güman yerim! Dünya məndən küssə də Borsalı küsməz! Dünya məndən üz döndərsə də Borçalının qoynunda həmişə isti qucağım var! Çünki... Borçalı oğul itirməz! Borçalıya oğul lazımdır! Borsalını onlardı yaşadan! İndi bu torpaq bütün əvvəlki anlamlarını bircə sözdə bütövləşdirir... Borçalı mənim üçün Ata Yurdum, Ana Vətənim olub. Artıq ata-anamın müqəddəs ruhları bu torpaqda mənim günahsız cağlarımın nəvazişində durublar. Paranın qədrini bilməyən, bütövün qədrini heç bilməz. Atanı, Ananı sevməyən Vətəni heç sevməz. Ailədə, övladlarında Vətənə məhəbbət hissi oyada bilməmisənsə, istər 50 olsun, istər 100 – bu müddətdə yazıb-yaratdıqların heç nəyə dəyməz! Bu qədər. Daha sual vermə. Üzü sabaha gedirik. Hələ vaxtımız var, yolumuz uzundur. Yolda söhbət edərik...

Akif Şahverdiyev,
yazıçı-jurnalist

"Media- xəbər",
09 iyul 2004-cü il

50 yaşın imtahanı

Şərif Kərimlinin yubileyi necə keçdi?

50 ildir bəşər övladlarının, 30 ildir mətbuatın içindəyəm. Bu dünyanın içində nə vaxtdanam, onu ancaq tanrım bilir. Ömrümün 30 ilindən, jurnalistlik fəaliyyətimin 20 ilindən razıyam. Ondan əvvəl nə yaşamışamsa, nə yazmışamsa – həyatdan zövq almaq üçün etmişəm. Qalanları isə mənim olmayıb – çünki özüm üçün yaşamamışam..."

Yandır-külə dönüm mən,
Şehli gülə dönüm mən.
Özüm olum, özüm mən!
Olammıram bu dünyada,
Allahım!

Oxuduğunuz bu sətirlər Şərif Kərimlinin qəzetlərdən birinə verdiyi açıqlamadandır. Yaddaşlı və diqqətli oxucularımız o dəqiqə məsələyə reaksiya verə bilərlər: yenə Şərif Kərimli? Yenə yubiley söz-söhbəti?..

Bu cür düşünənlər əslində haqlıdılar. Nədən ki, qəzetimizin son saylarından birində (19-25 iyun 2004) Şərif müəllimə həsr etdiyimiz "Yubilyar tapılmadı..." sərlövhəli yazı dərc etmişdik. Və Şərif Kərimliyə xitabən yazmışdıq ki...

"Eşitdik bu günlərdə 50 yaşın tamam olur. 50 yaşında ki adı çox ağırdı. Bu gün hesabat verməlisən. Allaha, valideynlərinə, müəllimlərinə, dostlarına, qohumlarına, ailənə və nəhayət özünə... Düzü, yubiley söhbətini eşidəndə Mirvari xanımla razılaşdıq ki, Mətbuatın İnkişafına Yardım İctimai Birliyi adından səni dəvət edək, yubileyini təbrik edək və hədiyyəni də qoltuğuna verib yola

salaq. Sonra xəbər tutduq ki, Bakıdan bir qədər uzaqlara çəkilmisən. Dedilər 3-4 günə gələcək. Nə isə, sənin üçün xərcləyəcəklərimizi saxlayırıq 100 illiyinə. Yaxşı?"...

Çox keçmədi ki, Şərif Kərimli səfərdən geri döndü. Yazdıqlarımızı oxuyub bizə telefon açdı, öz təşəkkürünü bildirdi. Biz də fikirləşdik ki, bir halda ki, Şərif müəllim yumorla dediklərimizi qəbul etdi, onda ciddi söhbətə keçməyi "50 ildən sonra"ya saxlamağın mənası yoxdu...

Və beləliklə, Mətbuatın İnkişafına Yardım İctimai Birliyi öz fəaliyyəti dövründə növbəti addımını atdı: ölkə mətbuatında kifayət qədər xidmətləri olan, bütün həyatını jurnalistikaya həsr edən, bu sahədə olduqca maraqlı bir yaradıcılıq yolu keçən Şərif Kərimlinin 50 illik yubiley mərasimini keçirmək missiyasını öz üzərinə götürdü. Baxmayaraq ki, Şərif müəllim "vallah, əziyyət çəkməyin, elə diqqətiniz mənə bəsdir" deyərək, yenə təvazökarlığından əl çəkmək istəmirdi.

Görən, nə vaxtadək bir-birimizə qarşı diqqətsiz olacağıq? Mətbuatın içində və çölündə didişmələr yetməzmi? Özünü bu gün media generalları sayan kəslər "gündüzlər bir tərəfə, axşamlar başqa tərəfə işləməkdən" yorulmadılarmı? Hər şeyin quyruğunu aparıb siyasətəcalamağın bir mənası varmı? Rusun sözü olmasın, "neujeli" bizim şəbəkələşmiş mətbuat "as"larımız üçün qrant (bəziləri "ah, əlçatmaz sərvət!" deyə pıçıldaya bilər) hər şey deməkdi?!

Suallar, suallar və yenə də suallar... Və bu yerdə biz "ucundan tutub, ucuzluğa getməmək" üçün məchul sualları boşuna buraxıb, mətləbə qayıtmaq istərdik.

Keçirdiyimiz törənə qatılanlar da sağ olsun, qatılmayanlar da. Dəvətlilərdən sayıb gələnlərə də təşəkkür, üzürlü səbəbdən iştirak etməyənlərə də. Özünü dartıb "göy"lə gedənlərə də Allah yar olsun. Onsuz da Şərif Kərimli həmişə öz sadəliyi ilə seçilib vəonu tanıyanlar da gözəl bilir ki, bu adam ömrü boyu heç kəsə baş əyməyib. Loru dildə desək, həmişə "öz çörəyini yeyib".

Yubiley tədbiri isə çox səmimi keçdi. Çünki yubilyarın başına yığışanlar da özünə xas adamlar, daha doğrusu, yazarlar idi. Birinci mükafat elə Mətbuatın İnkişafına Yardım İctimai Birliyindən gəldi. "Nailiyyət" mükafatını yubilyara Birliyin sədri, qəzetimizin baş redaktoru Mirvari Tahirli təqdim etdi. Sonra sözalanlar da Şərif müəllimin ünvanına xeyli "isti sözlər" dedilər. Yubilyarın (o, həm də dissertantdır) elmi rəhbəri, professor Sayad Sayadovun çıxışı daha yaddaqalan oldu. "Əlillər" qəzetinin baş redaktorunun dediklərindən bəlli oldu ki, o, Şərif müəllimin tələbə dostlarını təmsil edir. "Qonşular"dan Süleyman Osmanoğlu öz "Proqnoz"larını verdi. Bu proqnozlardan isə məclis üzvləri belə anladılar ki, Şərif Kərimlinin 100 illiyini görmək hamımıza qismət olacaq. Kəsəsi, bütün çıxış edənlər öz ürək sözlərini səmimi ifadə etdilər.

Məclis sözlü-sazlı keçdi. Aşıq musiqisinin həzin sədaları sanki bir anlığa hamını düşünməyə vadar etdi. Və bu sətirlərin müəllifi də həmin an "50 yaş gerçəkdən böyük imtahandı" deyə ürəyindən keçirdi. Gəlin boynumuza alaq ki, heç də hamı belə imtahandan alnıaçıq, üzüağ çıxa bilmir. Amma Şərif müəllim həqiqətən şərəfli bir ömür yaşayıb və bu mənada onun övladları öz ataları ilə fəxr edə bilər. Əgər belə demək mümkünsə, o, "50 yaşın imtahanı"ndan "5" qiymətlə çıxıb!

Bir daha "Sabah"ın xeyir, Şərif Kərimli!

Mahir Nemətoğlu,
Mətbuatın İnkişafına Yardım İctimai Birtiyinin sədr müavini

"Ziya"- (Gürcüstan azərbaycanlı Ziyalılar Birliyinin orqanı), 25 may 2002-ci il

Rəşid Yusifov – 100

O, xalçanı məğlubiyyətsiz tərk etdi

Bu günlərdə Bakı Dövlət Sirkində Mədəniyyət Nazirliyinin qərarı ilə XX əsrin nəhəng bahadırlarından olan yenilməz pəhləvan, Azərbaycan Xalq artisti Rəşid Yusifovun 100 illik yubileyi keçirilmişdir. Tədbirdə iştirak etmək üçün Borçalıdan Müsəllim Həkimov, Qubadan Əli Abdulhüseynov, Şəkidən Gəray Löymanov, Sabirabaddan Ağabəy Bağırov və başqa el pəhləvanları təşrif buyurmuşdular. Yubileyin təşkilat komitəsinin üzvü, "Rəşid pəhləvan" kitabının müəllifi, eloğlumuz yazıçı-jurnalist Şərif Kərimli tədbirdə Rəşid Pəhləvan haqqında maraqlı bir çıxış edib. Həmin çıxışı oxucularımıza təqdim edirik.

"Rəşid Pəhləvan bu dünyadan gileyli getdi. O, həyatından razı idi, çünki xalça üzərində onun belini sıxan pəhləvan tapılmadı, lakin insanların biganəliyi onu çox sıxırdı. Ona görə də həmişə deyərdi: pəhləvan qocalanda heç kimə lazım deyil. Vaxt vardı ki, küçə ilə gedərkən hamı mənə yol verərdi, mən olan səhnəyə pəhləvan çıxmazdı, gözəllər şəklimi ürəklərinin başında gəzdirərdilər...

Ömrünün son vaxtlarında deyərdi: "Bəlkə yetər daha? Koramal kimi sürünməkdənsə, bəlkə elə qartal kimi qanad çalıb özümü qayalara çırpım, parça-parça olum, heç bir igid qarşısında qatlanmayan dizlərim üzərində məhv olum?"

Lakin bu unudulmaq Rəşid pəhləvanın faciəsi deyildi. İvan Poddubnı, Nikolay Vaxturov, Stanislav Zbışko, Sali Süleyman, Rəşid Yusifov kimi nəhənglərdən sonra ümumiyyətlə, peşəkar pəhləvanlığın faciəsi başlanmışdı.

Yaşa dolan və öz həyanının qürubuna enən bu bahadırlardan sonra, onların səviyyəsinə yüksələ biləcək pəhləvanlar görünmürdü.

İvan Poddubnı Rəşid pəhləvana 1939-cu ildə Qorki sirkində çıxış edərkən maraqlı bir əhvalat danışmışdı:

"1925-ci ildə Amerikada dünya çempionu Stanislav Zbışkonun kiçik qardaşı Vladeki yıxandan sonra o, təcili olaraq Avropadan qardaşı Stanislavı çağırmışdı. Biz Stanislavla yaşıd idik. Artıq 50-ni keçmişdik. O, 20 dəqiqə ərzində mənə hücum etdi, ancaq getdikcə əldən düşdüyünü hiss edirdim. Sonra müdafiəyə çəkildi və bu zaman təsadüfən başlarımız bir-birinə toxunarkən Zbışkonun xırıltılı tövşüyünü eşitdim:

"Məni yıxma, İvan Maksimoviç... Bu məğlubiyyət mənim axırıma çıxacaq..."

Xaricdə öz parlaq şöhrətini itirmiş çoxlu qoca pəhləvanlar görmüşdüm, gücünü, sağlamlığını itirmiş bu adamlar küçələrdə dilənirdilər. Bir anlığa Stanislavı onların yerində təsəvvür etdim. Ömrümdə birinci dəfə rəqibimə aman verdim. Amerikan azarkeşlərimin "Buraxma, sındır, qolunu sındır, boynunu bur!" – tələblərinə fikir vermədən imkan yaratdım ki, rəqibim fənddən azad olsun. İki saatlıq görüşümüz "heç-heçə" ilə başa çatdı...

Bu mükaliməni Rəşid pəhləvan tez-tez xatırlayırdı. "Belə şeylər çox olub", – deyirdi.

Çox təəssüflər olsun ki, nəhəng bahadır İvan Maksimoviç Poddubnı da ömrünü məhz küçələrdə dilənməklə başa vurdu. Onun ən çətin günlərində Azərbaycan bahadırları Rəşid pəhləvan, Sali Süleyman ona arxa-dayaq olmuşdular, daim pul və ərzaq yardımı göstərirdilər, onun şərəfinə xeyriyyə tamaşaları təşkil edirdilər.

Ürək ağrısı ilə qeyd etmək istəyirəm ki, Rəşid pəhləvan da ömrünü ehtiyac içərisində yekunlaşdırdı. Lakin o, əyilmədi, sınmadı! O şəxsiyyət idi, qartal kimi məğrur, mənəviyyatca zəngin bir insan idi. O heç bir məmurun qapısını döymədi, heç kəsdən maddi kömək ummadı. Umduğu bircə qoca pəhləvana diqqət idi.

1941-1945-ci illər müharibəsi dövründə Rəşid pəhləvan bəlkə də Azərbaycanın büdcəsi qədər arxa və ön cəbhəyə hərbi qospitallara yardım göstərmişdi. Məgər o bu gün qəpik-quruşa görə öz mənliyinə xəyanət edərdimi?

Bu gün pəhləvanın ruhu da bizdən heç nə ummur. Uman Azərbaycandır, onun əsgəridir, gənc nəslidir! Bu tədbir Rəşid pəhləvan üçün deyil, Azərbaycan gəncliyi üçündür! Qoy sinəsini düşmənə sipər edən gənc döyüşçülərimiz görsün ki, onun necə əcdadı olub! Rəşid kimi məğlubedilməz, basılmaz oğlu olan xalq düşmən qarşısında aciz qala bilərmi?

O deyirdi: "Hər elmdə, sənətdə olduğu kimi, pəhləvanlıqda da məqsəd aydınlığı olmalıdır. Nə üçün yaşadığını, nə üçün mübarizə apardığını dərk etməlisən. Qeyri-adi güləşçilik istedadına malik olmaq olar, lakin bu istedaddan xeyirxah niyyətlə xalq üçün, Vətən üçün istifadə etməsən, elə san ki, bu da təbiətin bir səhvidir..."

Lakin Rəşidə münasibətdə nə təbiət, nə də Ulu Tanrı səhv etməmişdi. Rəşid pəhləvana polad bədən, dəmir iradə verdiyi kimi, məhəbbətlə dolu xeyirxah, alicənab bir ürək də vermişdi.

Nəhayət, uzun illərin donuqluğundan sonra, bu gün biganəlik tilsimi sındırılıb. Şükürlər olsun ki, bu buz Rəşid pəhləvanın özünə doğma ocaq sandığı məhz bu möhtəşəm mədəniyyət ocağında sındırılıb. Bakı Dövlət Sirkinin direktoru və bədii rəhbəri Maqbet Bünyadovun, onun müavini Rac Məmmədovun gərgin zəhməti bahasına bu gün güc, çeviklik, cəsurluq bayramına toplaşmışıq. Hesab edirəm ki, bu tədbir Azərbaycanda sirk pəhləvanlığına yeni nəfəs, möhkəm qol-qanad verəcək.

Fürsətdən istifadə edib bir arzumu da bildirmək istərdim:

- Gün o gün olsun ki, insanlara qəddarlıq, qan-qada təlqin edən xarici boyeviklərdən fərqli olaraq, 50 il kürəyi xalçaya dəyməyən Azərbaycan bahadırı Rəşid pəhləvan haqqında gözəl bir bədii filmin premyerasına yığışaq. Bu, Azərbaycan oğluna ucaldılan ən böyük bir abidə olardı."

“525-ci Qəzet”,
21 iyun 2014-cü il
“Şərqin səsi” qəzeti,
Oktyabr 2014-cü il

Tarixi keçmişi dərk etmədən gələcəyə üz tutmaq mümkün deyil

Müsahibimiz tanınmış jurnalist,
“Qızıl Qələm” mükafatı laureatı Şərif Kərimlidir

Şərif Həmid oğlu Kərimli 1954-cü ildə Gürcüstanın Marneuli rayonunun Baydar kəndində anadan olub. 1977-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) jurnalistika fakültəsini bitirib. Əmək fəaliyyətinə 1978-ci ildə "Yazıçı" nəşriyyatında başlayıb. 1984-1987-ci illərdə "İşıq" nəşriyyatında, "Gənclik" ("Molodost") jurnalında, "Azərbaycan" qəzetində məsul katib, baş redaktor, rəsmi dövlət qəzeti "Azərbaycan"da şöbə redaktoru, baş redaktorun müavini, başredaktorun birinci müavini, 1993-cü ildə müəyyən müddət baş redaktor vəzifəsini icra edib. "Sabah" qəzetində baş redaktor olub. 2014-cü ildən Azərbaycan Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Informasiya təminatı şöbəsində işləyir.

"Sali Süleyman", "Rəşid pəhləvan", "Pəhləvan Müsəllim", "8712 №li əsir" adlı publisistik və nəsr kitabları çapdan çıxıb. Borçalının XX əsrin sonlarındakı durumundan bəhs edən "Qaytarılan köç karvanı" kitabının tərtibçisi olub. Azərbaycan - Gürcüstan əlaqələri" monoqrafiyası çap mərhələsindədir.

-Şərif müəllim, 90-cı illərdə Sizin “Azərbaycan” qəzetində bir yazınızı oxumuşdum: “Üç ilin yorğunuyuq

biz...” O vaxtdan iyirmi ildən artıq müddət keçib. Maaşallah, yorğun adama oxşamırsınız. Onda niyə belə demişdiniz?

-Mən həmişə II Dünya müharibəsi iştirakçılarına onların dözümlülüyünə, mətanətinə, çətinliklərə sinə gərmələrinə, həyatda haqsızlıqlara qarşı barışmaz olmalarına görə pərəstiş etmişəm. Sinəsi orden və medallarla dolu bir veteran görəndə onları təkcə qazandıqları igidliklərə görə deyil, ən çox göstərdikləri rəşadətlər fonunda hələ də əyilməz, gümrah qaldıqlarına görə bağrıma basmaq istəmişəm! Görünür, insan nə qədər ki, mübarizədədir, xəstəlik, depressiya ondan uzaq olur, elə ki, mübarizəni dayandırırsan, əl-qolun boşalır, bax onda ən kiçik parazitlər belə insanı diz çökdürür. Adını çəkdiyiniz yazı, əlbəttə ki yadımdadır. Bu, “Azərbaycan” qəzetinin üç illiyi münasibətilə yazılmışdı. Səmimiyyətimə inanın, o üç ildə bizim çəkdiyimiz acılar, ağrılar miqyasına görə o qədər böyük idi ki, bəlkə otuz illik enerjimizi almışdı.

-O dövrdə, deyəsən, Siz qəzetin baş redaktoru idiniz?

-Bəli, məndən əvvəl “Azərbaycan”ın baş redaktoru Sabir Rüstəmxanlı idi. Sabir müəllim mətbuat və informasiya naziri təyin olunduqdan sonra kollektiv məni bu vəzifəyə layiq bildi. Bilirsiniz ki, 1989-cu il oktyabrın 4-də qəzetin ilk nömrəsini Sabir müəllimlə mən buraxmışam. Elə adını çəkdiyiniz yazıda demişdim: “Redaksiyada Sabir müəllimdən başqa heç kim Xalq Cəbhəsinin üzvü deyildi. Çünki “Azərbaycan” özü ayrıca bir cəbhə idi...” Sabir Rüstəmxanlı çox demokratik redaktor idi. Yeri gələndə qəzetin onun təmsil olunduğu siyasi təşkilata qarşı çıxmasına da mane olmurdu.

-Unutmayaq ki, “Azərbaycan”dan qabaq “Gənclik” vardı...

-“Gənclik” bir başqa dünyaydı... O, vizual jurnal idi. “Azərbaycan”ın sovet imperializminə qarşı mübarizəsinin, milli-azadlıq məfkurəsi uğrunda çarpışmalarının ilk cığırdaşı “Gənclik” jurnalı idi.

-Dövrünün və yarandığı andan etibarən özündən sonrakı dövrlərin ən populyar mətbuat orqanlarında çalışmısınız, Sizcə, onları belə məşhurlaşdıran nə idi – redaktorları, yoxsa?

-Tarixdə şəxsiyyətlərin rolu böyükdür. Lakin "Böyük şəxsiyyət" epitetini o kəslər şərəflə və uzun müddət daşıya bilirlər ki, onlar istedadsız insanlar kimi öz ətrafında cılızları deyil, nəhəng şəxsiyyətləri toplayırlar. Nəhənglərin içərisində o daha nəhəng görünür. Böyük şəxsiyyətlər öz xalqlarının arzu və ideallarını əks etdirdikləri üçün böyük işlər görə bilirlər. "Gənclik"ə qədər Məmməd İsmayılla mən "Yazıçı" və "İşıq" nəşriyyatlarında bir yerdə işləmişik. O, "İşıq" nəşriyyatına direktor göndərilərkən məni də oraya dəvət etdi. Bilirdim ki, Məmməd İsmayıl çox tələbkar və idarəçilikdə sərt adamdır,lakin mən bu dəvəti qəbul etdim, çünki ən başlıcası Məmməd İsmayıl obyektiv və prinsipial insan idi. Bu, mənim prinsiplərimə də uyğun gəlirdi. Yeri gəlmişkən, "Gənclik" ("Molodost") jurnalının lisenziyasını da 1987-ci ildə Moskvadan bir yerdə almışdıq.

Hələ "İşıq" nəşriyyatında işləyərkən iş prosesində mütəmadi konfliktlərimiz olurdu, lakin respublika komsomol təşkilatının orqanı olan "Gənclik" ("Molodost") jurnalına baş redaktor təyin olunan Məmməd İsmayıl məni özünə müavin vəzifəsinə dəvət edəndə məmnuniyyətlə bu təklifə müsbət cavab verdim. Məmməd İsmayıl Məti Osmanoğlu, Səfər Alışarlı, Yevgeni Juravlyov, Akif Əhmədgil, Çingiz Sultansoy, Gündüz Əlizadə, Hüseyn Əfəndi kimi, o dövrdə gənc olmalarına baxmayaraq, kifayət qədər tanınmış,istedadlı qələm sahiblərini başına topladı və... 80-ci illərin bir nömrəli jurnalını buraxdıq. Jurnal az müddət ərzində bütün SSRİ məkanında məşhurlaşdı.

Uzunçuluq olmasın, bir dəfə MK-nın Birinci Katibi Əbdürrəhman Vəzirov şəxsən özü Məmməd İsmayıla zəng vurub belə dedi:

"Mamed muallim (mətni eşitdiyim kimi danışıram - Ş.K.), moi rabotniki stolumun üstünə bir jurnal polajili, baxdım, dedim,

sluşayte, kakoy-je krasivıy jurnal, a poçemu u nas ne izdayotsya takoy krasivıy jurnal? Dedilər, Abdurraxman Xaliloviç, bu jurnal elə bizdə çıxır da... Dedim, sluşay, ne mojet bıt. Dedilər, bu da telefonları. İndi sənə zəng edirəm, doğurdan da ya ubedilsya, şto deystvitelna takoy jurnal bizdə suşestvuyet. Ya tebya ot duşi pozdravlyayu! Tak derjat! Bu bizim fəxrimizdir!"

-Bəs, necə oldu ki, Siz "Azərbaycan" qəzetinə keçdiniz?

-Mən dinamikanı xoşlayan adamam. 1978-ci ildən, "Yazıçı" nəşriyyatında əmək fəaliyyətinə başladığım gündən, daha operativ orqanlara can atmışam. Bu sarıdan mən Məmməd İsmayıla və Sabir Rüstəmxanlıya minnətdaram ki, mənim bu arzumun həyata keçməsinə səbəb oldular.

1987-1989-cu illərdə "Gənclik" jurnalında işləmək üçün MK-dan belə özünü tapşırdanlar yüzlərlə idi. Lakin Məmməd İsmayıla hər işçini "sırımaq" mümkün deyildi... Ona görə də Sabir Rüstəmxanlının dəvətini qəbul edib "Azərbaycan"a keçmək istədiyimi Məmməd müəllimə bildirəndə... o, çox pərt oldu. Lakin... mən getməliydim, çünki "Azərbaycan"ın qarşısında daha geniş üfüqlər parlayırdı! Yenidənqurma və aşkarlığın nəticəsində oyanan xalq kütlələri, güclənən milli-azadlıq hərəkatı, mərkəzi hakimiyyətə itaətsizlik, müstəqillik arzuları, Təbriz, Borçalı, Dərbənd nisgilləri... mətbuatın qarşısında vacib və böyük məsələlər qoyurdu. Bu mənada qəzet hadisələrə daha tez və operativ müdaxilə etmək imkanına malik idi.

Əlbəttə ki, tarixin mərkəzində kütlələr deyil, həmişə fərdlər dayanıb. Sabir Rüstəmxanlı da kütlələrin mərkəzində dayanan şəxslərdən idi. Biz Sabir müəllimlə "Yazıçı" nəşriyyatından tanışıq – altı il bir yerdə işləmişik- rəhmətlik Əjdər Xanbabayevin vaxtında. Onu sözü bütöv, mərd, millətin, xalqın yolunda heç nəyə və heç kimə güzəştə getməyən, ən başlıcası, səmimi və ürəyiyumşaq insan kimi tanımışam. O vaxtlar onun öz silahdaşlarından ən böyük fərqi onda idi ki, baş verən hadisələrə təkcə inqilabçı gözü ilə baxmır, həm də şair təbiətindən irəli gələn humanist münasibət göstərirdi, konfrantasiyanı yumşaltmağa

çalışırdı və ən əsası, məqamında ambisiyalarını cilovlaya bilirdi. Meydan təşkilatçılarının və ümumilikdə bütün xalqın bir düşməni vardı – partiya-sovet idarəçiliyi və erməni daşnakları. Lakin Sabir Rüstəmxanlı ümumi düşmənlərlə vuruşmaqla yanaşı, baş redaktoru olduğu qəzetin təsisçisi və o dövrdə yaranan müxtəlif hərəkat liderləri ilə də mübarizə aparmalı olurdu. Ona görə də biz hər tərəfdən vurulurduq. Redaksiyanın bu mövqeyi nəticədə gətirib ona çıxardı ki, qəzet 500 min tirajla çıxmağa başladı. Əlbəttə, bu, rəsmi rəqəm idi, lakin qəzetin oxucusu onun tirajından qat-qat çox idi.

-Şərif müəllim, "Azərbaycan" qəzetində dil və əlifba məsələsi gündəmi ən çox zəbt edən məsələlərdən idi. Qəzetin özündə buna necə əməl olunurdu?

-Əslində, bu məsələlər sistemli şəkildə "Gənclik" jurnalında da qoyulurdu. Hətta biz orada ilk dəfə əski (Ərəb əlifbası) və latın əlifbalarını da digər əlifbaların qarşılığı ilə çap edirdik. "Azərbaycan" qəzeti isə bu işi daha çox milli dövlət ideologiyası kimi müstəqillik atributları sırasına çıxardı. O vaxtlar Azərbaycan milli ideologyası problemi ilə bağlı mübahisəli məsələlərdən biri də milli kimlik və milli dilin adı ilə bağlı idi. Onu necə adlandırmalı: türk, yoxsa Azərbaycan dili? Bildiyiniz kimi, bu mübahisələrə son nöqtəni Azərbaycan Konstitusiyasinin qəbulu ilə bağlı Heydər Əliyev qoydu: "Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir."

Qaldı qəzetdə dilin təmizliyinin qorunması məsələsinə, bu sarıdan əməkdaşlarımız və xüsusilə korrektorlar qarşısında çox ciddi tələblər qoymuşduq. Və bu gün fəxrlə deyə bilərəm ki, "Azərbaycan" qəzeti sovetlərdən sonra müstəqillik dövrünün ilk qəzetiydi ki, "əlvan qəzet dili" ilə çıxırdı!..

Mətbuat dilimiz bu gün bərbad gündədir. Bu, şəksizdir. İndi dilin təmizliyinin qorunması, eləcə də onun inkişafı ancaq təhsil işçilərinin üzərinə düşür. Qəzet və jurnallar, televiziya dəfələrlə deyilən iradlara baxmayaraq, onu məhv eləməkdən yorulmurlar. Unutmaq lazım deyil ki, dil insan beyninin, dərrakənin saxlandığı,

qorunduğu xəzinədir, məkandır. Dil kollektiv düşüncənin keyfiyyət göstəricisidir. Dil keçmişlə indi arasında körpüdür, keçmişdən gələn səsdir.

Vaxtilə dilin bir nömrəli keşikçisi nəşriyyatlar idi – "Azərnəşr", Azərbaycan Ensiklopediyası, "Yazıçı", "Gənclik", "Maarif", "İşıq". İndi sıradan çıxan bu nəşriyyatların əvəzində çoxlu sayda yeni "nəşriyyat"lar açılsa da onların çoxu ancaq qrif satmaqla məşğuldur.

-Şərif müəllim, dövlət tərəfindən qəzetə yardım olunurdumu?

-Əgər maddi yardımı nəzərdə tutursunuzsa, belə bir şey yox idi, çünki "Azərbaycan" respublika mətbuatı tarixində bəlkə də yeganə qəzet idi ki, öz tirajı hesabına maaliyyələşirdi, üstəlik Qarabağa Xalq Yardımı Komitəsinin işçilərinin əmək haqları da qəzetin büdcəsindən ödənilirdi.

Mənəvi yardıma gələndə isə... dövlət peşman olmuşdu ki, belə bir qəzetin nəşrinə icazə verib...

-25 il bundan əvvəlki kollektivinizi necə xatırlayırsınız?

-Sualınızın incə məqamını başa düşdüm. Bu il həm də "Azərbaycan"ın ilk müstəqil qəzet kimi yenidən bərpasının 25 ili tamam olur... Bir az kədərləndirici də olsa deməliyəm ki, "Azərbaycan"nın 25 il əvvəlki gənc kollektivi indi yaşa dolub, ancaq hələ də ön cəbhədədir! 1989-cu il oktyabrın 4-də gördüyüm 43 yaşlı Sabir indi 68 yaşında, 35 yaşlı Şərif indi 60 yaşında, 26 yaşlı Mirşahin indi 51 yaşında, 32 yaşlı Behrudi indi 57 yaşında, 23 yaşlı Kəmalə indi 48 yaşında, 36 yaşlı Fəridə indi 61 yaşında, 32 yaşlı Fikrət indi 57 yaşında, 30 yaşlı Nərgiz indi 55 yaşında, 42 yaşlı Nicat indi 67 yaşında, 33 yaşlı Mahizər indi 58 yaşında, 21 yaşlı Arzu indi 46 yaşındadır... 44 yaşlı Şaiq Bəhramoğlu, 42 yaşlı Əhməd Elbrus, 35 yaşlı Eyvaz Həsənov, 45 yaşlı Oqtay Abbasov, 30 yaşlı Gülməmməd Məmmədovun... ruhları isə indi narahat dünyamızdan çox-çox uzaqlardadır. Ancaq bu qəzet Azərbaycanın mətbuat tarixində şanlı bir səhifədir! Bəzən mənə elə gəlir ki,

qəzetin 1918-1920-ci illərdəki kollektivi günahlarımızın olmadığı müqəddəs yerlərdə oturub bizi gözləyir...

-Şərif müəllim, mətbuat tariximizlə bağlı maraqlı söhbətlərinizə görə təşəkkür edirik.

-Mən şadam ki, sizi az müddətdə də olsa keçmişə eksklüziv səyahətə apara bildim. Çünki tarixi keçmişi dərk etmədən gələcəyi kəşf etmək mümkün deyil.

Müsahibəni apardı:
Dəyanət Osmanlı

"Virtualaz.org" saytı,
21 iyun 2014-cü il

Əbdürrəhman Vəzirovdan redaksiyaya qəfil zəng...

"İndiki "Azərbaycan" nəşriyyatının o vaxtkı baş mühəndisi, milliyyətcə yəhudi olan Vixaylevski məni kənara çəkib pıçıltıyla az qala yalvardı: "Xoçeş, ya pered toboyu na koleni stanu..."

Şərif Kərimli... Ola bilsin bu imza bugünkü nəsilə o qədər də tanış deyil. Bu da təbiidir. Çünki yaşıdlarının əksəriyyəti kimi o da özünü gözə soxmağı sevmir. Bunsuz isə hətta indiki yazılı və elektron KİV bolluğunda üzdə, diqqət mərkəzində olmaq, demək olar ki, qeyri-mümkündür. Amma vaxt vardı ki, həmin imza məşhur idi. Özü də orijinal yazı, özəl tərtibat üslubu ilə seçilən bir imza idi. Bunu onu yaxından tanıyanlar bu günün özündə də təsdiq edə bilərlər. Məhz bu məqamları nəzərə alaraq Şərif Kərimlini oxuculara bir daha təqdim etmək istəyirəm.

1954-cü ilin 22 iyununda Gürcüstanın Marneuli rayonunun Baydar kəndində anadan olub. Azərbaycan Dövlət Universitetinin (indiki BDU) jurnalistika fakültəsini bitirib.

1980-ci illərin məşhur "Yazıçı" və "İşıq" nəşriyyatlarında işləyib. Dövrünün çox populyar "Gənclik"("Molodost") jurnalında ədəbi işçi, məsul katib, 1989-1992-ci illərdə Qarabağa Xalq Yardımı Komitəsinin"Azərbaycan" qəzetində məsul katib, baş redaktor, 1992-1995-ci illərdə isə rəsmi dövlət qəzeti"Azərbaycan"da şöbə redaktoru, baş redaktorun müavini, baş redaktorun birinci müavini olub. 1993-cü ildə iki ay baş redaktor vəzifəsini icra edib.

Sonrakı illərdə də mətbuatdan ayrılmayıb, "Eksklüziv" İnformasiya Agentliyində redaktor, "MİP", "Sabah", "Tərəqqi", "Azərnyus", "Üç nöqtə", "Odlar Yurdu" qəzetlərində baş redaktor müavini, baş redaktor işləyib.

2005-2011-ci illərdə isə Odlar Yurdu, Bakı Avrasiya, Bakı Slavyan universitetlərinin və ABU-nun jurnalistika fakültələrində dərs deyib. Bir neçə bədii, publisistik kitabın müəllifidir, onlarla kitabın bədii və texniki redaktoru olub.

"Azərbaycan-Gürcüstan əlaqələri" monoqrafiyası çap mərhələsindədir. 1992-ci ildə "Qızıl Qələm" mükafatı ilə təltif olunub.

Hazırda həm "Sabah" qəzetində baş redaktor, həm də Azərbaycan Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin İnformasiya təminatı şöbəsində mütəxəssis kimi fəaliyyət göstərir.

Onunla 60 yaşının astanasında virtualaz.org saytı adından görüşdük və ötüb-keçənlərə ötəri nəzər salmaq istədik:

-Şərif müəllim, bilmirəm təsadüfdür, yoxsa qanunauyğunluq, bu il Sizin həyatınızda əlamətdar günlərlə zəngindir. Ömrünüzün altımışıncı yayına qədəm qoyursunuz, yaradıcılığınızın 40-cı ilini yaşayırsınız və... jurnalistlik fəaliyyətinizdə bir mayak rolunu oynamış "Azərbaycan" qəzetinin 1989-cu ildə yenidən bərpasının 25 ili tamam olur. Maraqlıdır, bu rəqəmlərin hansı ürəyinizə daha çox yatır?

-Həyatda təsadüfi heç nə yoxdur. Sadəcə, gözləmədiyimiz hadisələri bəzən təsadüf kimi qarşılayırıq. Göydən daş yağırsa – bu, təsadüf deyil, dünyaya körpə gəlirsə - bu, təsadüf deyil, qəfil kiməsə vurulursansa, yaxud kimsə sənə vurulursa – bu da təsadüf deyil... Hətta sənə nifrət edənlərin hissləri də təsadüf deyil!

60 ili taleyin bəxşişi, 40 ili zəhmətimin bəhrəsi, 25 ili müstəqil mətbuatımızın gənclik dövrü hesab edirəm. Əgər mən də bu dövrdə yaşayıramsa, deməli, hələ gəncəm...

-İstərdim, mətbuatımızın gənclik dövrü adlandırdığınız "Azərbaycan" qəzetinin fəaliyyəti ilə bağlı bir neçə məqama aydınlıq gətirəsiniz. İlk növbədə bilmək istərdim, qəzet nəşrə başlayarkən onun statusu necə idi?

-Bu qəzet Qarabağa Xalq Yardımı Komitəsinin (QXYK) mətbuat orqanı kimi nəşrə başlayıb. Lakin elə ilk sayından bir təşkilatın deyil, bütöv Azərbaycanın qəzeti olduğunu göstərdi və bütün fəaliyyəti dövründə bunu sübut etdi.

-Necə oldu ki, Siz "Azərbaycan"a gəldiniz, axı o dövrlərdə "Gənclik" kimi populyar bir jurnalda işləyirdiniz?

-Mən həmişə sürətli və mütəhərrik işlərə meylli olmuşam. Hər şeydə yaradıcı olmağa, yenilik etməyə çalışmışam. Hətta "Yazıçı" və "İşıq" nəşriyyatlarında işləyəndə belə, indi tanınmış yazıçı və jurnalist olan keçmiş iş yoldaşlarım da təsdiq edərlər, kitab sənayesinin bədii və texniki tərtibat işində daim yeniliklər etmişəm. Mənim rəssamlıq qabiliyyətim pis olmayıb. Hələ orta məktəbdə oxuyarkən yağlı boya və akvarellə çəkilmiş xeyli sayda peyzaj və portretlərim olub.

"Gənclik" jurnalına da redaksiyanın ştatda olan istedadlı rəssamı Gündüz Əlizadə ilə yanaşı, xeylı sayda müasir ruhlu rəssam toplaya bilmişdim. "Gənclik" jurnalı təkcə məzmunu baxımından deyil, bədii tərtibat cəhətdən də respublikanın bir nömrəli jurnalı idi. Bizim poliqrafiya bazamızda incə, zərif, estetik baxımdan cəlbedici, gözəl şrift dəstləri olmadığından, Almaniyanın abunəçisi olduğum "Qutentaq" jurnalından başlıqlardakı şriftləri bir-bir kəsib müxtəlif şrirt dəstləri düzəltmişdim və jurnalımızda gedən materialların sərlövhələrini həmin şriftlərin müxtəlif foto versiyaları ilə yığırdıq.

Mən bu barədə müsahibələrimin birində demişəm,yeri gəldiyindən təkrar etməyi qəbahət hesab etmirəm. Bir dəfə jurnalın növbəti nömrəsinin planlaşması ilə məşğul olarkən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Əbdürrəhman Vəzirov şəxsən özü baş redaktor Məmməd İsmayıla zəng vurdu. Məmməd müəllim əvvəl qorxdu, fikirləşdi

ki, görünür, nəsə ciddi siyasi xətaya yol vermişik, sonra telefonda rəng verib - rəng aldı, daha sonra "*çalışırıq, Əbdürrəhman müəllim...*" deyib, kreslosuna yayxandı. Kabinetdə ikimiz olduğundan mən Vəzirovun danışığını aydın eşıdırdim *və mətni eşitdiyim kimi danışıram*: **"Mamed muallim, moi rabotniki stolumun üstünə bir jurnal polajili, baxdım, dedim, sluşayte, kakoy-je krasivıy jurnal, a poçemu u nas ne izdayotsya takoy krasivıy jurnal? Dedilər, Abdurraxman Xaliloviç, bu jurnal elə bizdə çıxır da... Dedim, sluşay, ne mojet bıt. Dedilər, bu da telefonları... İndi sənə zəng edirəm, doğurdan da ya ubedilsya, şto deystvitelna takoy jurnal bizdə suşestvuyet. Ya tebya ot duşi pozdravlyayu! Tak derjat! Bu bizim fax... fəx...rimizdir!"**

"Azərbaycan"a gəlişim isə... bu da bir qanunauyğunluq idi. QXYK və "Azərbaycan" qəzetinin yaranacağı barədə informasiyaları eşidib onların yerləşdiyi ofisə-keçmiş Uşaq Fondunun binasına gəldim. Dəhlizdə Sabir Rüstəmxanlı ilə rastlaşdım.

Bu, 1989-cu il oktyabrın 2-də oldu, oktyabrın 4-dən 5-nə keçən gecə isə artıq mənim məsul katibliyimlə "Azərbaycan" qəzetinin ilk sayı çapdan çıxdı.

-Şərif müəllim, eşitdiyimə görə, "Azərbaycan" qəzetinin başlığı ilə bağlı o vaxtlar xeyli mübahisələr olub. Deyirlər ki, məsələ hətta Mərkəzi Komitəyə qədər gedib çıxıbmış. Məsələnin o cür siyasiləşməsi nə ilə bağlı idi?

-Əslində bu elə siyasi məsələ idi. Mən Sabir müəllimin dəvətini qəbul edərkən qəzetin başlığı ilə maraqlandım, o mənə ərəb qrafikası ilə yazılmış "Azərbaycan" sözünü göstərdi. Açığı, xoşuma gəlmədi. Hətta bir anlığa "Gənclik"i "Azərbaycan"a dəyişmək fikrinə düşdüyümə görə təəssüfləndim də. O mənim narahatlığımı görüb: *"Bayram müəllimə (Qarabağa Xalq Yardımı Komitəsinin o vaxtkı sədri, yazıçı Bayram Bayramovu nəzərdə tutur-İ.M.) başqasını qəbul elətdirmək mümkün deyil"*– dedi və əlacsızlıqla çiyinlərini çəkdi.

"İcazə verin, mən də bir cəhd edim..."– dedim.

"Elə, ancaq xeyiri yoxdur" – deyib başlığı mənə uzatdı.

Dəhlizdə ərəb qrafikası ilə yazılmış bu başlığın müəllifi, sonralar, 1993-cü ilədək "Azərbaycan"ın rəssamı işləyəcək istedadlı rəngkar Fikrət İbrahimov və tanınmış rəssam, QXYK-da şöbə müdiri işləyən Firudin Abbasovla qarşılaşdım. Onlar niyyətimi biləndə, insafən, hər ikisi mənimlə razılaşdıqlarını bildirdilər. Sözlərindən belə anladım ki, onlar da "ağsaqqalın sözündən çıxa bilməyiblər".

Bayram Bayramovla "Yazıçı" nəşriyyatından tanış idik, mənə həmişə "Borçalı balası, necəsən?" deyə müraciət edərdi. Ona görə də ərklə onun yanına gedib fikrimi açıq bildirdim.

Mən onu belə görməmişdim!.. Bayram müəllimin üzü necə dönərmiş, İlahi?!

"Bu qədər adamın bəyəndiyini sən bəyənmirsən?!" – deyə mənə qəzəbləndi.

Ancaq mən də geri çəkilmədim: *"Ərəb qrafikası ilə yazmaq hələ millilik demək deyil!"*

Bu söz yazıçını bir az da haldan çıxardı. *"Bundan yaxşısını yaza bilirsənsə, get sabaha qədər gətir, sabah qəzet çıxmalıdır!"*-son qərar belə oldu.

..."Gənclik"dəki rəssam dostum Gündüzə zəng vurdum ki, bu axşam evə getməyəcəyik. Və biz... bütün gecəni – saat 10-dan səhər saat 11-dək mənim "Gənclik"dəki kabinetimdə işlədik.

...Bu hissləri təsvir eləmək mənim üçün çox da çətin deyil, ancaq o dövrü bilməyənlər üçün onları dərk etmək yəqin ki, elə də asan olmayacaq. Məsələ onda idi ki, bizim qarşımızda bir əsas məsələ dururdu: qəzetin başlığından tutmuş son çıxış məlumatlarına qədər oxucunu "özbaşına buraxmamaq"; Milli azadlıq hərəkatının vüsət aldığı, xalqın özünüdərk, oyanış hisslərinin coşduğu bir dövrdə mətbu sözə olan inamın gücündən istifadə edərək müstəqillik arzularımızın həyata keçməsinə maksimum nail olmaq.

Meydanda milli bayrağımızın az-az göründüyü vaxtlarda milli dövlətçilik rəmzlərimizin qəzet səhifəsinə, xüsusən də

başlığa çıxarılması böyük coşquya səbəb ola bilərdi. Ancaq həmin dövrdə bu, qəzetin birdəfəlik bağlanmasına da gətirib çıxara bilərdi... Məhz ona görə də burada təcrübə, səriştə və ustalıq tələb olunurdu.

Biz əvvəlcə **A** hərfinin sol qanadını aypara şəklinə saldıq, sonra iki qanadı birləşdirən defis işarəsini səkkizguşəli ulduzla əvəz etdik. Nəticədə maraqlı bir simvol alındı.

Deməli, Ayparamız var, Səkkizguşəli Ulduzumuz var, qalır Odlar

Diyarının rəmzinə. Onu da "**Azərbaycan**" sözündəki (kiril qrafikası ilə) **y** hərfinin üstünə qoyduq...

Səhər saat 11-də Sabir Rüctəmxanlı ilə birgə Bayram Bayramovun

kabinetinə daxil olduq. Allah rəhmət eləsin, Bayram müəllim başlığı

görən kimi... kinayə ilə dedi: *"İstəyirsinizsə ki qəzetimizi elə ilk nömrədəncə bağlasınlar, onda verin, onsuz da siz sözə baxan deyilsiniz..."* .

Biz elə Bayram müəllimin dediyi kimi də etdik...Və... doğrudan da başımız ağrıdı. İş hətta qəzeti elə beşikdəcə boğmaq həddinə qədər gəlib çatdı.

"Kommunist" (indiki "Azərbaycan") nəşriyyatının baş mühəndisi, milliyyətcə yəhudi olan Bixaylevskiyə kimsə bu simvolların mənasını başa salmışdı. O əvvəl əmrlə, sonra təkidlə, daha sonra isə mənim heç cür razılaşmayacağımı görüb, acizanə şəkildə onları dəyişməyimi xahiş etdi. Hətta vəziyyət o həddə çatdı ki, başqa vaxtlar ədasından yerə-göyə sığmayan baş mühəndis indi əlacı hər şeydən kəsildiyindən məni kənara çəkib pıçıltıyla az qala yalvardı: *"Xoçeş, çto ya pered toboyu na kolenu stanu..."* .

Təbii ki, mən razılaşmadım. Çünki illərdi biz bu odun-alovun həsrətindəydik! Ayparanın, səkkizguşənin adını belə çəkə bilmirdik! Nəhayət ki, bunu geniş xalq kütlələrinə çatdırmalıydıq...

Baş mühəndislə bu qovğaya başımız qarışarkən, bir də xəbər gəldi ki, Mərkəzi Komitədən qəzetin səhifələrini tələb edirlər. Rəhmətlik şair Əhməd Elbrusla qəzetin səhifələrini (ottisklərini) götürüb MK-ya getdik.

Gecə saat 11-12 olardı. Nüsxələri növbətçiyə verib aşağıda gözləməyə başladıq. Arabir xəbər gəlirdi ki, qəzetin nəşrinə icazə verməyəcəklər. Nüsxələri Təbliğat-təşviqat şöbəsinin müdiri Rafiq Zeynalov və birinci katib Əbdürrəhman Vəziroiv özü şəxsən oxuyurdu.

Nəhayət, MK-nın senzurasından qəzet, becə deyərlər, "it günündə" gəldi! Başlığı isə tamamilə rədd etmişdilər.

Çıxılmaz vəziyyət yaranmışdı. Nə Sabir müəllimə deyə bilirdim, nə də Bayram müəllimə. Çünki hər ikisi əvvəldən xəbərdarlıq etmişdi...

Artıq saat 12-ni keçirdi. Binanın birinci mərtəbəsində gözləmə otağında oturub MK-nın rəngbərəng şəbəkəli qapılarından təmiz səmada Ayı seyr edirdik. Birdən qəribə bir mənzərənin şahidi oldum: MK-nın səkkizguşə ornamentlərlə bəzədilmiş qapılarının arxasından görünən Ay eynən bizim qəzetin **A** hərfindəki Aypara və Səkkizguşəyə oxşayırdı... Bunu rəhmətlik Əhməd Elbrusa dedim: "Necə olur ki, özləri bu qədər səkkizguşəni mənimsəyiblər, ancaq bizə birini belə qıymırlar?!"

Əhməd Elbrus mənzərəni seyr edib, qəfil yuxudan ayılıbmış kimi, yerindən dik atıldı: "Ay rəhmətliyin oğlu, elə bilirsən onların bundan xəbəri var?".

Biz təkid göstərərək Rafiq Zeynalovla görüşdük, fikrimizi bildirdik. Uzun mübahisədən sonra səkkizguşəni götürmək şərtilə, digər simvollara – Aypara və Oda toxunmadan qəzetin başlığına icazə ala bildik...

Elə birinci nömrədən sonra, Azərbaycan mətbuatı tarixində ilk dəfə olaraq, "Azərbaycan" qəzeti yarım milyon -500 min tirajla çıxmağa başladı. Qəzeti hələ oxumağa macal tapmayanlar belə başlıqda olan milli rəmzlərə görə onu, əstəğfürullah,

müqəddəs kitabımız səviyyəsində öpüb gözlərinin üstünə qoyur, evlərində ən başda, təmiz, müqəddəs yerlərdə saxlayırdılar!..

-Yaradıcı kollektivi əsasən kim formalaşdırırdı – QXYK sədri, yoxsa baş redaktor?

-İşə qəbul prosesində bütün dövrlərdə tapşırıq olub və olacaq. Redaksiyanın təxminən otuz nəfərlik kollektivi vardı. Təbii ki, bunların içərisində tapşırıqla işə qəbul olunanlar da az deyildi. Ancaq bir şey aydın idi ki, hansı yolla olursa-olsun, bu kollektivə gələn ondan kənarda qala bilməzdi – ya redaksiyanın ab-havasına uyğunlaşmalı, ya da sakitcə oranı tərk etməli idi.

Qaldı işin keyfiyyəti və onun effektivliyinə, biz kursumuzu və onun koordinatlarını dəqiq bilir, kompassız da hara gedəcəyimizi dürüst müəyyənləşdirirdik. "Kompasımız" Sabir müəllim o dövrlərdə daha çox ictimai-siyasi işlərlə məşğul idi. Ayın, demək olar ki, yarıdan çoxunu xarici ölkələrdə olurdu. Rüstəm Behrudiyə nədən yazacağını deməyə ehtiyac yox idi, Mir Şahinə haradan və necə yazmağı demək artıq şey idi, Fəridə Ləman "Qurğuşunlu sətirlər"lə cəbhələri dolaşırdı, Teylor Fətişoğlu Qarabağdan qanlı xəbərlər gətirirdi, Nicat Verdizadə, Şaiq Bəhramoğlu, Oqtay Abbasov, Aydın Sadiq, Nərgiz Sadıqova, Elçin Süleymanov rusdilli oxucuların maraqlarını daim diqqətdə saxlayırdı, Şərir Kərimli bir ucu Borçalı, bir ucu Dərbənd, bir ucu Təbriz narahat ruhlarımızın axtarışındaydı...

Kənar müəlliflərlə iş xüsusi diqqətdə olan bir məsələ idi. Yəni, redaksiyaya sadə insanlardan, ziyalılardan, rayonlardan, xarici ölkələrdən o qədər məktublar, məxsusi qəzet üçün yazılmış materiallar gəlirdi ki, onları oxuyub cavab vermək özü xeyli vaxt aparırdı. Ancaq biz onların hamısını oxumaq, həssaslıqla yanaşmaq və hər birinə cavab yazmaq məcburiyyətində idik, çünki Azərbaycanın o dövrdə belə əlaqələrə olduqca böyük ehtiyacı vardı. Eyni zamanda həmin ünvanlara qəzetimizi də göndərirdik. Bu yolla biz Azərbaycan həqiqətlərini dünyanın bir sıra ölkələrinə yaya bilirdik.

-Bəs necə oldu ki, müstəqil mətbuat orqanı kimi fəaliyyətə başlayan "Azərbaycan" rəsmi dövlət qəzetinə çevrildi?

-1991-ci ildə Sabir Rüstəmxanlı Mətbuat və informasiya naziri təyin olunduqdan sonra kollektiv seçki yolu ilə məni baş redaktor seçdi. Düzdür, Bayram Bayramov bunu yalnız ikinci cəhddən sonra təsdiq elədi, ancaq Azərbaycan mətbuatı tarixində baş redaktor seçkisi ilk dəfə məhz "Azərbaycan"da baş tutdu.

-Bəs nə üçün ikinci cəhddə?

-Biz iclasın protokolunu Bayram müəllimə təqdim edəndə o hirslə protokolu cırıb atdı: *"Mən hələ ölməmişəm ki, siz burada özbaşınalıq edəsiniz!"*

Bundan sonra "Kommunist", indiki "Xalq qəzeti"ndən İlham Rəhimlini baş redaktor gətirdi. Lakin... İlham Rəhimli təcrübəli jurnalist, tanınmış incəsənət xadimi idi, lakin "Azərbaycan" heç bir qəzetə bənzəmirdi. Onun yazıları da ənənəvi yazılardan kəskin fərqlənirdi. İlham müəllimin redaksiyada başladığı ilk islahat qəzetin formatının dəyişdirilməsi ilə start götürdü - A-4 formatından A-2 formatına keçildi. Bununla da qəzet "Kommunist"ə oxşamağa başladı. "Azərbaycan"ın kənar müəlliflərinin yerini "Kommunist"in ştatdankənar müxbirləri tutdu. Bir-iki nömrədən sonra bu dəyişiklik dərhal özünü göstərdi – qəzetin tirajı 200 mindən 57 minə düşdü... Və bu tənəzzül iki ay ərzində davam etdi.

İki aydan sonra yenidən seçki keçirdik və bu dəfə də kollektiv məni baş redaktor seçdi. B.Bayramov məhz bundan sonra məni kabinetinə çağırıb *"Get, kollektivə rəhbərlik elə..."* dedi.

O vaxtlar başqa yerlərdən müxtəlif iş təklifləri gəlsə də, yolunda saysız-hesabsız əziyyətlər çəkdiyimiz "Azərbaycan"ı atıb getmək mənə ağır gəlirdi. Özümə təskinlik verərək ürəyimdə Bayram müəllimin kollektivin rəyinə belə sayğısızlığını onun yaşı ilə əlaqələndirdim... və qəzetə rəhbərliyə başladım. Lakin

İ.Rəhimlinin "islahatları" artıq öz bəhrəsini verməkdə idi. Gözdən düşən qəzetin nüfuzunu qaldırmaq olduqca müşkül bir iş idi.

Ölkədə sürətlə milliləşmə prosesi gedirdi. Küçə adları dəyişdirilir, dövlət atributları bərpa olunur, soyadlardakı "ov", "yev" sonluqları ləğv olunurdu. Milli Məclis dövlət bayrağımızı, gerbimizi, himnimizi bərpa etmişdi. Belə bir məqamda mənim müavinim işləyən Rüstəm Behrudi ilə Prezident Aparatının, Milli Məclisin qapılarını döyməyə başladıq. Onların şifahi razılığını alandan sonra 1992-ci il sentyabrın 1-də kollektiv adından Milli Məclisə bu məzmunda bir məktub göndərdim: ***"...Azərbaycan Demokratik Cümhuriyyətinin atributlarının bərpa olunduğu bir vaxtda Cümhuriyyətin ilk və son mətbu orqanı olan "Azərbaycan" qəzeti unudulmuşdur... Həm varislik ənənələri, həm də demokratik hərəkatdakı obyektiv mövqeyi baxımından "Azərbaycan" qəzetinin bu gün Azərbaycan Dövlətinin rəsmi orqanı olmağa mənəvi haqqı vardır. Bu həm də Azərbaycan Demokratik Cümhuriyyəti uğrunda qanlar axıtmış şəhidlərə, onun ilk redaktoru olmuş Ü.Hacıbəyova, Cümhuriyyətin mənəvi atası M.Ə.Rəsulzadənin ruhuna böyük ehtiram olardı.***

"Azərbaycan" qəzetinin əməkdaşları ən ağır anlarda belə, bu böyük işin öhdəsindən ləyaqətlə gəlmiş və qəzetin 1918-1920-ci illərdə qazandığı nüfuz və şöhrətini gərgin zəhmətləri bahasına qoruyub saxlamışlar.

Bütün bunları nəzərə alaraq, "Azərbaycan" qəzetinin kollektivi Sizdən xahiş edir ki, qəzetin əvvəlki statusunun bərpa edilməsinə köməklik göstərəsiniz."

Milli Məclisdən dərhal reaksiya gəldi - "Azərbaycan" qəzetinin statusu məsələsi millət vəkillərinin müzakirəsinə çıxarıldı və 1918-1920-ci illərdəki statusu bərpa edilərək qəzetə "Rəsmi Dövlət qəzeti" statusu verildi. Bununla da "Azərbaycan"ın tarixi haqqı bərpa olundu! Bu üç illik söz və qurğuşun cəngində bizim kollektivin qazandığı haqq idi! Biz erməni qulağı kəsməsək də milyonlarla kar qulağın tıxacını çıxardıq, etinasızlıq girdabında donmuş ürəklərin buzunu əritdik,

manqurtlaşmış beyinlərin qurdunu qımıldatdıq, mürgülü gözləri diksindirdik…

Cəbhə bölgələrindən verdiyimiz yazıların bir rubrikası vardı: "Qurğuşunlu sətirlər". O yazılara barıt qoxusu, qurğuşun ərintisi hopmuşdu. Bunu ona görə deyirəm ki, həmin yol hələ qapanmayıb, heç təmirə də ehtiyacı yoxdur, bir az kələ-kötür, daşlı-kəsəkli olsa da bünövrəsi möhkəmdir, yayı-qışı heç kəsi yarıyolda qoymaz. Ən əsası odur ki, yolundan sapanlar bir məqamı heç vaxt unutmasınlar: bu yol həmişə açıqdır və onun sonunda əlçatmaz arzularımızın işığı şölələnir! Biz məhz o işığa doğru getməliyik...

İlkin Muradov

"Şərq" qəzeti,
21 iyun 2014-cü il

Borçalıdan gələn var

Ayağının biri Bakıdadır, biri Borçalıda. Düz 42 ildir ki, yollardadır. Onu 70-ci illərdən tanıyıram - Universitetin jurnalistika fakültəsindən. Sarışın, mavi gözlü, ucaboy, yaraşıqlı bir oğlan idi. Dostlarla oturub-durmağı, ünsiyyəti xoşlayırdı. Həmişə yaşlı adamlarla söhbətə can atırdı.

Güləş və boksla müntəzəm məşğul olurdu. Bəlkə də bu maraq məhz onun sonralar Azərbaycanın peşəkar pəhləvanları barədə silsilə sənədli povestlər yazmasında əsas amillərdən birinə çevrildi.

Yadımdadır, Şərif Kərimlinin xalq bahadırlarına həsr olunmuş "Sali Suleyman", "Rəşid Pəhləvan" kitabları 3-4 günə 40-50 min tirajla satıldı. Bu, 29-30 yaşlı gənc jurnalist, yazıçı üçün böyük uğur idi. Yeri gəlmişkən, araşdırmaçılıqdan kənar qalmış bu sahə Şərif Kərimlinin gərgin əməyi sayəsində qısa zaman ərzində elə populyar bir sahəyə çevrildi ki, xalq nəinki unudulmaqda olan öz qəhrəmanlarını– fəxr, qürur mənbələrini tanıdı, həm də klassik pəhləvanlığa yeni bir axın başladı. Şəkidən Gəray pəhləvan, Qubadan Əli pəhləvan (Allah hər ikisinə rəhmət eləsin!), Borçalıdan Müsəllim pəhləvan, Söhrab pəhləvan, Tərtərdən Qənbər Salahlı, Qəzənfər pəhləvan, Şuşadan Qaçay pəhləvanın oğulları Təvəkkül və Allahverdi, Sabirabaddan Ağabəy pəhləvan dərhal Şərif müəllimi tapdılar, ən yaxın adamları kimi ünsiyyət qurdular və... bu əməkdaşlığın nəticəsi olaraq, 1991-ci ildə Şərif Kərimlinin təşkilatçılığı, Qarabağa Xalq Yardımı Komitəsinin maliyyə dəstəyi və Dağlıq Qarabağ Muxtar Vilayəti Bədən Tərbiyəsi və İdman Komitəsinin, eləcə də Şuşa rayon İcraiyyə Komitəsinin yaxından iştirakı ilə Şuşa şəhərində qədim Qala

Qapısında şuşalı mərhum pəhləvan Qaçay Hüseynovun xatirəsinə həsr olunmuş festival keçirildi. Xatirimdədir, "Cəngi"nin nəinki pəhləvanları, eləcə də dağları silkələyən, onları cuşə gətirən sədaları altında insanlar nə qədər fərəhlənmişdi, nə qədər qürurlanmışdı!

Borçalıda və Bakı Dövlət Sirkində Rəşid Pəhləvanın 100 illik yubileyinin keçirilməsi də Şərif müəllimin adı ilə bağlıdır. Tamaşaçılar əfsanəvi pəhləvanın repertuarından maraqlı nömrələr göstərən gənc və orta nəsil pəhləvanlarının çıxışlarına baxarkən bir daha Rəşid Pəhləvanın əzəmətini, şöhrətinin təsadüfi olmadığını görüb dərk etmiş və onun bu gücünün öz doğma xalqından, müqəddəs torpağımızdan qaynaqlandığının şahidi olmuşdular.

"Qərəzkar jurnalist mənəm!"

Şərif müəllim xalq üçün, Vətən üçün nə iş görübsə, onun bir tərəfi mütləq Borçalıyla bağlı olub. Çünki Vətən deyəndə, o, Azərbaycanı bütöv görüb, onun bölükləri arasında sərhəd tanımayıb– xüsusilə Borçalı və Azərbaycan arasında. Ondan həmişə soruşanda ki, sən özünü ən çox haralı hesab edirsən, o belə cavab verir: bir ürəyi ikiyə bölmək olmaz – Azərbaycan və Gürcüstanın əziz-xələf bir övladı var - bu, Borçalıdır, mən də onun övladıyam!

"Azərbaycan" qəzetinin 1990-cı il nömrələrinin birində dərc olunmuş "Borçalıdan Bakıya nə yaxınmış..." yazısında Borçalı ağbirçəyi Pəri nənənin dilindən yazırdı:

- *"Bala, Bəkidən Boşşalıya neçə günlük yoldu?*
- *İki saatlıq, ay nənə.*
- *Bıy, Bəkidən Boşşalıya nə yaxınmış, ay bala?!"*

Çox incə bir tərzdə - qışqırmadan, bağırmadan milli-mənəvi hissləri, ərazilərin bölünməzliyi prinsipini pozmadan, heç tərəfi

qıcıqlandırmadan, heç kimin xətrinə dəymədən Borçalının Bakıya nə qədər yaxın olduğunu bir daha vurğulayan müəllif insanlara sanki demək istəyirdi: bu qədər yaxın olan ölkələr arasında bu nə sərhəddi bəs? Bütün yaşam tərzi ilə, adət-ənənəsi ilə eyni olan bir millətin nümayəndələri arasında bu sədləri kimlərdi yaradan?

Mən Şərif Kərimlinin jurnalistlik fəaliyyətini, bədii və publisistik yaradıcılığını həmişə izləmişəm. O, nadir jurnalistlərdəndir ki, yazılarında həmişə əxlaqi-etik qaydaları həssaslıqla gözləyib. Görünür, bu da onun zəhmətkeş bir ailədə aldığı tərbiyə və Mir Cəlal, Şirməmməd Hüseynov, Şamil Qurbanov, Famil Mehdi, Cahangir Məmmədli, Mahmud Mahmudov kimi görkəmli pedaqoqlar və karifey jurnalistlərdən əxz etdiyi bilik və təhsillə bağlıdır.

Bu yerdə yadıma Şərif müəllimin "Gürcüstan" qəzetinin baş redaktoru Süleyman Süleymanova "Azərbaycan" qəzetində yazdığı "Qərəzkar jurnalist mənəm!" adlı cavab məqaləsi düşür. Bu yazıda iki Borçalı əsilli tanınmış jurnalist arasında milli-mənəvi, ictimai-siyasi yöndə yaranan mübahisəni S.Süleymanov nə qədər şəxsi müstəviyə çəkməyə cəhd edirsə də, Ş.Kərimli buna yol vermir və söhbəti ictimai müstəviyə qaldırır.

Maraqlı burasıdır ki, bilmirəm, Şərif müəllimin oxucular arasında, el içində populyarlığından əndişələnməyindəndir, yoxsa nədəndir, onun opponenti mübahisə etdiyi tərəfin adını çəkmir, "hansısa qərəzkar bir jurnalist" ifadəsini işlədir. Məhz elə buna görə də Şərif müəllim "Siz mənim adımı çəkməyə cəsarət etmədiniz, adımı "Qərəzkar jurnalist" qoydunuz, mən isə bu adı fəxrlə qəbul edirəm: Qərəzkar jurnalist mənəm–Şərif Kərimli! Bəli, söhbət xalqın, millətin taleyindən, mənafeyindən gedəndə mən hamıya qarşı qərəzkar oluram!.." deyə, qarşı tərəfi açıq və səmimi olmağa, obyektiv yazmağa dəvət edir. Bununla belə, Şərif müəllim heç vaxt etikanı unutmur, opponentinə həmişə hörmət və sayğı ilə yanaşır. O, tənqidi materialda belə öz daxili mədəniyyətini uca tutmağa çalışır. Bu onun milli və siyasi məsələlərdən yazdığı bir yazıda da özünü qabarıq şəkildə göstərir.

"Böyük fəlakətin astanasında"

Ümumiyyətlə, Ş.Kərimli yazmaq xatirinə yazmır. Özü hadisənin iştirakçısına çevrilməklə pozitiv əməllərin icraçısı olur və fəal vətəndaş movqeyi sərgiləyir.

1990-cı ildə Gürcüstanın Dmanisi (Başkeçid) rayonunun ermənilərlə həmsərhəd olan və soydaşlarımız yaşayan sonuncu Yırğançay kəndinin camaatı bədnam qonşularının hədə və silahlı təhdidlərindən narahat olub vətəndaşı olduqları ölkənin hakimiyyət orqanlarına müraciət etmişdilər. Təəssüflər olsun ki, başda rayon partiya komitəsinin birinci katibi Eloşvilinin (Eloyan) və hüquq-mühafizə orqanları rəhbərlərinin dilindən "Biz sizin təhlükəsizliyinizə zəmanət verə bilmərik!" sözlərini eşidən köməksiz insanlar narahat olub Bakıya üz tutmuşdular. Bu hadisə ilə əlaqədar Borçalı əsilli ziyalıların bölgəyə səfərləri baş tutmuş və nümayəndə heyəti tərkibində iştirak edən Şərif Kərimli hakimiyyət təmsilçiləri və kənd camaatı ilə görüşlərdən təsirlənərək, "Böyük fəlakətin astanasında" adlı təəssüratlarını qələmə almışdı. O vaxtlar Təhsil Problemləri İnstitutunun direktoru işləyən, sabiq millət vəkili mərhum Zahid Qaralovla, həmişə qələbəlik olan, şıdırğı alver gedən, azərbaycanlıların kənd təsərrüfatı məhsulları ilə doldurduqları Dmanisi bazarını gəzərkən, suyu sovulmuş dəyirmana oxşayan, bir nəfər belə azərbaycanlı olmayan bazarı görəndə, boş piştaxtaların birində 3-4 nəfər gürcünün balaca bir qarpız və pendirlə ucuz, əldəqayırma araq içdiklərini görüb, onlara yanaşaraq, Şərif müəllim demişdi: "Bu boş piştaxtalar üçünmü qovurduz azərbaycanlıları?"

Rayon camaatı ilə baş tutan görüşlərin nəticəsi olaraq, Gürcüstanın hüquq-mühafizə orqanları bu insidentlə bağlı yaxından maraqlanmış və sərhəddə möhkəmləndirmə işləri aparmışdılar. Redaksiyaya yirğançaylılardan xeyli minnətdarlıq məktubu da gəlmişdi...

“Aşqabad üzərində Gümüş Aypara”

Bu illər ərzində mən onun “boş" bir yazı yazdığının şahidi olmamışam. O, yazacağı mövzuya əvvəlcədən çox məsuliyyətlə hazırlaşır, mövzu ilə bağlı araşdırmalar aparır və obyektə gedərkən mövzunu, demək olar ki, görüşəcəyi adamlardan heç də pis bilmirdi. Yadımdadır, 1992-ci ildə türkdilli xalqların Türkmənistanın paytaxtı Aşqabadda keçirilən festivalı ilə bağlı yazdığı bir qəzet səhifəsi “Aşqabad üzərində Gümüş Aypara” adlı yazıda gözlənilmədən (əslində -bilərəkdən) Agqabaddakı telefon avtomatları ilə Bakıdakı telefon avtomatlarını müqayisə edən müəllif Bakıda xeyirxah bir işin təşəbbüskarı oldu. Onun - "Agqabadda telefon avtomatlar pulsuzdur, ancaq hamısı saz vəziyyətdədir, Bakıda isə telefon avtomatlar pulludur, amma hamısı sınıq-salxaq vəziyyətdədir” – müqayisəsindən sonra Rabitə Nazirliyindən zəng edib bildirdilər ki, bu yazı Bakıda da telefon avtomatların pulsuz edilməsi barədə onların fikirlərini qətiləşdirdi. Və çox keçməmiş paytaxtda telefon avtomatların pulsuz olması barədə nazirlik qərar qəbul etdi...

“Şamaxı Rəsədxanasının sirləri”

Şərif Kərimlinin jurnalistlik fəaliyyətində fəal vətəndaş mövqeyi bitərəf xəbərçiliyi həmişə üstələyib. Onun 1995-ci ildə “Şamaxı Rəsədxanasının sirləri” adlı yazısı ilk növbədə müəllifin mövzuya bələdliyi baxımından maraqlıdır. “Azərbaycan” qəzetinin ardıcıl olaraq dörd nömrəsində dərc olunmuş bu silsilə yazını oxuyanda, ona verilmiş foto va illüstrativ materiallara baxanda Şərif müəllimin Rəsədxana ilə, ümumiyyətlə, kosmik aləmlə bağlı nə qədər məlumatlı olduğu təəccüb doğurur.

Rəsədxanada çalışan elmi personalın şikayəti əsasında Şamaxıya ezam olunan Ş.Kərimli buradan olduqca dəyərli materiallar gətirsə də, baş redaktor kiçik həcmli bir yazının verilməsinə icazə vermişdi. Həmin kiçik həcmli yazı qəzetdə dərc olunduqdan bir gun sonra isə tamam başqa bir mənzərə yarandi: redaktor Şərif müəllimi yanına

çağırıb xahiş etdi ki, imkan varsa, yazını genişləndirsin...

Bu, onun üçün göydəndüşmə bir təklif oldu. Yoxsa iyirmiyə yaxın elmi və texniki işçidən aldığı müsahibə, eləcə də şəxsi müşahidələrinin məhsulu olan geniş bir material işıq üzü görmədən zibil qutusuna atılacaqdı.

Əslində isə nə baş vermişdi? Rəsədxananın tabe olduğu Respublika Elmlər Akademiyasının fəaliyyətdə olan prezidenti hakimiyyətdə kimlərisə qane etmirdi. Qəzetdə yazını oxuyan həmin şəxslər bu fürsəti fövtə verməyərək, baş redaktora – rəhmətlik Əmir Mustafayevə təsir göstərmiş və məsələni bir az da “şişirtməyi” məsləhət bilmişdilər. Baş redaktorun və ona təsir göstərənlərin gizli niyyətlərindən xəbərsiz olan yazı müəllifi isəşikayətçilərin haqlı etirazını daha da qabartmaq baxımından əlinə əlverişli fürsət düşdüyünü zənn etmişdi...

Amma insafən bu oyunda hər iki tərəf uddu - Akademiyanın prezidenti işdən azad edildi, elmi işçilərin şikayəti təmin olundu, ən əsası isə Şərqdə oxşarı olmayan bu böyük elmi mərkəzin, unikal obyektin - Şamaxı Astrofizika Rəsədxanasının tamamilə dağıdılmasının, qeyri-əxlaqi əyləncələr yuvasına çevrilməsinin qarşısı alındı və onun rəhbərliyi dəyişdirildi... Şərif müəllim bu xidmətinə görə bu gün də Rəsədxana işçiləri arasında adı hörmətlə çəkilən insanlardandır.

Onun şəxsi və jurnalistlik keyfiyyətləri haqqında saatlarla danışmaq və yazmaq olar. O, Azərbaycan jurnalistikasının savadlı, geniş dünyagörüşünə malik, sənətini, peşəsini xalqın rifahı naminə sərf etməkdən usanmayan, əksinə, bundan fəxr duyan, ən əsası isə abırlı-həyalı nümayəndələrindəndir. 60 illik ömür yolunun 40 ilini mətbuatda “əridən” həmkarımız bu 40 ilin yorğunluğunu hələ çıxmaq fikrində deyil. O, “Azərbaycan bahadırlarından güc, klassik jurnalistlərdən ilham, ağıllı, dürüst,vətənpərvər insanlardan enerji alıram!”- deyir.

Biz də sonda həmkarımıza onu demək istəyirik ki, qələminiz iti, sözünüz kəsərli, canınız sağ, qəlbiniz alovlu olsun!

Anar Bayramoğlu

"Yeni sözçü" qəzeti,
09 iyul 2014-cü il

Jurnalist ömrü

Tanınmış jurnalist, "Qızıl Qələm" mükafatı laureatı Şərif Kərimlinin 60 yaşı tamam olur

Şərif müəllim, Siz 60 illik ömrünüzün 40 ilini mətbuatdasınız, yorulmamısınız ki?

-Yorulmuşam, ancaq yazmaqdan, danışmaqdan yox, tənqidi personajlarımın hər dəfə ayrı-ayrı qlaflarda qarşıma çıxmağından, ütülənmiş tiplərin yeni "imic"lərdə peyda olmasından, xırda maraqlar naminə Vətənlə alver edən "millət qəhrəmanlarının" pafoslu nitqlərindən...

-Belə çıxır ki, heç nə dəyişməyib. Onları "yenilənmiş formalarda" görərkən hansı hissləri keçirirsiniz?

-Dinirəm – "demaqoq" oluram, dinmirəm – "pedaqoq".

-"Pedaqoq" sözünü başa düşmədim...

-Yəni, yola verirəm, mədəni şəkildə...

-Pedaqoq demiş, Siz deyəsən, bir ara ali məktəblərdə müəllim də işlədiniz?

-Əslində, biz jurnalistlərlə müəllimlər arasında çox az fərq var. Müəllimlərdən fərqimiz ondadır ki, onlar hələ əqli və fiziki cəhətdən yetişməmiş insanlarla işləyir, biz isə əksinə, əqli və fiziki cəhətdən tam yetişmiş insanlarla.

-Sizcə, hansı daha çətindir?

-Təbii ki, hər ikisinin öz çətinliyi var. Orta məktəb müəllimləri "ağ kağız" üzərində istədiklərini yazırlar, ancaq biz jurnalistlər səhv yazılmışları pozub düzəltməyə çalışırıq.

-Səhv etmirəmsə, Siz jurnalistika fakültəsində dərs demisiniz?

-Bəli. Mən bu işə ehtiyacdan getdim – mənəvi ehtiyacdan. Əvvəla, biz nəsil jurnalistlərin çox böyük həyat və mətbu

təcrübəsi var. Şablon avtobioqrafik ifadələrlə desək, bizim nəsil sovet mətbuatında dünyaya göz açmış, yenidənqurma və milli-azadlıq hərəkatında məktəb oxumuş, müstəqil mətbuatda yaşamışdır... Bu üç dövrün öz milli-mənəvi kriteriyaları olan kimi, o dövrlərin mətbuatının da öz tələbləri və mübarizə metodları vardı. Çox vaxt deyirlər, sovet mətbuatı təbliğ-təşviq mətbuatı idi, müasir mətbuat isə informasiya mətbuatıdır. Ən pisi də odur ki, birincini ideoloji, ikincini isə ideologiyadan uzaq mətbuat kimi səciyyələndirirlər. Bəlkə də müasir jurnalistikanın bu gün "yad ünsürlərlə" dolmasının əsas səbəblərindən biri də məhz onun üzərindən ən vacib bir missiyanın – dövlətin ideoloji qurumlarından biri olması missiyasının götürülməsi oldu. Daha doğrusu, bu iş indi "ştatdankənar" bir işə çevrilib. Lazım olanda onu – Əlahəzrət Mətbuatı çağırıb "bu işə" görə sağ ol deyirlər, lazım olmayanda isə burnunu ovurlar, gözünü çıxarırlar, dilini kəsirlər...

-Bəs, müasir jurnalistikada ürəyinizə yatan cəhətlər hansılardır?

-Mən 7-8 illik müəllimlik təcrübəmdə jurnalistika fakültəsinin tələbələrinə təkcə bildiklərimi öyrətməmişəm, eyni zamanda onlardan bilmədiklərimi də öyrənmişəm. Bircə şeyə təəssüf edirəm – kaş sovet dövründə jurnalistlərə yaradılan şərait, verilən önəm indi müasir jurnalistlərə qismət olaydı... İndiki jurnalistlərin fikirlərində, düşüncələrində sərhəd adlı bir çərçivə yoxdur. 1996-cı ildə mərhum Prezident Heydər Əliyevin senzuranı ləğv etməsi çox cəsarətli və demokratik addım idi. Lakin jurnalistlərin maddi cəhətdən dəstəksiz qalması və mətbuatda ideologiyanın özbaşına buraxılması nəticədə onun kimlərinsə alətinə çevrilməsinə gətirib çıxardı. Axı, Azərbaycan Türkiyə, ABŞ, yaxud Rusiya kimi 100-200 milyonluq əhaliyə malik ölkə deyil ki, qəzet satışından milyonlar qazana bilsin və heç kimdən asılı olmasın. Bilirsiz, gəlin açığını söyləyək, bu gün heç bir qəzet satışdan əldə etdiyi qazancla yaşamır və yaşaya da bilməz. Qəzetlərin əməkdaşlarından tutmuş redaktorunadək gözləri kiminsə əlindədir. Rəhmətlik Sirus Təbrizli demişkən: "Əyilən adamdan düz söz gözləmə." Belə olan halda hansı obyektivlikdən, prinsipiallıqdan

danışmaq olar? Jurnalist nüfuzunun aşağı düşməsinin, məncə, əsas səbəbi də məhz budur.

-Bir az da yaradıcılıq məsələlərindən danışaq...

-Əslində, danışdıqlarımızın hamısı dolayısı ilə yaradıcılıq problemləridir. Jurnalistikadakı yaradıcılıq məsələlərindən deyirsinizsə, bu sahədə vəziyyət o qədər də ürəkaçan deyil. Müasir jurnalistlər janr adlı bir bölgü tanımır. Yazdıqları hər şey xəbər janrındadır. Jurnalistikanın resenziya, rəy, oçerk kimi bədii-publisistik janrları, demək olar ki, unudulub. Əyalətlərdəki olaylar ancaq nöqsanları qabartmaq yönündə işıqlandırılır. Kriminal hadisələrin təqdimatı ölçüsüz-biçisiz olur...

-Biz bilirik ki, Siz təkcə publisistika ilə deyil, həm də bədii yaradıcılıqla məşğul olursunuz, bu sahədə vəziyyət necədir?

-Ömür heç nəyə çatmır, qardaş... İllah da ki jurnalist ömrü! Günlərimizi sözlərə, sətirlərə çevirib qəzet səhifələrində əridirik, gözümüzün nurunu ağlı-qaralı şriftlərdə söndürürük, fikirlərimizi, düşüncələrimizi, beynimizin məhsulu olan neçə-neçə yeni ideyalarımızı kimlərinsə zəif, sönük yazılarının gözünə qatırıq və bir də... gözümüzü açıb görürük ki, vay, ömür yarı olub, yaddan çıxmış, vaxt çatmamış, yarımçıq qalmış nə qədər işlərimiz varmış... Açığını deyəcəm, ehtiyac ucbatından kimlər üçünsə o qədər kurs işi, diplom işi, namizədlik işi, hətta hekayə, povest, roman yazmışam ki... Ancaq özümün 70-80 faizi hazır olan namizədlik işimi tamamlamağa səbrim çatmayıb... Görəcəyim işlərdən biri bu. Beynimdə iki roman işləmişəm, onları kağız üzərinə köçürməliyəm - bu iki. Ən yaxşı publisistik əsərlərimi toplayıb kitab halında çap etdirməliyəm – bu da üç. Azərbaycan bahadırları barədə yazdığım sənədli povestləri yenidən işləyib təkrar çap etdirməliyəm – dörd... beş, altı... bəlkə də doqquz, on da olacaq, bilmirəm.

-Sizi çox yormaq istəmirəm, Şərif müəllim, Allah Sizin jurnalist ömrünüzü uzun, şəxsi həyatınızı mənalı etsin!

-Çox sağ olun!

Müsahibəni apardı:
Ariz Eminov

"Şərqin səsi" qəzeti,
Oktyabr 2014-cü il

"Azərbaycan" qəzetinin 25 illik yubileyi

Oktyabrın 22-də Bakıdakı Beynəlxalq Mətbuat Mərkəzində "Azərbaycan" qəzetinin yenidən bərpasının 25 illiyinə həsr olunmuş yubiley tədbiri keçirilib.

Tədbiri giriş sözü ilə "Azərbaycan" qəzetinin bərpasından sonar ilk redaktoru olmuş millət vəkili, Vətəndaş Həmrəyliyi partiyasının sədri Sabir Rüstəmxanlı açıq elan etmiş və qəzetin yaranma tarixindən, milli-demokratik mətbuatımızın ilk qaranquşu olan «Azərbaycan"ın keşməkeşli yolundan, qəzetin Azərbaycan mətbuatı tarixindəki xüsusi yerindən danışaraq bildirib ki, "Azərbaycan mətbuatı 1875-ci ildən başlayaraq çox şərəfli bir yol keçib. Böyük bir mətbuat tariximiz var və bu tariximiz, müxtəlif mərhələlərə bölünür. Mətbuat tariximizin ən parlaq səhifələrindən biri də 1989-cu il oktyabrın 4-də fəaliyyətə başlayan "Azərbaycan" qəzetidir. "Azərbayjan" qəzeti ölkədə ilk demokratik qəzet idi. Həmin dövrdə geniş kütlələr arasında belə vüsətlə yayılan və həqiqəti deyən ikinci bir oxşar qəzet yox idi. Səbəb isə o zaman hakimiyyətin buna imkan verməməsi idi. Biz başa düşürdük ki, yaradacağımız qəzet milli mətbu orqan olmalı və ölkənin bütün bölgələrinə yayılmalıdır. Elə də etdik. Biz Qarabağa Xalq Yardımı Komitəsi yaratdıq və o zamankı hökumətə bu komitənin tərkibində, məhz Qarabağa dair qəzet yaratmaq niyyətimiz olduğunu dedik. Onlar məcburiyyət qarşısında qalıb razılaşdılar. Və biz böyük çətinliklə istəyimizə nail olduq. Həmin dövrdə çox böyük təzyiqlər olsa belə, qəzet fəaliyyətini davam etdirdi.

Əvvəlcə 130 min, sonra 200 min, daha sonralar isə 500 min və daha çox tirajla çap olundu.»

S.Rüstəmxanlı qəzetin birinci nömrəsinin necə çıxmasından da söz açıb: «Qəzetin ilk sayı hazır olan zaman nəşriyyatdan zəng etdilər ki, qəzet çapa hazırdır. İlk nömrənin çıxması bütün redaksiyanı sevindirdi: «Qəzet çox sürətlə yayıldı və bir müddət sonra Vəzirov məni çağırdı. O hirsli şəkildə dedi ki, bu qəzet hazırda Qorbaçovun stolunun üstündədir. Danışa-danışa qəzetin səhifələrini cıraraq üstümə atırdı. Mən də həmin cırılmış səhifələri qucağıma yığıb toplayırdım. İkinci nömrədən sonra nəşriyyat qəzetin çapından imtina etdi. Sonra bizi başqa mətbəəyə göndərdilər. Amma qəzet məşhurlaşdıqca tiraj 500 minə yüksəldi. Bir gün işə gələndə gördüm ki, avropasayağı geyimli insanlar oturub və bildirdilər ki, qəzet çıxarmaq istəyirlər. Mən onlara bu qəzeti çətinliklə çıxardığımı dedim və söylədim ki, öz qəzetimizin içərisində əlavə kimi çıxararıq. Elə də etdik... Bu, Vahid Mustafayev, Mir Şahin və Seyfulla Mustafayevin "Koroğlu kəşfiyyatı" adlı qəzetləri idi.

S.Rüstəmxanlı bildirdi ki, bu gün «Azərbaycan" qəzetinə deputat həmkarı Bəxtiyar Sadıqov rəhbərlik edir: «Amma qəzetin 90 illiyində bizim adımızı çəkməmişdilər, bununla bağlı narazılığımı da bildirmişdim."

S.Rüstəmxanlı onu da qeyd etdi ki, qəzetdə bir çox tanınmış, görkəmli insanlar çalışıblar. Onlardan bir çoxu bu gün dünyadan köçüb. Milli-azadlıq hərəkatı uğrunda canından keçmiş şəhidlərin, qəzetin dünyasını dəyişmiş əməkdaşlarının ruhu bir dəqiqəlik sükutla yad edildi.

Daha sonra çıxış edən Mətbuat Şurasının sədri Əflatun Amaşov da qəzetlə bağlı öz fikirlərini bildirdi:

""Azərbaycan" qəzetinin yaranmasına sosial tələbat var idi. Belə bir məqamda "Azərbaycan" qəzeti meydana gəldi. Mən düşünürəm ki, XX əsrdə Azərbaycanda ilk ümummilli qəzet "Azərbaycan" qəzeti olub. Çünki qəzetdə millətin ümummilli problemləri öz əksini tapırdı. Qəzetdə eyni zamanda Azərbaycan

ədəbi dilinin prinsipləri tam olaraq gözlənilirdi. Qəzet çıxan dövrdə insanlarla publisistik dildə danışmaq çox mühüm şərt idi. "Azərbaycan" qəzeti ölkəmizdə ilk ümummilli qəzetdir. Bu qəzeti "Əkinçi", "Füyuzat", "Həyat" qəzetləri ilə bir tutmaq olar. Çünki bu qəzetin səhifələrində həm şimali, həm cənubi, həm də dünyada yaşayan azərbaycanlıların probleminə toxunulurdu. İndiki şəraitdə bizim qəzetlər Şimali Azərbaycandan kənara çıxmır. Bu mənada hələ də "Azərbaycan" qəzeti kimi ümummilli yazılı mətbu orqan yoxdur".

Sonda Ə.Amaşov qəzetin əməkdaşlarını təbrik etdi.

ANS Şirkətlər Qrupunun vitse-prezidenti Mirşahin Ağayev isə qeyd etdi ki, Azərbaycan adlı müstəqil dövlətin bərpası məhz "Azərbaycan" qəzetindən başlayıb. Onun sözlərinə görə, qəzet Azərbaycan tarixində ilk milli qəzet olub və bu birinciliyi heç kim poza bilməz.

Qəzetin indiki Baş redaktoru, millət vəkili Bəxtiyar Sadıqov isə çıxışında bildirdi ki, qəzet yarandığı ərəfədə ikiqat senzura olsa da, bütün hallarda dövrün həqiqətləri yazılıb. O qeyd edib ki, qəzet Azərbaycan mətbuatında müstəqil söz deyən, alternativ fikirdən istifadə edən ilk mətbu orqan idi.

Sonra "Azərbaycan" qəzetinin o vaxtkı əməkdaşlarından Şərif Kərimli, Cümşüd Nuriyev, millət vəkilləri Elmira Axundova, Aqil Abbas və başqaları qəzetin yaranma tarixi və önəmi barədə çıxışlar etdilər.

"Azərbaycan"ın S.Rüstəmxanlıdan sonra redaktoru olmuş Şərif Kərimli qəzetin rəsmi dövlət statusu almasında keçdikləri çətinliklərdən danışdı və vurğuladı ki, bu gün fəaliyyətini davam etdirən "Azərbaycan" qəzeti 1918 və 1989-cu ildə çap olunan eyniadlı qəzetlərin varisidir. 1992-ci ildə Milli Məclisin qəzetin statusunun dəyişdirilməsi ilə bağlı qəbul etdiyi qərarda da məhz belə yazılıb.

Politoloq Cümşüd Nuriyev «Azərbaycan" qəzetinin redaksiyasında başqa ixtisas sahiblərindən biri olduğunu gizlətməyib: «Bu qəzet ilk dəfə xalq tərəfindən maliyyələşən

mətbu orqan idi. Şəxsən mən bu qəzetdə yetişdim və bir ildən sonra Jurnalistlər İttifaqının üzvü oldum. Orada itirdiyimiz zamanla Azərbaycana çox şey qazandırdıq".

Tədbir digər qonaqların çıxışları ilə davam etdirildi.

Millət vəkili Elmira Axundova 1988-ci ildə S.Rüstəmxanlının dəvəti ilə yenidən jurnalistikaya gəldiyini söylədi: «Azərbaycan" qəzetində fəaliyyətə başlamışam. Mənə burada S.Rüstəmxanlı ilə yanaşı, Bayram Bayramov da köməklik göstərib. 1990-cı il seçkilər ərəfəsində Heydər Əliyev Naxçıvandan deputat idi və ona qarşı təzyiqlər vardı. Həmin vaxt ondan Moskva üçün müsahibə almışdım, amma onu ümumiyyətlə heç bir qəzet çap etmirdi. Sabir bəyin yanına gəldim və bildirdim ki, bunu çap edək. Həmin yazı 1991-ci il martın 1-də 500 min tirajla çap olunan qəzetdə işıq üzü gördü. Həmin qəzetin nömrəsinin bir nüsxəsini aparıb Heydər Əliyevə təqdim etdim. Bu addım Sabir Rüstəmxanlı tərəfindən cəsarətli addım idi".

Yubiley toplantısında qəzetin həyatda olan keçmiş əməkdaşları və eləcə də çağdaş mətbuatımızın tanınmış jurnalistləri iştirak edirdilər.

"Ziya" qəzetinin Baş redaktoru, "Şərqin səsi" qəzetinn Baş məsləhətçisi Müşfiq Borçalı da həmin yubileydə iştirak etmiş və tədbir iştirakçılarına bir müraciət ünvanlamışdır.

Müraciəti təqdim edirik:

Hörmətli tədbir iştirakçıları!

Hamınızı salamlayır və ürəkdən təbrik edirəm.

Vaxtınızı çox almadan, ürək sözlərimi qısaca olaraq çatdırmaq isməyirəm. Öncə mətbuat tariximizə qisaca səyahət edək.

Bənzətmələrim bir az bədii və poetik səslənsə də belə deyecəyəm:

Əgər Mətbuat tariximizin ilk planı, layihəsi, daha dəqiq desək, ilk cizgiləri 1832-ci ildə Tiflisdə "Tiflis əxbarı" (yəni "Tiflis xəbərləri") ilə, bir az sonra 1838-ci ildə "Qafqaz xəbərləri" ilə cızilmışdısa, 1875-ci ildə Bakıda mətbuatımızın ilk qaranquşu hesab etdiyimiz

"Əkinçi" qəzeti ilə ilk milli mətbuatımızın əsası - özülü qoyulmuşdur.

Əgər əsası - özülü "Əkinçi" qəzeti ilə qoyulan milli mətbuatımızın divarları 1879-1880-ci illərdə Tiflisdə "Ziya", 1880-1884-cü illərdə "Ziyayi-Qafqaziyyə" qəzetləri ilə hörülmüşdüsə, 1883-1891-ci illərdə "Kəşkül", 1903-1905-ci illərdə "Şərqi-Rus" qəzetləri vasitəsilə bu divarlar, sütunlar daha da möhkəmlənmiş və 1907-ci ildə yenə də Tiflisdə "Molla Nəsrəddin" jurnalı ilə bəzədilmişdir.

Bundan sonrakı mətbuat tariximiz, yəni - istər 1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikası vaxtında, istərsə də 1920-1990-cı illərdə Azərbaycan Sovet Sosialist Respublikası zamanında çap olunmuş mətbuat orqanlarımız və onların fəaliyyəti yəqin ki, hamımıza bəllidir.

Mən isə onu vurğulamaq istəyirəm ki, 1989-cu ildə hazırda 25 illik yubileyinə toplaşdığımız "Azərbaycan" qəzeti həmin dövrdə nəşr olunan bütün kütləvi mətbuat orqanlarından fərqləndi. Belə ki, həmin zaman bütün qəzetlərdə ancaq və ancaq dövlətin mənafeyi güdülürdüsə, "Azərbaycan" qəzetində Azərbaycan xalqının və Azərbaycan dövlətçiliyinin mənafeyi əsas götürülürdü. Və beləliklə, "Azərbaycan" qəzeti ilk azad fikirli, müstəqil düşüncəli, demokratik amallı qəzet kimi həyata ayaq açdı. Ən əsası "müstəqil jurnalist" ifadəsi yarandı və müstəqil jurnalistikanın əsası qoyuldu..

Elə buna görə də, mən "Azərbaycan" qəzetini çağdaş, milli, müasir, azad, demokratik mətbuatımızın banisi hesab edirəm. Etiraf edək ki, bugunkü çağdaş müstəqil jurnalistlərin əksəriyyəti elə həmin qəzetin ya ilk yazarları, ya da ilk oxucularıdır və biz hamımız o zamanlar Qarabağa Xalq Yardımı Komitəsinin orqanı kimi nəşr olunan "Azərbaycan" qəzetinin yetirmələriyik. Şəxsən mən fəxr edirəm ki, hələ tələbəlik illərimdən həmin qəzetlə əməkdaşlıq etmişəm, sonralar isə həmin qəzet rəsmi dövlət qəzeti olan "Həyat"la birləşdikdən sonra, "Azərbaycan" qəzetinin redaksiyasının bazası əsasında Qarabağa Xalq Yardımı Komitəsinin orqanı kimi yaranan və "Azad Azərbayjan" adı ilə nəşr olunan qəzetin redaksiyasına bir müddət - təxminən iki ilə yaxın rəhbərlik etmişəm və Baş redaktor

kimi həmişə Sabir Rüstəmxanlı və Şərif Kərimli kimi imzaları məşhur olan qələm sahiblərinin ənənələrini yaşatmağa çalışmışam.

Fürsətdən istifadə edərək, "Azərbaycan" qəzetinin yaradıcısı və ilk redaktoru Sabir Rüstəmxanlını, qəzetin ilk məsul katibi və sonralar baş redaktoru olmuş Şərif Kərimlini, eləcə də bütun "Azərbaycan"sevərləri və "Azərbaycan" qəzetinin bütün oxucularını ürəkdən təbrik edirəm və hamınıza yeni-yeni uğurlar arzulayıram..

Müxtəlif tədbirlərdə və mətbuat səhifələrində təklif etdiyim bir məsələni yenidən gündəmə gətirmək istəyirəm. Təklif edirəm ki, Azərbaycan mətbuat tariximizi - "Tiflis əxbari" qəzeti ilə, milli mətbuatımızın tarixini - "Əkinçi" qəzeti ilə, çağdaş müasir müstəqil demokratik mətbuatımızın tarixini isə "Azərbaycan" qəzeti ilə başlayaq.

Doğrudur, mənə irad tutanlar da olacaq. Lakin xahiş edirəm ki, bir daha mətbuat tariximizə qısaca da olsa birlikdə səyahət edək.

1828-ci ildə fəaliyyətə başlayan "Tiflisskiye vedomosti" qəzeti 1829-cu ildə gürcü, 1830-cu ildə fars və 1832-ci ilin yanvarından isə Azərbaycan dilində çıxmağa başlamışdır. Azərbaycanca "Tiflis əxbarı" adı ilə çıxmış həmin qəzeti təkcə Güney Qafqazda deyil, İranda və Türkiyədə də oxuyurdular. Qəzetin redaktoru P.S.Sankovski 1932-ci il oktyabrın 19-da vəfat etdiyindən "Tiflis əxbarı" 1833-cü ilin əvvəllərində qapanmışdır.

Qəzetdə həmin dövrdə baş verən hadisələr haqqında, eləcə də "Abbasabad mühasirəsinin təsviri" (1829, №27, 30), "Müasir tarix: Azərbaycan vilayətinin hərbi vəziyyəti haqqında" (1829, №38, 43), "Moskvalı dostuma məktub" (1830, №25, 53 və b.), "Qarabağ əyalətinə tarixi baxış" (1830, № 86), "Car və Balakən vilayətlərinə səyahət" (1830, № 81-83) və s. məqalələrdə Azərbaycan haqqında, azərbaycanlıların məişəti, yaşayış tərzi və s. haqqında məlumatlar verilir, xalqımızın şifahi və yazılı ədəbiyyatları haqqında söhbət açılırdı. A.Bakıxanov qəzetdə tərcümə əsərləri ilə çıxış edirdi.

1838-ci ildə Tiflisdə "Zakavkazskiy vestnik" adında rusca daha bir qəzet çıxmağa başlamış və bir az sonra bu qəzet həm də gürcü və Azərbaycan dillərində buraxılmışdır. "Qafqazın bu tərəfinin xəbəri" adlanan bu qəzet rəsmi dövlət məlumatlarını, fərmanlarını, qərar və

qanunnamələrini Azərbaycan dilində yayan bir orqan idi və bu orqan dəqiq olmayan məlumata görə 1846-cı ildə bağlanmışdır.

Göründüyü kimi, hər iki qəzet həm Azərbaycan, həm gürcü və həm də erməni dillərində çıxırdı və hazırda hər iki qonşumuz özlərinin mətbuat tarixlərini də elə həmin qəzetlərdən başlayır və mətbuat tarixlərini bizimkindən daha əvvələ aparırlar.

Biz isə deyirik ki, "yox, həmin qəzetlər sadəcə rəsmi dövlət xəbərlərini dərc etdiyindən onları bizim mətbuat hesab edə bilmərik!.." Yaxşı, onda belə çıxır ki, biz keşmiş "Kommunist", eləcə də indiki rəsmi dövlət qəzetlərini də milli mətbuat orqanı hesab etməməliyik. Elə deyilmi?

Məncə, düşünməyə dəyər...

Diqqətinizə görə təşəkkür edirəm....

Müşfiq BORÇALI,
"Ziya" qəzetinin baş redaktoru.

“20 Yanvar” qəzeti,
20 yanvar1994-ci il

“Mən belə dünyanın nəyini sevim?!”

“20 Yanvar” qəzetinin ilk redaktoru
Səlim Həqqinin xatirəsinə

“Qərib bir yolçuyam səfərim uzaq,
Mən bu yer üzündə qonağam, qonaq.
Yalan sirdaş olub, yaltaqlıq çıraq,
Mən belə dünyanın nəyini sevim?!”

Elə bilirsən biz bu dünyaya vurulub qalmışıq, ay Səlim? Elə bilirsən biz sürmədiyimiz kefləri gözləyirik, a bəxtəvər? Bu dünya elə ona görə belə qurulub ki, səni, məni kimilərini dünyaya gəlməyinə peşman eyləsin... Hamı kef çəksəydi, bu dünyada yaşamağın nə ləzzəti? Hamı kef çəksəydi, dünyanın özü boyda dərdini kim çəkməli idi? Bircə onu de ki, hamı düz olsaydı, əyriləri necə görərdik...

“Torpaq ovum-ovum ovulur bu gün,
Ürəklər sinədə qovrulur bu gün,
Yurddaşım yurdundan qovulur bu gün,
Mən belə dünyanın nəyini sevim?!”

Mən belə dünyanın nəyini sevim, yurddaşım yurdundan qovulur bu gün?!

Hara gedirsən, ay zalım?! Bir dön geri bax! Əlləri uzalı bu qəbirlər gör nə deyir? Sozalmış yurd yeri gör nə göynəyir... Qayıt geri, qayıt... Qayıt o itin zəncirinisə aç! Qoy osa doğmalarını

qoruya bilsin... Sənsə get... Və bir də geriyə dönmə! Dönsən də qoymayacağam! Kişisən, get və geri dönmə! Kişi bir dəfə ölər!..

“Yağı gülləsinə gəldi millətim,
Atıldı zindana milli qeyrətim.
Dağıtdı sinəmi kinim-küdrətim,
Mən belə dünyanın nəyini sevim?!”

Bu da bir tale yazısıydı, qardaş. Gül alverinə qurşanmış millətin qazancı da elə güllə olmalıydı. Bu dünya bir cəhənnəmdir. Burda güllə alveri gedir. Gül becərən bir millətin bu dünyada nə işi? Millət döyməlidi, döyülməlidi – millət bərkiməlidi! Gül kimi zəriflik millətin axırına çıxır. Gül cənnət bitkisidir, a cənnətlik...

“Erməni birləşir, manqurt birləşir,
Mənim “başbilənim” altımı eşir.
Payıma oyuncaq qərarlar düşür,
Düşmən evimdədir...”

Neçə dəfə demişdim sənə, dilini dinc saxla, onun-bunun dəyirmanına daş atma. Baxmırdın sözə. Elə deyirdin filankəs satqındır, feşmankəs o vəzifəyə layiq deyil, bu deputat millət düşmənidir, o rüşvətxordur, bu namussuzdur, o qeyrətsizdir, bu yaltaqdır... Nə oldu axırı? Sən deyənlər yenə də bığlarını burub vəzifə kreslolarında nazlanırlar. Sən isə canından artıq sevdiyin Vətən torpağına qarışdın.

Səni susdurdular... Sən gərək elə əvvəldən biləydin ki, 20 yanvarda rus gülləsindən bir möcüzə kimi xilas olmağın təsadüf deyildi. Sən... bir hədiyyə idin. Sən rus əsgərinin evimizdəki düşmənə verdiyi qurbanlıq idin. Elə ona görə də nə sənin qatillərin üzə çıxarıldı, nə də 20 Yanvar şəhidlərinin! Bəlkə də sən düz deyirdin - “düşmən” evimdədir?..

“Xalq qəzeti”,
06 dekabr 1997-ci il

Qaz vurub qazan doldururlar...

Fəqət, bu qaz qazan dağıdan qazdır

Qaz quşların bir növüdür. Ancaq qazla bağlı digər adlar da vövcuddur. Məsələn, “qazlı adam” - çılğın, özündən tez çıxan adama deyirlər. Yerin altından çıxan, gündəlik məişətimizdə işlətdiyimiz yanacağa – təbii qaza da “qaz” deyirik. “Qazı alınıb” ifadəsi isə yerinə oturdulan adama deyirlər və s. və i.a.

Bəs Binəqədi rayonundakı 108 nömrəli MİS-in rəisi Eldəniz Abbasov, əcəba, bu qazların hansından qazan doldurur? Deyəcəksiniz ki, təbii ki, birincidən – yəni quşdan. Yoox... səhviniz var. Bakıda, onda da ola 9-cu mikrorayon, hardadı o qədər quş ki, Eldəniz tutub basa qazana.

Məlumunuz olsun ki, Eldəniz yerin altından çıxan qaz ki var ha, bax, o qazdan qazan doldurur!

Deyəcəksiniz ki, əşi, MİS-in rəisi hara, qaz hara, qazan hara?! O, qazı necə tutur, necə qazana doldurur?

Bəli, o, qazı qazana doldurandan sonra olur 9-cu mikrorayonun qazısı... Hər səhər Milli Qəhrəman Həmzə Babaşovun 26 nömrəli avtobusun sonuncu dayanacağında qoyulmuş büstünü qaz qatarı kimi dövrələyən “komisyonnı”ları “obxod” eləməmiş gedib əyləşən deyil “taxtına”. İstər kanalizasiya suları mikrorayonu yuyub aparsın, istər yaşıllıqlar məhv edilib yerində göbələk “budka”lar peyda olsun, istər bütövlükdə Həmzə Babaşov məhəlləsi “tolkuçkaya” çevrilsin, istər sakinlər saatlarla onu gözləsin, istərsə də qalaq-qalaq zibildən üfunətli iylər, qazlar... Lənət şeytana, yenə də qaz...

Qısası, Eldəniz qazanını qazla necə doldurur? Daha mətləbi uzatmayaq – bu sirri açaq!

Məlumunuz olsun ki, 9-cu mikrorayonun H.Babaşov küçəsindəki yeni yaşayış massivində 7-8 binanın tən ortasında bir qazpaylayıcı anbar var. Bu qazpaylayıcı anbarı Eldəniz satıb bir əliaçıq adama. O gözünə döndüyüm də buranı eləyib “komisyonnı”. Qəşəngcə elektrik xətti çəkib, “İliç” lampaları düzüb, elektrik plitəsi qoyub. Sakinlərin də canına qorxu düşüb, nə düşüb... Deyəcəksiniz ki, ay sağolmuş, bayaqdan başımızı xarab elədiniz, əşi, görünməmiş işlərdi ki bunlar MİS rəisləri üçün?

Yox, a kişilər, məsələ onda deyil, qorxmaq söhbətini hədər yerə salmadım. Sakinlər qorxur ki, bu qaz anbarı elə yanından keçəndə adamın burnunu qıcıqlandırır. Allah eləməmiş, “komisyonnı”nın sahibi səhər gəlib plitəni qoşub işığı yandıranda içəri dolmuş qaz partlayar, bütün binadakılar havaya sovrular. Azmı olub belə şeylər?!

Açığını deyək ki, sakinlərin bu narahatlığına biganə qala bilmədik. Bakı Şəhər Qaz İstehsalat İdarəsinin (“Bakqaz”) 9-cu mikrorayondakı idarəsinin rəisi Mehman Nəbiyevə zəng vurduq. M.Nəbiyev bildirdi ki, qaz anbarında heç bir elektrik xətti çəkilə bilməz və mən buna icazə verməmişəm. Sonra Şəki ləhcəsilə əlavə etdi: “Haindi bu, Əzrayılla ciling-ağac oynamaq demaxdır! Belə işlərin üstündə adamı topa qoyallar! Ancaq... nə edəsən ki, Eldəniz külli-ixtiyar sahibidir...”

Biz rahatlanmadıq. Azərbaycan Respublikasının DİN-in Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin 37-ci müstəqil hərbiləşdirilmiş yanğından mühafizə hissəsinin rəisi Rasim Mustafayevə zəng vurduq ki, ey dili qafillər, nə durmusunuz, bu günlərdə böyük yanğın baş verə bilər, hazırlıq görmüsünüzmü?! R.Mustafayev dərhal adamlarına göstəriş verdi. Onlar da başılovlu qaçdılar anbara. “Komisyonnı”nın sahibini mal qarışıq bayıra atıb anbarın qapısını möhürlədilər. Ancaq... Ancaq bu “komisyonnı”nın sahibi də Eldəniz kimi höcət imiş ha! Yapışıb

Eldənizin yaxasından ki, mən bu qədər xərc çəkmişəm, mən sənə bu qədər hörmət etmişəm, bəs sən mənim arxamdan hara qaçırsan?

Eldəniz də bir yuxarı baxıb, bir aşağı baxıb - qalıb naçar. Fikirləşib ki, əşi, itirəcəyim nə var e... Dartıb qapıdan möhürlü plombu qırıb! Sinəsini qabağa verib, amiranə tərzdə deyib: "Buranın ağası mənəm! Gir ə, heç kim səni burdan çıxara bilməz!"

Bax, bu sözləri eşidəndən sonra bizi maraq götürdü. Əməkdaşımızı bu Eldəniz kimdirsə, onun hüzuruna göndərdik. Eldəniz əməkdaşımızı görən kimi cumub üstünə ki, sizsiniz bu işi qurcalayan? O da deyib ki, bəli, bizik. Eldəniz hayqırıb: "Əcəb eləyirəm satıram, mənim ağzım-zadım yoxdur bəyəm, mən yemək istəmirəm? Heç kimdən də qorxmuram! Lap bilmək istəsəniz, bax bu binaların zibilxanalarını da bağladıb mən Eldəniz mağaza kimi satmışam. Bu it uşaqlarının oyun meydançasını maşın dayanacağı da mən Eldəniz elətdirmişəm! Mən Eldəniz, mən, mən!.."

Əməkdaşımız sakitcə deyib ki, biz görürük sizin iştahanızın həddi-hüdudu yoxdur, məcburuq ki, İnqilab müəllimə, yaxud da onun müavini Əvəz müəllimə müraciət edək.

Eldəniz qazlanıb, nə qazlanıb: "Mən nə İnqilab tanıyıram, nə də Əvəz!!!".

Nə deyək vallah, belə qazlı-qazlı danışığa. Sadəcə olaraq, Eldənizə tanıtmaq istəyirik ki, İnqilab Nadirov Binəqədi rayonunun icra hakimiyyəti başçısıdır, Əvəz Qocayev isə onun müavinidir. Əgər bu vaxta qədər Eldəniz öz rəhbərlərini tanımayıbsa, onda vay o sakinlərin halına!..

Şərif Kərimli,
"Eksklüziv" İnformasiya Agentliyinin redaktoru.

"Proqnoz",
11 oktyabr 2003-cü il

""Tellayı" cal, Əjdər əmi!"

Çoxdan yolunu gözlədiyimiz bir xeyir işdə iştirak etmək üçün Borçalıya yola düşdük. Gecəni yol getdiyimizdən səhərin alatoranında Sınıq Körpünü keçib Borçalının qədim kəndlərindən olan qosqoca doğma Baydarıma qovuşduq. Hər yeri zülmətə qərq olmuş kəndin əl atsan çatacaq qədər yaxın başı üstündə asılmış salxım-salxım ulduz topalarına, "Kəbə Yolu"na baxıb itirdiklərimi aradım, valideynlərimi gəzdim, dəcəl uşaqlığımda sapandla vurub sındırdığım ulduz qırıqlarına tamaşa etdim. Havanın sazağı, xatirələrin xumarlığı gözlərimə şirin bir mürgü gətirdi. "Bir-iki saat yatıb dincəlmək olar".

...Yuxuda olub-olmadığımı dərk edə bilmirdim. Uzaqdan, lap uzaqdan kimlərsə məni çağırırdı. Çağıranın ancaq səsini eşidirdim. Bu səs o qədər həzin, o qədər yanğılı, o qədər haylı-haraylı, o qədər ecazkar idi ki, onun həzinliyindən tutub gedirdim.

Və birdən: "Ata, dur, toyçular gəlib", - deyə qızımın məni silkələdiyini hiss etməsəydim, Allah bilir bu səs məni haralara aparacaqdı...

Ancaq yox... bu səs yenə gəlir axı. Yuxulu-yuxulu: "Bu nə səsdi?" – soruşdum.

"Əjdər əmi gəlib e!.. Dur, səni gözləyirlər".

Pillələri düşəndə artıq qohum-qonşunun həyətə yığışdığını, kiminin odun yardığını, kiminin qazan asdığını, kiminin iri bir cöngəni darta-darta gətirdiyini, kiminin kişmiş təmizlədiyini... gördüm və indi-indi yuxudan ayılmağa başladım. Toyçulara xoş gəldin elədim. Əmioğlu Mehdi ilə salamlaşdım:

- Kimin ağlına gəldi bu qara zurnanı dəvət etmək? – deyə soruşdum.

- Vallah, indi bu kişilər Borçalıda ən hörmətli sənətkarlardır. Gəlini ancaq nağara-zurna ilə köçürürük. Əjdər əmi gəlməsə, gəlin maşına minmir, - deyə əmioğlu güldü.

- Kimdi bu Əjdər əmi?

- Tanımırsan məyər? “”Tellayı” çal, Əjdər əmi!”

- Nə danışırsan? Nə xoş təsadüf?

Dönüb zurnaçı Əjdər əmi ilə bir də görüşdüm.

- Mən də deyirəm səhər erkəndən məni öz dünyamdan qoparıb aparan bu kəs və səs kimdir!

O utana-utana:

- Mənə dedilər Bakıdan gələn var, yuxarıda dincəlir. Səhər erkən çalmaq istəmədim. Dedim, kişini narahat etməyim. Bir də eloğlu, məni üzürlü hesab elə, fikirləşdim ki, siz şəhərlilər müasir havaların pərəstişkarısınız, zurna-balabanı bəyənmirsiniz, ancaq mənə deyəndə ki, siz də saz-söz adamısınız, onda qara zurnanı xodduyub buraxdım başlı-başına...

- Sağ ol, Əjdər əmi, uzun-uzun illərdən bəri ana laylası qədər əziz olan bir səsin şirinliyi oyatdı məni. Allah sənə və bu səsə ömür versin!

Əjdər əmi köksünü qabardıb:

- Sənin bu sözlərindən sonra bacıoğlu, könlün istəyən bir havanı de, Əjdər əmin qulluğunda dursun, - deyə, dəmkeş Seyid kişiyə və nağaraçı İslama hazırlıq işarəsi verdi.

Çınqıllaşan qayaların köksündə
Haray səsi, nərə səsi yaşayır!
Babəkərdə hər qızaran üfüqdə
Min igidin od nəfəsi yaşayır!

Çağır igidləri, Əjdər əmi, bir “Koroğlu cəngisi” çal, qoy gəlib bu xeyir işə əl-ayaq versinlər, bəyimizin başına toplaşsınlar, gəlinimizə xeyir-dua versinlər.

...“Cəngi”nin sədaları bütün kəndi başına aldı. Ərənlər, qızlar-gəlinlər dəstə-dəstə toy evinə axışdılar. Cavanların qanı coşdu, sümükləri şaqqıldadı, odlu baxışlarından qızların yanaqları allandı, yerişləri büdrədi... Əjdər əmiylə Yırğançaylı Dursunun birgə yaratdıqları “Tellayı” havasına bütün kənd qol açıb oynadı!..

“Azad söz”,
28 dekabr 2003-cü il

4 yanvar Gürcüstanda prezident seçkiləri günüdür

Milli, mənəvi qarant

4 yanvar 2004-cü ildə yaxın və əbədi qonşumuz Gürcüstan Respublikasında növbədənkənar prezident seçkiləri keçiriləcək. Azərbaycanda 15 oktyabr 2003-cü il prezident seçkilərini bütün Gürcüstanda çox diqqətlə izlədiklərimi, 4 yanvar günündə bütün Azərbaycan intizarla gözləyir.

Noyabr-dekabr aylarında qonşu ölkədə xalqın coşmuş etiraz sədaları təkcə Gürcüstandakıları deyil, eyni zamanda Azərbaycan vətəndaşlarını və xüsusilə də Borçalı əsilli soydaşlarımızı da narahat etmişdir. Yaxın qonşumuzun, dost ölkənin problemlərinin, dinc, demokratik yolla həll edilməsinin vacibliyi iki ölkənin xalqlarının ən böyük istəyi olmuşdur.

Artıq tarix sübut etmişdir ki, bu iki xalq birgə və sülh şəraitində yaşamağa məhkumdur. Bu gün və tarixən hər iki ölkənin hüdudları çərçivəsində azərbaycanlılarla gürcülər mehriban yaşamışlar.

Son illərin qlobal siyasi dartışma məkanına çevrilən Gürcüstan və Azərbaycan ancaq və ancaq siyasi, ideoloji həmrəylik nümayiş etdirməklə müstəqilliklərini qoruya bilmişlər. Düşmənlərin və imperiya xislətli qüvvələrin siyasi və iqtisadi təxribatları, milli təfriqətçilik cəhdləri bu iki xalqın dostluğuna və mehriban qonşuluq münasibətlərinə kölgə sala bilməmiş və onların böyük strateji maraqlarını sarsıda bilməmişdir. “Gürcüstan Azərbaycansız, Azərbaycan Gürcüstansız yaşaya bilməz” fikri indi bu dostluğun ən səmimi və danılmaz atributlarındandır.

Mərhum prezident Heydər Əliyev və Eduard Şevardnadzenin bu əlaqələrin bərpasında və möhkəmlənməsində

rolu şəksizdir. Lakin E.Şevardnadzenin hakimiyyətinin laxlamasının qarşısını heç bir dostluq və qardaşlıq münasibətləri ala bilməzdi. Onun ən böyük düşməni ətrafına yığdığı adamlar idi.

Ölkə başdan-başa rüşvət içində idi, qanunlar ayrı-ayrı şəxslərdən çox-çox aşağıda dayanırdı, cinayətkarlıq, korrupsiya, səfalət son həddə çatmışdı. Ehtiyac üzündən ölkə əhalisi Rusiya və Avropaya səpələnmişdi. Gürcüstanın ərazi bütövlüyü, nəinki ərazi bütövlüyü, eləcə də müstəqilliyi böyük təhlükə altında idi. Qoca prezidentin... bilmirəm yorulduğundanmı, bilmirəm ifrat demokratikliyindənmi, bilmirəm nədənsə...ölkə idarəolunmaz vəziyyətə gəlib çıxmışdı. İndi "Qərb məni satdı... deyə kimlərisə ittiham edən E.Şevardnadze, yəqin ki, vaxt gələcək və deyəcək ki, "inandıqlarım məni satdılar!.."

Hazırda bütün Gürcüstan-gürcü də, azərbaycanlı da, abxaz da, hətta erməni də keçmiş Ədliyyə naziri, Tbilisi Sakrebulosunun (Bələdiyyəsinin) sabiq sədri 36 yaşlı Mixeil Saakaşvilinin arxasınca gedir. Xalqı aldatmaq olmaz, xalqın gözü tərəzidir. Gürcüstan Respublikası prezidentliyinə namizəd M.Saakaşvilinin ən böyük üstünlüklərindən biri məhz odur ki, o nəinki keçmiş hakimiyyətin siyasi, iqtisadi, mənəvi sahədə buraxdığı nöqsanları göstərir, izah edir, eyni zamanda milli sahədə aparılan səhv siyasəti tənqid və onun yenidən köklü şəkildə dəyişdirilməsinin zəruriliyini bəyan edir. Bəs, xalqın bu etimadını o necə qazanıb? Bircə faktı qeyd edim ki, hələ 1 il bundan əvvəl Tbilisi Sakrebulosunun büdcəsindən təqaüdçülərin məvacibinə 3 lari əlavə edən M.Saakaşvili olub. Sentyabr ayında Tbilisidəki 73 saylı Azərbaycan orta məktəbinin şagirdlərinə dərs ləvazimatı, dərslik və s. yardımlarla üz tutan yenə də M.Saakaşvili olub. Azərbaycan dilində televiziya verilişlərinin təşəbbüskarı da odur.

Haqqın, ədalətin müdafiəsinə qalxan bu insana indi bütün Gürcüstan inam və ümidlə baxır.

Sevindirici haldır ki, M.Saakaşvilinin ən yaxın silahdaşlarından biri soydaşımız Kamal Muradxanlıdır.

K.Muradxanlı Təhlənin məşhur Muradxanlılar nəslinin nümayəndəsidir. Vaxtilə bu nəslin sayılıb-seçilən adamları əsil-nəcabətli gürcü ailələləri ilə yaxın olmuş, dostluq etmiş və bir çox tanınmış gürcü ziyalıları bu nəslin sevimli qonaqları olmuşlar.

Kamal Muradxanlı özü Rusiyada təhsil almış, 1990-95-ci illərdə Tolyatti avtomobil zavodunda direktor müavini, Gürcüstan hökumətinin Bakıda Ticarət Palatasının sədri və Gürcüstan Yanacaq Komitəsinin sədri işləmişdir.

Soydaşlarımız arasında milli birlik yaratmaq məqsədilə ciddi siyasi fəaliyyətə qoşulan K.Muradxanlı sonradan "Birlik və inkişaf" partiyasını yaratmış və bir neçə təşkilatın birgə yığıncağında Gürcüstan azərbaycanlılarınının "Yeni Yol" Birləşmiş İttifaqının sədri seçilmişdir.

Hazırda K.Muradxanlı öz vəsaiti hesabına İttifaqın "Yeni Yol" adlı qəzetini nəşr etdirib soydaşlarımız arasında pulsuz yaydırır.

K.Muradxanlı eyni zamanda ötən il MDB ölkələrində fəaliyyət göstərən Azərbaycan cəmiyyətləri idarə heyətinin həmsədri seçilib. Bu məqsədlə o, Türkiyədə, Ukraynada, Özbəkistanda, Strassburqda və başqa yerlərdə keçirilən konqreslərdə iştirak edib.

2002-ci il noyabrın 15-də Tbilisidə keçirilən Gürcüstan aşıqlarının II qurultayı da məhz K.Muradxanlının yaxından maddi və mənəvi dəstəyi ilə baş tutdu. Həmin qurultayda bu gün K.Muradxanlı ilə birgə siyasi fəaliyyət göstərən şair Osman Əhmədoğlu Gürcüstan Aşıqlar Birliyinin sədri seçildi. Qurultayda Türkiyə Cümhuriyyətinin Gürcüstandakı Böyük Elçisi Dəclə Kopuz, Azərbaycanın Gürcüstandakı səfiri Hacan Hacıyev, Gürcüstan Mədəniyyət nazirinin müavini Svetlana Ketsba və digər rəsmi şəxslər də iştirak edirdilər.

Tbilisi şəhərinin mərkəzində ötən Novruz bayramı da K.Muradxanlının təşəbbüsü ilə böyük təmtəraqla keçirildi.

Kamal Muradxanlı böyük xeyriyyəçilik işi ilə məşğuldur. O öz vəsaiti ilə Fahralı kəndində 3 km-lik yola keyfiyyətli asfalt saldırmışdır.

Gürcüstanın Dövlət Universitetlərində öz hesabına tələbələr oxutdurur. Ən böyük arzusu isə Gürcüstanda Azərbaycan dilində özəl telekanal açmaqdır.

Bu gün Gürcüstanda yaşayan soydaşlarımızın birliyinə böyük ehtiyac var. Birlik güc deməkdir.

Böyük siyasi proseslərə qatılmaq, ölkənin idarəçilik, quruculuq işlərində fəal iştirak etmək, vətəndaşlıq hüquqlarının tanınmasına və hörmət edilməsinə çalışmaq lazımdır. Dövlət başçılarımızın dostluq münasibətləri siyasi və milli fəallığı azaltmamalıdır. Azərbaycanda gürcülər, Gürcüstanda isə azərbaycanlılar bu münasibətlərin ən böyük qarantıdır – milli, mənəvi qarantı!

"Azad Azərbaycan",
03 mart 2006-cı il

Lefortovo zindanında anladıqlarım

Məmməd Əlizadə:

"İnsan ömrünü şərti olaraq 100 il qəbul etsək, onda mən yarını keçmişəm. Yox, əgər real həyat həddini götürsək, onda mən onun artıq üçdə ikisini xərcləmişəm. Bəs, yaşadığım ömür payı məni razı salıbmı? Xeyr! Arzularımın, qabiliyyətimin çox az qismini reallaşdıra bilmişəm. Bu, ömrüm boyu məni narahat edib."

Bu, 12 kitabın müəllifi, onlarla kitabın tərtibçisi, redaktoru, bir sıra elmi, publisistik məqalənin müəllifi, "XXI əsr" qəzetinin təsisçisi, "Müdriklik zirvəsi", "Yeni əsr, yeni nəsil", "Şahtaxtı" dərgilərinin təsisçisi və redaktoru, Bakı Dövlət Universitetinin müəllimi, BDU nəşriyyatının baş redaktoru, iqtidaryönlü siyasi partiyaların Məşvərət Məclisinin icraçı sədri, "İslahat" Siyasi Partiyalar blokunun rəhbəri, demokratik Azərbaycan Dünyası partiyasının sədri Məmməd Əlizadənin fikirləridir.

Sərur rayonunun məşhur Sahtaxtı kəndində dünyaya göz açmış, əvvəl Bakı Sovet Texnikumunu, sonra Bakı Dövlət Universitetini bitirən Məmməd müəllim bu günlərdə redaksiyamızın qonağı olub.

- Hörmətli filosof şairimiz Bəxtiyar Vahabzadənin belə bir misrası var:"Özümdən ona görə razıyam ki, özümdən narazıyam". Sizi ömrünüz boyu narahat edən məqamları

özünüzdən narazılıq kimi qiymətləndirmək olar, yoxsa zəmanədən?

- İnsan həyatdan tamamilə əlini üzəndə zəmanədən şikayət edir. Bizim klassik şairlərimizin çoxu zəmanədən şikayət edib, onun gərdişindən narazı qalıb. Bu məsələdə mən antik klassiklərimizdən daha çox çağdaş klassikimiz Bəxtiyar müəllimlə həmfikirəm. Mən hələ zəmanədən əlimi üzməmişəm. İnsan o zaman tərki-dünya olur ki, onu müasirlərindən heç kəs başa düşməsin. Şükürlər olsun ki, mənim minlərlə məsləkdaşım var.

- Məsləkdaşım demiş, mənim məlumatıma görə, siz 1988-ci ildən milli azadlıq hərəkatının fəallarından biri kimi AXC Milli Müdafiə Komitəsinin təşəbbüskarı və sədri olmuş, hətta buna görə 1990-cı il 20 Yanvar faciəsindən sonra SSRİ Dövlət Təhlükəsizlik Komitəsi tərəfindən həbs edilərək Moskvanın Lefortovo həbsxanasında 9 ay saxlanılmısınız. Onu da bilirəm ki, 1990-cı ilin sonunda həbsdən azad edildikdən sonra yenidən milli azadlıq hərəkatının ön sıralarında olmusunuz. Bəs, necə oldu ki, siz 1992-ci ildə öz məsləkdaşlarınızdan ayrılıb yeni bir partiya – Demokratik Azərbaycan Dünyası Partiyasını yaratdınız?

- Əslində, mən məsləkdaşlarımdan ayrılaraq bu partiyanı yaratmamışam. Elə məsləkdaşlarımla birlikdə yaratmışam. XX yüzilliyin sonunda dünyada baş vermiş siyasi-iqtisadi və mənəvi dəyişikliklər postsovet məkanında yaşayan xalqlarla öz müstəqil dövlətlərini yaratmağa imkan verdi. Azərbaycan xalqı da öz suverenliyini elan etdi və dövlət müstəqilliyini bərpa etməyə nail oldu. Dövlətimizin fəaliyyət sistemini əsaslı surətdə yeniləşdirmək, dünya standartlarına müvafiq siyasi-iqtisadi, ictimai və mədəni islahatları həyata keçirmək, optimal sosial infrastruktur formalaşdırmaq, varlığımızı və mənəviyyatımızı milli və ümumbəşəri dəyərlər üzərində kökləmək, ölkəmizi azadlıq və demokratiya yolu ilə inkişaf etdirmək üçün tarix qarşımızda geniş, təkrarolunmaz imkanlar açdı.

Lakin...Bu mübarizələrdə can qoymuş mücahidlərə, milli qüvvələrə qarşı AXC içərisində lap binadan nəzərə çarpan biganəliyin, bir az da dərinə getsək, naxoş münasibətin 90-cı ildən sonra güclənməsi həmin insanları rəncidə salırdı. Mən Lefortovada olarkən artıq başa düşdüm ki, onların bizdən imtina etmələrinin kökündə nələr dayanır. Zindandan çıxandan sonra AXC-nin iclaslarının protokolları və digər sənədlərlə tanış olarkən bunun bir daha təsdiqini gördüm. Bütün bunlar hərəkatı dağıtmaq üçün Dövlət Təhlükəsizliyi Komiətsi tərəfindən içimizə yeridilən satqınların əməlləri idi. Bununla bağlı Əbülfəz Elçibəylə dəfələrlə söhbətlərimiz olub. O da bunları görürdü və qarşısını almağa çalışırdı, ancaq gücü çatmırdı.

Bu gün də qanımız-canımız bahasına qurduğumuz dövlətçiliyə qarşı müxalifətdə olan həmin insanları artıq xalq çox yaxşı tanıyır. Əqidəcə, məsləkcə bir-birindən kəskin fərqlənən bu "liderlər" öz maraqları müqabilində dəfələrlə birləşib-ayrılıblar...

- Bir növ Meksikasayağı nigahlar kimi...

- İsa Qəmbərlə Etibar Məmmədov, Əli Kərimli ilə Nemət Pənahlı, Sabir Rüstəmxanlı ilə Rəsul Quliyev heç vaxt bir masa arxasında otura bilməzlər. Özlərini "ana müxalifət" hesab edənlərin heç biri Nemət Pənahlını, Sabir Rüstəmxanlını həzm edə bilmir. O dövrlərdə Nemət Pənahlı, Sabir Rüstəmxanlı sırf milli qüvvələri təmsil edirdilərsə, o birilər KQB tərəfindən atılmış diversantlar idilər. Yadınızdadırsa, 90-cı illərdə tribunalardan iki şüar səslənirdi: biri qana, qırğına, digəri qan tökülməsinə, xalqı qırğından qorumağa çağırış idi. Birincilərin kimliyi məlumdur, ikincilərin başında isə Sabir Rüstəmxanlı və onun kimi ziyalılar dayanırdı.

Ümummiyyətlə, sırf milli qüvvələri, açığını desək, dünya qəbul etmir. Ancaq bu qüvvələr həmişə hakimiyyətlə xalq arasında bir körpü rolunu oynayırlar.

- Belə qüvvlər iqtidar partiyalarında necə, varmı?

- İqtidar partiyalarında kifayət qədər öz xalqını, vətənini sevən, ali, humanist, bəşəri ideallarla yaşayan insanlar çoxdur.

Ancaq ümummilli liderimiz Heydər Əliyevdən sonra liderlər səviyyəsində belə bir adamı görmürəm. Həm müxalifət, həm də iqtidar cəbhəsində bir adı, bir də özü olan şəkil (cırtdan deməyə də dilim gəlmir) partiyaların mövcudluğu kimə sirdir ki. Çox qəribədir, belə partiyaların nümayəndələri hətta parlamentdə də təmsil olunurlar...

Siz fikir verin, prezident İlham Əliyev özünün düşüncə tərzinə uyğun, tanıyıb etibar etdiyi, qabiliyyətinə, səriştəsinə bələd olduğu insanları vəzifələrə təyin edir. Qərb dünyagörüşünə, idarəçiliyin Qərb modellərinə daha çox üstünlük verən bu kadrların nə səviyyədə işləməsindən asılı olmayaraq, cənab prezident xalqın içərisinə getməyə daha çox səy göstərir. Görünür, hakimiyyətlə xalq arasında körpünün qırılmasından ehtiyatlanır.

Ədalət naminə deyim ki, belə milli qüvvələr lap qatı müxalifətin içərisində də kifayət qədərdir. Lakin vətəni, milləti sevmək bu sevgiyə qarşılıqlı cavab tələb etməyə hələ əsas vermir. Bir var, bu sevgi ağılın, təfəkkürün süzgəcindən keçə, bir də var, ancaq emosional hisslərin təsiri altında ola. İkinci son məqamda fanatizmə və nəhayət, nifrətə aparır.

Bax bu gün meydanlarda, mitinqlərdə xalqa, vətənə sevgidən dəm vuran, əslində isə dövlətçiliyimizə qarşı itaətsizliyə çağıran bu "milli qəhrəmanların" sevgisi məhz çılğın hisslərdən mayalanan və getdikcə nifrətlə əvəzlənən sevgidir. Bir qrup insanı yalanla öz ətarflarında saxlayanların sevgiləri də beləcə yalandır.

Vaxtilə 1988-1989-cu il mitinqlərində, fəhlə hərəkatının başında Nemət Pənahlı, ziyalı hərəkatının başında isə Sabir Rüstəmxanlı dururdu. Xalq onları sevirdi. Çünki illər uzunu ürəyində gizlətdiyi hirsi-hikkəni, azadlıq, müstəqillik arzularını bu insanlar qorxmadan, çəkinmədən imperiyanın sifətinə çırpırdılar. Ancaq onların heç biri vətən övladının ayağına belə bir daşın dəyməsinə razı deyildilər. İndi isə... Mən təəssüf edirəm ki, xalqı kütləvi itaətsizliyə, dövlətçiliyin sarsıdılmasına səsləyən bəzi müxalifət partiyaları özləri də hələ inanır ki, bu yolla hakimiyyətə gəlib daha firavan günlərə aparmaq olar.

Yadınızdadırsa, 90-cı illərdə torpaqlarımızı, rayon və kəndlərimizi bir-birinin dalınca verdikcə bəzi "liderlər' nə deyirdilər: "Əlborcu vermişik", "Müvəqqəti vermişik", "Məqsədimiz var" və s.

Bu gün insanları qırğına səsləyənlər yenə həmin fikirdədirlər: "Beş-on adamın məhv olması ilə hakimiyyət çox şey itirə bilər, biz isə çox şey qazana bilərik".

Şüarlara fikir verin: "Azadlıq!", "İstefa!"

Belə çıxır ki, insanlar azad deyil, indiki hakimiyyət istefa verməlidir ki, onlar gəlib xalqa azadlıq versinlər. Nə qədər gülünc, nə qədər məntiqsiz düşüncə! Nə qədər "primitiv" və cılız mübarizə forması!

- Məmməd müəllim, ölkəmizdə onlarla müxalifət partiyası, bir o qədər də iqtidar partiyası fəaliyyət göstərir. Yeni Azərbaycan partiyası kimi nəhəng bir partiyanın mövcudluğu və üstəlik hakimiyyətdə olması ilə bahəm, yeni iqtidaryönlü partiyaların yaranmasına və fəaliyyət göstərməsinə iqtidarın, yaxud elə cəmiyyətin nə dərəcədə ehtiyacı var?

- Çox maraqlı bir məqama toxunursunuz. Tamamilə düz deyirsiniz. Ancaq bir məsələni səmimi etiraf etmək istəyirəm. Siz elə bilirsiniz iqtidar partiyaları hakimiyyətdə olan məmurların bütün nöqsanlarına göz yumur? Bildiyiniz kimi, mən həm də iqtidaryönlü siyasi partiyaların Məşvərət Məclisinin icraçı sədriyəm- biz təkcə müxaiifətin hərəkətləri ilə məşğul olmuruq ki... Həm də mütəmadi olaraq yığışıb məhz hakimiyyətdə olan və düzgün işləməyən partiyadaşlarımızın nöqsanlarını müzakirə edirik və bunu dövlətin, hakimiyyətin müəyyən strukturlarının nəzərinə çatdırırıq. Mənə elə gəlir ki, məhz yeni yaranan və özü ilə yeni nəfəs gətirən iqtidaryönlü partiyaların meydana gəlməsi də bu zərurətdən doğur. Ümumilikdə isə Azərbaycanın siyasi mühitində müxalifətin olması vacibdir. Bu, inkişafın, tərəqqinin, demokratiyanın bazislərindən biridir. Bu, əxlaqımızı, mənəviyyatımızı saflaşdırmaq üçün labüddür. Ancaq fikir verin,

bu vaxta kimi hansı müxalifət partiyası hökumətin fəaliyyətinin ayrı-ayrı istiqamətlərini yaxşılaşdırmaq barədə təkliflər verib, problemlər qaldırıb? İqtidarda hamısı saf, kristal adamlar deyil ki. Müxalifət hansı bir quldur məmur haqqında məhkəmə-prokurorluq orqanlarında – cinayət işi qaldırılmasına təşəbbüs göstərib? Quldurun başını sığallamaq da, qorxağın arxasında durmamaq da – hər ikisi rüşvətxorluğun, korrupsiyanın yaranmasını stimullaşdırır. **Rüşvət qorxaqla quldur arasında gedən gizli alverdir. Bu alver getdikcə inkişaf edərək hökumətin üzvləri arasına yayılır və nəticədə korrupsiya yaranır.** Bizim müxalifət isə xalqımızın illər uzunu həsrətində olduğu və qanı-canı bahasına yaratdığı dövlətçiliyi sarsıtmaq və ona düşmən münasibət bəsləməkdədir.

Nə isə... Sözümün yekununda demək istəyirəm ki, birləşmək üçün tarix bizə bir şans vermişdi. Bu, torpaqlarımızın müdafiəsi uğrunda aparacağımız mübarizə idi. Bu şansı əldən verdik. Eyni zamanda bu şansdan məkrli məqsədlər üçün, qarşılıqlı ittihamlar üçün istifadə edənlər də oldu. İndi tarixin sərt üzü başqa bir şans verib bizə: artıq itirdiyimiz torpaqların dala qaytarılması uğrunda birləşmək. Əgər bu dəfə də birləşməsək, yeganə bir ümidimiz qalır – Allaha yalvarmaq ki, üçüncü bir şansı bizə qismət eləsin. Çünki dördüncü olmur.

"Odlar Yurdu Universiteti" qəzeti,
21 aprel 2006

Uğurunuz xeyir olsun, Əhməd müəllim!

(Təbliğati material)

Milli Məclisdə boş qalan yerlərə deputat mandatı qazanmaq uğrunda mübarizə kəskinləşdikcə namizədlər mfixtəlif təbliğat və təxribat üsullarına əl atır, öz rəqiblərini sıradan çıxarmaq üçün hətta anti-konstitusion yollardan belə çəkinmirlər. 6 noyabr seçkilərində bu yolla millət vəkili seçilmiş və seçilmək istəyən namızədlərin mandatının alınması, eləcə də seçki nəticələrinin ləğv olunması, görünür, hələ də bəzilərinə dərs olmayıb.

Lakin öz təbliğatını konstitusiya çərçivəsində, seçki qanunlarına uyğun quran və Qanunu şah hesab edən namizədlər də az deyii. Bu insanlardan biri də 31 saylı Suraxanı 2-ci Seçki dairəsindən deputatlığa namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş Odlar Yurdu Universitetinin rektoru, professor **Əhməd Abdulkərim oğlu Vəliyevdir.**

Müşahidəçilərin və sakinlərin söylədiklərinə görə, Ə.A.Vəliyevin təbliğat kampaniyası bu vaxta qədər keçirilən kampaniyaların ən səviyyəlisi, ən samballısı və ən qanunauyğun keçirilənidir. Çünki halallığı, xeyirxahlığı, alicənablığı özünün həyat amalına, yaşam tərzinə çevirən professor Ə.A.Vəlivev həyatda nail olduğu bütün maddi və mənəvi sərvətləri ancaq düz yolla, qanuni yolla, gərgin zəhmətlə əldə edib.

Seçki marafonu başlanandan, demək olar ki, hər gün görüşünə getdiyi Yeni Günəşli və Qaraçuxur camaatı Əhməd müəllimi artıq hər yerdə öz doğmaları, əzizləri, ən yaxın dostları

kimi qəbul edir, onunla həmsöhbət olur, ölkənin, xalqın və nəhayət, yaşadıqları ərazinin problemlərindən danışır, ona ürək qızdırıb ərk edirlər.

Görüş başlamazdan əvvəl də, görüşdən sonra da uşaqlar Əhməd əmi deyə onun əlindən tutur, onunla birlikdə şəkil çəkdirir, deyib-gülürlər. Ağbirçək və ağsaqqallarımız üz-gözündən nur yağan, baxışlarından insana məhəbbət və inam sirayət edən, dünyanın çox üzünü görən, həyatın çox sirrinə bələd olan, artıq ömrünün 60-cı pilləsinə qalxıb uğurla başını dik tutan Əhməd müəllimin söhbətlərindən doymur, ondan saatlarla ayrılmaq istəmiriər.

"Səsimizi əmanət saxla!"

Əhməd müəllim bəziləri kimi qarşısındakının səsini çirkin vasitələrlə almır. O, bu insanlara sevgi paylayır, inam paylayır, arxasınca halallığa, haqq-ədalət işığına doğru aparır. Çünki o özü də bu yolun yolçusudur. Ömrü boyu haqqın dalınca gedib. Ancaq dünyanın özü qədər sonsuz və əbədi olan bu yolda heç vaxt "yoruldum", "usandım" deməyib!

Görün adını unutduğum 80-85 yaşlı nurani bir nənə Əhməd müəllimin görüşünə gələndə nə dedi:

"Başına dönüm, ay oğul, səsinin həmişə gur çıxmasını istəyirsənsə, səsimizi əmanət saxla, onu təkçə özün üçün işlətmə... Ancaq sənin gözlərinə baxanda görürəm ki, bəziləri kimi bizi aldatmazsan. Baxışlarında ilahi bir qüdrət var..."

Yaxud, başqa bir görüşdə Qaraçuxur sakini, 6 noyabr seçkilərində bu ərazidən öz namizədliyini vermiş və obyektiv səbəblərdən sonradan namizədliyini geri götürmüş Xaqani Mehrəliyev sakinlərə üzünü tutaraq belə söylədi:

- Əziz qonşular, siz bircə şeyi nəzərə alın ki, mən bu binadan heç yerə köçüb gedəsi deyiləm. Ona görə də deyəcəyim sözün məsuliyyətini tam dərk edirəm.

Əgər mən bu dəfə də namizədliyimi vermiş olsaydım, Əhməd müəllimin qarşısında onu yenə də geri götürərdim. Həyata gərək açıq gözlə baxasan...

Bəli, Əhməd müəllimlə ən çoxu beş dəqiqəlik söhbətdən sonra onun şəxsiyyətinə, mənəvi aləminə baş vuranlar bu dünyanın nuruna qərq olurlar. Onların həqiqiliyinə, gerçəkliyinə, səmimiliyinə inanır və bu dünyanın sahibinə istər-istəməz etimad göstərirlər.

Yalan danışanlar və yalan danışmayanlar

Təkcə indi yox, elə əvvələr də iştirak etdiyim seçkilərdəki təbliğat-təşviqat kampaniyalarında çıxış edənlərin, eləcə də namizədin danışdıqlarının seçicilərə təsirini hiss etmək üçün həmişə sakinlərin çöhrələrinə baxmışam.

Müxtəlif reaksiyalar görmüşəm. Görüşlərə gəlməyənləri bilmirəm, ancaq iştirak edənlərin əksəriyyətinin üz-gözündə onun görüşünə gələn şəxslərə böyük ümid, etibar duyulub. Mən həmişə fikirləşmişəm: "İşini-gücünü atıb, vaxtını-vədəsini qayçılayıb, isti, rahat bucağından durub gələn bu insanların hissləri ilə necə oynamaq olar? Onlara yağlı vədlər verib səslərini necə oğurlamaq olar?"

Hər cür oğurluğa dözmək olar – uzağı, bələləri cinayət qanunları ilə mühakimə ediləcək. Ancaq qəlb oğurluğuna, inam oğurluğuna, iman oğurluğuna dözmək mümkünsüzdür. Çünki bu, mənəvi cinayətkarlıqdır!

İndi çoxları özlərinə "müəllim" dedirtməkdən həzz alır. Çünki az-çox öz peşəsinin saflığını qoruyanlardan biri, bəlkə də birincisi müəllimlərdir.

Bir ata, bir də müəllim heç vaxt yalan danışmaz. Çünki biri İnsanın yaradıcısı, digəri qurucusudur. Üç mindən çox tələbənin mənəvi atasına və gələcək dünyalarının qurucusuna çevrilən Əhməd müəllim artıq minlərlə gəncin vəkilidir. Onun



Fidan: -Sənin nə qəşəng saçların var!..
Günay: - Bərkdən demə, mama eşidib mənimkini də kəsdirər...



İndi hər ikisinin qəşəng saçları var!..
Fidanın toyunda. 2004-cü il.



Qızım Fidanın toyunda. Slavyan Universitetinin prorektoru Telman Cəfərov ürək sözlərini dilə gətirir.



Sağdan: Rəşid Mollayev (yeznə), Sabir Rüstəmxanlı,
Telman Cəfərov və onun həyat yoldaşı İlahə xanım.



Qudalar... Böyük qızım Günayın toyunda.
25 noyabr 2007-ci il.





Dostlarımızın xeyir işində.



Qardaşım oğlu Məzahirin toyunda.



Azərbaycanlı turistlər. Suriya, 1994-cü il.



Süleyman Rüstəmlə görüş. 18 fevral 1981-ci il.



“Gənclik” (“Molodost”) jurnalının əməkdaşları ilə. 1988-ci il.



“Gənclik” (“Molodost”) jurnalının əməkdaşı Məti Osmanoğlu və məsul katibi Şərif Kərimli. 1988-ci il.



“İşıq” nəşriyyatının əməkdaşları ilə Lənkəranda. 1986-cı il.



AMİP-in tədbirində. 1995-ci il.



Yazıçı-tədqiqatçı, coğrafiyaşünas Məmməd Sarvanla “Sabah” qəzeti redaksiyasında. 2003-cü il.



Şəmkirli müəllim və şagirdlər “Sabah” qəzetinin baş redaktoru Şərif Kərimlinin qonağıdırlar. Sağdan 1-ci tanınmış şair Şamxal Rüstəm, ayaqüstə Akif Şahverdiyev.2004-cü il.



Borçalı əsilli ziyalılar Gürcüstan Prezidenti Eduard Şevardnadze ilə
Bakıda Prezident İqamətgahında görüşərkən. 06.02.1993-cü il.
***Sağdan sola*: Şərif Kərimli, Şamil Qurbanov,**
Eyvaz Borçalı və Abbas Abdulla.



Gürcüstan türklərinin "Qaraçöp" cəmiyyətinin siyasi partiya və
cəmiyyətlərlə birgə keçirdiyi "dəyirmi stol".
Sağdan: Zahid Qaralov, Hidayət Orucov, Şərif Kərimli,
Xaləddin İbrahimli və Zəlimxan Yaqub.



Görkəmli yazıçı, professor Mir Cəlal Paşayev Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinin tələbələri arasında. Oturanların cərgəsində soldan ikinci Şərif Kərimli.



Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinin tələbələri. Şamaxı, Cəngi meşəsi, 1974-cü il. Orta cərgədə sağdan ikinci Ş.Kərimli.



«Azərbaycan gəncləri» qəzeti. Professor Zinyət Əlizadə tələbələri arasında. Soldan sağa: Çingiz Nağıyev, Rəna Hasilova, Elmira İmanova, Şərif Kərimli. 1972-ci il.



Əcnəbi tələbələrlə. Ş.Kərimli (soldan 1-ci), Yaşar Vəliyev (sağdan 1-ci.)



Jurnalistika fakültəsinin tələbələri.



Ş.Kərimli və Rəna Hasilova ingilis dili
müəllimləri Şölə xanımla.

Tələbə yoldaşlarımın övladlarının xeyir işlərində.











Odlar Yurdu Universitetinin Elektron kitabxanasının açılışında. 2005-ci il.



Şərif Kərimli tələbələri ilə Odlar Yurdu Universitetinin rektoru professor Əhməd Vəliyevdən müsahibə götürərkən.



“Nə balaca oğlandı bu...” 1992-ci il sentyabr.



“Balaca oğlan”ı doğum evindən çıxararkən...



“Balaca oğlan”ın kiçik toyu



“Balaca oğlan”-oğlum Həmid Krımda, Ukrayna
Universitetinin tələbəsi kimi.

uzun illər boyu qurub-yaratdığı işlər, xeyirxah əməllər xalqın, millətin vəkili olması zəruriliyini gündəmə gətirib.

"Alimin mürəkkəbi şəhidin qanı qədər müqəddəsdir!"

Qaraçuxur sakini, din-iman adamı Hacı Mürvət də görüşlərin birində Əhməd müəllimin məhz bu keyfiyyətlərini vurğuladı:

- ...Peyğəmbərimiz də buyurmuşdur ki, bir gün elmlə məşğul olmaq yüz il ibadət etməyə bərabərdir. Alimin mürəkkəbi şəhidin qanı qədər müqəddəsdir! Bu mənada professor Əhməd Abdulkərim oğlu Vəliyev müqəddəslərin cərgəsindədir. Onun əməlləri də ürəyi, ruhu kimi saf və ləkəsizdir...

Əhməd müəllimlə, demək olar ki, hər məhəllədə, hər küçədə, hər evin qarşısında keçirilən görüşlər çox gərgin diskussiyalar və emosional olaylarla müşayiət olunur.

"Səsimizin qədrini-qiymətini bilməliyik!"

Cavan bir qadının ismətdən, həyadan çöhrəsi allana-allana, gözləri yaşarmış, lakin qəzəblə dediyi bu kəlmələr çoxlarını öz seçimlərində dönə-dönə fikirləşməyə sövq etdi:

- Mənə elə gəlir ki, ağına-bozuna baxmadan, xırda nəfsimizin qurbanına çevrilərək seçdiyimiz bəzi millət vəkilləri bu gün bizim etimadımızı doğrultmur. Ona görə də ayılmalı və səsimizin qədrini-qiymətini bilməliyik!

"Qışqıranı pis eşidərlər"

Bugünkü seçicilər, açıq-aşkar görünür ki, 10 il bundan əvvəlkilərdən prinsipiallıq, obyektivlik sarıdan ciddi şəkildə fərqlənirlər. Onlar, demək olar ki, ölkədə və xaricdə baş verən hər

bir hadisə ilə maraqlanır, namizədlərinin bu olaylara münasibətini öyrənir, onu sanki sınağa çəkirlər. Bir növ - "Bizi təmsil edən şəxs parlamentdə bizə başucalığı gətirəcək, yoxsa başqaxıncı olacaq?" - deyə narahatçılıq keçirirlər.

Bu qəbil narahatçılıqdan doğan sualın müəllifi bir əsgər anası oldu. Onun "Ramil balamıza kömək edəcəksinizmi?" sualına professor Əhməd Vəliyev belə cavab verdi:

- Ermənini hansı vəziyyətdə qətlə yetirməsindən asılı olmayaraq, Ramil milyonlarla azərbaycanlının ürəyindən tikan çıxardı.

Bu gün Ramil Səfərovun vəkili bütün Azərbaycandır. Onun şəklinin əllərdə, məhəbbətinin ürəklərdə gəzdirilməsi əbədi düşmənimizə qarşı xalqımızın kin-küdurətinin, nifrətinin rəmzidir. Ancaq nə edək ki, dərdlini dərd çəkənlər anlayar.

Mən Ramilin müdafiəsi üçün küçələrə çıxan insanların hiddətini təbii qəbul edirəm. Ancaq təəssüflə bildirmək istəyirəm: məsəl var, deyərlər, qışqıranı pis eşidərlər.

Ehtiras ağıla üstün gəlməməlidir. Ramilin əleyhinə çıxan yazıların, özünün dediyinə görə, ermənipərəst hakimlərə əlavə alibi verdiyi kimi, bu şəkildə çılğın müdafiəsi də ümumiyyətlə onun taleyində xoşagəlməz rol oynaya bilər. Oğullarımızın, əsgərlərimizin Ramillə birlikdə yüksələn döyüş ruhunu heç vəchlə sındırmaq olmaz. Ona verilən cəzanı kişi kimi qəbul edən Ramil xalqımızın döyüşkənlik, əyilməzlik ruhunu bir daha özünə qaytardı!

Ruh adamı

Əhməd müəllim alimdir, müəllimdir, ruh adamıdır, söz xiridarıdır. Və təbii ki, kiminsə ünvanına deyilən hər hansı bir iradı, edilən həp hansı bir qınağı, söylənən hər hansı bir arzunu, diləyi, irəli sürülən təklifi... haqlı-haqsız olmasından asılı olmayaraq, cavabsız qoymur, münasibət bildirir, aydınlaşdırır, haqq-ədalət tərəzisinə qoyur. Çünki əsl vətəndaş öz ölkəsinin

uğurları ilə öyündüyü kimi, uğursuzluqlarını da bölüşməyi bacarmalıdır!

Çoxmərtəbəli binaların pəncərə və eyvanlarında çıxış edənləri maraqla seyr edib dinləyən, görüşlərdə həvəslə iştirak edib fikir bildirən insanların münasibətindən, bu görüşlərdə böyük ruh yüksəkliyi ilə sakinlərlə ünsiyyətə girən Əhməd Abdulkərim oğlu Vəliyevin gələcəyə, xalqa xidmət etməyə, ölkəmizin, dövlətimizin çiçəklənməsinə, torpaqlarımızın gülüstana çevrilməsinə tuşlanan arzu və əməlləri onun Haqq Yolda olmasını göstərir. Sizi bu yola dəvət edirik, əziz həmvətənlər!

Bir-birinizə həyan olun, arxa-dayaq olun!

Allah yolunuzu açıq, mənzilinizi yaxın eləsin!

Uğurunuz xeyir olsun, Əhməd müəllim!

Seçiminiz düşərli olsun, əziz Suraxanı sakinləri!

"Odlar Yurdu Universiteti" qəzeti,
21 aprel 2006

Samir Vəliyev,
Odlar Yurdu Universitetinin
tədris işləri üzrə prorektoru

"Biz yoxlamanı özümüz istəmişik"

Samir müəllim, məlum olduğu kimi, ictimai-siyasi, elmi-mədəi həyatın bir çox sahələrində Azərbaycan Avropaya inteqrasiya olmaq üçün çox ciddi və sürətli islahatlar içərisindədir. Belə islahatlardan biri də müstəqilliyimizlə yanaşı ölkədə başlanmış təhsil islahatıdır. Bu islahatın uğurlu nəticələrindən biri kimi dövlət ali təhsil müəssisələri ilə ciddi və sağlam rəqabətə girən özəl ali təhsil müəssisələrinin yetkinləşməsini və hətta bir sıra parametrlərdə onu ötüb keçməsini qeyd etmək olar. Hesab edirik ki, belə təhsil ocaqlarından biri də artıq 10 yaşı tamam olmuş Odlar Yurdu Universitetidir. Yaxın günlərdə Universitetdə Təhsil Nazirliyinin geniş tərkibli komissiyası işləyirdi. Bilmək istəyirik, əgər sirr deyilsə, bu nə ilə əlaqədər idi?

- Burada heç bir sirr yoxdur, bu bizim vərdiş elədiyimiz komissiyalardan deyil. Yəni, bu komissiyanı biz özümüz istəmişik. Hələ ki, Azərbaycanın ali təhsil müəssisələri arasında Milli Aviasiya Akademiyası və Odlar Yurdu Universiteti öz maddi-texniki və təlim bazasını yoxlatmaq üçün komissiya xahiş edib.

- Samir müəllim, bəlkə bu xahişin mənasını oxucularımıza izah edəsiniz?

- Xahişimizin mənası ondan ibarətdir ki, müstəqilliyə qovuşandan bəri Azərbaycan ziyalılarının diplomları xarici ölkələrdə tanınmırdı. Bu da bizim mütəxəssislərin xarici ölkələrdə layiqli işlə təminatında böyük əngəllər törədirdi.

İndi Avropa təhsilində Boloniya sistemi deyilən bir qayda-qanun mövcuddur. İtaliyanın Boloniya Universitetinin təşəbbüsünə qoşulan Avropanın nüfuzlu ölkələri diplomların qarşılıqlı tanınması üçün xüsusi bir qurum yaratmış və bu fikirdə olan ali təhsil müəssisələri qarşısında ciddi tələblər qoymuşlar.

Hazırda Azərbaycanda fəaliyyət göstərən iki ali təhsil muəssisəsi, əvvəldə qeyd etdiyim kimi, Milli Aviasiya Akademiyası və Odlar Yurdu Universiteti bu prosesə qoşulmaq niyyəti ilə öz qapılarını Təhsil Nazirliyinin müvafiq komissiyası qarşısında taybatay açmış və akkreditasiyadan uğurla keçmək əzmindədir.

Boloniya təhsil sisteminə qoşulmaq üçün ən vacib şərt, dediyim kimi, ali təhsil müəssisəsinin akkreditasiyadan keçməsidir. Akkreditasiyadan keçən ali məktəb məzununun, əvvəlki dövrlərdəki kimi, xaricdə işləmək üçün daha həmin ölkənin müvafiq qurumlarında təkrar oxumasına, yaxud imtahandan keçirilməsinə ehtiyac qalmır. Yəni, bizim universitet yoxlamadan uğurla keçərsə, onun məzunlarının üzünə xarici ölkələrin bütün nüfuzlu təşkilatlarının, təhsil müəssisələrinin qapıları açıq olacaq.

Tələbələrimizə daha da aydın olsun deyə, istəyirəm bir az da ətraflı danışım. Akkreditasiya təkcə ali məktəblərə aid deyil. Buraya orta rnəktəblər, kolleclər və litseylər də daxildir.

Hazırda ölkələr arasında sərhədlərin yumşaldılması ilə əlaqədar dünyada güclü miqrasiya prosesi gedir. İnsanlar bir ölkədən başqa ölkəyə köçür. Bu zaman bir sıra digər problemlərlə yanaşı, təhsilin başqa ölkədə davam etdirilməsi ilə bağlı da problemlər yaranır. Boloniya sisteminə daxil olan ali, yaxud orta təhsil müəssisəsinin tələbələrinin və ya şagirdlərinin ən böyük üstünlüyü ondadır ki, onlar öz təhsilinin istənilən ilində heç bir

fərq imtahanı vermədən həmin ölkənin təhsil müəssisəsində asanca təhsillərini davam etdirə bilərlər.

- Samir müəllim, bildiyimizə görə, yoxlama prosesi hələ davam edir, yekunlaşmayıb. Komissiyanın tərkibi və yoxlamanın gedişatı barədə nə deyə bilərsiniz?

- Tamamilə doğrudur. Hələ nə bizdə, nə də Milli Aviasiya Akademiyasında komissiya öz işini yekunlaşdırmayıb. Daha doğrusu, yoxlama prosesi bitib, indi əldə olunan sənədlərin, yoxlamanın nəticələrinin araşdırılması və qiymətləndirilməsi prosesi gedir. Komissiyanın tərkibinə gəldikdə isə deməliyəm ki, buradakı üzvlərin hamısı yüksək səviyyəli mütəxəssislərdir və Universitetimizdə mövcud olan bütün ixtisasların, o cümlədən maddi-texniki bazanın, beynəlxalq əlaqələrin, kitabxanamızın, kompüter mərkəzinin, gənclər təşkilatının, təlim-tədrisin səviyyəsinin ciddi yoxlanışı aparılır. Yəni, Boloniya sistemi üçün, müvafiq olaraq bu komissiya üçün yoxlanılan sahənin "çox əhəmiyyətli", yaxud "az əhəmiyyətli" bölgüsü yoxdur. Burada ciddi tələblər və obyektiv qiymət mövcuddur.

- Maraqlı müsahibəyə görə təşəkkür edirik və ümidvarıq ki, ölkədə fəaliyyət göstərən özəl təhsil müəssisələri arasında nüfuzuna və verdiyi təhsitin səviyyəsinə görə öncül yerlərdə gedən Odlar Yurdu Universiteti bu sınaqdan da uğurla çıxaraq dünya təhsil sisteminə inteqrasiya edəcək.

"Odlar Yurdu Universiteti" qəzeti,
21 aprel 2006

Portret cizgiləri

Sizin böyük dostunuz

O insanlar həyatda uğur, nüfuz sahibi olurlar ki, onlar ömür pillələrini aramla, bir-bir qalxırlar. İnsan ömrünün hər pilləsi böyük bir həyat məktəbidir. Növbəti pilləni qalxandan sonra nəfəsini dərib, arxaya boylanaraq ötənləri yaddaşının işığına tutursansa, çox şeyi dərk edib qiymətləndirə bilirsən.

Ən ağıllı dərs özünə keçdiyin dərsdir. Ən faydalı dərs öz hərəkətlərini təhlil edib çıxardığın nəticədir.

Böyük həyat dərsi keçən insanlar dərs verə bilər. Böyük həyatı yaşamaq üçünsə, böyük ürək, böyük səbr və əzmkarlıq gərəkdir.

Əhməd müəllim haqqında çoxdan və çox eşitmişdim. Odlar Yurdu Universitetində jumalistika ixtisasının açılması ilə əlaqədar burada müəllim kimi işə başlayandan sonra mən bu şəxsi yaxından tanımağa başladım. Açığını deyim ki, 3 ildir universitetdə işləməyimə baxmayaraq, hər bir görüşümüzdə Əhməd müəllimdə yeni bir insani keyfiyyətin şahidi oluram. Ancaq çox qəribə də olsa, hələ nə öz qəzetimizdə, nə də digər mətbuat orqanlarında professor Əhməd Vəliyev haqqında bir kəlmə də olsun yazmamışam. Mənə elə gəlir ki, bunun iki səbəbi var: birincisi, bir yerdə işləməyimiz, ikincisi isə onun portretini tam dolğunluğuyla göstərə bilməkdən ehtiyatlanmağım.

Axır ki, bu addımı atmağa məni vadar edən tapıldı: bu, suraxanılıların Əhməd Vəliyevi öz deputatları kimi görmək istəmələri idi.

Halallığı başı üzərində pisliyə qalxan, köksünü haqqa, ədalətə sipər, məhəbbətini Vətənə, Xalqa, onun hər bir övladına məşəl edən və artıq ömrünün 60-cı pilləsinə inamla qalxan Əhməd müəllimə göstərilən bu etimad nə kiminsə tapşırığı, hökmü, nə də kiminsə təbliğatı ilə edilir. Bu, suraxanılıların öz arzusu, öz seçimidir.

Çinlililərin yaxşı bir deyimi var: "Saf niyyətlə gələni mərasimlə, bəd niyyətlə gələni isə cinayət qanunları ilə qarşılamaq lazımdır".

35 ildən artıq bir müddətdə yüzlərlə tələbənin qəlbində, yaddaşında humanist, xeyirxah bir insan, insaflı, ədalətli müəllim kimi özünə yer qazanmış professor Əhməd Vəliyev suraxanılıların seçiminə və arzusuna hörmətlə yanaşmış, onların etimadını doğrultmağa söz vermişdir.

Professor Ə.Vəliyev zəngin pedaqoji fəaliyyətinin və həyat təcrübəsinin növbəti mərhələsi və məntiqi nəticəsi olaraq 1995-ci ildə Odlar Yurdu Universiteti kimi sanballı, nüfuzlu bir təhsil müəssisəsini yaratmışdır.

Ailədə ev sahibinin, dövlətdə ölkə başçısının, təşkilatda idarə müdirinin şəxsiyyəti əsasdır ki, buradakı ab-hava haqqında fikir söyləyəsən.

Bir dəfə Pifaqordan soruşurlar:

"Oğlum olsa, necə tərbiyə edim?"

"Ədalətli ölkədə doğulsa bəsdir", - deyə məşhur filosof cavab verir.

Bu mənada Əhməd müəllimin şəxsiyyəti ilə yaxından tanış olmaq kifayətdir ki, onun rəhbərlik etdiyi Odlar Yurdu Universiteti haqqında nəticə çıxarasan. Yaxud, Odlar Yurdu Universitetindəki təhsilin yüksək səviyyəsi, tələbə-müəllim münasibətinin saflığı, işgüzar mühitin şəffaflığı, maddi-texniki bazanın zənginliyi, universitetin ölkəiçi və beynəlxalq əlaqələri və s. onun rektoru haqqında çox şey deyir.

Professor Əhməd Vəliyev çıxışlarının birində belə bir fikir söyləmişdi: "Mən həmişə tələbələrimə milli-mənəvi və ümumbəşəri dəyərlər aşılamağa çalışmışam".

Bunu ancaq böyük həyat məktəbi keçənlər söyləyə bilər. Doğrudan da, Vətəni sevmədən, xalqınla qürurlanmadan, bəşəriyyət qarşısında məsuliyyətini dərk etmədən seçəcəyin, yaxud nail olduğun sənətlə sən ona necə xidmət göstərə bilərsən? Əlinə ali məktəb diplomu alan hər bir şəxs ilk növbədə valideynlərinin, müəllimlərinin və nəhayət, Ulu Yaradanın ona verdiyi bu fürsət – xalqa xidmət etmək missiyası barədə düşünməlidir. Aqillərimiz demiş: "Dövlətdə ən qiymətli sərvət xalqdır..."

Xalqın qarşısında əyilməyən yüksələ bilməz. Əhməd Vəliyev qanunları şah hesab edən insanlardandır.

Süleyman peyğəmbərin belə bir kəlamı var: "O dövlət qüdrətlidir ki, onun vətəndaşları şaha itaət edir, şahlar isə qanunlara". İstər ölkədə, istər ailədə nizam-intizamın rəhni olan bu mövqe onun rəhbərlik etdiyi Universitetdə də məhz sağlam mənəvi mühitin və nizam-intizamın əsasını təşkil edir. "Özbaşınalığın qarşısını yanğından daha tez almaq lazımdır" (Heraklit).

OdlarYurdu Universiteti hazırda ölkəmizdə fəaliyyət göstərən özəl ali təhsil müəssisələri arasında verdiyi təhsilə və beynəlxalq aləmdə tanınmasına görə ən nüfuzlu universitetlərdəndir. Bircə faktı xatırlatmaq kifayətdir ki, Avropanın Boloniya təhsil sisteminə daxil olmaq niyyəti ilə hərtərəfli yoxlamadan keçmək üçün qapılarını taybatay açan özəl universitetlər içərisində Odlar Yurdu Universiteti hələ ki yeganədir. Yoxlamanın müsbət yekunlaşacağını gözləməyə əsaslar yetərincədir.

Çox təəssüflər olsun ki, özəl təhsil sisteminin üstünlüklərini hələ də bəziləri düzgün dərk etmir. Bu, vətəndaşlar içərisində də var, elə özəl məktəb rəhbərləri arasında da. Bu, sirr deyil ki, paytaxtımızda, eləcə də digər bölgələrimizdə ancaq

maddiyyat prinsipi ilə "fəaliyyət göstərən" nə qədər belə "universitetlər" və filiallar var. Onların adlarına ancaq ildə bir dəfə, qəbul imtahanları vaxtı divar və dirəklərə yapışdırılan elan və reklam vərəqlərində rast gəlirik.

Əhməd müəllim neçə-neçə imkansız tələbəyə himayədarlıq edib, öz hesabına oxudub, xaricdə təhsillərini davam etdirmələri üçün şərait yaradıb, qacqın və məcburi köçkün ailələrinə maddi yardım göstərib, şəhid və müxtəlif səbəblərdən valideynlərini itirmiş ailələrdən olan tələbələri təhsil haqqından azad edib. Ən yüksək elm müdriklikdir, ən yüksək müdriklik isə xeyirxahlıqdır. "Mən iş adamı olsam da pedaqoqam, ruh adamıyam. İnsanın ruhu da bədəni kimidir – bir gün də qidasız yaşaya bilməz." Bu fikirlər də Əhməd müəllimə məxsusdur.

Seçicilərinin etimadına münasibətini öyrənmək istəyimizi Əhməd müəllim belə cavablandırdı:

- Mənim bugünkü real imkanlarım və xalq arasındakı nüfuzum bunu deməyə imkan verir ki, seçicilərim tərəfindən və seçicilərimin xeyrinə mənim tərəfimdən qaldırılan bütün problemlərin həllinə nail olmaqla onların ən yaxın dostuna çevriləcəyəm.

"Qədim hind aforizminə görə, kim hakimlərə qulluq edirsə, xalq ona nifrət edir, kim xalqa qulluq edirsə, hakimlər ona nifrət edir. Hər ikisinə xoş gəlməksə, olduqca çətindir. Bəs siz bu tarazlığı qoruya biləcəksinizmi?" – sualımızın cavabı professorun məntiqində belə səsləndi:

- Ölkədə iqtidar, ya müxalifət, hakimlər, ya xalq üçün ayrı-ayrı qanunlar mövcud ola bilməz. Xalq və dövlət canlı bir orqanizmi təşkil etməlidir. Xalq dövlət, qanun yolunda öz yaşadığı qala uğrunda vuruşduğu kimi vuruşmalıdır.

Hər bir ölkənin prezidenti dövlətin və xalqın qarantıdır. Ancaq Azərbaycanda hələ də prezidentlə xalqı ayrı təsəvvür etməyə və onları üz-üzə qoymağa çalışanlar var. Bu münasibətə mən çox təəssüf edirəm.

Fransızlar hamilə qadını görəndə papaqlarını çıxarıb, qadına baş əyirlər. Fikirləşirlər ki, doğulacaq körpə bəlkə gələcəkdə Fransanın prezidenti olacaq... Bu, xalqın öz dövlətinə, dövlətçiliyinə münasibətinin ən bariz ifadəsidir, Mən bu xalqa ancaq həsəd aparıram.

Beləliklə...

Zaman keçir və... Fəqət zamanmı keçir? Bəlkə o dayanıb, biz keçib gedirik? Ömrümüzün hansısa pilləsində durub arxaya boylanırıq. Hər pilləyə qalxınca onillərlə zaman lazım gəlir. Bəzən bu onillər heç bir günümüzə də dəymir. İllah da kı, əgər bu gün ərzində bircə xeyirxah söz eşitməyəsən, bircə xeyirxah iş görməyəsən, deməli, həmin gün də ömürdən silindi...

Professor Əhməd Abdulkərim oğlu Vəliyevə tale elə bir ömür bəxş edib ki, onun hər anı, hər günü yüzlərlə insanın ömür yolu ilə kəsişir və öz ziyası ilə onların yoluna nur saçır. Ömrün uzun olsun, Əhməd müəllim!

"Sovet Gürcüstanı" qəzeti,
11 iyul 1989-cu il

"Sovet Gürcüstanı"nın ədəbi-publisistik diskussiya klubunun qonağı

Qura bilmirsənsə, qoru!

İnsan o vaxt qalib olur ki, o özünə qalib gələ bilir

Bu məqalənin müəllifi 1954-cü ildə Marneuli rayonunun Baydar kəndində anadan olub, həmin kənddə orta məktəbi başa vurub, sonra Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib. Hazırda Bakıda çıxan "Gənclik" jurnalının məsul katibidir. Sali Süleyman və Rəşid pəhləvan haqqında povestlər kitabları, respublika mətbuatındakı şeirləri, publisistik yazıları ilə üzdədir.

Mənə elə gəlir ki, insanın ömrü boyu qazandığı ən qiymətli İnsanlığın yaşatmağa məhkum olunduğu sərvət varislik hissidir, borc, məsuliyyət hissidir. Çünki "biz gəldi-gedərik, dünya isə yaşamalıdır".

Biz yeni dünyanın uşaqlarıyıq. Ən yaxın babalarımızdan təxminən bir əsrlik mənzildəyik. Onlar da yeni dünyanın uşaqları idilər. Lakin onlar öz dünyalarının qurucuları oldular. Gələcək nəsil üçün (bizim üçün) daha abad dünya qoyub getdilər. Bəs biz? Heç olmasa onların qurduqlarını qoruya bildikmi? Bu divarın üstünə bir daş artıra bildikmi? Yox! Min dəfə yox!!! Biz bu divarın dibini eşdik. Hərəmiz bir daşını oğurladıq. Özümüzə "güzəran" düzəltməyə çalışdıq. Bu daşları 30-cu illərdə də oğurladılar, 40-cı illərdə də, 60-70-ci illərdə də... İndi də

oğurlayırlar. İnsanlığın devizi belə olmalıdır: qura bilmirsənsə - qoru!

Mən "Sovet Gürcüstanı"nın daimi abunəçisiyəm. Doğulub boya-başa çatdığım torpağın adamlarına, onların sosial-mədəni həyatına, iqtisadi inkişafına biganə qala bilmərəm. Bu məlumatları müntəzəm şəkildə qəzet vasitəsilə alıram. Etiraf edim ki, bəzən əməkdaşların ifrat ehtiyatkarlığından bu informasiyalar yanlış da olur. Ancaq müasir güclü informasiya axını fonunda bu "yanlışlıqlar" o dəqiqə aşkar görsənir. Görünür, həqiqətin acılığı hələ də dilimizi yandırır. Qəzet aktual problemlər qaldıra bilir. Ancaq sözün kəsəri zəif olur. Bu da onun kütlələr arasındakı nüfuzuna xələl gətirir.

Məni həmyerlilərimlə bağlı iki məsələ bərk narahat edir. Vaxtilə təhsilə, oxumağa hədsiz maraq var idi. Müəllimin nüfuzu böyük idi. Məktəb ən müqəddəs yerlərdən biri sayılırdı. Ölkəmizin müxtəlif şəhərlərinə, xüsusilə Bakıya ali təhsil dalınca gedənlər, yaxud da bu həvəsdə olanlar çox idi.

İndi də müxtəlif şəhərlərə üz tutanlar çoxdur. İndi gedənlərin sayı daha da artıb. Lakin bu gənclərin əksəriyyəti küskünlərdir. Öz məktəbindən, öz elindən-obasından, öz həyatından, öz torpağından küsənlərdir. Rayon xalq maarif şöbələrində tələbkarlıq, obyektivlik zəifləyib, məktəblərdə təhsil sönükləşib, müəllim nüfuzdan düşüb.

Torpaq fərəh mənbəyi olmalıdır. Torpaqdan əli üzülən kəndli gənc həyatdan əlini üzüb tüpürür (üzr istəyirəm ifadəm üçün) dabanına. Son vaxtlar kəndlərimizdə partiya və təsərrüfat rəhbərləri arasında torpaq alverçiləri peyda olub. Zərrələrinə babalarımızın sümükləri qarışmış torpaq vicdan dəllaları əlində qazanc mənbəyinə çevrilib.

Xalq malına dağıdıcı münasibət güclənib. Əcdadlarımızın məskun olduqları yerlərdəki maddi mədəniyyət abidələri, türbə və

qəbirlər, qalalar, tarixi yerlər və onların adları baxımsızlıq, ziyankarlıq üzündən məhv olmaq, unudulmaq üzrədir.

Xalqı manqurtlaşdırmaq onu məhv etmək deməkdir. Rəhbər vəzifələrə irəli çəkilən milli kadrlar bu məsələlərə biganə qalmamalı, plan dalınca qaçıb hər şeyi ona qurban verməməlidirlər. İctimaiyyətin fəal zümrələrini bu müqəddəs işlərə cəlb etmək lazımdır. Rayonlarımızdakı mədəniyyət şöbələrinin fərasətsizliyinə, fəaliyyətsizliynə son qoyulmalıdır. Buraya xalqın tarixini, etimologiyasını, ənənəsini gözəl bilən mütəxəssislər cəlb olunmalıdır.

Yol məsələsindən danışmağa dəyməz. Bu sahədəki vəziyyətə elə bir uyarlı epitet tapmaqda acizəm. Bəlkə də bu söz yerinə düşər: RƏZALƏT! Kəndimizə gedən yolla qonaq aparmağa xəcalət çəkirəm.

Yeri gəlmişkən, ekoloji məsələlərə də öz münasibətimi bildirim. "Sovet Gürcüstanı"nın Xram çayı barəsində qaldırdığı problem, gec də olsa, lazımlıdır. Bu məsələ 10-15 il bundan əvvəl qaldırılmalı idi. O vaxtlar bu məsələdə bir az inadkarlıqla, tutarlı elmi dəlillərlə, inandırıcı amillərlə sinəsini qabağa verib döyüşə girən olsa idi, indi Xram "fəryad" etməzdi. Məsələnin ikinci tərəfi də var. Qəzet problem qaldırdı, bəs həlli? Bunu kim etməlidir?.. Xalq böyük qüvvədir – xalqı cəlb etmək lazımdır, məsələni MK səviyyəsində qoymaq lazımdır. Çünki bu problem artıq ictimai bəlaya çevrilmək üzrədir. Bu ziyankarlıq 5-10 kəndə yox (hərçənd bir insanın belə həyatına qəsd etmək olmaz), milyonların həyatına vurulan zərbədir. Bu necə olur ki, balıqları zəhərləyənlər cinayət məsuliyyətinə cəlb olunur, amma həmin sudan adamların zəhərlənməsinə görə günahkarlara on-on beş manat cərimə kəsilir?..

Həyatda mənim ünsiyyətdə olduğum, sevincimi-kədərimi, fikirlərimi bölüşdüyüm adamlar çox olub və çoxdur. Atam Həmid,

anam Nazxanım zəhmətkeş adamlardır. Onların məndən yeganə tələbi və xahişi bu olub: oxu, halallıqla yaşa!

⮝ Müəllimlərimi həmişə böyük hörmət və ehtiramla yad edirəm. Qəti qəbul etdiyim və varlığıma hopdurduğum belə bir fikri, görünür, ömrümün sonunadək ruhumda yaşadacağam: müəllimlərim mənim allahlarımdır! İsmayıl Zülfüqarov, Əlləz Əlləzov, Paşa Sultanov, Fərrux İrişov, eləcə də Qönçə, Nənəxanım, Zabikə, Vaqif, Şamil, Məsim müəllimlər mənim həyat yolumu işıqlandıran şam ömürlü müəllimlərim olublar. Şagird ömrü üçün damla-damla əriyiblər. Bu şamların titrək, sarımtıl şölələri hələ də gözlərimdə bərq vurur. Onlara hörmət və ehtiram!

⮝ Mən güclüləri sevirəm. Fiziki cəhətdən normal insanın acizliyi, fərasətsizliyi məndə ona qarşı mərhəmət yox, məzəmmət hissi oyadır. Əgər insan dünyaya gəlibsə, o yaşamalı və yaşatmalıdır. Birincinin fərasətsizliyi ikincinin bədbəxtliyidir. Bacarıqsız insan yoxdur. Sadəcə olaraq, həyatda öz yerini tapmalı və bu sahədə güclü olmağa çalışmalısan. Bu yerin pisi-yaxşısı, istisi-soyuğu yoxdur. O sənin qabiliyyətindən və fərasətindən, əməyə, zəhmətə münasibətindən asılıdır.

⮝ Mən 1978-ci ildən "Yazıçı" və "İşıq" nəşriyyatlarında işləmişəm. Təyin olunduğum işi öyrənib mənimsədikdən sonra məndən yuxarıdakı vəzifəli şəxsin yarıtmazlığı məni sıxıb. Onun görməli olduğu bəzi işləri özüm görməyə cəhd etmişəm. Nə isə...

"Gənclik" jurnalı təşkil ediləndə birinci nömrədən ən fəal iştirakçılardan biri də mən oldum. "İşıq" nəşriyyatında bir direktor kimi özünü doğruldan Məmməd İsmayıl jurnala baş redaktor təyin olunmuşdu. O məni jurnala işə dəvət etdikdə mən də bu arzuda olduğumu bildirdim. Məqsədimiz aydın idi: özünün ədəbi-bədii dəyərinə, poliqrafik icrasına, bədii-texniki tərtibatına görə yaxşı jurnal nəşr etmək. Həm də işə aşağı nöqtədən deyil, yuxarı

nöqtədən başlamaq ki, səviyyəni saxlamaq və o biri jurnalların yolunu tapdalamamaq. Biz məhz belə bir məsuliyyəti boynumuza götürüb işə girişmişik. Elə bilirik zəhmətimiz hədər getməyib, biz düzgün yoldayıq. Bu fikri ölkəmizin müxtəlif yerlərindən aldığımız külli miqdarda məktub da sübut edir.

İndi də keçək özünü və özgəni tənqidə. Mətbuat orqanında forma ilə məzmun vəhdətini yaratmaq həmişə müyəssər olan xoşbəxtlik deyil. Müasir oxucuya məzmunlu mənəvi qida vermək onu estetik baxımdan qane etmək isə mühüm şərtlərdəndir. Açığını deyim ki, qəzet və jurnalların səhifələrində yeknəsəklik, şablonçuluq, bir-birini təkrar etmə, sönüklük hələ də davam edir, təhlillər dayaz olur, sosial və ictimai məsələlər hələ tam kəskinliyi ilə qoyulmur (Bu, "Sovet Gürcüstanı"na da aiddir). 60-cı illərlə 80-ci illərin qəzet, jurnal tərtibatında əsaslı bir fərq görünmür. Bu ondan irəli gəlir ki, oxucuların bütün zümrələri nəzərə alınmır. Əlbəttə, oxucuların heç də hamısı, deyək ki, ciddi material xoşlamır – onların içərisində rok musiqini sevənlər də var, milli, yaxud klassik musiqi azarkeşləri də, cəmiyyətdə heç nəylə barışmayanlar da var, öz tarixi keçmişinin qarışıq səhifələrini öyrənmək istəyənlər də...

Sizin redaksiya heyətinə qibtə edirəm. Şahvələd kimi istedadlı fotomüxbiriniz var! Belə bir sənətkara jurnalımız böyük ehtiyac hiss edir. Təsadüfi deyildir ki, bircə yaşı tamam olmuş jurnalımızın 1988-ci il fotomüsabiqəsinin ilk iki qalibindən biri Şahvələd oldu. Fürsətdən istifadə edib onu bu münasibətlə təbrik edirəm.

⮝ Son vaxtlar dil məsələsi milli respublikalarda daha kəskin şəkildə qoyulur. Mənim fikrimcə, öz milli respublikasında yaşamayan hər kəs yerli xalqın dilini bilməyə borcludur. Ancaq onu bu dildə danışmağa heç kim məcbur edə bilməz. Çünki çoxmillətli ölkəmizdə bütün xalqların bir-biri ilə yeganə ünsiyyət vasitəsi var ki, o da rus dilidir. Deməli, biz rus dilini də bilməyə borcluyuq. Hər bir ziyalı isə, heç olmasa bir xarici dil də

bilməlidir. Hamısından əvvəl isə, öz ana dilini mükəmməl bilməlisən. Unutmaq olmaz ki, vətəndaşlığı, vətənpərvərliyi şərtləndirən amillərdən ən başlıcası dil olsa da, ancaq hər halda təkcə dil deyildir. "Sən bu dili bilmirsən, demək, bu vətənin övladı deyilsən" hökmü yanlış və zərərli fikirdir.

⮝ Dünyamızın bircə dayaq nöqtəsi, ağırlıq mərkəzi var ki, bəşəriyyəti yaşadır – bu, məhəbbətdir! Dünya məhəbbət üzərində qurulub, məhəbbət üzərində də fırlanır. Məhəbbəti ürəklərdə yaşadın. O olan yerdə qara fikirlər məhv olur. Ürəyiniz məhəbbətli, gözünüz işıqlı olsun, insanlar!

Şərif Kərimov

"Sovet Gürcüstanı" qəzeti,
20 fevral 1990-cı il

Yardim göndərilir

Gürcüstan SSR-in Marneuli rayonunun zəhmətkeşləri Bakı faciəsində şəhid olanların və yaralananların ailələrinə kömək üçün 250 tondan çox ərzaq və kənd təsərrüfatı məhsulları, o cümlədən, 35 ton qənd, 60 ton un, 5 ton ət, 80 ton kartof, 5 min ədəd "Borjomi" mineral suyu, 3 ton düyü, 5 mon makaron, 40 min ədəd yumurta, 30 ton duz, 1 maşın kibrit və 100 min manat pul göndərmişlər. Kənd camaatı öz şəxsi evlərindən 5 min şərti banka müxtəlif meyvə şirələri və mürəbbə toplayıb yaralılara göndərmişdir.

Şəkillərdə: (şəkillər ayrıca verilmişdir)

Marneuli rayonunun nümayəndələri şəhidlərin qəbri önündə

Marneulidən gələn yük karvanı

Yazıçı, "Azərbaycan" qəzetinin redaktoru Sabir Rüstəmxanlı və qəzetin məsul katibi Şərif Kərimov Marneulidən gələn Seyid Əli Əsgərov və Mirhüseyn Əsədovla söhbət edərkən,

A.Hadızadə,
E.Şahvələd (foto)

"Sovet Gürcüstanı" qəzeti,
20 fevral 1990-cı il

Rəşid Pəhləvan

Oktyabrın 27-də Marneuli rayonunun Alget kəndində (Meçidli Gorarxı) saat 13-də Rəşid pəhləvanın xatirə günü keçiriləcəkdir.

Əfsanəyə bənzəyən həqiqətdən
Şirin-şirin, rəvan-rəvan
Yaddaşıma süzülən
Azman bir pəhləvan idi
Rəşid pəhləvan...

Son dəfə Borçalıya gələndə
Onun zirvə ucalığını gördük,
Koroğlu qocalığını gördük.
Meydanda yenə nər oğlu nərdi,
Coşanda dəmir gəmirərdi.
Sənətinin zirvəsində
Boks atası Məmmədəlinin,
Futbol kralı Pelenin
Böyük qardaşı idi Rəşid pəhləvan.

Şöhrətinə tərəf uzanan yollarda
Məlum-müşkül dayanmışdı
Suyu qurumuş köhnə, uçuq dəyirman.
Bir zaman azman gücü ilə,
İradəsi, inadı, öcü ilə
Dünyanı titrədən Rəşid
Bakıda unudulmuş məzarının
Başdaşına söykənib keçmişinə baxır.
O yollarda nəyin qaldı, Borçalı balası?
Keçənə güzəşt deyəllər,
Keçən keçdi, irəli bax,
Borçalıda heykəlini qoyacağıq
Əvvəl-axır!..

Ə.Binnətoğlu

E t i r a f...

Hələ orta məktəbdə oxuyarkən jurnalist olmaq arzumu bilib, valideynlərim məni Bakıya dayımgilə göndərdilər. Azərbaycan dili və ədəbiyyatı müəllimi işləyən və zəngin pedaqoji iş təcrübəsinə, geniş dünyagörüşünə malik olan dayım Osman Mədətov II Dünya müharibəsinin qanlı-qadalı illərinə sinə gərmiş müharibə və əmək veteranı idi. O, S.Vurğunla da tanış olmuş və hətta böyük şairin təsiri altında yazdığı bir neçə poemasına şairin öz əlilə etdiyi qeydləri ən əziz bir xatirə kimi saxlayırdı.

Məktəbdə əlaçı oxumağıma baxmayaraq, dayım məni "imtahan" eləyib bildirdi ki, mən bu biliklə heç yerə qəbul oluna bilməyəcəyəm. Möhkəm bir şapalaq yemiş kimi xəcalətimdən az qala yerə girmək istəyirdim. Çünki bu sözü mənə bu vaxtacan hələ heç bir müəllimim deməmişdi, hamısı məni ancaq tərifləyirdi.

Üstəlik, Universitetin qəbul komissiyasında da qanımızı lap qaraltdılar: yeni qaydalara görə, mətbuatda ən azı 7 yazısı dərc olunmamış şəxsin sənədlərini jurnalistika fakültəsinə götürmürdülər...

Deməli, mən qəbul vaxtına qalan 2-3 ay ərzində həm dayımın tələblərinə uyğun olaraq ciddi hazırlaşmalı, həm də məqalələr yazıb qəzetdə 7 yazı dərc etdirməli idim!

Rüşvətin, tapşırmaların dövlət səviyyəsində tüğyan elədiyi bir dövrdə, təsəvvür edin ki, mən bu maneələri adladım... Qəzetdə 10-a qədər yazım dərc olundu, qəbul imtahanlarından isə üç 4, bir 5 aldım... və Azərbaycan Dövlət Universitetinin tələbəsi oldum! Bu, həyatda mənim ilk qələbəm idi. Allah valideynlərimə, Osman dayıma və dünyasını dəyişən bütün müəllimlərimə rəhmət eləsin!

Yəqin ki, istəkli oxucularım ilk qələm təcrübəm olan bu yeddi yazıdakı nöqsanlarımı çox da üzümə vurmazlar...

"Axali Marneuli",
18 may 1972-ci il

Yubileyə həsr edilmişdir

Lenin adına pioner təşkilatının yaranmasının yarım əsrlik yubileyi ilə əlaqədar olaraq məktəbimizdə pioner toplanışı olmuşdur.

Toplanışı giriş sözü ilə məktəbin direktoru Paşa Sultanov açmışdır. Pioner baş dəstə rəhbəri Badisəba Zülfüqarova pionerin 50 illik tarixi haqqında məruzə etmişdir. Toplanışda qabaqcıl oktyabryatlar pionerə qəbul edilmiş, dərs əlaçısı və nizam-intizamlı pionerlərə hədiyyələr verilmişdir. Oktyabryatlardan Əkrəm Çobanov, Vəkil Məmmədov, Gülnarə Novruzova və başqaları Leninin vəsiyyətinə sadiq qalacaqlarına and içərək, boyunlarına ilk dəfə pioner qalstuku bağlamışlar.

Toplanışda pioner və müharibə veteranlarından Səməd Şərəfov, Əhməd Çobanov, Nadir Zülfüqarov iştirak etmişlər.

Sinəsi orden və medallarla dolu olan Böyük Vətən müharibəsinin veteranı Səməd dayı stol arxasında görünən kimi alqış sədaları göyə ucaldı. Sabiq döyüşçü vətən müharibəsindəki xatirələrindən epizodlar danışdı. O, Taqanroq yaxınlığında, Ukrayna torpağında, Qafqaz ərazisində, Stalinqrad müdafiəsində gedən döyüş səhnələrini bir-bir yada saldıqca hadisələr kino lenti kimi göz önündə canlanırdı. S.Şərəfov pioner təşkilatının yarım əsrlik yubileyi münasibəti ilə pionerləri və məktəbliləri təbrik etdi və onlara həyatda əmin-amanlıq arzuladı.

Sonra məktəbin direktoru P.Sultanov pionerlər və məktəblilər adından müharibə veteranına öz minnətdarlığını bildirdi.

Şərif Kərimov,
Baydar orta məktəbinin X sinif şagirdi

"Axali Marneuli",
30 may 1972-ci il

Son zəng

Mayın 25-də X sinif şagirdlərinin dərslərinin başa çatması ilə əlaqədar olaraq, Baydar orta məktəbində müəllim və şagird kollektivinin təntənəli yığıncağı keçirilmişdir. Yığıncağı məktəbin direktoru P.Sultanov açmış və məktəbin X sinif şagirdlərinə gələcək imtahanlarda müvəffəq qiymətlər almalarını arzulamışdır. Məktəbin komsomol və pioner təşkilatlarının təşəbbüsü ilə keçirilən yığıncaqda pionerlərdən Firuzə Çalqızova öz yoldaşları adından onuncu sinif şagirdlərini imtahana buraxılmaları münasibəti ilə təbrik etmiş və yaxşı qiymətlər almalarını arzulamışdır. Həmin gün X sinif şagirdləri üçün son vida zəngi çalınmışdır.

X sinif şagirdləri son zəngi daha həyəcanla dinləyirdilər. Elə bil ki, bu son məktəb zəngi onların gələcək təhsil yollarında uğurlu addımlar atmalarını arzulayır, onları xoş gələcəyə səsləyirdi.

Şərif Kərimov,
Baydar orta məktəbinin X sinif şagirdi.

"Axali Marneuli",
02 iyun 1972-ci il

Əmək şöhrət gətirir

Bütün sovet adamları kimi, Muğanlı ixtisaslaşdırılmış sovxozu əməkçilərinin əsas məqsədi də maddi nemətlər bolluğunun yaradılmasında fəal iştirak etməkdən ibarətdir. Sovxozda müxtəlif növlü kənd təsərrüfatı bitkiləri əkmək planlaşdırılmışdır. Təkcə B.Muğanlı şöbəsində becərilən sahələrdən 4518 sentner taxıl, 1100 sentner tütün, 1000 sentner qarğıdalı götürmək, sovxoz üzrə isə 6500 sentner yonca unu istehsal etmək nəzərdə tutulmuşdur. Artıq, tütün və qarğıdalı sahələrinə üç dəfə kultivasiya çəkilmiş, yoncalıqlarda ikinci biçinə başlanılmış, saralan sünbüllərin yığımına ciddi hazırlıq işi aparılmışdır. Taxıl anbarları yenidən təmir olunmuş, traktorlar və kombaynlar sazlanıb biçin "start"ına çıxmışdır.

Şöbənin qabaqcıl briqadiri, kommunist **Tapdıq Qasımov** deyir:

- Yüksək məhsul götürməyin sirri hər şeydən əvvəl torpağa yaxşı qulluq etməkdən ibarətdir. Torpaq deyir: "Öldür məni, dirildim səni". Bunun əhəmiyyətini dərindən başa düşən briqada üzvləri torpağa yaxşı qulluq edirlər. Onlardan Əli Səttarovu, Sitarə Quliyevanı, Nuşu İbrahim qızını və başqalarını göstərmək olar.

Doğrudan da yaxşı iş, gərgin əmək müvəffəqiyyəti təmin edir. Şöbənin əməkçiləri cari təsərrüfat ilində aqrotexniki qaydada becərdikləri məhsulu keyfiyyətlə və itkisiz yığmaq üçün sosializm yarışına qoşulmuşlar.

- Məlum olduğu kimi, partiyamızın XXIV qurultayı kənd təsərrüfatının bütün sahələrində texnikanın tətbiqinə diqqətin artırılmasını bir vəzifə kimi qarşıya qoymuşdur, - deyə şöbə müdiri Gülməmməd Gülməmmədov sözə başlayır: - Ona görə də

sahələr payız aylarından dondurma şumu edilir. Torpağa üzvi və mineral gübrələr verilir. Yazda əkinqabağı sahələr texnikanın gücü ilə təkrar şumlanır. Bu işin mütəşəkkil keçirilməsində mexanizatorlardan Ramazan Qarayev, Həsən Abbasov, Niftalxan Piriyev, Şahbaz Binnətov xüsusilə fərqlənmişlər.

Beşilliyin ikinci ilində SSRİ-nin təşkil edilməsinin 50 illiyi şərəfinə bol məhsul götürmək kənd əməkçilərinin şüarına çevrilmişdir.

Şərif Kərimov

"Axali Marneuli",
06 iyun 1972-ci il

Əməksevər mexanizator

Əməyin bəhrəsini duyanlar onun yüksək zirvələrinə qalxaraq həyata vüqarla baxırlar. Sovet adamları üçün əmək şərəfli işdir, onların həyatının başlıca məzmunudur. Məhz, Muğanlı ixtisaslaşdırılmış sovxozunda da həyata belə vüqarla baxan əməksevər adamlar çoxdur. Sovxozda belə adamlardan söhbət düşəndə təcrübəli mexanizator **Süleyman Çobanovdan** hamı iftixarla danışır.

Hələ gənc yaşlarından S.Çobanov dəmir "at"ların sükanı arxasında əyləşməyi arzu edərdi. Ona görə də orta məktəbi bitirdikdən sonra bu arzu onu əmək cəbhəsinə gətirib çıxararaq mexanizator peşəsinə yiyələndirmişdir.

Hazırda S.Çobanov sovxozun Kürtlər şöbəsinin traktor briqadasında çalışır. Briqadaya təcrübəli mexanizator Oruc Mehdiyev rəhbərlik edir. Briqadada S.Çobanovla yanaşı, qabaqcıl mexanizatorlardan Musa Bələgözöv, İdris Səfərov, Zahid Orucov və başqaları gündəlik normanı artıqlaması ilə yerinə yetirirlər. Onlar tütün, qarğıdalı və s. kənd təsərrüfatı bitkilərinin aqrotexniki qaydada becərilməsi üçün əllərindən gələni edirlər.

Briqada üzvlərindən söhbət düşəndə briqadir O.Mehdiyev S.Çobanov haqqında daha fərəhlə danışdı. O dedi ki, cari ildə şöbənin 60 hektar tütün və 40 hektar qarğıdalı sahəsinin aqrotexniki qaydada şumlanıb becərilməsində S.Çobanovun əməyi daha çox olmuşdur.

Hazırda S.Çobanov gündə planda nəzərdə tutulmuş 10 hektar əvəzinə 13-14 hektar sahəyə kultivasiya çəkir.

S.Çobanov Sov.İKP XXIV qurultayının qərarlarını əldə rəhbər tutaraq bir kommunist kimi əməkdə və ictimai işlərdə həmişə fərqlənir.

Şərif Kərimov,
ştatdankənar müxbirimiz

"Axali Marneuli",
17 iyun 1972-ci il

Yaxşı başlanğıc

Muğanlı ixtisaslaşdırılmış sovxozunun tarlalarında qızğın iş gedir. Sovxozun taxıl zəmilərində bu günlərdə məhsul yığımına başlanacaqdır. Bu münasibətlə ciddi hazırlıq işləri görülür. Məhsulu vaxtında itkisiz toplayıb dövlətə təhvil vermək üçün artıq 15 ədəd kombayn təmir edilib hazır vəziyyətdə dayandırılmışdır. Sovxozun başqa şöbələrində olduğu kimi, Baydar şöbəsində də işlər fərəhləndiricidir. Şöbənin işi ilə yaxından tanış olmaq üçün bu günlərdə fəhlələr işlədiyi sahəyə getdim. Şöbə müdiri **Ə.Çobanov** yoldaş da burada idi. Söhbət əsnasında o, şöbənin işi haqqında ətraflı məlumat verdi:

- Bu il şöbəmiz 49 hektar sahədə arpa, 110 hektar sahədə isə buğda əkmişdir. Həmin sahələrə aqrotexniki qaydalar əsasında qulluq edildiyinə görə bol məhsul yetişdirilmişdir. Arpa biçininə iyunun 20-də, taxıl biçininə isə iyulun 1-də başlamağı nəzərdə tutmuşuq.

Məlumdur ki, sovxozumuz yonca unu istehsalı sahəsi üzrə ixtisaslaşdırılmışdır. Şöbəmizin öhdəsində olan 280 hektar yonca sahəsinin 250 hektarı birinci biçindən qurtarmışdır. Yonca biçinində və yaşıl kütlənin daşınmasında mexanizatorlardan Əli Baxşıyev, Alı Muxayev, Məhəmməd İrişov və başqaları daha fəal çalışırlar.

Şöbədə tütünçülük sahəsi üzrə də işlər pis getmir. Şöbə üzrə 65 hektar tütün sahəsinə şitil basdırılması başa çatdırılmışdır. Sahələrə tütün şitillərinin köçürülməsində fəhlələrdən Qüdrət Hüseynova, Nazxanım Mədətova, Minayə Əliyeva, Cəvahir Keçəlova daha çox fərqlənmişlər. Onu da qeyd etməliyəm ki, işimizin irəli getməsinə pensiyaçılar da böyük yardım edirlər.

Pensiyaçılardan Vəzduha Novruz qızı və Mürəstə Qərib qızı daha yaxşı çalışırlar. Onların bu əməksevərliyi başqa fəhlələrin yaxşı işləmələrinə müsbət təsir göstərir.

SSRİ-nin təşkil edilməsinin 50 illik yubileyini ləyaqətlə qarşılamaq üçün indi briqadalar arasında sosializm yarışı getdikcə sürətlənir. Vahid İmaməliyevin rəhbərlik etdiyi 11 nömrəli, Məhəmməd Çobanovun rəhbərlik etdiyi 12 nömrəli briqadaların işi təqdirəlayiqdir. Həmin briqadalar bu günlərdə tütün dəriminə başlayacaqlar.

Sov.İKP XXIV qurultayının qərarlarını əldə rəhbər tutaraq şöbə əməkçiləri doqquzuncu beşilliyin ikinci ilinin planlarını artıqlaması ilə yerinə yetirəcəklərinə söz vermişlər. Onlar başa düşürlər ki, rifah və sevinc mənbəyi olan əmək cəmiyyətimizin hər bir üzvünün həyati tələbatıdır. Hər kəs cəmiyyət qarşısında öz borcunu yerinə yetirməlidir.

Şərif Kərimov,
ştatdankənar müxbirimiz

"Axali Marneuli",
06 iyul 1972-ci il

Mənim ilk müəllimim

Hər bir sənət və peşə sahibi – fəhlə, mühəndis, həkim, aqronom, hərbi qulluqçu və başqaları öz iş sahəsində lazımi vəzifə icra etməklə cəmiyyətin həyat və inkişafına müəyyən xidmət göstərir. Xüsusən bizim cəmiyyətimizdə hər bir peşə şərəflidir. Lakin bütün bunlarla birlikdə bu peşələr içərisində müəllimlik özünə görə xüsusi yer tutur.

Sovet müəllimləri gənc nəslin təlim və tərbiyəsi sahəsində çox çətin, lakin şərəfli əməyi ilə xalqımızın dərin hörmrətini qazanmışdır.

Məktəbə ilk dəfə gələn uşaq üçün müəllimdən böyük, ondan hörmətli sima olmur. Müəllimin dedikləri onun üçün qanun olur. Bu fikir kiçik məktəblidə böyük inama çevrilir. Məhz, mənim məktəb həyatımda ilk tərbiyəçim olan **İsmayıl Zülfüqarov** sovet müəlliminin gözəl xüsusiyyətlərini özündə cəmləşdirən bir insandır. İsmayıl müəllim uzun müddətdir ki, Baydar orta məktəbində ibtidai sinif müəllimi işləyir. O, 60 illik ömrünün 32 ilini bu şərəfli, həm də məsul peşədə keçirmişdir.

İsmayıl müəllim işlədiyi müddət ərzində üzv olduğu pedaqoji kollektivin və bütün şagirdlərin hörmətini qazanmışdır. Əlbəttə, bu da səbəbsiz deyildir. Hazırda onunla birgə çalışan gənc müəllimlərin əksəriyyəti vaxtı ilə İsmayıl müəllimin şagirdi olmuşdur. Gözlərini dünyaya açmaqda, əllərinə qələm verib, onları bilik xəzinəsinə qovuşdurmaqda İsmayıl müəllimin əməyi az olmamışdır.

Hər il məktəb həyatına yeni uşaqlar, yeni simalar gəlir. Bununla da ibtidai sinif müəllimi üçün yeni çətinliklər yaranır. Buna baxmayaraq, uşaqların qəlbinə girməyi bacaran İsmayıl müəllim bütün təlim-tərbiyə üsullarından bacarıqla istifadə edərək

onlarda əxlaqi sifətlərin, davranış qaydalarının təşəkkül tapmasında çox böyük rol oynayır.

Hazırda İsmayıl müəllim gələcək birinci sinif şagirdləri ilə məşğul olur, onlara məktəb davranış qaydalarını aşılamağa çalışır. Ümumxalq qayğısı ilə əhatə edilmiş sovet müəllimləri kommunizm qurucularının ön sıralarında gedən fəal bir qüvvədir. İsmayıl müəllim gözəl tərbiyəçi olmaqla yanaşı, kommunist əxlaqının nəcib keyfiyyətlərinə, marksizm-leninizm dünyagörüşünə malik olan bacarıqlı bir ictimaiyyətçidir. Kommunist Partiyası və Sovet hökumətinin qərar və qətnamələrindən yaxşı xəbərdar, Kommunist Partiyasının fəal üzvü olan İsmayıl müəllim ictimai işlərdə həmişə fərqlənir. Hazırda o, məktəb ilk partiya təşkilatının katibidir. Öz şərəfli əməyi ilə ruhlarda nəcib hisslər cücərdən İsmayıl müəllim Sov.İKP XXIV qurultayının məktəb qarşısında qoyduğu mühüm vəzifələri ləyaqətlə yerinə yetirir.

Şərif Kərimov,
ştatdankənar müxbirimiz

"Axali Marneuli",
11 iyul 1972-ci il

Traktorçu müğənni

Okiçik yaşlarından həmişə deyərdi: "Ata, mən traktorçu olacağam". Atası isə oğlunun bu sözünü bir uşaq şıltaqlığı, uşaq həvəsi adlandırıb gülümsəyər və deyərdi: "Bala, sən traktorçu yox, oxuyub müəllim olacaqsan".

Bəli, ata öz oğlunu ali təhsilli bir şəxs görmək istəyirdi. Çünki o da oxumaq tərəfdarı idi.

Fəqət, ata öz oğlunun gələcəyini görə bilmədi. Balaca Məhəmməd babasının himayəsi altında böyüyüb, orta məktəbi bitirdi. O, ali təhsil almağı yox, birbaşa istehsalata qədəm qoymağı qərara aldı. Lakin babası nəvəsinin bu fikri ilə razı deyildi. O da "xalqın uşaqları" kimi, nəvəsini əlində kitab-dəftər, "üst-başı təmiz" bir müəllim və ya qulluqçu görmək istəyirdi. Lakin Məhəmməd isə hey deyirdi: "Yox, baba, mən traktorçu olacağam. Axı, hər oxuyan Molla Pənah olmaz ki?! Hərə bir sənət sahibidir – kimi mühəndis, kimi müəllim, kimi həkim... kimi də traktorçu". Baba nəvəsini dilə tutmaq istəyirdi: "Bala, başına dönüm, sənin gözəl qabiliyyətin, gözəl səsin var. Heyfim gəlir ki, sənin kimi istedadlı bir oğlan ömrünün axırına qədər "mazutun içərisində çürüsün". Ancaq Məhəmməd yenə inad edirdi: "Yox baba, hər bir şəxsin sevdiyi peşə öz sahibinə şirindir".

Baba nəvəsinin inadkarlığını görüb, nəticədə onu qılıqlamışdı. "Oğlum, sən bu inadkarlığınla bir məni yox, həm də öz mərhum atanın ruhunu incidirsən. Axı, o da sənin oxumağını istəyirdi..." Bu sözlər gənc Məhəmmədə bərk təsir etmişdi. Nəhayət, o, babasının təklifinə razı olmuşdu. Bir neçə aydan sonra ali təhsil almaq üçün Bakıya yola düşən Məhəmməd

M.F.Axundov adına Xarici Dillər İnstitutuna qəbul olunub, oxumağa başladı.

İlk gündən o, özünü bacarıqlı bir tələbə kimi göstərdi. İnstitutun özfəaliyyət kollektivində iştirak etməyə başladı. Məlahətli səsə malik olan M.İrişov radio ilə dinləyicilər qarşısında çıxış etdi. Xarici dildə danışmağa isə dili daha tez uyğunlaşdı. Bütün bunları eşitdikcə babanın qəlbi kövrəlir, fərəhlənirdi. Lakin yay tətillərində evə gələn Məhəmməd yenə sakit kənd həyatını, fəhlələrin tarlada necə həvəslə işləmələrini, xüsusən "dəmir atların" torpağın "bağrını yardığını" görərək, yenə kənddə qalıb işləməyi qət etdi. O da qurub-yaratmaq, alın təri ilə yaşamaq istəyirdi. Bir gün babasına qəti olaraq bildirdi: "Bir daha mən Bakıya qayıtmayacağam!". Baba hər şeyi əvvəldən sezmişdi. Əlacsız qalıb heç nə demədi. O gündən Məhəmməd "dəmir atların" sükanı arxasında əyləşdi. Hər səhər onun "atı" bərkdən "kişnəyir", boz çöllərə, yaşıl tarlalara yola düşür. Axşamlar isə "atın" səsi kəsildikdən sonra məlahətli bir səs eşidilir. Gözəl muğam səsi kənd camaatını bir an ayaq saxlayıb onu dinləməyə vadar edir. Bu səsdə öz taleyindən razı qalmış, tam arzusuna çatmış bir insanın ürək çırpıntıları səslənir. Bu səs öz arzusunu, öz məqsədini, öz peşəsini bütün sənətlərdən üstün tutan, ona dərin hörmət bəsləyən 27 yaşlı Məhəmməd İrişovun səsidir.

Bəli, hərənin öz arzusu, öz məqsədi var. Hər adamın özünəməxsus həyat yolu var. El-oba içərisində, camaat arasında bəlkə də bəziləri bu gəncin düzgün hərəkət etmədiyini, "böyüyün sözünə baxmadığını", yaxud oxumağa qadir olmadığını söylədilər, ancaq mənə elə gəlir ki, insan öz əməyinin pərəstişkarı olmalıdır.

Hər bir namuslu adam üçün, sadiq bir vətəndaş üçün yalnız bir şey aydındır: kim olursan ol, vətəninə xidmət et. Həqiqətən də Məhəmməd öz məqsədinin nəcibliyini doğrultdu. O, indi "Belorus" markalı maşını ilə qabaqcıllar sırasında gedir.

Şərif Kərimov,
ştatdankənar müxbirimiz

"Axali Marneuli",
28 iyul 1972-ci il

Həmişə birinci

Onun bir amalı var: mənasız yox, zəhmətlə yaşamaq! O hər dəfə öz ictimai borcunu ləyaqətlə yerinə yetirdikdən sonra özündə qeyri-adi bir qüvvə hiss edir, fərəhlənir. Bütün hər şey – təbiət, insanlar ona gözəl görünür. Bundan sonra onun sifətində gümrahlıq, alicənablıq sezilir. Onun öz işindən bu qədər razı qalmasının səbəbi əməyə şüurlu münasibət bəsləməsindədir; işinə vurğun olmasında, işinin dərin mənasını başa düşməkdə onun ictimai əhəmiyyətini anlamasındadır.

Haqqında danışdığım əmək adamı Muğanlı ixtisaslaşdırılmış sovxozunun Baydar şöbəsində yonca üyüdən aqreqatın maşinisti **Həmzə Qurbanovdur**.

H.Qurbanovun idarə etdiyi 7 nömrəli aqreqat hər il yonca unu istehsalı planını artıqlaması ilə yerinə yetirir. Həmin aqreqatın əməkçiləri keçən il dövlətə 450 ton əvəzinə 562 ton yonca unu təhvil vermişlər. Bu müvəffəqiyyətin əldə edilməsində H.Qurbanovla birlikdə mexanizartorlardan biçinçi Qoca Muxayevin, yaşıl kütlə daşıyan İbrahim Sultanovun və fəhlələrdən Abdulla Qarayevin, Ələddin Keçəlovun, Qiyas Hümmətovun yüksək əməyi olmuşdur. Bu il 7 nömrəli aqreqatda işləyən əməkçilər plana görə 380 ton yonca unu istehsal etməlidirlər. İndiyədək 120 ton yonca unu istehsal edilmişdir. Bu işdə aqreqat rəisi Həsən Qasımov və aqreqat mexaniki İsa Nəsibovun da böyük əməyi olmuşdur. Çünki hər bir müvəffəqiyyət birinci növbədə yaxşı rəhbərlikdən asılıdır.

SSRİ-nin yaradılmasının 50 illik yubileyini ləyaqətlə qarşılamaq üçün Həmzə Qurbanovun idarə etdiyi aqreqatın işçiləri dövlətə 450 ton yonca unu təhvil verməyi öhdələrinə götürmüşlər. Onlar əməkdə hünər və rəşadət göstərməklə sovet adamına xas olan çox qiymətli mənəvi keyfiyyətlər qazanırlar.

Şərif Kərimov,
ştatdankənar müxbirimiz

"Axali Marneuli",
03 yanvar 1978-ci il

Komsomol avanqard olmalıdır

Qamarcveba sovxozunun komsomolçu gəncləri keçən ili uğurla yola salmışlar. Bu barədə sovxoz komsomol təşkilatının katibi **A.Alıyev** deyir:

- Təşkilatın 96 nəfər üzvü vardır. Gənclər təsərrüfatda həlledici qüvvədir. Sovxozda elə bir sahə yoxdur ki, onlar öz işləri ilə komsomolçu adını doğrultmasınlar. Zəkiyyə Çobanova, Musa İvişov, Ramil Heydərov keçən il üzüm yığımı mövsümündə əsl hünər göstərmişlər. Gənclərin bu işgüzarlığı əvəzsiz qalmamışdır. Sovxoz kollektivi Zəkiyyə Çobanovanı kənd sovetinə deputat seçmişlər. Gənc mexanizatorlardan Mahmud Keçəlov, Ömər Piriyev komsomol təşkilatı və sovxoz rəhbərliyi tərəfindən mükafat almışdır.

Əlbəttə, hər bir komsomolçunun təsərrüfatda nailiyyət qazanması fərəhli haldır. Lakin komsomol təşkilatının fəaliyyətini bununla məhdudlaşdırmaq olmaz.

Sovxozda komsomolçu gənclərin mədəni istirahətinə fikir verilmir. Sovxozda bir dəfə də olsun mədəni-kütləvi tədbirlər keçirilmir. Burada idman bazası yox dərəcəsindədir.

Təsərrüfatda işin irəli getməsi üçün maddi maraqla yanaşı, mənəvi maraq da mühüm şərtdir. Lakin bu işlə nə sovxoz partiya, nə də komsomol təşkilatları maraqlanırlar. "Şərəf lövhəsi"ndə qabaqcılların şəkli yoxdur. Komsomol projektoru fəaliyyət göstərmir. Komsomol təşkilatının protokolunda isə "KP"-nin sədri, üzvlərinin ad-familiyası gözəl xətlə yazılmışdır.

Divar qəzetinin müntəzəm çıxmasına komsomol təşkilatı zəif rəhbərlik edir.

Artıq hər yerdə yeni ilin ilk qədəmləri duyulur. Yəqin ki, yeni ildə komsomol təşkilatının işində də yeniliklər olacaqdır.

Şərif Kərimov

"Respublika",
30 sentyabr 1994-cü il

Çin Xalq Respublikası

Sabah ÇXR-in yaranmasının 45-ci ildönümü tamam olur

Pekinin ən böyük meydanlarından olan Tyananmen meydanında 1949-cu il oktyabrın 1-də 300 min nəfər şəhər sakininin qarşısında Mao Tsze-dun təntənəli şəkildə Çin Xalq Respublikasının (ÇXR) yaradılmasını elan etdi. O vaxtdan 45 il keçir. Bu müddət ərzində çoxmillətli Çin dövlətinin tarixində böyük siyasi və iqtisadi dönüşlər baş vermişdir. ÇXR beynəlxalq aləmdə nüfuzlu bir dövlət kimi tanınmış, BMT-nin və TŞ-nin üzvü seçilmiş, güclü iqtisadi potensiala malik ölkə kimi dünyanın əksər ölkələrinin iş adamlarını cəlb etmişdir.

Çin Xalq Respublikasının yaradılması uğrunda Çin xalqı uzun müddət xarici və daxili dümənlərə qarşı qanlı müharibələr aparmalı olmuşdur. Nəhayət, 1911-ci ildə Sun Yatsenin rəhbərliyi ilə başlanan Sinxay burjua-demokratik inqilabı Çində iki min illik tarixi olan feodal dinastiyasına son qoydu. Burjua-demokratik inqilabından sonra siyasi səhnəyə çıxan Çin proletariatı azadlıq uğrunda mübarizəyə qoşularaq 1921-ci ildə Şanxayda kommunist özəklərinin Birinci Ümumçin qurultayının keçirilməsində fəal iştirak etdi. Mao Tsze-dunun iştirakı ilə keçirilən bu qurultayda Çin Kommunist Partiyasının (ÇKP) yaradıldığı elan olundu.

1921-ci ildən etibarən ÇKP xalqın azadlıq uğrundakı mübarizəsinə rəhbərliyi öz əlinə aldı. 1924-1927-ci illərdəki Şimal yürüşü, 1927-1937-ci illərdəki İnqilabi aqrar müharibə, 1937-1945-ci illərdəki yapon işğalçılarına qarşı müharibə və 1945-1947-ci illərin Azadlıq müharibəsi Çinin bir dövlət kimi təşəkkül

tapmasında və ölkənin birləşdirilməsində mühüm rol oynadı. Lakin Homindan dövlətinin devrilməsi ilə Çan Kayşinin Tayvana qaçması ölkənin birləşdirilməsinin tam başa çatmasına mane oldu.

Çinin daimi torpağı olan Tayvanın vətənə birləşdirilməsi yolunda Çin rəhbərləri bütün siyasi vasitələrdən istifadə etmişlər. Son vaxtlar ölkə rəhbərliyi tərəfindən irəli sürülən "bir dövlət, iki quruluş" ideyası bu yolda atılan növbəti addımdır. Məlum olduğu kimi ÇXR və Tayvanda müxtəlif siyasi quruluşlar mövcuddur. Çin ideoloqlarının fikrincə, iki sistemin bir dövlət içərisində birgə yaşayışı və onların tədrici qovuşması mümkündür.

ÇXR çoxmillətli ölkədir. burada 56 millətin nümayəndəsi yaşayır. Ən böyük millət xantslardır. Onlar ölkə əhalisinin 91,96 faizini təşkil edirlər.

ÇKP-dən başqa Çində "Demokratik partiyalar" adı altında birləşən 8 siyasi partiya da fəaliyyət göstərir. Ancaq onların heç biri nə ÇKP-yə, nə də dövlətə qarşı müxalifətdə deyildir. Ölkədə hakim partiya ÇKP olmasına baxmayaraq, digər partiyaların da nümayəndələri ali dövlət vəzifələrində təmsil olunmuşlar.

Xalqlarımızın mədəniyyət, ticarət əlaqələrinin qədim tarixi olmasına baxmayaraq, ÇXR-lə Azərbaycan Respublikası arasında diplomatik əlaqələr son illərdə yaranmışdır. Hər iki ölkə bir-birinin ərazi bütövlüyünü tanıyır və qanuni hüquqlarına hörmət edir.

İqtisadi sahədə də əlaqələr inkişaf etməkdədir. çin sənayeçiləri Azərbaycana radioqayırma və toxuculuq sənayesi üçün lazım olan avadanlıqları ixrac etmək, əvəzində isə respublikamızdan kənd təsərrüfatı məhsulları almaq fikrindədirlər. Qarşılıqlı fayda əsasında qurulan bu münasibət yəqin ki, hər iki ölkənin xalqları üçün öz səmərəli bəhrəsini verəcək.

"MİP",
24 sentyabr 1994-cü il

Dünyada sözdən uca heç nə yoxdur!

Bu barədə çoxdan yazmaq istəsəm də tərəddüd keçirirdim. Bu tərəddüd ən çox qəzetçilik etikası ilə bağlı idi. "Azərbaycan"da dərc olunan bir sıra materiallar mənim prinsiplərimə zidd olsa da, ancaq ata ocağındakı sirləri açıb-ağartmağı heysiyyətimə sığışdırmırdım.

İki nəfər savaşanda mütləq üçüncüsü peyda olur – ya xoş niyyətlə, ya da bəd. Savaşanlar üçüncünün sayəsində ya ömürlük düşmən olurlar, ya da dost. Azərbaycan mətbuatı bu gün üçüncü şəxs rolundadır. Ancaq təəssüflər olsun ki, qəzetlərimizin əksəriyyəti bəd niyyətli adamlar əlindədir. "Azərbaycan" qəzetinin sonunculara aid edilməsi bir çox "Azərbaycan"çı kimi məni çox məyus edir. Kollektivimizdə ideyaca sağlam, mətin jurnalistlər də var, sürüşkən əqidəli, məsləksiz jurnalistlər də. Zira, qəzetin ümumi ruhunda əvvəlki ritmin döyüntüləri eşidilməzdir.

Bu gün jurnalistika aləmində məni ən çox narahat edən jurnalistlərin partiyalaşmasıdır. Sənətkarlıq da, istedad da, obyektivlik də siyasiləşdikdə öz məhvinə fərman vermiş olur. Jurnalist o zaman inandıra bilir ki, onun həqiqətdən başqa heç bir həqiqəti yoxdur. Jurnalist o zaman obyektiv ola bilir ki, o, cibində ancaq jurnalist biletini gəzdirir.

Cəmiyyətimizdə bu gün bəraət alan bir çox mənəvi və sosial-hüquqi dəyərlərdə "Azərbaycan" qəzetinin misilsiz xidmətləri var. Məhz "Azərbaycan"ı vaxtilə digər mətbuat orqanlarından fərqləndirən cəhət o idi ki, bu qəzet heç bir qrupun, partiyanın, yaxud da şəxsin mənafeyinə xidmət etmirdi, əksinə, onların fövqündə dayanırdı.

Belə bir deyim var: “Mənim heç bir mövqeyim yoxdur – ona görə ki, mən jurnalistəm”. Bu deyimdəki ən böyük həqiqət ondan ibarətdir ki, jurnalistin əlahiddə mövqeyi olmamalıdır. Onun mövqeyi partiyanın deyil – xalqın mövqeyi, onun mənafeyi iqtidarın deyil – dövlətin mənafeyi olmalıdır.

1992-ci ildə “Azərbaycan”ın dövlət qəzetinə çevrilməsində yəqin ki, bu amillər həlledici rol oynadı. Dövlətimizin gerbi, himni və bayrağı bərpa olunarkən Respublika Ali Sovetinə kollektiv adından müraciət edərək dövlətçiliyimizin atributlarından biri kimi “Azərbaycan” qəzetinə də bu vərəsəlik hüququnun verilməsini xahiş etdik. Milli Məclis xahişimizi müsbət həll etdi. Ancaq tezliklə gördük ki, bizim istədiyimiz dövlət hələ qurulmayıb...

Dövlət hələ münasibətlərlə idarə olunur, bir çox hallarda hay-küyçü adamlar vəzifə alır və onların səriştəsiz idarəçiliyi əhalidə psixoz vəziyyət yaradır. Nüfuzlu kürsülərə qalxmaq meyarı kimi AXC-dəki fəaliyyət və ona “təəssübkeşlik” dərəcəsi əsas götürülür. Köhnə kadrların kütləvi şəkildə dəyişdirilməsi (“boş yer” axtarışı) xəstəliyindən bu hakimiyyət də yaxasını qurtara bilmir.

Müstəqil dövlətimizin rəsmi qəzetinə çevrilən “Azərbaycan”da baş redaktorun birinci müavini işləyərkən artıq mən hiss edirdim ki, “Azərbaycan” da öz yolu ilə getmir, öz sözünü demir.

Bəs necə olur ki, qərəzli materiallar “Azərbaycan”ın səhifələrinə yol tapır? Gəlin bir reallıqla barışaq ki, rəsmi dövlət qəzetinin ideya istiqaməti doxsan doqquz faiz orqanı olduğu təşkilatdan asılıdır. Qalır bircə faiz... Səriştəli, ağıllı, itigözlü redaktor üçün bu bircə faiz də kifayətdir ki, doxsan doqquz faizi ələkdən keçirsin...

İyun hadisələrindən sonra “Azərbaycan”ın baş redaktoru istefa verəndə birinci müavin kimi iki aya yaxın müddətdə - ən təhlükəli bir dövrdə qəzetə rəhbərliyi mən boynuma götürdüm. Açığı, ilk dəfə idi ki, redaktora təzyiq nə olduğunu bu iki ayda görürdüm. Arzusunu yerinə yetirə bilmədiyim klanlardan, müxtəlif ambisiyalı şəxslərdən nələr eşitmədim: “Sizin də haqqınızda tədbir görən tapılar!”, “Mən sizin haqqınızda yoldaş Əliyevə məlumat

verəcəyəm!”, “Deməli, siz də cəbhəçisiniz?!”, “Tifağınızı dağıdarıq!” və s. və i.a.

Bütün bunlarla yanaşı, mən iyun-avqust aylarında “Azərbaycan”dakı redaktorluq fəaliyyətimə bu gün də təəssüf etmirəm. Çünki vicdanım qarşısında özümü rahat hiss edirəm ki, mürtəce qüvvələrin bütün cəbhə boyu hücumunun ən kəskin şəkil aldığı, intiqam, qisas yanğısı ilə vəzifədən getmişlərin hirsinin-hikkəsinin quduzlaşdığı bir dövrdə, vəzifəyə gəlmək üçün yaltaqların su kimi girdikləri müxtəlif qabların formasına uyğunlaşdığı anlarda rəsmi dövlət qəzetində alışmış ehtirasların, cilovunu gəmirən azğın hisslərin üstünə su çiləməyə, rəsmi və qeyri-rəsmi – bütün haqsız hücumları neytrallaşdırmağa çalışdım. Qazancım isə hakimiyyətə can atanların, xalça-palazlı kabinetlərdə məxmər örtüklü kreslolara tərəf qabıq qoya-qoya sürünənlərin məzəmməti və hədə-qorxuları oldu...

Elə ilk addım səslərindən ayırd etmək olurdu ki, bu dövlət “qurucularının” əksəriyyəti vəzifələrə sonsuz hərisliklə gəlirlər. Sanki müvəqqəti vəzifəsizliyin ağrı-acısını canlarından çıxarmaq və “itkilərin” yerini doldurmaq üçün yamanca tələsirdilər. Onların gətirdiyi ən böyük bəla isə əsrlər boyu Azərbaycan xalqının qanında xroniki hal almış yerlibazlıq xəstəliyinin dirçəldilməsi idi. Belə olan halda “Qarabağı qarabağlılar qorusun!”, “Naxçıvanı naxçıvanlılar müdafiə etsin!” deyənlərin haqsız olduğunu əsaslandırmaq mümkündümü?

Dövlətlər ona görə dağılmır ki, onlar müflisləşir, dövlətlər ona görə dağılır ki, onlar məfkurəsizləşir. Bu gün Azərbaycan dövlətnin düşmən qarşısında sarsılmasının ən başlıca səbəblərindən biri onun məfkurəsizləşdirilməsidir.

Tarix boyu belə olub: dövləti idarə edə bilməyənlər xalqı idarə etməyə cəhd göstəriblər. Ancaq unutmaq olmaz ki, demokratik dövlət quruculuğunun ümdə prinsiplərindən biri xalqın tələbi ilə dövlətin imkanının tarazlaşdırılmasıdır. Bu tarazlıq pozularsa, demək, dövlət düzgün idarə olunmur.

H.Əliyevin də, Ə.Elçibəyin də, İ.Qənbərin də, E.Məmmədovun da şəxsiyyəti hörmətə layiqdir. Və gəlin etiraf edək ki, bu şəxsiyyətlər iki halda güclü və yenilməzdirlər: bir

Azərbaycanın gələcəyi naminə birləşib həmfikir olanda; bir də Azərbaycanın daha yaxşı gələcəyi naminə ideya və fikir savaşında. Xəbis niyyətlər cəngində, xırda hisslər çarpışmasında onların şəxsiyyəti görünməz olur. L.Tolstoyun belə bir sözü var: "İnsanlar hərgah əqidəyə görə vuruşsaydılar, heç vaxt müharibələr olmazdı".

Bir şeyi dərk etmək lazımdır ki, (bütün dövrlərdə belə olub) iqtidar-müxalifət mübarizəsində müxalifətin itirəcəyi heç nə yoxdur. Və iqtidar-müxalifət buzunun əriməzi müxalifətdən daha çox iqtidarın xeyrinədir. Ancaq başqa dövlərdən fərqli olaraq, bu gün ölkəmizin düşdüyü vəziyyət bizdən bir həqiqəti anlamağı tələb edir: iqtidarın da, müxalifətin də itirəcəyi əvəzsiz bir nemət var – Vətənin müstəqilliyi! Belə bir məqamda nə iqtidarın təkəbbürü, nə də müxalifətin giley-güzarı ona başucalığı gətirmir.

Bu gün respublikada vətəndaş həmrəyliyini istəməyən (istər müxalifətdə olsun, istər iqtidarda) Azərbaycan xalqının düşmənidir! Üyüşən münasibətləri diksindirən hər bir mətbu söz qəfil düşmən gülləsindən də təhlükəlidir.

Mən üzümü bütün həmkarlarıma tuturam: gəlin, sözün itirilmiş məsuliyyətini özünə qaytaraq! Gəlin, sözün kişiliyi ilə öyünək! Dünyada sözdən kəsərli heç nə yoxdur. Dünyada sözdən uca heç nə yoxdur! Sözün quluna çevrilənlər özləri də mütidirlər. Mütilik isə azadlıq və müstəqillik yolunda ən böyük sədlərdən biridir...

P.S. Məqalə iyun ayında yazılsa da"Azərbaycan" və "Azadlıq" qəzetləri onu dərc etməkdən imtina etdilər...

"MİP",
20 yanvar 1995-ci il

Etibar Məmmədov:

"Hökumətə müxalif mövqedə durmaq olar, ancaq düşmən mövqedə yox!"

Etibar bəy, bu sirr deyil ki, sizə vaxtilə bir sıra məsul dövlət vəzifələri təklif olunmuşdu. Onlardan imtina etdiyinizə görə bu gün peşman deyilsiniz ki?

- Peşman deyiləm. Çünki vəzifə mənim üçün nə həyati, nə də siyasi məqsəddir. Vəzifə hər hansı proqramı həyata keçirmək üçün bir vasitədir. Əgər təklif olunan vəzifə qarşıya qoyulan məqsədə xidmət edə bilməyəcəksə və əskinə, vəzifə daşıyanı vəzifə üçün lazımi şərait olmadığından bədnam və hörmətsiz edəcəksə, yarıtmaz edəcəksə, belə vəzifədən təbii ki, imtina etmək daha ağıllı iş olardı. Müxtəlif iqtidarların vaxtında mənə olunan təkliflərdən imtina etməyimin başlıca səbəbi bununla bağlıdır.

- Əvvəllər meydan tamaşaçıları vardı, indi məclis tamaşaçıları. Məclis tamaşaçılarının fikrincə, siz elə bil son vaxtlar daha çox təmkinli olmağa çalışırsınız. İnadkar Etibar Məmmədov sanki nəticəsiz qalan irad və etirazlarından usanıb və "əşi.." deyib laqeydliyə qapılmaq niyyətindədir?

- Əvvəla, təmkinli olmaq yaşla, təcrübə ilə daha çox bağlıdır. Laqeydliyə qaldıqda isə - burada da bir yanlışlıq var. Son vaxtlar Milli Məclisin gedişi televiziyada lazımi səviyyədə işıqlandırılmadığından tamaşaçılarda ayrı-ayrı millət vəkilləri barədə səhv təsəvvürlər formalaşır. Müxalifət mətbuatına isə senzura aman vermir. Ona görə də mənim hər şeyə guya laqeyd münasibət bəsləməyim təsəvvürü məsələnin mahiyyətini kifayət

qədər bilməyən tamaşaçılarda təbiidir. Ancaq bu, qətiyyən belə deyil. Məclisdə müzakirə olunan məsələlərin, demək olar ki, hamısında mən bir millət vəkili kimi ümumxalq mövqeyini həmişə müdafiə edirəm və bu sahədə ali məqsədlərə zidd olan fikir və mülahizələrə qarşı yenə də barışmazam.

- Milli-azadlıq hərəkatının beşillik tarixi ərzində demokratik cəmiyyət quruculuğu çağırışlarının bugünkü nəticələri sizi qane edirmi?

- Bildiyimiz kimi, milli-azadlıq hərəkatımızın tarixi qədimdir və o, müxtəlif mərhələlərə bölünür. Sonuncu dövr – sizin nəzərdə tutduğunuz dövr – 1990-cı ilin yanvarından başlanıb. Və bu dövrün ən böyük uğurlarından biri Azərbaycan xalqının öz dövlət müstəqilliyini qazanmasıdır. Əlbəttə ki, bütün problemləri beş ilə həll etmək mümkün deyil. Ancaq etiraf etmək lazımdır ki, gözlədiklərimizin çoxunu hələ görə bilməmişik. Böyük hərəkatın ayrı-ayrı subyektlərinə olan ümidlərin müəyyən qədər qırılması, bütləşdirilmiş insanların xalqın gözündən düşməsi və s. səbəblər gözlədiyimiz nəticələrə bir qədər ümidsizlik gətirsə də, ən böyük nailiyyətimiz, təkrar edirəm, dövlət müstəqilliyini qazanmağımızdır, necə ki, vaxtilə Xalq Cəbhəsinin sıralarında olarkən prinsipial olaraq bir məsələni qoymuşduq ki, biz azadlıqdan demokratiyaya getməliyik. Çünki millət azad olmamış, istiqlal qazanmamış nə SSRİ-nin tərkibində, nə də hər hansı bir qurumun tərkibində demokratiyadan danışa bilməzdik. Birinci məqsəd azadlıq olmalıydı, sonrası isə özümüzdən asılıdır ki, demokratik islahatları, iqtisadi islahatları nə cür həyata keçirəcəyik.

- Bir vaxtlar çoxları prezident olmaq arzusu ilə yaşayırdı və bunu əlçatmaz bir zirvə hesab etmirdilər. Əgər bu fikirlə razısınızsa, bunun sosial, siyasi köklərini necə izah edərdiniz?

- Bu çox təbii bir prosesdir. İnsanlar buxovlarını qırıb azadlığa çıxanda heç nəyə əlçatmaz bir şey kimi baxmırlar. Hər şeyin yaxında olduğunu güman edirlər və hamı ona can atır.

Bunların tədricən aradan qalxması üçün vəzifələrin, o cümlədən, prezidentliyin xalq qarşısında, tarix qarşısında, gələcək nəsillər qarşısında məsuliyyətini hiss etmək lazımdır. Məsuliyyət hiss olunmadığı üçün də məsuliyyətsiz adamlar ona can atırdılar və bu da təbii hal idi. Müəyyən müddətdən sonra bunlar hamısı aradan qalxmalıdır. Qarışıqlıq dövrü qurtarandan sonra təbii bir bölgü olmalıdır və hər şey öz yerini almalıdır. Ancaq bir addımla ən yüksək pilləyə qalxmaq olmaz.

Cəmiyyətin çalxalandığı bir dövrdə dünənki çilingər gəlib böyük bir rayonun rəhbəri olursa, bu, inqilabi dövrlərə təsadüf edən haldır. Ona görə də prezident olmaq arzusu bir vaxtlar çox da təəccüblü qəbul olunmurdu. Hamı da belə bir fikirdə idi ki, yuxarıda oturanın nəyi məndən artıqdır, bu vəzifədə mən də ola bilərəm. Həmin kürsülərin qarışıqlıq yolu ilə, hərbi yolla əldə olunması da belə illüziyaların yaranmasına səbəb olurdu. İş o yerə çatırdı ki, ölkə prezidenti olmayanlar kiçik bir parçanı qoparıb orada prezident olmaq istəyirdilər.

- Etibar bəy, Milli İstiqlal Partiyası bir sıra digər partiyalar kimi, Azərbaycan xalqının oyanışında, milli dövlət müstəqilliyi qazanmasında xüsusi rolu olan və milli azadlıq hərəkatının içərisində yaranan partiyalardandır. Bu gün o, Azərbaycan xalqı arasında (mən siyasi müxalifət arasında demirəm) özünü necə hiss edir?

- Belə hesab edirəm ki, Milli İstiqlal Partiyası Azərbaycan xalqı arasında öz yerini tutmuş siyasi bir təşkilatdır. Partiyamız bu vaxtacan adına ləkə gətirəcək heç bir hərəkətə yol verməyib. Qarşıdan gələn seçkilərdə qanuni metodlarla mübarizə aparacaq və xalqa xidmət yolunun nümunəsini göstərəcək.

- Partiyanın yaranmasından artıq 4 il keçir. Bu 4 ildə MİP özünü dövlət quruculuğu işlərinə hazırlaya bilibmi? Əgər belədirsə, siz bunu necə həyata keçirmək fikrindəsiniz?

- Dövlət quruculuğu olduqca ağır bir məsələdir. Bu, qısa müddətdə başa gələn iş deyil. Partiyamızın parlamentdəki fraksiyası Azərbaycan Respublikasının dövlət quruculuğu

işlərində həm bir millət vəkili kimi, həm də siyasi müxalifət kimi yaxından iştirak edir. Buraxılan səhvlərə və onların gələcəkdə baş verə biləcək ağır nəticələrinə diqqəti cəlb etməklə onların düzəldilməsinə çalışmaqla, səmərəli, ağıllı təkliflər verməklə yanaşı, özünün partiyadaxili hazırlığını daim artırır, gələcək üçün proqramlar hazırlayır, sınaqdan çıxmış təcrübələri öyrənir və təkmilləşdirir. Biz inanırıq və buna qəti əminik ki, gələcəkdə respublikamızın dövlət quruculuğunda iştirak etmək məsuliyyəti bizim partiyanın da boynuna düşəcək.

- Mən bir daha söhbətimizin əvvəlində söylədiyim fikirlərimə qayıtmaq istəyirəm. 1989-91-ci illərin çılğın və inadkar Etibar Məmmədovu üçün darıxanlar çoxdur. Siz özünü təkrar etməyə mənəvi haqqını itirməyən xalq hərəkatı liderlərindən birisiniz. Heç bir vəzifə kreslosu sizi amalınızdan sapındıra və heç bir hakimiyyət yanğısı sizi özünə əsir edə bilməyib. Əksinə, Lefortofo zindanındakı ömür tarixçəniz Azərbaycan xalqının milli azadlıq mübarizəsi tarixində Etibar Məmmədovun adını əbədiləşdirib...

- Bildiyimiz kimi, son il yarım ərzində televiziyada çıxış etmək və öz fikirlərimizi kifayət edəcək qədər izah etmək imkanım olmayıb. Olsaydı belə, 1989-91-ci illərin Etibarı kimi xalqı üsyana, kütləvi etiraz aksiyalarına, yaxud başqa hərəkətlərə çağırmazdım. Səbəbini o dövrlə indiki dövrün siyasi atmosferində axtarmaq lazımdır.

1989-91-ci illərdə Azərbaycan hələ azad deyildi – imperiya tərkibində idi. Və qarşımızda konkret düşmən var idi. Düşmənə qarşı da müharibə elan etmişdik və bu məqsədlə bütün vasitələrdən istifadə edirdik, o cümlədən, üsyan və kütləvi aksiyalardan da. Ancaq indi həmin hərəkətləri etmək, onu üsyana çağırmaq milləti bir-biri ilə vuruşdurmaq deməkdir. O vaxtsa milləti ümumi düşmənə qarşı çağıranda o bütöv şəkildə gedirdi. İndi belə hərəkətləri etmək milləti parçalamaq deməkdir. Bu dövrlər arasındakı fərqi mən bunda görürəm və ona görə də daha çox məsuliyyət hiss edirəm. Ümumi düşmənlə mübarizəyə

çağıranda bir səhv edərdiksə, bunu böyük hərəkatın içərisində xalq görməyə də bilərdi, yaxud bağışlayardı da. Ancaq indiki dövrdə hansısa qərəzli hərəkətimizlə, çağırışımızla xalq parçalanarsa və bir-biri ilə toqquşarsa, onu heç vaxt xalq bizə bağışlamaz.

Ancaq müstəqillik əldə edəndən sonra biz daxildə düşmən axtarmamalıyıq. Hökumətə müxalif mövqedə durmaq olar, lakin düşmən mövqedə yox - əgər bizi düşmən hesab etmirlərsə. Lap bizi düşmən hesab etsələr belə, biz heç vaxt öz dövlətimizə düşmən gözü ilə baxmayacağıq.

İndi dövr başqadır, zaman ancaq bizim xeyrimizə işləyir. İndi hökumətə təsir vasitələri də dəyişib. Biz dağıtmaq yolunu yox, düzəltmək yolunu tutmalıyıq. Bunun üçün əlimizdə mətbuat orqanları var, parlamentimiz var. İqtisadiyyatımız dağılmaq üzrədir - əhalini bu işlərə cəlb etmək lazımdır.

- Etibar bəy, sonuncu sualım mətbuatla, konkret desək, "MİP" qəzeti ilə bağlıdır. İctimai-siyasi təşkilatların, partiyaların yaranması ilə bahəm, qəzetlərin də artımı təbii haldır. Lakin bu təşkilatların ifrat subyektiv mənafe höcətləri onların qəzetlərinin qeyri-sağlam yola düşməsinə gətirib çıxardı və öz oxucuları arasında gözdən düşmələri ilə nəticələndi. Digər tərəfdən respublikamızdakı iqtisadi vəziyyət onlara sarsıdıcı zərbə vurmaqla təbliğatın qanadlarını sındırdı. Belə bir məqamda Milli İstiqlal Partiyasının yeni bir qəzeti – "MİP" qəzetini yaratmasını və onu iqtisadi və siyasi burulğanlar ağuşuna atmasını necə başa düşmək olar? Axı, məlumdur ki, Milli İstiqlal Partiyasının ideoloji xəttini müdafiə edən "Millət" qəzeti fəaliyyət göstərir.

- "Millət" qəzeti statusuna görə, partiyanın qəzeti deyil – bir şəxsin təsis etdiyi qəzetdir. Qəzetin təsisçisi kimi, mən istərdim ki, bu qəzet bir qədər müstəqilləşsin, hadisələrə daha neytral mövqedən baxa bilsin və partiya ilə bağlılığı azalsın. Elə bu baxımdan da partiyanın öz orqanının olmasına ehtiyac var. Bu qəzet mənim fikrimcə, analitik bir qəzet olmalıdır, baş verən hadisələrə partiyanın mövqeyini bildirməli və onu təbliğ etməlidir, partiyanın buna ehtiyacı böyükdür. Ancaq "Millət" qəzetində dərc olunan materiallar ola bilər ki, partiyanın mənafeyini əks etdirməsin.

Sualınızın birinci hissəsinə gəldikdə isə, qəzetlərin yaranması və qapanması da cəmiyyətimizdəki reallıqlardan kənarda qala bilməz. Qəzet bolluğuna mən təbii bir hal kimi, hətta müsbət bir hal kimi baxıram. Mətbuata dördüncü hakimiyyət deyənlər bu sözü təsadüfi işlətməmişlər. Mətbuat ictimai nəzarətdir. Nəzarətdən isə ancaq əyrilər, əməli saleh olmayanlar qorxar. Mən bunu dəfələrlə demişəm: hansı iqtidar hakimiyyətdə çox qalmaq istəyirsə, mətbuat azadlığını boğmamalıdır. Mətbuat orqanlarının dövlət məmurlarından yeganə tələbi odur ki, düz işləsinlər, xalqı və dövləti aldatmasınlar. Ədalətsizlik etməsinlər. Məgər dövlət də bunu istəmir? Əgər bu sahədə kimsə dövlətə yardımçı olursa, onu boğmaq nə qədər məntiqə uyğundur?

Tez-tez irad tutub deyirlər ki, əşi, bu qədər partiya olar, bu qədər qəzet olar? Əslində, Azərbaycanda o qədər də çox partiya və qəzet yoxdur. Türkiyədə üzdə olan, tanınan, xalqın əksəriyyəti tərəfindən qəbul olunan beş-altı partiya var. Ancaq bu yaxınlarda orada iki yüz əlli birinci partiya artıq qeydiyyatdan keçib. O cümlədən Türkiyədə minlərlə qəzet çıxır – yenə də geniş oxucu auditoriyasında özünə daimi yer tapan üç-dörd qəzet görsənir.

Bir-iki kəlmə də qəzet redaktorlarının ən yaralı yerlərindən biri – senzura haqqında demək istəyirəm. Heç bir ölkədə qəzetin tapıb üzə çıxardığı hərbi, dövlət, yaxud digər sirlərə görə onu mühakimə etmirlər. Həmin sirri yayan təşkilatı, ya da şəxsi tapırlar. Qəzeti senzuraya məruz qoymaqla sirrin yayılmasının qarşısını almaq olmaz. Dövlət orqanları normal işləmirsə, bu sirr onsuz da digər kanallar vasitəsilə yayılacaq. Jurnalist onu tapıb üzə çıxarırsa, jurnalistin nə günahı var.

Bu mənada mən "MİP" qəzetinin müxbirlərinə də prinsipial mövqe, çalışqanlıq və gözlənilməz, qəfil situasiyalardan çıxmaq bacarığı, yetkinlik, mətanət arzu edirəm. İnanıram ki, gələcəkdə Azərbaycanda oxunan bir neçə qəzetdən biri də "MİP" olacaq.

"MİP",
09 fevral 1995-ci il

"Əllərimin qədrini dustaq ikən bilmişəm"

Azadlıq carçısı Xəlil Rzanın Lefortovodan ucalan həsrət dolu bu misrası xalqımızın 80-ci illərin sonlarında yenidən tüğyan edən istiqlal mücadiləsini dəmir barmaqlıqların belə sarsıtmayacağına qəti inam idi. "Cocuqların üzərinə tank sürənlər hələ sağdır" – deyə intiqama çağıran şairin "barmaqlıq arxasında çil-çıraqban Moskva"da kef çəkən millət xainlərinin "qara taleli Vətənimizdə" öz kürsülərini qorumaq üçün hələ də məkrli planlar tökdüyünü, yüzlərlə azadlıq aşiqini zindanlara saldığını, mənəvi və fiziki repressiyalara məruz qoyduğunu bütün qəzəb və nifrəti ilə "suvağı qan ilə göz yaşı olan" məhbəs divarlarına hayqırmaqdan başqa əlacı yox idi.

Azadlıq yolunda çəkdikləri işgəncələrlə, tökdükləri qanlarla beyinlərdəki köləliyi sarsıdan, fikirlərdəki qandalları parçalayan Vətən oğullarına təskinlik verən istiqlal Prometeyi haqq uğrunda döyüşün insanı necə də şərəfləndirdiyini fəxrlə söyləyirdi:

Qolun bağlanmasına
bəlkə də dözmək olar,
Görün hələ nə qədər
beyni iflic olan var..
Rəssam! Çək bu lövhəni
Maraqlı mənzərədir,
Qul gözətçi önündə
Azad bir dustaq gedir!

1990-cı ildə Bakıdakı qırğınları dünya ictimaiyyətinə çatdırmaq üçün Moskvaya gedən Etibar Məmmədovun həbsini eşidən mübariz şair öz dərdini unudaraq bu "inadkar gəncin" zindanda keçən günlərinə acıdığı halda, özünün şair taleyinə yazılan əzabları ən qiymətli bir nemət kimi qəbul edirdi:

Dəmir addımıyla tapdayıb keçən
Bir kişi qisməti düşüb bəxtimə!

Babamız Xətainin döyüşkən ruhunun zühuru kimi Azərbaycan xalqının azadlıq mübarizədinin ilhamvericisi və ən şanlı əsgərlərindən olan filosof-şairimiz ulu Xəlil Rzanı bir neçə ovundurma ilə xatırlamaqda məqsədimiz Azərbaycan xalq hərəkatının öncüllərindən olan E.Məmmədovun KQB-nin təcridxanasında keçirdiyi on aylıq məhbus həyatının nəticəsi olaraq meydana çıxan "LEFORTOVO GÜNDƏLİYİ" kitabına onun mübarizə və məhbəs yoldaşı Xəlil Rzanın yazdığı ön sözü nəzərinizə çatdırmaqdır. Tirajının az olmasını və 1992-ci ildə oxucular arasında yayılma məhduduyyətini nəzərə alaraq, gələn nömrəmizdən adını çəkdiyimiz kitabın əsas hissələrini qəzetimizin səhifələrində oxuya biləcəksiniz.

Ş.Kərimli,
"MİP" qəzetinin baş redaktor müavini

"MİP",
09 fevral 1995-ci il

Xəlil Rza Ulutürk

Əjdaha mağarasında mübarizə

Bu gün Azərbaycan göz yaşları, qan selləri və mübarizə zirehi içindədir. Qıtlığın, hərc-mərcliyin, aclığın, bahalığın görünməmiş bir miqyas alması, kibrit çöpündən tutmuş duza, geyimə qədər hər şeyin qiymətinin kosmik sürətlə artması, Ermənistandan, yaxud klassik Azərbaycandan çıxarılmış 318 min didərginin yerbəyer edilməsi hələ başa çatmamış, demək olar ki, bütün sərhədlərimiz boyunca yeni qaçqınlar, yaralılar, evsizlər, məzarlar və məzarsızlar silsiləsinin yaranması, Xocalı faciəsinin ağrı və acıları canımızdan hələ silinməmiş Ağdaban qırğınının baş verməsi, Daşaltı hərbi məğlubiyyətinin sirləri hələ tam açılmamış Quşçular, Malıbəyli kimi 27 yaşayış məntəqəsinin – kəndin, obanın, strateji obyektin düşmənə təslim edilməsi, ən mühüm dövlət idarələrinə, hətta parlamentə soxula bilmiş sabotajçıların, mafiya başçılarının, sərvət, şöhrət düşkünlərinin alçaq və kirli məqsədlərinə çatmaları uğrunda dəridən, qabıqdan çıxmaları çağdaş Azərbaycanın olduqca iqtisadi, siyasi, hərbi və mənəvi böhran içində çırpındığından xəbər verir.

AMİP və onun lideri Etibar Məmmədli böylə hesab edirlər ki, son dörd yüz ildə şişib köpmüş, yalnız Uzaq Şərqi, Sibiri, Ural arxasını, Baykalı, Baykal həndəvərini, Sakstanı (Yakustanı), Türküstanı, Tacikistanı, Tatarıstanı, Başqırdıstanı deyil, habelə Ukraynanı, bəyaz Rusiyanı, Qafqazı tutmuş, udmuş, Çexoslovakiyadan, Macarıstandan tutmuş Əfqanıstana qədər bir sıra öləkələrə dönə-dönə burnunu soxmuş, aləmi qana çalxamış,

öz iqtisdi, siyasi platformasını bir sıra məmləkətlərə, dövlətlərə qəbul etdirmiş ağ və qırmızı imperiya yalnız Azərbaycanın deyil, bütün planetin, bəşəriyyətin düşmənidir. Buna görə keçmiş SSRİ, yaxud onun maskalanmış biçimi olan MDB ideoloqlarının, rəhbərlərinin ardınca sürünmək şərəfsizlik və rüsvayçılıqdır. Yuxarı Qarabağ uğrunda mübarizə başlanan gündən bəri Moskva, Kreml özünün Azərbaycana xəyanət kursunu gizli və aşkar şəkildə siyasi və hərbi yolla genişləndirməkdədir, felən bu xəyanətin təşkilatçısıdır. Çünki "Gülüstan" (1813) və "Türkmənçay" (1828) bağlaşmalarından bəri qanını sorduğu, son 72 ildə daha çox sümürdüyü Azərbaycan onun üçün daim yağlı tikə olaraq iştah obyektidir. 1988-i ildə Türkazərin Ermənistandan, yaxud klassik Azərbaycandan silah gücünə çıxarılmasını təşkil edən də odur, bu şubat ayının 25-dən 26-na keçən gecə 366-cı alayı, ermәniqarışıq rus ordusunun hərbi yırtıcılığı ilə Xocalı şəhərini qanlı şuma döndərən də, onun 9 minlik əhalisini amansız vəhşiliklə qıran, quyulara, xəndəklərə dolduran, qarlı çöllərə səpələyən də. Buna görə başda Ayaz Mütəllibov olmaqla Azərbaycanın hakim dairələrinə soxulmuş milli satqınların böyük dövlət şovinizminə təslimçilik, Kreml ilə gizli, aşkar sövdələşmələri milli xəyanətdən başqa bir şey deyil. Bu il 5-6 mart günlərində XX əsrin ən müdhiş qırğınlarından birinin – Xocalı faciəsinin baisi Ayaz Mütəllibovun istefası Ali Sovetin hətta ən mürtəcə deputatları tərəfindən irəli sürülərkən Etibarın qəzəbli və müdrik səsi yüksəldi: "İstefa tələbi azdır. Ayaz Mütəllibov milli xəyanətkar kibi məhkəmə məsuliyyətinə cəlb edilməlidir ki, cəzasız qalması bugünkü və gələcək rəhbərlər üçün ibrət dərsi olsun."

Etibarın mühüm fikirlərindən biri budur ki, iqtisadi, siyasi, hərbi böhrandan çıxmaq olar, təkin mənəvi böhranın dərinləşməsinə, millətin öz qələbəsinə ümidini itirməsinə yol verməyək. Buna görə siyasi partiya aydın və müdrik proqrama malik olmalıdır. Nə etməli, necə etməli, hansı müddətdə etməli.

Özünü prezidentliyə irəli sürdüyü halda bu sorğulara cavab verməyən şəxsiyyətin seçki kampaniyasında iştirak etməyə haqqı yoxdur.

AMİP və onun lideri böylə hesab edirlər ki, sistemi, quruluşu kökündən dəyişməyincə nə rüşvəti aradan qaldırmaq olar, nə istismarı, nə də gündən-günə dərinləşən iqtisadi, siyasi, hərbi böhranı. Cəmiyyətin ən azı üç təbəqəsi: müəllimlər, həkimlər və hüquq-mühafizə orqanları təmsilçiləri: polislər, hakimlər, prokurorlar ən azı maddi cəhətdən təmin olunmayınca cəmiyyətin, dövlətin bazisinin möhkəmlənməsinə nail olmaq mümkün deyil. Yaşamaq haqqını çoxdan itirmiş mürtəce kommunist parlamentinin buraxılması, yeni demokratik seçki sisteminin yaradılması, torpağın kəndçilərə paylanması, özəlləşdirilməsi, xüsusi mülkiyyət barədə qanunun çıxarılması ümdə və təxirəsalınmaz vəzifələr sırasındadır.

Qarşımda mühüm bir sənəd – Etibar qələmindən çıxmış "Lefortovo gündəliyi" durur. 1990-nın 26 ocağından (yanvarından) tutmuş 1 qasiminə (noyabrına) qədər mühüm bir dövrü qapsayan bu gündəlik son beş ildə çarpaşıq yollar keçmiş Milli hərəkatımızın ən mühüm sənədlərindən biridir. Moskvanın dünya "şöhrətli" Lefortovo zindanında, habelə Rostovun, Voronejin, Bakının DTK hökmlü türmələrində 9 aydan çox yaşamış dönməz mübarizin, milli hərəkatımızın ən cəsur və parlaq zəkalı liderlərindən birinin köləliyə qarşı üsyanıdır, imperiya sisteminə və buna təslim olan yerli nökərlərə qarşı barışmaz ittiham aktıdır. Burada və digər sənədlərdə tükürpədici faktlar var. Həmin faktlardan ən dəhşətlisi budur ki, 1990-nın qanlı 20 yanvarından sonra gizli şəraitdə Moskvaya yol tapan və başımıza gətirilən müsibətləri orada Azərbaycanın daimi nümayəndəliyində mətbuat konfransı keçirməklə dünyaya car çəkməyə çalışan Etibar yalnız AXC idarə heyətinin və Ayaz Mütəllibovun razılıq verməsindən sonra həbs edilmişdir. "Mənim mətbuat konfransımdan sonra Hikmət Hacızadə Moskvaya zəng vurub bildirmişdir ki, Etibar Məmmədovun danışıqlar aparmağa heç bir

səlahiyyəti yoxdur, onunla danışıq aparılmasın. Çox keçmədən müstəntiqin də etiraf etdiyi kibi, AXC idarə heyətinin böylə münaısibətindən sonra həbs olunmağım qərara alınıbmış. Beləliklə, mənim həbs edilməyim üçün ilk növbədə AXC İH-dən, sonra isə Ayaz Mütəllibovdan razılıq alınıbmış. Bu da bəllidir ki, məni 9 ay yarım həbsdə saxlamaqdan məqsəd milli hərəkatı zəiflətmək idi" ("Aydınlıq" qəzeti, 17 aprel 1992, "Əgər siz prezident seçilsəniz").

Etibar Səlidar oğlunun və kameradaşlarının zindanda, istintaq və məhkəmə gedişində doqquz ay yarım çəkən dartışmalarını əjdaha mağarasında döyüş adlandırmaq olar. Qəribədir: imperiya nökərləri öncə səni həbs edir, sonra bu həbsi qanun maddələri ilə əsaslandırmağa çalışırlar. Nə qədər yüksək intellektə, mənəvi psixoloji üstünlüyə malik olmalısan ki, çox vaxt kor-koranə hərəkət edən və imperiya mexanizmlərinə çevrilən bu qırmızı qulların səni silah qabağında aparan konvoydan tutmuş prokurora, müstəntiqə, zindan rəisinədək, az qala bioloji varlıq səviyyəsinə enmiş robotların hamısından qat-qat üstün durduğunu, hər gün, hər saat, hər dəqiqə sübuta hazır dayanasan. "Lefortovo gündəliyi" Etibarın böylə bir mənəvi yüksəkliyə, intellekt enerjisinə malik olduğunu aydın göstərir. Bəlli olur ki, onu iki maddə ilə ittiham etməyə çalışmışlar. 67-nin üçüncü bəndi, yəni milli ədavəti qızışdırmağa, bir də 1990-nın 20 yanvar gecəsi Bakıya soxulmuş qırmızı orduya qarşı silahlı müqavimətin təşkili. Birinci ittihamı əsaslandırmaq üçün müstəntiqlərin əlində heç bir arqument yoxdur. İkinci ittihamı əsaslandırmaq üçünsə onun birinci tərəfinin nə dərəcədə qanuni olmasını iddiaçı sübut etməlidir. Yəni dəvət olunmadığı halda Bakıya təpilmiş və bəşər tarixində ən yava qanlı cinayətlərdən birini törətmiş qırmızı ordu hansı əsasla donuz burnunu müqəddəs bir məmləkətə soxmuşdur. Bu məkrə, bu alçaqlığa, bu soyqırımına qarşı silahlı müqavimətə çağırdığını Etibar gizlətmir.

İsıtintaq gedişində dustaq və ittihamçı istər-istəməz öz yerlərini dəyişməli olurlar. Etibar müstəntiqə, müstəntiq dustağa

çevrilir. Aydınlaşır ki, qırmızı ordunun və onun hərbi hissələrinin Bakıya soxulmasına sərəncam verən M.S.Qorbaçov, onun göstərişlərini yerinə yetirən Kryuçkov, Yazov, Primakov, Bakatin, Barannikov, Volski, Dubinyak, Girenko bandası, habelə qanlı qırğına qarşı heç bir tədbir görməyən, əksinə, əmri danışıqsız yerinə yetirən Əbdürrəhman Vəzirov, Ayaz Mütəllibov, Vaqif Hüseynov kibi siyasi impotentlər gec-tez tarixin məhkəməsi qarşısında dayanmalı və rüsvayçılıq divarına mıxlanmalıdır.

Lefortovo zindanında vaxtında hamamlanma, təmizlıik, tibbi xidmət və istintaq zamanı zahiri nəzakət gözlənilir. Lakin bu zahiri nəzakətin və səliqə-səhmanın arxasında dəhşətli bir qəsd dayanır: siyasi dustağın iradəsini qırmaq, onu öz xalqından, öz mübarizəsindən təcrid etmək yolu ilə təkləmək, uzun müddətli zindan həyatına alışdırmaqla, öyrəşdirməklə elan olunmuş cinayəti onun boynuna qoymaq, diz çökdürmək. Sevindiricidir ki, Etibar və səngərdaşları düşmənə bu imkanı verməmiş, özlərinin hücumçu mövqeyini axıradək saxlaya bilmişlər. Gündəlikdə oxuyuruq: "İndi dünyadan təcrid vəziyyətdə olsam da başlıca vəzifə mənəvi düşkünlüyə yol verməmək, mübarizəni canavar yuvası içində davam etməkdir. Məni nümayəndəliyin binasından apararkən qadınlarımızın ümidsiz ağlaşması bir tərəfdən xalqımızın hazırkı çağlarda çox sıx mənəvi birliyini, digər tərəfdən milli şüurunun hələ də siyasi şüur səviyyəsindən yüksək olduğunu göstərir. Bu biçarə ana və bacılarımız başa düşə bilmirdilər ki, bircə nəfər adam üçün Azərbaycanın daimi nümayəndəliyinin hücuma tutulub dağıdılması və sonra həmin adamın həbs edilməsi imperiyanın böyük qorxu içində olduğunu, zəifliyini göstərir və bu zəifliyə nail olmaq bizim böyük məqsədimizdir".

Dağılan imperiyanın tarixən məhvə məhkum olması və ona nökərlik etməyə çalışanların acizliyini, miskinliyini daim hiss etməsi və zəka aktına, fəaliyyət qaynağına çevirməsi Etibarın ciddi qələbəsidir, siyasi xadim kibi onun yetkinliyindən xəbər verən qüdrətidir.

1990-cı ilin 20 Yanvar qırğınından sonra Bakıdan Moskvaya aparılan "şübhəlilərin" (podozrevaemıe) Lefortovo zindanında bir-birini görməsi, qonuşmaları, əlbəttə mümkün deyildi, ayrı-ayrı kameralarda saxlanırdıq. Lakin qayıdanda böylə bir fürsət bulduq. İttiham maddələrimiz üst-üstə düşmədiyindən yolda maşının eyni dəmir qutusunda, vaqonun eyni qəfəsinə, yaxud zindanın eyni daş kisəsinə salınırdıq. Keçidlərdə üstümüzə hürən, dili ağzından bir qarış çıxmış hərbi köpəklərin hücumundan qorunmaq üçün bir-birimizə sığınırdıq. Rostovun, Voronejin zindanlarında eyni kameraya salındığımızı, Bakıya eyni vaqonun eyni guşəsində qapalı-qıfıllı çərçivəsi arxasında gətirildiyimizi unuda bilmirəm. Bir qismət çörəyi, bir şırım şor balığı, bir ovuc qoz ləpəsini yarı bölüb dolanmışıq. Başqa regionlardan gələn dustaqların vaqonda görə bilmədikləri halda səsindən tanımaları, hay verib, hay almaları "Xətrin nə istəyir" deyə yanar qəzet şüləkləri üstündə çay qaynatmaları illər keçsə də yaddan çıxmaz. Böylə məqamlarda Etibarı insanlara arxa-dayaq, ümidverən görmüşəm:

-Darıxmayın, mindiyimiz yalnız dustaq qatarı deyil, əsrin qatarıdır. Sürətlidir. Müstəmləkə sisteminin darmadağın ediləcəyi gün uzaqda deyil. Hamınız dustaqlıqdan qurtulacaqsınız.

Görmədikləri halda bizə çay ziyafəti verən dustaqların adlarını dəftərçəsinə bircə-bircə yazması da unudulmaz. O günlərimizin ovqatı Moskva-Voronej yatab qatarında yazdığım 5 oktyabr 1990 tarixli "Bakıya doğru" şerimdə bədii əksini tapmışdır:

Arxada qoyuruq ildırımları,
Dibi qan dənizi sıldırımları.

Getsin, o günlər gəlməsin. Azərbaycanı göz yaşlarından, qan sellərindən, ictimai burulğanlardan çıxarmaq üçün qol çirməmiş Etibarımıza və Etibar əqidəli cəsurlarımıza yalnız prezident tacı yox, məslək qələbəsi arzulayaq.

Bakı, 22 nisan 1992

"MİP",
09 fevral 1995-ci il

Cavabsız qalan suallar...

Millət özünü dərk etməsə,
cəmiyyət xaosdan xilas ola bilməyəcək

Prezidentliyə namizəd Əbülfəz Elçibəylə 1992-ci ildə Azərbaycanda prezident seçkiləri ərəfəsində o vaxt vaş redaktoru olduğum "Azərbaycan" qəzetinin aparıcı şöbələrinin bir neçə əməkdaşı ilə geniş söhbət üçün suallar hazırladıq. Məqsədimiz Ə.Elçibəyi redaksiyaya dəvət edib oxucu konfransı keçirmək, bir neçə nömrəmizdə əvvəlcədən elan etməklə oxucuların telefon sorğularını prezidentliyə namizədə çatdırmaq və canlı söhbətin nəticəsi kimi xüsusi nömrə buraxmaq idi. Lakin görüş baş tutmadı... AXC-nin mətbuat xidmətinin işçiləri Ə.Elçibəyin vaxtının son dərəcə məhdud olduğunu bildirdilər.

O vaxtdan təxminən 3 ilədək müddət keçir. Azərbaycan xalqının əsrimizin 80-ci illərinin sonunda başlanmış milli-azadlıq hərəkatının yazılan səhifələrini hərdənbir vərəqləmələri olursan ki, gələcək addımlarını sərrast atasan. Emosional hisslərin əsirliyindən azad olduqca dünənlə bugünün oxşar və fərqli cəhətləri düşünməyə, sözlərini, əməllərini sahmanlamağa sövq edir.

Fikir vermisinizsə, arxivlərdə işləyənlər çox az yazır və çox az danışırlar. Ona görə yox ki, onlar hansısa gizli bir təşkilatın əməkdaşlarıdır. Yox! Ona görə ki, onlar tarixi hadisələrdəki personajların cilddən-cildə düşməsini, qılafını dəyişməsini, hər bir konkret dövrdə hansısa sələfinin əvəzində, kiminsə rolunda tarix səhnəsinə çıxdığının şahidi olur. Dünən sitayiş etdiyinin bu gün sitəmini görəndə namuslu adamın susmaqdan başqa çarəsi qalmır.

Müxtəlif mətbuat orqanlarında işlədiyim dövrlərdən yığdığım zəngin foto və arxiv sənədləri var. O fotolara, sənədlərə dönə-dönə baxıram, o dövrün qəzetlərini dönə-dönə vərəqləyirəm və hər dəfə də qulaqlarımı dağıdan bir hayqırtı dönüb keçmişə baxmağa, saxta tarixləri aşkarlamağa və xalqın müqəddəs amallarını öz məkrli məqsədləri naminə gözdən salmağa cəhd göstərənlərə qarşı amansız olmağa çağırır.

Bir parça kağızda donub qalmış təbəssümün saxtalığını, söyüşü sözünün mayasında duran millət "qəhrəmanlarının" bütün etik normaları aşan tərbiyəsizliyini, obyektivdə sadəlövh görünmək istəyənlərin sadəbazlığını, hakimiyyət yanğısından alışıb-yananların gözlərindəki qığılcımı görəndə... balalarının gülər gözləri naminə hər şirin sözə, yağlı vədə inanan millətə yazığın gəlməyə bilmir.

Bütün bu çarpışmaların, didişmələrin nədir mayası? Yuxarıya qalxmaq üçün nə səbəbdəndir bir-birinin başından basmaq? Kiminsə gözünə dürtülmək üçün nədəndir bu heysiyyətı tapdalamaq, yaxud tapdalatmaq?... Bütün bu sualların bircə cavabı var: öz yerini bilməmək!

Ali kürsülərə can atmaq hamıda ola bilər - bu, təbii arzudur. Ancaq bu yola çıxan adam birinci növbədə öz qabiliyyətini, nüfuzunu, dünyagörüşünü, mədəni səviyyəsini, savadını götür-qoy etməli və özünə layiq olan mənsəblə, yaxud payla kifayətlənməlidir. (Əlbəttə, söhbət hakimiyyətə can atanlardan gedir, hakimiyyətə can atmayanlar isə sadəcə olaraq, xalqa xidmətlə məşğuldurlar...) Bu usə insanın həyatda ən böyük qazancı olan özünüdərk hissinə qovuşmasıdır. Millət özünü dərk etməsə, cəmiyyət xaosdan xilas ola bilməyəcək. Bir kiçik vəzifə üçün əqidəsini dananlar, vicdanını itirənlər millətə rəhbərlik edə bilməzlər. Özülsüz ideyalarını millət üzərində sınaqdan keçirənlər tökülən qanlara görə Vətən və Xalq qarşısında məsuliyyətdən yaxa qurtara bilməzlər! Xalqa təmənnasız xidmət edənlərin qiymətini isə gec-tez xalq özü verəcək...

Azərbaycan Respublikası Prezidentliyinə namizəd Əbülfəz Elçibəyə veriləcək suallar:

1. AXC-nin aşağı eşelonunda vəziyyət o qədər də yaxşı deyil. Sirr deyil ki, hərəkata təsadüfi qoşulan və ondan şəxsi mənafeyi üçün bu günə qədər də istifadə etməkdə olan adamlar çoxdur. AXC seçkilərdə qələbə qazanarsa, bu adamlar daha da qol-qanad açа və nəticədə AXC-nin nüfuzuna xələl gələ bilər.

2. Siz namuslu və düz adamsınız. Sizcə, prezident olmaq üçün bu keyfiyyətlər kifayətdirmi?

3. AXC indiyə kimi mövcud hökumət qarşısında iqtisadi tələblər irəli sürməyib...

4. Siz çox gözəl bilirsiniz ki, Azərbaycanı düşdüyü böhrandan çıxara bilməyəcəksiniz. Özünüzü qurban verməyin mənası varmı?

5. Doğurdanmı prezidentliyə namizədliyinizi irəli sürməyə Sizi məcbur ediblər?

6. Hərb yolu ilə itirilmiş torpaqları, Sizcə, diplomatik yolla qaytarmaq mümkündürmü?

7. Rusiyanın, Türkiyənin, İranın və Qərb dövlətlərinin Qafqaz bölgələrində hərəsinin öz mənafeyi var. Bu mənafe müxtəlifliyindən Azərbaycan necə istifadə etməlidir?

Bu suallar Ə.Elçibəyə 1992-ci ilin may ayında təqdim olunmuşdu.

"MİP",
09 fevral 1995-ci il

Ağzını başı boyda açmış xırdaca balıqların dərdidir mənim dərdim...

52 nömrəli avtobus 4-cü mikrorayonda Pişəvəri küçəsi ilə tramvay yoluna çatıb metronun "Memar Əcəmi" stansiyasına tərəf uzanan H.Əliyev küçəsinin başlanğıcındakı yoxuşu qalxanda... sanki tora düşmüş balıq kimi çapalayıram. Qəribə bir darıxma tutur məni – qalstukumu boşaldıram, pencəyimin yaxasını açıram, onsuz da darısqal olan oturacaqda yanımdakını bir az da sıxıram, qışın şaxtasında belə pəncərəni aralamağa məcbur oluram, boğuluram... "Memar Əcəmi stansiyasına qədər davam edən bu halsızlığım metroya girəndə yavaş-yavaş düzəlir.

Bu vəziyyətə düşməyimin səbəbini əvvəllər özüm də dərk etmirdim. Gümanım çox yerlərə gedirdi. Maqnit sahəsi, NUO, sehrli qüvvə, nə bilim daha nələr... Psixiatr həkimə də müraciət etmişdim. O da bir şey anlaya bilməmişdi. Dərdimi başqalarına söyləməyə də utanırdım. Qərara gəldim ki, o yerə çatanda öz üzərimdə eksperiment aparım. Beləliklə, avtobusla oradan keçəndə bir dəfə ayaqüstə durdum, bir dəfə oturdum, bir dəfə başımı qatmaq üçün "Azərbaycan" və "Kokteyl" qəzeti oxudum, bir dəfə üzümü yana çevirdim, bir dəfə...

Eh, xeyri olmadı ki, olmadı. İstər-istəməz, özümdən asılı olmadan o yerə çatanda bütün diqqətimlə ətraf mühitə hakim kəsildim, nəzərlərimlə nəyisə axtardım – gözümə qor dolmuş kimi gözüm acışdı, tora düşüb çabalayan balıq kimi pul-pul oldum,

suya həsrət qalan dodaq kimi çat-çat oldum, yandım-yaxıldım, çabaladım – boğulma tutdu məni yenə!..

Bu nə sitəmdi, Allah?! Bu əzabın sonu olacaqmı? Bu sirri bir kimsə açacaqmı?

Düz deyiblər ki, hər bir insanın ən yaxşı loğmanı o özüdür! Axır ki, bu sirri tapdım! Demə, məni haldan-hala salan, əsəblərimə təsir edən xırdaca bir şeymiş: yolun kənarındakı barıdan başlayıb "Memar Əcəmi" stansiyasınadək beşmərtəbə evlərin divarlarına tünd yağlı boya ilə yazılmış və "Daşnakstan!" sözünün dəhşətli bir ilğımını yaradan "Şpaklyovka" sözü imiş!... İlahi, adicə bir sözün nə qədər qüdrəti varmış!..

Çayda balıq tutanlar yaxşı bilir: toru dövrələmə suya salıb çəkdikcə bir neçə adam da çayın digər yerlərinə daşlar atır ki, balıqlar özlərini tora çırpsın və ilişib qalsınlar. Sahilə çıxardığımız torun içində çabalayan balıqlar yadıma düşür tez-tez. Pulları quruyub bozaran xırdaca balıqların ağızlarını başları boyda açıb havadan bir nəmişlik udmaları gözlərim önünə gəlir hərdən. Eh... Sən demə, uşaqlıqdakı günahlarım imiş bu gün mənim halımı pozan.

Yoxuşdan başlayıb, "Memar Əcəmi" stansiyasına çatanadək "Şpaklyovka-300 m", "Şpaklevka-200 m", "Şpatlevka-150 m", "Şpaklovka-50 m", "Şpaklyovka sexi!" sözlərinin torunda çırpına-çırpına, böyür-başıma düşən daşkəsəkdən qoruna-qoruna... darıxma tuturmuş məni, boğulurammış!..

Bu dərdimin səbəbini biləndən sonra özümü o qədər danladım ki... Əşi, mənə nə düşüb e... Odur bax, gör bir kimsənin vecinədir? Hamı oxların göstərdiyi yola (tora) düşüb bir ovuc "şpaklyovkasını" alır, yırtıq-deşiyini tutur. Bunu polisi də görür, MİS-i də, misgəri də.

Qət elədim ki, daha fikir verməyəcəyəm. Ancaq oradan keçəndə... yenə də halım pisləşdi, əvvəlkindən də betər. Gözlərimə tor gəldi, bir udum su üçün ağzını başı boyda açmış xırdaca balıqlar kimi partlamaya düşdüm.

***

Bir aydır ki, yolumu dəyişmişəm. Daha nə 52-yə minirəm, nə o yoxuşu qalxıram, nə başımı qatmaq üçün "Azərbaycan" qəzeti alıram, nə də partlamaya düşürəm. Başqa marşrut seçmişəm. Necə deyərlər: "Nə gözlərim səni görsün, nə könlüm qubar eyləsin!.."

"Millət",
01 oktyabr 1994-cü il

1 oktyabr ÇXR-in yaranmasının 45-ci ildönümüdür

Çin Xalq Respublikası

Ərazisi 9.6 milyon kv. km, quru sərhədi 22800 km, əhalisi 1.17 milyard nəfər, paytaxtı Pekin (11 milyon), ən böyük şəhəri Şanxay (14 milyon)

ÇXR-İN DÖVLƏT QURULUŞU

Ümumçin Xalq Nümayəndələri Məclisi (ÇXNM) dövlət hakimiyyətinin ali orqanıdır. O, qanunvericilik funksiyasını yerinə yetirir, ali dövlət vəzifələrinə namizədlər seçir və təsdiq edir. ÇXR sədrini və onun müavinlərini seçir. Baş nazirin və Dövlət Şurasının digər üzvlərinin namizədliyini təsdiq edir. Ali Xalq Məhkəməsinin sədrini və Ali Xalq Prokurorluğunun Baş prokurorunu da seçmək onun səlahiyyətindədir.

İldə bir dəfə ÇXNM-in sessiyaları çağırılır. Sessiyalararası müddətdə ÇXNM-in funksiyalarını onun Daimi Komitəsi (DK) həyata keçirir. DK-nın tərkibinə Sədr, sədrin müavinləri, məsul katib və üzvlər daxildir. Hazırda ÇXNM DK-nın Sədri Syao Şidir.

ÇXR-in Sədri qanunları elan edir, Baş naziri, onun müavinlərini və Dövlət Şurasının üzvlərini təyin və azad edir; xarici ölkələrlə müqavilələr bağlayır və onları təsdiq edir; xarici ölkələrin diplomatik nümayəndələrini qəbul edir və ÇXR-in səlahiyyətli diplomatik nümayəndələrini geri çağırır. Hazırda ÇXR-in sədri Tszyan Tsuemindir.

Dövlət Şurası, başqa sözlə, Mərkəzi Xalq Hökuməti, ali inzibati dövlət orqanıdır. ÇXNM-in və onun Daimi Komitəsinin qəbul etdiyi qanun və qərarları həyata keçirir. Onlar qarşısında məsuliyyətlidir və hesabat verir. Dövlət Şurası öz səlahiyyətləri

daxilində inzibati ölçü götürmək, hüquqi-inzibati aktlar hazırlamaq, qərar və göstərişlər vermək hüququna malikdir.

Dövlət Şurasının tərkibinə Baş nazir, onun müavinləri, üzvlər, nazirlər, komitə sədrləri, baş müfəttiş və məsul katib daxildir. Hazırda Dövlət Şurasının Baş naziri – Li Pendir.

Mərkəzi Hərbi Şura ölkənin bütün silahlı qüvvələrinə rəhbərliyi həyata keçirir. Buraya Çin Xalq Azadlıq Ordusu, silahlı polis qoşunları və xalq könüllüləri daxildir.

Ali Xalq Məhkəməsi üçpilləli struktura malikdir; ali, orta və aşağı pillə. ÇXNM-in və onun DK-nın qarşısında məsuliyyət daşıyır, bütün pillələrdən olan yerli xalq məhkəmələrinin, hərbi məhkəmələrin işinə nəzarət edir.

Ali Xalq Prokurorluğu qanunlara riayət olunmasına nəzarət edən dövlət orqanıdır. Heç bir inzibati orqan, ictimai təşkilat, yaxud ayrı-ayrı şəxslər prokurorluğun qərarlarına təsir göstərə bilməzlər.

ÇXR-İN SİYASİ QURULUŞU

Çin Kommunist Partiyasından (ÇKP) başqa, Çində "Demokratik partiyalar" adı altında birləşən 8 siyasi təşkilat da fəaliyyət göstərir. Onlar aşağıdakılardır:

Çin Homindan İnqilab Komitəsi,
Çin Demokratik Liqası,
Çin Demokratik Quruculuq Assosiasiyası,
Çində Demokratiyanın İnkişafına Yardım Assosiasiyası,
Çin Fəhlə-Kəndli Demokratik Partiyası,
Çin Ədalət Partiyası,
3 sentyabr Cəmiyyəti,
Tayvan Demokratik Özünüidarəetmə Liqası.

Çin Xalq Siyasi Məsləhət Şurasında birləşən bu partiyalar dövlət siyasətinin əsas istiqamətləri, xalqın sosial-hüquqi problemləri ilə bağlı məsləhətləşmələr aparır, sosioloji sorğular keçirir və hökumətə təkliflər verir.

Bundan başqa, həmin partiyaların nümayəndələrinin bir çoxu Ümumçin Xalq Nümayəndələri Məclisinin deputatıdır və mühüm hakimiyyət strukturlarında təmsil olunmuşlar. Onlar nə dövlətə, nə də

hakim partiya olan ÇKP-yə qarşı müxalifətdədir, əksinə, ölkənin siyasi həyatında birgə fəaliyyət göstərirlər.

ÇXR-İN İNFORMASİYA AGENTLİKLƏRİ VƏ QƏZETLƏRİ

Çində iki informasiya agentliyi – Sinxua və Çjunqo (Çin Mətbuat Agentliyi) fəaliyyət göstərir. Sinxua dövlət informasiya agentliyinin baş idarəsi Pekində yerləşir. Bütün əyalətlərdə (Tayvandan başqa), muxtar rayonlarda, iri şəhərlərdə və yüzdən çox ölkədə agentliyin şöbələri fəaliyyətdədir. Sinxua agentliyi ölkə daxilinə və xaricə 6 dildə: çin, ingilis, fransız, ispan, rus və ərəb dillərində informasiyalar və foto informasiyalar göndərir.

Çjunqo agentliyinin də baş idarəsi Pekində yerləşir. Teletaypla və aviapoçtla hər gün çin dilində nəşr olunan kütləvi informasiya vasitələrinin materiallarını yayır.

ÇKP MK-ın orqanı "Jenmin Jibao" qəzeti ilə yanaşı, Çində müxtəlif sahələri əhatə edən 1755 qəzet nəşr olunur.

ÇXR-də 500-dən artıq nəşriyyat fəaliyyət göstərir. 1992-ci ildə bu nəşriyyatlar 6,37 mlrd. nüsxə kitab və 2,32 mlrd. nüsxə jurnal çap etmişdir.

DOĞUMUN PLANLAŞDIRILMASI DÖVLƏT SİYASƏTİDİR

Əhalisinin sayına görə Çin dünyada birinci yeri tutur. ÇXR yarandığı gündən əhalinin artım səviyyəsini daim nəzarət altında saxlayıb. Demoqrafik partlayışla üzləşən Çin dövləti 70-ci illərdən başlayaraq doğumu planlaşdırmağa başlayıb. Görülmüş tədbirlər nəticəsində doğum əmsalı tədricən enmişdir. Belə ki, 1969-cu ildə bu əmsal 34,11 faiz olduğu halda, 1992-ci ildə 18,24 faiz olmuşdur. Əhalinin təbii artımı isə 26,08 faizdən 11,6 faizə düşmüşdür.

ÇİN ÇOXMİLLƏTLİ DÖVLƏTDİR

Çində 56 millətin nümayəndəsi yaşayır. Onlardan əhalisinin sayına görə ən böyüyü xantslardır. Xantslar bütün əhalinin 91,96 faizini təşkil edirlər. Qalan 55 millət Çin əhalisinin 8,04 faizini təşkil edir. Xants millətindən başqa digər millətlərə milli azlıq deyimi qəbul olunub. 23 millətin öz yazılı əlifbası var. Kompakt yaşayan bütün milli azlıqlar muxtar rayonlarda birləşiblər. Milli adət və ənənələrə, müxtəlif dinlərə Çində hörmətlə yanaşılır. SSRİ ərazisində öz yazılı

əlifbasını itirmiş qırğızların Çində əlifbası mövcuddur. Çində rəsmi dil xants dilidir.

TAYVAN PROBLEMİ

Çində 5000-ə qədər ada var. Tayvan adası Çinin materik hissəsinin cənub-şərq sahillərində yerləşir. Tayvan Penxu adalarından və irili-xırdalı 80-ə yaxın adadan ibarətdir. Ümumi sahəsi 36 min kv.km-dir.

Tayvan qədim Çin ərazisindədir. Yapon-Çin müharibəsi nəticəsində 50 illik müddətdə zorla Yaponiyanın ərazisinə qatılmış Tayvan və Penxu adalarını 1945-ci ildə Çin xalqı geri qaytara bildi. Lakin 1949-cu ildə ÇXR elan olunarkən Homindan hökuməti Tayvanı özünə sığınacaq kimi seçib orada yerləşdi. 1950-ci ildə ABŞ 7-ci donanmasını Tayvana və Tayvan körfəzinə yeritməklə "Qarşılıqlı təhlükəsizlik müqaviləsi" imzaladı və faktiki olaraq Tayvanı müstəqil dövlət kimi tanıyıb Çindən ayırdı.

Lakin Çin dövlət rəhbərlərinin beynəlxalq təşkilatlardakı uzunmüddətli təkidli tələbləri nəticəsində ÇXR-in bütün qanuni hüquqlarının bərpası barədə qətnamə qəbul olundu və Tayvan BMT-dən çıxarıldı. 1972-ci ildə ABŞ prezidenti Nikson ÇXR-də olarkən Çin-Amerika "Şanxay Kommunike"si elan olundu. Bununla da ABŞ hökuməti ÇXR-i Çinin yeganə qanuni hökuməti kimi tanıdıqlarını və Tayvan hökuməti ilə diplomatik əlaqələri kəsdiklərini elan etdilər.


1949-cu ildən bu günədək Tayvan Syanqan (Honq-konq) və Aomın (Manao) adaları Çinin birləşdirilməsi yolunda problem olaraq qalır. Den Syaopin tərəfindən irəli sürülmüş "bir dövlət, iki quruluş" ideyası Çinin birləşdirilməsini, sosialist quruluşu ilə kapitalist quruluşunun yanaşı yaşamaq ehtimalını və sağlam rəqabət nəticəsində hansı quruluşun üstün olduğunu nümayiş etdirmək baxımından maraqlıdır.

1981-ci ildə ÇXNM DK-nın Sədri S.Tszyanın Sinxua agentliyinin müxbirinə müsahibə verərkən Tayvanın sülh yolu ilə Çinə birləşdirilməsinin 9 bənddən ibarət təkliflərini elan etmişdi. O vaxtdan bəri Çinlə Tayvan arasında münasibətlərin xeyli yumşaldığı və əlaqələrin artdığı müşahidə olunur.

Digər ölkələrlə diplomatik əlaqələr yaradan Çin dövlət xadimləri partnyorlarına çox nəzakətlə anladırlar ki, dünyada bir Çin dövləti var, bir də Tayvan əyaləti – hansı ki, ÇXR-in ayrılmaz hissəsidir. ÇXR ilə diplomatik əlaqələr yaratmaq istəyən hər hansı ölkənin hökuməti bəyan etməlidir ki, Tayvan inzibati orqanları ilə heç bir diplomatik əlaqəyə girməyəcək və ÇXR hökumətini yeganə qanuni hökumət kimi tanıyacaq. Çin hökuməti "iki Çin və bir Tayvan" yaratmaq fikrinə düşənlərə öz qəti mövqeyini bildirir.

Bu prinsiplər əsasında Çin dövləti bu günədək dünyanın 170-ə yaxın ölkəsi ilə diplomatik əlaqə yaratmışdır.

ÇXR-İN DÖVLƏT ORQANLARI



"Gün" qəzeti,
14-20 yanvar 2000-ci il

İtirilən nəslin harayı

Yetmiş-səksəninci illərdə əsrin sonuncu onilliyi üçün həyati mübarizələrə hazırlanan bütöv bir nəsil məhv edilmək üzrədir. 90-cı onillik əvvəlki iki onilliyin ölüm kürsüsünə çevrildi. Gələcəyə inamı, ümidi qırılmış bu nəsil beyninin ən dərin qatlarına qısılmış qurdun bir gün qımıldanacağına güvənib mürgü vurur. Keyləşmiş qurdlarınsa tərpənəsi halı qalmayıb...

Fəhlə-kəndli sinfi ləğv edilib

Uzun illər kapitalist cəmiyyətinin antoqonist sinifləri kimi təqdim olunan və onun məhvi üçün baş sındırıb yollar arayan marksizm-leninizm kalssikləri fəhlə-kəndli və burjua siniflərini ləğv edə bilmədilər... Sosializmdə də siniflər öz mövcudluğunu saxladı və etiraf etmək lazımdır ki, onlar tam əməkdaşlıq şəraitində münasibətlərini inkişaf etdirdilər. Bu münasibətlər xalqın və dövlətin tərəqqisində əsaslı dönüşlər yaratdı.

Azərbaycanda bu gün nə baş verir? Böyük klassiklərin təsəvvürlərinə belə gətirə bilməyəcəkləri bir formasiya yaranıb. Tarixdə analoqu olmayan bir formasiya. Fəhlə-kəndli sinfi bir sinif kimi ləğv edilib. İstər kapitalist, istərsə də sosialist ideoloqların nəzəri mülahizələrində cəmiyyətin inkişaf qanunauyğunluğunda siniflərin mövcudluğu inkar edilmirdisə, Azərbaycan bu gün heç bir elmi-nəzəri əsaslara söykənmədən ictimai fikir tarixində misli olmayan praktik yeniliklər edir – birsinifli cəmiyyət bərqərar olur... İri burjua və xırda ticarətçilər cəmiyyəti.

Burjuaziya iri kapitalı əlində cəmləşdirib. Kənd təsərrüfatı iflic hala salınıb. Dünya İnkişaf Bankının səyləri zahirən bu sahəni dirçəltməyə yönəlsə də daxili burjuaziyanın maneələri göz

qabağındadır. Kəndli öz qarnını doyuzdurmaq üçün torpaqdakı parazitlərlə yanaşı, burjua parazitləri ilə də əlbəyaxadadır. Azərbaycan başdan-başa topdansatış bazasına çevrilib. Daxili məhsulun istehsalında və onun emalında burjuaziya maraqlı deyil. Xaricdən gətirilən hər dürlü məhsul onun nəzarətindədir və bu məhsulların pərakəndə satışına da özü nəzarət edir.

İri sənaye obyektləri, zavod və fabriklərin fəaliyyəti dondurulub. Yeraltı, yerüstü sərvətlər xammal şəklində xaricə ötürülür. Emal sənayesi ilə məşğul olmaq istəyən tək-tük sahibkarlar dərhal sıradan çıxarılır. Məmləkəti bir sinif – burjua sinfi idarə edir. Ölkənin iqtisadi strategiyası hələ uzun illər bu sinfin rəqabətsiz olaraq hakim sinif kimi qalacağına zəmanət verir. Məhz dövləti də bu sinfin müdafiə edəcəyi şəksizdir.

Fəhlə-kəndli sinfinin dirçəlməsi bu sinfə sərf etmir. Adamların başları nə qədər çörək axtarışına qarışsa, hökmranlıq etmək bir o qədər asan olar. Adamlar nə qədər bir-birindən aralı gəzsə, onları əzmək bir o qədər rahat olar. Əks təqdirdə, bu antaqonist siniflərin yaranmasına və onların rəqabətinə gətirib çıxara bilər. Fikrini işlə, halal zəhmətlə dolanmağa məşğul edən bütöv nəslin fəhlə və kəndlisi beləcə məhv olmaqdadır...

İndi siniflər əvəzinə cəbhələr mövcuddur

Ayrı-ayrı siniflərə mənsub itirilməkdə olan nəslin nümayəndələri indi müxtəlif cəbhələrdə - hakim sinfə müxalif olan cəbhələrdə birləşiblər. Ona görə də hakim sinfin hədəfi konkretdir. Birinci fazada sinifləri ləğv edən burjuaziya yeni bir rəqiblə üzləşib. Bu rəqiblərin birləşdiyi cəbhə öz sosial tərkibi ilə daha genişdir – burada fəhlə və kəndlilərlə yanaşı (ikinci nisbətən qeyri-aktiv təsir bağışlasa da), ziyalı təbəqəsi (əksəriyyət təşkil edir), xırda alverçilər, sosial mənşəyindən asılı olmayaraq hakimiyyətdən küsənlər, gələcəyə tamamilə ümidini itirmişlər, eləcə də əldən getmiş hakimiyyət nostalgiyası ilə yaşayanlar və həqiqətən ideoloji fanatlar.

Amma hakim sinfin bu müxalif cəbhədəki adamlarla mübarizəsi nisbətən daha asandır. Düzdür, mübarizə üsullarının bütün arsenalından istifadə zərurəti geniş olsa da cəbhəni dağıtmaq o qədər də çətin deyil. Burada əsas diqqət əsasən liderlərin arasında rəncidəlik salmağa, müəyyən vədlərlə onları aldatmağa və bütöv müqavimət hərəkatı arasında ideoloji təxribatlara yönəldilib. Beləliklə, hərəkatın siyasi-mənəvi dayaqları əsas zərbə hədəfləridir.

Əslində, Azərbaycan müxalifətinin aparıcı qüvvələrinin heç də iqtidardakılardan artıq hörmətə malik olmamaları hakim sinfin işini bir az da asanlaşdırır. Çünki xalqın hər ikisindən ağzı yanıb. Respublikadakı son seçkilər onların istək və məqsəd eyniliklərinin əsl barometri oldu. Prezident seçkilərində boykot çağırışına məhəl qoymayan AMİP-in acığına bələdiyyə seçkilərində iri partiyalardan AMİP və ADP-dən başqa bütün müxalifət partiyaları iştirak etdi. Hər iki halda müxalifət cəbhəsində rəncidəlik salan hakim sinif qalib çıxdı. Nəticədə partiya liderlərinin belə ambisioz hərəkətləri xalqa baha başa gəldi.

Qurda güvənən nəsil

İtirilməkdə olan nəslin övladları bu gün dilemma qarşısında qalıblar: hansı səmtə getsinlər? İqtidara, yoxsa müxalifətə sarı? Hansı daha şərəflidir, hansı daha gərəklidir? Onların gözləri valideynlərinin beynində sıxılıb bir küncə qısılmış qurda dikilib. Bu qurdlar isə tərpənmək bilmir ki, bilmir...

"Gün" qəzeti,
19-26 noyabr1999-cu il

Bələdiyyə seçkiləri, Çəmbərəkənd və makler deputatlar

Bələdiyyə seçkilərinin ikinci mərhələsi artıq başa çatmaq üzrədir. Birinci mərhələ - bələdiyyələr üzrə seçki komissiyalarının formalaşması prosesi, insafən əvvəlki seçkilərdəki komissiyalara nisbətən o qədər də qalmaqala səbəb olmadı. İctimai birliklərin, siyasi partiyaların nümayəndələri komissiyaların təşkilində kifayət qədər yaxından iştirak etdilər. Bu, sonrakı mərhələdə - namizədlərin imza toplanışında öz təsirini göstərdi. Belə ki, özünü bələdiyyə üzvü görmək istəyən hər bir kəsə eyni dərəcədə şərait yaradıldı. Əksər seçki komissiyalarındakı işgüzar, sağlam mühit, demək olar ki, heç bir namizədin əsaslı şikayətinə rəvac vermədi. Müşahidələr göstərir ki, tamamilə müstəqil, yad təsirlərdən uzaq olan qurumlarda siyasi mənsubiyyətindən, sosial mövqeyindən asılı olmadan iqtidar və müxalif qüvvələr asanlıqla ümumi dil tapa və eyni fikirə gələ bilirlər. Çox istərdik ki, seçki kompaniyasının əvvəlki iki mərhələsində şahidi olduğumuz ümumi iş naminə əməkdaşlıq və obyektivlik sonrakı mərhələdə də davam etdiriləydi.

Bəs bələdiyyə seçkilərinə əhalinin münasibəti necədir?

Əvvəla deyim ki, bələdiyyələr haqqında əhali çox səthi bilgilərə malikdir. İstər dövlət, istərsə də digər tabeçilikli mətbu orqanlarda, radio və televiziyalarda bələdiyyələr haqqında məlumatlar ancaq son bir-iki həftədə görünməyə başlayıb. Çox təəssüflər olsun ki, Milli Məclisin bələdiyyə seçkiləri haqqında qanununu hazırlayan komissiyasının əməkdaşları bu sahədə

passivlik göstərmiş və əhalinin ibtidai təsəvvürlərinə əhəmiyyətli əlavələr edə bilməmişlər. Bunun nəticəsidir ki, bu gün hətta bir sıra ərazi komissiya sədrləri belə, bu seçkilərin mahiyyətini doğrultduğunu dərk edib əhali və eləcə də namizədlər arasında izahat və maarifləndirmə işləri apara bilmirlər. Namizədlərin imza toplanışı kampaniyası göstərdi ki, bu seçkilərdə əhalinin əksər hissəsi nəinki biganəlik və naşılıq göstərir, eyni zamanda növbəti dəfə aldanılacaqlarından ehtiyatlanaraq bir daha xəcalət hissi keçirməmək üçün inamsızlıq nümayiş etdirir. Bu, bir tərəfdən əhalinin məlumatsızlığı ilə bağlıdırsa, digər tərəfdən, obyektivlik naminə demək lazımdır ki, dəfələrlə öz seçdiyinin (bəlkə də bu sözü dırnaqda yazmaq daha doğru olardı) onun etimadını doğrultmaması ilə əlaqədardır.

Amma ölkənin demokratik inkişafı üçün bir fakt olduqca önəmlidir – seçkilər nə qədər xırdalandıqca seçicilər ictimai və dövləti proseslərə bir o qədər ayıq və məsuliyyətli yanaşacaqlar. Öz seçdiklərini ərazilərdə yaxşı tanıyan vətəndaşlar, təbii ki, müəyyən problemlərin həllində konkret ünvan və birmənalı cavab tapmaqda çətinlik çəkməyəcəklər.

Artıq üçüncü mərhələ - namizədlərin qeydiyyatı və təbliğat kampaniyası başlayıb. Respublikamızda ilk dəfə keçirilən bələdiyyə seçkiləri əhalinin güzəranı, sosial problemlərin həlli, xalqın idarəetmə işlərinə bilavasitə qatılması baxımından olduqca vacib məsələdir və həyati bir əhəmiyyət kəsb edir. Xalq bu seçkilərə olan inamsızlığını qırmalı, fəallaşmalı və seçki məntəqələrində öz seçimini etməlidir. Bu seçim təsadüfi, təsirli olmamalıdır. Hər bir seçici səs verəcəyi namizədi yaxşı tanımalı, onun müsbət və mənfi keyfiyyətlərinə bələd olmalıdır.

Bəzən Çəmbərəkənd qəbiristanlığının ən yüksək zirvəsindən üzüaşağı baxanda Milli Məclisin qarşısında qaynaşan makler deputatları, qara şüşəli xarici maşınlardakı qara eynəkli hökumət məmurlarını görəndə bu xalqın özbaşına yaşadığını, müşküllərin qanunlar yox, fərdlər tərəfindən "həll olunduğunu" dərk etmək... insanı vahiməyə salır. Anlaya bilmirsən ki, bu xalq

öz taleyinə niyə bu qədər biganədir. Dövlət o zaman güclü olur ki, onun vicdanlı məmurları olsun. Bir halda ki, bu məmurları bilavasitə xalq özü seçir, bəs bu soyuq münasibət haradandır?

Dekabrın 12-si bələdiyyələrə seçkilər günüdür. Biz bu gün pis-yaxşı qəbul olunmuş qanunlarımızın icraçılarını seçəcəyik. Gələcək həyatımızın ağlı-qaralı rəngləri bu gündən etibarən çəkilməyə başlanacaq. 8 milyonluq xalqımızın seçki hüququ olan hər bir vətəndaşı bu rənglərin min bir çalarıdır. Gəlin hamılıqla rəngləri tündləşdirməyə heç kəsə imkan verməyək. Seçkiyə getməmək, seçimdə yanılmaq gələcəkdə fəlakətlərin başlanğıcı ola bilər. Gələcəkdə qalan yerimizi tutmaq bu gün yaşamağımız deməkdir...

"Gün" qəzeti,
22-29oktyabr1999-cu il

Elmin işığını sönməyə qoymayaq

Gürcüstandakı Azərbaycan məktəblərində vəziyyət necədir?

Əməkdaşımız Gürcüstan Təhsil Nazirliyinin Aşağı Kartli quberniyası Xalq Təhsili İdarəsinin Azərbaycan məktəbləri üzrə inspektoru Ələddin Qarabağlı ilə görüşüb söhbət etmişdir. Ə.Qarabağlı demişdir:

- Hazırda Gürcüstan Respublikasında 168 Azərbaycan məktəbi fəaliyyət göstərir. Məktəblər əsasən Marneuli, Bolnisi, Qardabani, Dmanisi, Tetriskaro, Zalqa, Rustavi, Tbilisi, Kaxeti, Saqareco, Telavi və Laqodexini əhatə edir. Bu məktəblərdə 41 minə yaxın şagird təhsil alır.

Əvvəllər təhsil müəssisələrində vəziyyət o qədər də yaxşı deyildi. Müəllimlər aylarla maaş ala bilmirdi, şagirdlərin dərsə davamiyyəti zəifləmişdi, dərsliklər çatışmırdı, məktəb binaları sökülüb-dağılırdı. Son vaxtlar vəziyyət nisbətən yaxşılaşıb. Gürcüstan prezidentinin tez-tez azərbaycanlılar yaşayan bölgələrə səfərləri maarif sistemində də müəyyən problemlərin həll olunmasına öz təsirini göstərmişdir. İndi nəinki köhnə məktəblərin saxlanılmasına diqqət artırılıb, eyni zamanda yeni məktəblərin açılmasına da başlanılmışdır.

Məsələn, son illərdəki əhali axını ilə bağlı 9 illik təhsilə keçən Yırğançay kəndindəki orta məktəb hazırda yenidən orta məktəb statusu almışdır. Bolnisi rayonundakı sərhəd zonasında yerləşən Çataxda ibtidai məktəbin, Qardabani rayonunun Nabeçi kəndindəki orta məktəbin, Tetriskaroda ikinci ibtidai məktəbin açılması və Tbilisi şəhərinin Saburtalo məhəlləsindəki natamam

orta məktəbin orta məktəbə çevrilməsi bir daha onu göstərir ki, ölkə rəhbərliyi azərbaycanlılara qarşı biganə deyil. Tbilisidə hazırda iki orta məktəb fəaliyyət göstərir.

Bununla yanaşı problemlərlə də üzləşirik. Ancaq bu problemlər təkcə Azərbaycan məktəblərinə xas deyil. Gürcü məktəblərində də çox problemlər var.

Bizim məktəblərin problemlərinin həllinə Azərbaycan respublikası çox kömək edir. Şəxsən Prezident Heydər Əliyevin, təhsil naziri Misir Mərdanovun Gürcüstandakı azərbaycan məktəblərinə daimi qayğısı danılmazdır.

Bunlardan ən başlıcası dərslik məsələsidir. Keçən tədris ilində Azərbaycandan humanitar yardım şəklində göndərilən 20 adda dərs vəsaiti ehtiyacımızın 23%-ni ödəmişdisə, bu il artlıq göndəriləcək 30 adda dərs vəsaiti ehtiyacımızın 30%-ni ödəyəcək.

Bundan əlavə, bildiyiniz kimi, əvvəllər X-XI siniflərdə tədris pullu idi. Bu məsələ parlamentdə müzakirə edilmiş və əhalinin maddi-sosial vəziyyətini nəzərə alıb yeni dərs ilindən orta məktəblərdə pullu tədrisin ləğvi haqqında qərar qəbul olunmuşdur.

Mən üzümü Gürcüstandan kənarda, xüsusilə Azərbaycanda yaşayan eloğlularımıza tutaraq bütün məktəblilər, valideynlər, təhsil işçiləri adından deyirəm ki, doğma el-obanızı unutmayın, məktəblərə dərslik sarıdan köməyinizi əsirgəməyin, kəndlərimizdəki ziya işığının sönməsinə yol verməyin. Onlar bizim gələcəyimizdir.

"Unikal" qəzeti,
27-31dekabr1998-ci il

"Dubay toyuğu yeyəndən pəhləvan olmaz"

Müəllim Həkimov Borçalının Aşağı Saral kəndindəndir. 1977-ci ildə Bakı Energetika Texnikumunu, sonralar isə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirib. Elə tələbəlik illərindən də həyatını idmana bağlayıb. Əvvəlcə güləşlə məşğul olub. Bir neçə mötəbər yarışda uğurlu nəticələr göstərib. 1982-ci ildə isə...

Bakının Montin parkında istedadlı pəhləvan Kazbek Məhərrəmovun tamaşaları gedirdi. Təsadüfən bu tamaşanın iştirakçısına çevrilən Müəllimin həyatında kəskin bir dönüş yarandı. O, pəhləvanın göstərdiyi nömrələri seyr edə-edə bir anlığa uşaqlığına, Borçalının toy-düyünlərinə, nənəsinin şirin-şəkər nağıllarına qayıtdı, bığıburma kənd cavanlarının qurşaq tutması, şalban sındırması xəyalında kino lenti kimi fırlanmağa başladı. Və...

Çox keçmədi ki, Moskva, Kemerovo vilayəti, Krasnoyarsk diyarı, Rostov vilayəti, Tbilisi, Batumi, Borçalı, İstanbul, Qars, Ərzurum, İqdır və neçə-neçə adını çəkmədiyimiz şəhər və qəsəbələr Azərbaycan pəhləvanı Müəllim Həkimovun el sənətindən bəhrələnən heyrət doğurucu çıxışlarının tamaşaçıları oldular.

...On ilə yaxındır ki, Müəllimi tanıyıram. Onun idman və şəxsi həyatına yaxından bələdəm. Xarici görünüşü ilə, Yaradanın ona bəxş etdiyi gücü ilə daxili dünyası qətiyyən bir-birinə uyuşmur. İlk baxışda elə bilirsən ki, çox təkəbbürlü, özündənrazı adamdır. Ancaq ilk ünsiyyətdəcə görürsən ki, duyumcul,

ürəyiyuxa, deyib-gülən, zarafatcıl, sadə bir insandır. Öz sənət dostlarına çox səmimiyyət və qayğı ilə yanaşır. Özünüreklamı, gözə soxulmağı xoşlamır. Güvənc yeri talenin qisməti və başının salamatlığıdır. Böyüklərə hörmət, uşaqlara məhəbbət, Yaradana itaət göstərir. Son vaxtlar bu sözləri yaman tez-tez təkrarlayır: "Koroğlu demişkən, deyəsən, qılıncı qına qoymaq vaxtı yetişib axı!.."

Mən isə ona:

- Koroğlu o sözü altmışında-yetmişində demişdi, Rəşid pəhləvan ölənəcən o sözü dilinə almadı, sənə nə olub, ay sağolmuş... – deyirəm.

Müəllim yenə də zarafata salır:

- Aya, onlar yarar yeyirdi, yarar... Dubay toyuğu ilə bu millətdən daha çətin ki, pəhləvan yetişə...

Redaksiyadan: *El pəhləvanı Müəllim Həkimov haqqında daha ətraflı məlumat əldə etmək istəyirsinizsə, müəllifin "Gənclik" nəşriyyatı tərəfindən təzəcə çapdan çıxmış "Pəhləvan Müəllim" adlı kitab-albomunu oxuyun.*

“Unikal” qəzeti,
20-27mart1999-cu il

“Bu sifarişi İqrar Əliyevə kim verib: Rusiya, yoxsa İran?”

Sabiq təhsil naziri Firidun Cəlilovla müsahibə

(Müsahibənin əvvəli itib...)

Məsələn, özəl ali məktəblərin qeydiyyatından. O vaxtlar onlara lisenziya verilməsi məsələsini Təhsil Nazirliyinin Ali komissiyası həll edirdi. Bu funksiya alınıb Nazirlər Kabinetinin kollegiyasına həvalə olundu. Mən yaxşı bilirdim ki, burada məqsəd, maraq nədir və sonda nə ilə nəticələnəcək. Biz o vaxtlar cəmi 3 özəl ali məktəbə lisenziya vermişdik, ancaq elə ki Fərəməz Maqsudov bu işi öz əlində cəmlədi, 20-yə qədər təhsil müəssisəsinə lisenziya verildi. Burada təhsilin qeydinə qalmayan adamlar, sadəcə olaraq, öz maraqlarını güdürdülər. Bu gün də onun nəticələri göz qabağındadır.

Ümumiyyətlə, yeni qanunda, bayaq dediyim kimi, irəli getmək əvəzinə, geriyə addımlar müşahidə olunur. Bu da xüsusilə ali məktəbin pillələrinə aid bölmələrdə özünü göstərir. Məsələn, biz o vaxt bakalavr və magistr mərhələlərini ayırmışdıq və nəzərdə tutmuşduq ki, beş ildən sonra ilk magistr diplomu verilən dövrdə artıq elmlər namizədinə ehtiyac olmayacaq. Çünki magistr diplomunu müdafiə edən alimliyə namizəd olur və o magistrlərin içindən də kim elm dalınca getmək istəyirsə, hər bir institutun öz elmi şurası tərəfindən qəbul olunmuş sədləri keçəndən sonra doktoranturaya qəbul olunur. Doktorluğu müdafiə etdikdən sonra isə olur alim. Ancaq çox təəssüf ki, bu 7 ildə onu nə Təhsil Nazirliyi, nə ali məktəblər, nə də dövlət səviyyəsində həyata

keçirə bilmədilər. İndi isə istəyirlər aspiranturanı yenə saxlasınlar. Bu, artıq bütövlükdə o sistemi pozmaq deməkdir.

O ki qaldı Akademiya sistemində aspirantların hazırlanmasına, bunun çox asan yolu var və biz o vaxt bunu da fikirləşmişdik. Ümumiyyətlə, köhnə qanunda əsas məqsəd o idi ki, elmlə təhsilin inteqrasiyası güclənsin. Bu nə demək idi? İnstitutlarda deyək ki, bakalavr mərhələsi sırf daxildə baş verir, magistr mərhələsində isə akademik qüvvələr cəlb olunur və yaxud magistraturada oxuyanlar Akademiyanın elmi laboratoriyalarında ixtisas fənləri üzrə biliklərini artırırlar, alimlərlə birbaşa təmasda olurlar. Bu həm Akademiyadakı alimlərin təhsilə cəlb olunması, əlavə maaş yeri qazanması, həm də institutların elm mərkəzləri ilə əlaqələrinin gücləndirilməsi demək idi. Eyni zamanda Akademiya da aspirantsız qalmırdı. Bu məqsədlə mən o vaxt Akademiyanın Rəyasət Heyətinin üzvlərini də dəvət etdim. Rəhmətlik Ziya Bünyadov hətta dedi ki, 40 ildə birinci dıfıdir ki, belə məsələlərin həllində dövlət səviyyəsində bizim də fikrimizi öyrənmək istəyirlər – bu, çox kövrək məsələdir. Biz həmişə yuxarıdan verilən partiya tapşırıqlarını yerinə yetirmişik.

Ancaq yenə də təəssüflə qeyd etməliyəm ki, kimlərinsə təsirinə düşən 32 nəfər akademik bu təşəbbüsü düzgün qiymətləndirmədi və “Bakinski raboçi” qəzetində yazdılar ki, guya mən Akademiyanı bağlatmaq istəyirəm.

Köhnə təhsil qanununda nəzərdə tutduğumuz məsələlərdən biri də pedaqoji elmlərin inkişafı məsələsi idi. Bilirsiniz ki, SSRİ dövründə Pedaqoji Akademiya ancaq Moskvada idi. Madam ki, biz müstəqil olmuşuq, özümüzün Pedaqoji Akademiyamızın olmasına zərurət yaranmışdı. Bu məqsədlə pedaqoji texnikumlar, institutlar və Müəllimləri Təkmilləşdirmə İnstitututunun bazasında belə bir Akademiya yaradılmalıydı. Təəssüf ki, bunu vaxt azlığından nə biz həyata keçirə bildik, nə də indiki iqtidar. Bu, tək Misir Mərdanovun gücü çatası iş də deyil. Bu sahədə düşünülmüş dövlət siyasəti lazımdır.

Dəyişdirilmiş müddəalardan biri də rektorların seçki yolu ilə təyin olunmasıdır. Bu məsələdə də şəxsi maraqlar güclü çıxdı.

Son 5 il göstərdi ki, iqtidar təhsilə dırnaqarası münasibət göstərir. Halbuki təhsil millətin gələcəyidir, dövlətin strateji sahəsidir və bu sahə ilə milli kökə daha çox bağlı adamlar məşğul olmalıdır.

Keçmiş iqtidar dövründə 1 il müddətində 80-ə yaxın yeni dərslik yazılıb nəşr olundu. O dövrdən 6 il keçməsinə baxmayaraq, bir dənə də olsun, yeni dərslik yazılmayıb. Bundan əlavə, o vaxt yazılan dərsliklər, biz nəzərdə tutmuşduq ki, ilbəil təzələnəcək, təkmilləşəcək və yeniləri çap olunacaq. Təəssüf ki, bu proses də getmir.

- **Firudin müəllim, ali məktəblərə qəbulda test üsulunun bir sıra mübahisələrə səbəb olduğu bir vaxtda indi orta məktəblərdə buraxılış imtahanlarının da testlə aparılacağı qərara alınıb. Sizin buna münasibətiniz?**

- Test üsulunun müəyyən əngəllərlə üzləşməyinə baxmayaraq, ümumilikdə üstün cəhətləri çoxdur. Əslində, tələbənin ancaq qəbul imhatanlarında bu üsulla sınaqdan keçirilməsi yetərli deyil. Test üsulu mərhələli olmalıdır. Buraxılış imtahanlarında testin tətbiqi bu mərhələnin ilk pilləsi kimi bəyənilməlidir. Daha ciddi sınaqlara hazırlıq üçün bu, vacibdir.

- **Müəllimin sosial problemləri, konkret olaraq müəllimin maddi marağı, heç şübhəsiz ki, təhsilin mənəvi dayaqlarını şərtləndirən amillərdəndir. Bugünkü müəllim öz maraqları ilə bu dayaqlara söykək ola bilirmi?**

- Elə ən dəhşətlisi də odur ki, müəllimin sosial maraqları ilə bağlı müddəalar yeni qanunda əks olunmayıb. Müəllim daim dövlət qayğısında olmalıdır. Çünki cəmiyyət müəllimin ələyindən süzülür. Ələk yırtıq olanda ondan zir-zibil də keçə bilir. Eyni zamanda, bu gün cəmiyyətimizi sarmış korrupsiya, rüşvət, tayfabazlıq və s. xəstəliklərin törənməsində

müəllimlərin də günahını danmaq olmaz. Ona görə ki, müəllimin də əli çirklənib. Çirkli əldən isə məsum varlıqlar asanlıqla yoluxa bilir. İndi Siz məntiqi əlaqəyə fikir verin. Dövlət müəllimi sıxır – müəllim əliəyriliyə meyllənir – cəmiyyət mənəviyyatsızlaşır – cəmiyyət özünə uyğun dövlət formalaşdırır və proses yenidən həmin ardıcıllıqla davam edərək mənəvi iflas həddinə yetişir. Deməli, cəmiyyətin mənəvi iflasında bilavasitə dövlət günahkardır.

Bütün dövlətlərdə müəllimə güzəşt var. Məsələn, Türkiyədə əyalətdən gəlmiş müəllimə beşulduzlu mehmanxanalarda çox ucuz qiymətə yer ayrılır, restoranlarda müəllim kitabçasını göstərməklə güşəştli haqqla yemək alır, yaxud kitab dükanlarında 2-3 dəfə aşağı qiymətə kitab əldə edə bilir.

Bizim dövrümüzdə müəllimlərə edilən güzəştləri hətta qanuna da salmışdıq. İndi onu qanundan çıxarıblar. Başqa şəkildə də bu güzəştlər heç cür kompensasiya olunmayıb.

- **Firudin müəllim, əslində dediyimiz o müsbət cəhətlər respublikamızda fəaliyyət göstərən bir sıra özəl məktəblərdə də var. Yəni özəl məktəblərdə müəllimə verilən maaş dövlət məktəblərində verilənə nisbətən artıqdır. Bununla yanaşı, ciddi nizam-intizam, tədrisin keyfiyyətinə nəzarət, müəllim-şagird münasibətlərində təmizlik də mövcuddur. Yəni, qayğı ilə yanaşı, tələb və nəzarət də güclüdür.**

- Siz məsələni çox düzgün qoyursunuz. Məhz özəl müəssisələrdə rüşvətin olmaması müəllimə yaradılan şəraitlə birbaşa bağlıdır. Əlbəttə, mən bu sözü bütün özəl məktəblər haqqında deyə bilmərəm. Yenə də hansı məktəbdə dövlətin barmağı varsa, bu neqativ hallar onlara da xasdır. Mən inanıram ki, cəmiyyətin mənəvi özülünü quran müəllimin minimum ehtiyacı ödənilərsə, heç vaxt çirkli işlərə meyl etməz. Yadınızdadırsa, biz müəllimləri bütün kommunal, nəqliyyat

xərclərindən azad etmişdik. Və o vaxt məktəblərdə rüşvət söhbəti də yox idi.

- **Yeni Təhsil qanununun müzakirəsində millət vəkilləri respubkikamızda fəaliyyət göstərən özəl institutların çoxluğundan narahatlıqlarını bildirdilər. Bu məsələyə sizin münasibətiniz?**

- Bizdəki özəl məktəblərin sayını xaricdəki özəl məktəblərin sayı ilə müqayisə etmək də səhvdir. Yəni ola birlər ki, xaricdə bir özəl müəssisədə oxuyan tələbələrin sayı respublikamızda fəaliyyət göstərən bütün özəl müəssisələrin cəmi tələbələrinin sayından çoxdur. Məsələyə bu cür yanaşmaq düzgün deyil. Məsələn, o vaxtlar biz istəyirdik ki, özəl məktəblər əsasən Azərbaycanın ucqar bölgələrində yaradılsın. Ancaq bu gün əyalətlərdə fəaliyyət göstərən özəl məktəbləri topa tuturlar. Bakı isə boğulur...

- **Vaxtilə əhalisinə görə SSRİ, o cümlədən Azərbaycan ən çox oxuyan ölkə sayılırdı. Ancaq bu gün küçələrdəki səfil uşaqları görəndə, "talkuçka"lardakı istidə-soyuqda əsə-əsə, hürkə-hürkə alver edən körpələri görəndə, soyuqdan əlləri göyərmiş maşın yuyan, yük daşıyan, dilənən yeniyetmələrə baxanda... cəmiyyətin içərisində irinli bir yaranın qövr elədiyini hiss edirsən. Bunlar nəinki ata-ana, qohum-qardaş, eyni zamanda dövlət qayğısından da məhrum olublar. Ölkədə işsizlər ordusu ilə yanaşı, səfil uşaqlar da "pöhrələnir". Biz hara gedirik?!**

- Getdiyimiz yolu nə o uşaqlar bilir, nə də dövlətin strateji kursunu müəyyənləşdirənlər. Kapitalizmin amansız qanunları cəmiyyətə sirayət etməkdədir: güclülər yaşamalı, zəiflər sıradan çıxmalıdır. İmkanı olanlar oxumalı, imkansızlar sürünməlidir!

Bunların arasında yeganə bir tənzimləyici qüvvə var: Dövlət! Dövlət zəif olanda bu kontrastlar daha da tündləşir, dövlət güclü olanda isə ağ-qara ranglər arasında müxtəlif çalarlar da yaranır, məsələn, boz rəng...

Yeni nəsillə bağlı narahat olduğunuz o faciələrin qarşısını ala biləcək tədbirlərdən biri də təhsildə iqtisadi reformaların gücləndirilməsidir. İşsiz valideynin faciəsinə biganə qalan dövlət, təbii ki, onun övladına da biganə olacaq. Dövlət hesabına təhsilə cəlb olunan və normal yaşayış şəraiti ilə təmin olunan məktəblər yaradılmalıdır. İnternatların sosial-maddi bazası gücləndirilməlidir. Yaranmaqda olan "nəzarətsiz təbəqə" inzibati orqanların uçotunda yox, dövlətin qayğısında olmalıdır.

- **Firudin müəllim, təhsillə bilavasitə bağlı olan bir şəxs kimi bir məsələyə də aydınlıq gətirmənizi istərdim. Bu yaxınlarda Azərbaycan tarixinin 7 cildlik nəşrinin ilk cildləri çapdan çıxıb. Sizin təmsil olunduğunuz Milli İstiqlalpartiyasında respublikanın tanınmış tarixçi alimlərinin iştirakı ilə keçirilən Dəyirmi masada bununla bağlı söylənən tənqidi fikirlər "ANS" televiziyasında və "Millət" qəzetində qismən də olsa oxucu və dinləyicilərə çatdırılıb. Bu nəşrin hazırlanmasında buraxılan ciddi səhvlər nə ilə əlaqədardır?**

- Bu kitab Azərbaycan xalqına ən böyük zərbədir. Bu zərbənin böyüklüyü məhz ondadır ki, kitab oxuculara dövlət mövqeyi kimi təqdim olunub, yəni bunun tədrisi, öyrənilməsi, öyrədilməsi məcburidir.

On beş ilə yaxın idi ki, bu kitabı hamı gözləyirdi. Ancaq kitabın çıxması hamını məyus etdi. Bizim tariximizi heç ermənilər də bu kitabdakı kimi təhrif etməyiblər.

Nəşrin çapa hazırlanmasına rəhbərlik edən İqrar Əliyevdir. Tariximizi yaradanların "başında" qeyri-türklər dayananda, əlbəttə, nəticəsi elə belə də olacaqdı.

Bu kitab o qədər naşılıqla yazılıb ki, İ.Əliyev burada hətta öz elmi-siyasi niyyətini də gizlədə bilməyib.

Bilirsiniz ki, Azərbaycanın şimal və cənub bölgələrində müvafiq olaraq Rusiyanın və İranın marağı var. Və İ.Əliyev də yazır ki, bu bölgələrin tarixini xüsusi öyrənməyi

bizdən tələb edirlər və biz də söz veririk ki, onların sifarişini qeyrətlə yerinə yetirək.

İndi mən soruşuram: bu sifarişi kim verib ona? Bunu ancaq Rusiya ilə İran verə bilər. Niyə, bu boyda Azərbaycanın məhz ancaq "Sadval"la TMR ekstremistlərinin marağı olan bölgələrin tarixi xüsusi tədqiqat obyektinə çevrilməlidir?

Belə bir şübhəli "tədqiqatın" da nəticəsində İ.Əliyev çox böyük səxavətlə Arazdan aşağını verir fars dillilərə, Arazdan yuxarını isə verir Qafqaz dillilərə. Bu, Azərbaycan dövlətçiliyi üçün böyük zərbədir və çox təəssüf edirəm ki, kitab dövlət başçısının ayırdığı vəsait hesabına çap olunub.

"Senzor" qəzeti,
08-15aprel2002-ci il

Ana, atamıza salam de bizdən!

Sağlığında kənddən ayrılmaq istəmirdin. Darıxırdın kənddən aralı. Deyirdin, uşaqlar malın-atın dilini bilmir, qapı-bacada, ev-eşikdə az da olsa köməyim dəyir onlara. İndi qırx günə yaxındır ki, hər şeyi atıb Bakıdasan. Mənimlə birgə dolaşır ruhun. Bu gün Bakıda Mahirəgilə getdim. Sən də mənimlə getdin. Keçib bir küncdə oturdun. Səssiz-səmirsiz bizə qulaq asdın. Bacımla səndən danışırdıq. Dinməz-söyləməz oturmusdun. Gözüm üzündə qalmısdı. Danışmasan da gözlərindəki ifadələrlə fikirlərimi cilalayırdın.

Bilirəm, narahatsan, ruhun narahatdır, hələ bir neçə gün də narahatlıq içərisində vurnuxacaqsan.

Narahatsan ki, atasız keçən 5 ilimizin ağrı-acısını, qəm-həsrət yükünu çıxarıb öz ürəyinə yüklədiyin halda, indi bu yükə dözə biləcəyikmi? Hələ öz dərdin də üstəlik...

Narahatsan ki, birdən evdə böyük-kiçik yeri bilmərik, bir yol göstərən olmaz bizə.

Narahatsan ki, atamızın yurd yeri öləziyər, müqəddəsliyini, hənirini, mehrini, məhəbbətini itirər.

Narahatsan ki, qızların ata ocağından, umanc yerlərindən əllərini kəsər qardaşlar...

Narahatsan ki, haqq dünyasının qapısındakı nişan daşlarınızı unudarıq, ora baş çəkmərik.

Yox, ana, yox! Atamızın da, sənin də əməyiniz-zəhmətiniz, duzunuz-çörəyiniz, suyunuz-südünüzburnumuzdan gələr – əgər öyüdlərinizi, nəsihətlərinizi unutsaq!

Atam mənə həmişə təklikdə deyərdi: "Ananız çox zəhmətinizi çəkib, onun qədrini bilin, onu unutmayın".

Atamız rəhmətə gedəndən sonra sənin mənə ilk öyüdün belə oldu: "Oğul, Vətəni, el-obanı unutma!"

Nə atam özü haqqında bir söz dedi, nə də sən. Hardan idi sizdə bu ululuq, bu ürəyigenişlik, bu uzaqgörənlik?!

Deyirdin bacılarınızdan muğayat olun, yad ocaqdadırlar, gözləri həmişə ata ocağındadır. Bu yurda gələndə onları əliboş qaytarmayın.

Yeddi övlad böyütdünüz atamla. Hərəmizi bir diyara pərvazlandırdınız. Fəqət, təkcə bizmi pərvazlandıq? Sizin ürəyiniz də bizimlə uçdu, bizimlə yaşadı – birgə sevindik, birgə kədərləndik.

Yadimdadır, bizi həyət-bacada oynayan görəndə, evdə bekarçılıq edəndə, işdən yorğun qayıdan atam hirslənərdi, deyərdi, utanmırsınız, ananız ev-eşik işlərini tək görür, siz isə avaralanırsınız. Sən isə... atam gedən kimi deyərdin, gedin dərslərinizi oxuyun, mənə kömək lazım deyil. Ev işini də, çöl işini də özüm görərəm. Nəticədə 7 diplom qazandın!..

70-ci illərdə Azərbaycan Dövlət Universitetinə daxil olmaq həm böyük qəhrəmanlıq idi, həm də böyük xoşbəxtlik! 1972-ci ildə mən Universitetə girməyim barədə qəbul kağızını gətirib atamla sənin qarşına qoyanda, atam üzünü sənə çevirib dedi:

- O əmanəti bəri gətir, a Nazxanım...

Sən dəsmala bükülmüş bir şey gətirdin. Bükülünü açanda gördüm ki, xeyli puldur. Dedin:

- Oğul, fikirləşdik ki, haqq-nahaq dünyasıdı, birdən girə bilməzsən, rüşvət-zad umarlar... Nə isə, bu pul sənindir, necə istəyirsən xərclə... Halal zəhmətimizlə qazanmışıq.

Bu qədər pulu mən heç vaxt görməmişdim. İlk anda bərk sevindim, ani olaraq beynimdə bu pulu necə xərcləməyimi götür-qoy etdim. Sonra gözlərim təsadüfən sənin istidən, soyuqdan çat-çat olmuş, qabarlı əllərinə sataşdı. Atamın üzünə baxdım, günəş

rəngini yamanca qaraltmışdı... Alnında bu vaxta qədər sezmədiyim qırışlar gördüm. Biz üçümüz də susduq. Birdən ağlıma qəfil bir fikir gəldi. Əlimi atıb puldan 200 manat götürdüm və dedim:

- Bu pula mənə bir dəst kostyum, ayaqqabı və köynək alın, qalanına isə qoy atam maşın alsın, özünə...

...Ana, yadındadır, mənim bu təklifimdən siz necə çaşdınız? Durub boynumu qucaqladın, alnımdan öpdün və üzünü atama tutub dedin:

- A kişi, al, oğlun sənə maşın alır...

Bu pula atam da gedib təzə bir maşın aldı. Sən həmişə maşına oturanda deyərdin: "Bax, a kişi, unutma, bu maşını sənə oğlun alıb".

Ruhun şad olsun, ana, yadındadır, "Borçalı" qəzetinin ilk nömrəsi çıxanda sən nə demişdin? Gözəl şairimiz, rəhmətlik İsa İsmayılzadə, Abbas Abdulla və mən 1990-cı ildə Gürcüstan azərbaycanlılarının hüquqlarının kütləvi və kobud şəkildə pozulduğu bir dövrdə - 1989-cu ilin sonu, 1990-cı ilin əvvəllərində "Borçalı" adlı ilk gizli qəzet buraxmışdıq. Qəzetdə gürcü şovinizmi haqqında kəskin yazılar var idi. 20 min tirajla çıxardığımız bu qəzeti mən gizli bir yerdə saxlayırdım. Necə olmuşdusa, qəzetin bir nüsxəsini Akif (Borçalıda "Qeyrət" xalq hərəkatının fəallarından biri, sənin kürəkənin) məndən xəbərsiz götürüb kəndə aparmışdı. Elə bu qəzetin ilk oxucusu və ilk senzoru da sən oldun. Bəzi məsuliyyətsiz müəlliflərimizdən, "qisasçılarımızdan" fərqli olaraq sən elə həmin gün qəzeti diqqətlə oxuyub mənə zəng vurmuşdun. Telefonda ilk sözün bu oldu:

"Ay oğul, o qanlı köynəyi buralara gətirmə!"

Əvvəlcədən mənə izah eləməsən də sənin bu "parolunu" mən başa düşdüm. Mübahisə yersiz idi. Sən düz deyirdin. İndi Milli Məclisin deputatı olan professor - qəzetdəki materiallardan birinin müəllifinə sənin ana narahatçılığını çatdırdım, "gürcülər azərbaycanlılara genosid siyasəti yeritmişlər və yeridirlər" – ifadəsinin çox ziyanlı olduğunu və böyük qarşıdurmalara gətirib

çıxaracağını anlatmağa çalışdım. O isə inad edirdi. Mən rəhmətlik İsa müəllimi və Abbas Abdullanı professorun təsirindən azad etməyə müvəffəq olandan sonra iradəmizi yeritdik – mətbəədə ştamp düzəltdirib qara boya ilə qəzetdə səni narahat edən yerləri pozduq. Bundan sonra qəzeti Borçalıya göndərdik...

Ana, səndən bircə həftə idi ayrılmışdıq, axı. Nəvələrinlə bir yerdə məzuniyyətimin iki həftəsini sənin yanında keçirdik. Bizi ədəb-ərkanla urvatlayıb yola salmışdın. Bəs, bir həftədən sonra niyə geri çağırdın? Qardaşım Bəkir zəng etdi ki, vəziyyətin ağırdır...

Bütün gecəni yol getdik. Yadımdadır, "Azərbaycan" qəzetində bir yazım çıxmışdı – "Borçalıdan Bakiya nə yaxınmış..." Bu, səndən də yaşlı bir nənənin sözləri idi. Gürcüstanda hadisələrin qarışıq dövründə biz Borçalıda olarkən qoca bir qarı məndən soruşmuşdu:

- Ay oğul, Bəkidən neçə günə gəlirsiniz bura?

Mən onda cavab vermişdim:

- İki saata, ay nənə (təyyarə ilə getmişdik).

Nənə gülüb demişdi:

- Bəkidən Boşşalıya nə yaxınmış, ay bala. Bə onda niyə tez-tez gəlmirsiniz, ay sağolmuşlar?!

...İndi gecə qurtarmaq bilmirdi. Bakıdan Borçalıya nə uzaqmış, ay ana?! Yol boyu bütün sənli-sənsiz keçən günlərimi varaqladım. Uşaqlığımdan bu günümə qədər sənin bir kəlmən məni rahat buraxmadı: "Vətəni unutma, ay oğul!"

İndi Vətənə gəlirdim, Ana Vətənə gəlirdim, ana! Bilirdim, sən əcəllə döyüşməyəcəksən, taleyinlə tez barışacaqsan. Çünki atamla siz Tanrının hökmündən heç vaxt çıxmamısınız. Yol boyu Əzrayıla yalvarmışam ki, aman ver, anamın son nəfəsinə çatım!

Çatdım! Çatdım və Tanrıya şükürlər etdim ki, bu fürsəti mənə çox görmədi.

Səni belə görməmişdim heç vaxt. Oturmaq nə idi, uzanmaq nə idi, dincəlmək nə idi?.. Bütün günü hərəkətdə idin. Məni isə dostlarım evdə oturmağa qoymurdu. Hərdən

gileylənirdin: "Sənə əməlli-başlı qulluq edə bilmədim, ürəyin istəyən xörəkləri yedirdə bilmədim. Evdə tapılırsan ki..."

Bu yaşında sənə əziyyət vermək istəmirdim, ay ana. Oturub hərdən sənə gizlicə nəzər yetirirdim. Saçlarının ağına, üzünün qırışına, səsinin kövrəkliyinə dözə bilmirdim. Atam səni ərköyün saxlamışdı. Onun vəfatından sonra sanki sınmışdın, sözünün söykəyi, səsinin hökmü sarsılmışdı elə bil. Siz qəribə adamlar idiniz... Sən atamla bizi qorxutmusan, atam sənin iradlarınla bizə təsir edib. Atam səni sevməyi bizə tövsiyə edib, sən atamıza məhəbbət, hörmət aşılamısan.

Eşitdim məzuniyyətdən Bakıya dönərkən arxamızca çıxıb köksünü ötürərək: "Gərək mən də onlarla gedəydim..." – demisən.Ancaq biz sənə təklif eləmişdik, axı. Sən dedin ki, yox ay bala, Mahirə də gələcək, qoy onu da qarşılayım, sonra gələrəm.

Qonşular mənə dedi ki, sonra da uşaq kimi sevinib demisən:

"Elə rahatlandım ki, elə ürəyimdən oldu ki, uşaqları layiqincə yola saldım".

İndi budur, gözüyumulu, səssiz-səmirsiz, hərəkətsiz uzanmısan... Bizi görən kimi böyük bacım Xeyransa başını sənə tərəf əyib bərkdən dilləndi:

- Gözünü aç, ay ana, gözünü aç, gör kim gəlib...! Şərif gəlib Bakıdan, Mahirə gəlib, Gülnarə gəlib...

Sən gözlərini açdın. Sonuncu dəfə isti-ilıq baxışların üzümüzü yaladı. Nəzərlərini bir-bir üzümüzdə dayandırdın. Gözlərin doldu, əksimiz gözlərinə həkk olundu və bizi gözlərinə basıb göz qapaqlarını örtdün – biz sənin gözlərində qaldıq!

...Biz sənin gözlərində qaldıq, sən bizim ürəyimizdə. Bu tayda biz qaldıq, o tayda bir Vətən... Sən ana idin, indi Vətən oldun, Vətənləşdin – Ana Vətən! Sənin sözlərini bütün nəvə-nəticələrinə, kötücə-yadicələrinə öturəcəyəm, ay ana: **"Vətəni unutma, ay oğul!"**

Ruhun şad olsun, Allah rəhmət eləsin!

“Ədəbiyyat” qəzeti,
18 avqust 2006-cı il

Ötən və itən illərin şeirləri

Xidməti ezamiyyə ilə əlaqədar 2000-ci ilin əvvəllərində yolum Zaqatala rayonuna düşmüşdü. İcra Hakimiyyətinin İctimai-siyasi şöbəsinə daxil olarkən şöbə müdirinin kimlərləsə söhbət etdiyini görüb, dala qayıtmaq istədim. O, ayağa durub: “Biz onsuz da yekunlaşdırırdıq”, – deyə, çox nəzakətlə məni içəri dəvət etdi. Otaqdakılar bayıra çıxandan sonra tanış olduq. O, mizin üzərindəki “artıq” kağız-kuğuzları yığışdırıb qalın bir qovluğu açdı və:

- Elə mənə siz lazımsınız, - dedi.

Mən təəccüblə ona baxdım və bir az narahat oldum. Fikirləşdim ki, yəqin qəzetimizdə hansısa qeyri-dəqiq məlumat gedib, indi rayon rəhbərliyinin ciddi iradlarına cavab verməli olacağam. Yaxın saylarımızın birində Qax, Zaqatala, Balakən rayonlarında yaşayan gürcülərin, ingiloyların həyatından xeyli yazılar vermişdik. Milli məsələlərlə bağlı yazılara xüsusi həssaslıqla yanaşan redaksiyamızda, fikirləşdim ki, kimsə etinasızlıq göstərib, kiminsə milli heysiyyətinə toxunub.

-Olmaya bu, ingiloylarla bağlı yazılarla əlaqədardır? - deyə, astaca dilləndim.

- Yox, yox, orada hər şey qaydasındadır, - deyə şöbə müdiri tez dilləndi. - Yeri gəlmişkən, mən o yazılara görə sizə təşəkkür edirəm. Çox yaxşı haldır ki, qəzetiniz Gürcüstanda yaşayan azərbaycanlılara diqqət yetirdiyi kimi, Azərbaycanda yaşayan gürcülərə də eləcə diqqət göstərir və onların problemlərini hər iki ölkənin hökumət və dövlət strukturlarına çatdırır. Mən rayon rəhbərliyi adından bu xeyirxah missiyanıza görə minnətdarlığımı bildirirəm.

O, sözünə bir az ara verib:

- Siz mənə başqa iş üçün lazımsınız, -deyə gülümsündü.

Onun təbəssümündəki utancaqlığı dərhal sezdim və bir az toxtayaraq arxayınlıqla dedim:

- Açıq danışın, imkan daxilində köməyimi əsirgəmərəm.

- Bilirsiniz, Şərif müəllim, bu qovluğu kitaba çevirmək istəyirəm. Ancaq... risk etmirəm.

- Nədir ki, o qovluqda?

- Qorxuram desinlər ki...

- Axı, nə var o qovluqda?

- Şeirlər... Hələ heç kimə oxumamışam. Qorxuram ya boğazdan yuxarı tərifləsinlər, ya da ki, haqsız tənqid etsinlər. Və bununla da birdəfəlik həvəsdən düşüm. - O, zəndlə üzümə baxıb, əlavə etdi: - Siz redaktorsunuz. İnanıram ki, düzü-düz, əyrini-əyri deyəcəksiniz. Axı mən cavan deyiləm, yeniyetmə deyiləm, altmışa yaxın yaşım var...

- Mustafa müəllim, ruhun yaşı olmur, o bizdən fərqli olaraq, əbədiyaşardır. Təbinizə gəlincə, bu da yaşa baxmır. Poetik nörmalara riayət, dilin obrazlı, təfəkkürün bədii şəkildə təcəssümü və sair... bax, bunlar biz redaktorların qələm işlətdikləri meydanlardır. Mən ancaq bu çərçivədə öz fikrimi bildirə bilərəm...

Bəli, Mustafa Camalla təxminən 5 il əvvəl bu meydanda başlayan tanışlığımız artıq qələm dostluğuna, şəxsi və ailə dostluğuna çevrilib. Bu müddətdə Mustafa müəllimin 4 iri qovluğu 4 sanballı kitaba çevrilib. Xoşbəxtəm ki, bu kitabların birincisinin redaktoru mən olmuşam.

İlk kitabına xalq şairimiz, mərhum Məmməd Arazın “Dərd şair ürəyində dincəlir...” adlı ön sözündə Mustafa müəllimin haqqında səmimi və obyektiv düşüncələrini qeyd edən şair xüsusi vurğu ilə yazırdı:

“Azərbaycanın yaşıl çələnginin ən rayihəli çiçəklərindən olan Zaqatalada dünyaya göz açan Mustafa Camalın

yaradıcılığında məni ən çox cəlb edən onun milli koloritə bələdliyi, çoxmillətli bölgənin tarixinə, insanlarına, onların adət-ənənələrinə hiss olunan hörməti və sevgisi oldu. Müəllif burada yaşayan azərbaycanlı, avar, ləzgi, ingiloy, saxur, gürcü və digər millətlərin, etnik qrupların hər birinin milli-mənəvi dünyasını gözəl duyur və yaratdığı poetik lövhələrdə bu çeşidli mədəniyyətin incəliklərini bir daha tərənnüm edir.

Mətbuatda ara-sıra şeirlərinə təsadüf etdiyim Mustafa Camal son illər bədii yaradıcılıqla daha ciddi və daha məhsuldar məşğul olur. Şairin mövzu dairəsi tükənməzdir. Burada dunya, həyat, bəşəri məhəbbətlər, vətənpərvərlik, beynəlmiləlçilik kimi hisslərdən mayalanan şeirlərlə yanaşı, konkret hadisələrə və şəxslərə həsr olunmuş mövzular da çoxluq təşkil edir".

Artıq Yazıçılar Birliyinin üzvlüyünə qəbul olunan Mustafa Camal bir-birindən maraqlı "Unutma məni", "Nur saçan ömürlər", "Bax, bu ömürdür", "Qafqaz qartalı'' adlı kitabların müəllifidir. Şair şeirdən-şeirə, kitabdan-kitaba inkişaf edir, mənalı, obrazlı yazmağa çalışır, sözlərin, ifadələrin biçiminə, qiyafəsinə daha diqqətlə, daha həssas yanaşır.

Mən bu dərdi heç kimə dərd eyləyib satmıram,
Ötənlərin ardınca yüyürürəm, çatmıram,
Qor dolub yatağıma, sübhə qədər yatmıram,
Gecələr fikir məni neçə yol dara çəkir,
Ya rəbbim, verdiyinə şükür, yenə min şükür.

Mustafa Camalın "Nur saçan ömürlər" kitabına nəğməkar şair Vüqar Əhməd maraqlı bir ön söz yazıb. Mustafa Camal poeziyasını təhlil edən Vüqar Əhməd onun son vaxtlar ədəbiyyata gələn qələmdaşlarından fərqini belə izah edir:

"...Mustafa Camal qələminin hərəkət dinamikası qarşısında aciz qalmır. Müraciət etdiyi mövzuların mahiyyətinə varır, onu duyur, hiss edir, ədəbi bir duyumda öz oxucularının ixtiyarına buraxır. Müxtəlif mövzular bir qələmin gücü ilə necə

gözəl ağ kağızlara köklənir və poeziyamızda yeni bir yol, üslub öz axarı ilə getməyə başlayır.

Məmməd Araz, Bəxtiyar,
Fikrət Qoca, Şəhriyar.
Cavan, yaşlı, ixtiyar,
Vətən oğlu hər biri –
Azərbaycan şairi".

Mustafa Camal poeziyasının dərinliyinə varanda ədəbi dilimizin gözəlliyi, poetik təfəkkürün dərinliyi ilə baş-başa qalırıq. Şairin özünəməxsus yazı dili oxucunu düşüncələrə qərq edir və o, özünü başqa bir dünyanın sakini hesab edir.

60 ildir dünyanı düşünə-düşünə dərk etmək istəyən və anladıqlarını dünyanın özü kimi poetik bir formada anlatmağa cəhd edən Mustafa Camal son dövrlər o qədər məhsuldar işləyir ki, sanki ötən və itən illərin boşluğunu doldurmağa çalışır.

Hazırda Qarabağ müharibəsində şəhid olmuş Müzəffər Məmmədoğlunun şeirlərini toplayıb kitab halında çapa hazırlayan Mustafa müəllim həm də özünün yeni şeirlər və poemalar kitabı üzərində işləyir.

Əziz qardaşım Mustafa müəllim!

Sənə utana-utana gəldiyin, lakin başını dik tutub inamla addımladığın bu çətin və şərəfli yolda daha böyük uğurlar və əzmkarlıq arzu edirəm. İnanıram ki, mayası sevgidən, məhəbbətdən yoğrulmuş yeganə oğlunun toy günü ilə sənin ad gününün – ömrünün 60-cı ilinin qovuşması bundan sonra sənin ilhamını daha da coşduracaq, sözünün kəsərini, sanbalını-salğarını, dadını-duzunu daha da artıracaq!

"Sabah",
07 may 2014-cü il

Azərbaycan 2020: Gələcəyə baxış

Aprelin 26-da Bakıda Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin və Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə 26 aprel – Beynəlxalq Əqli Mülkiyyət Günü münasibətilə "Azərbaycan 2020: Gələcəyə baxış. Əqli mülkiyyətin sənayenin inkişafındakı rolu" mövzusunda konfrans keçirilmişdir.

Konfrans Azərbaycanda 2014-cü ilin "Sənaye ili" elan edilməsi ilə əlaqədar tədbirlər çərçivəsində təşkil edilmişdir.

Konfransin açılışında çıxış edən Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri **Ramiz Həsənov** bildirmişdir ki, hər il aprelin 26-sı Dünya Əqli Mülkiyyət Təşkilatına üzv ölkələrin birgə qərarı ilə dünyada əqli mülkiyyət günü kimi qeyd edilir. Azərbaycanda son illərdə xüsusilə fərqlənən iqtisadi inkişaf templəri yerli sənayenin və ticarətin dinamik inkişafı nəticəsində əqli mülkiyyətin iqtisadiyyatdakı rolu günbəgün artmaqdadır. Prezident İlham Əliyevin 2014-cü ili "Sənaye ili" elan etməsi iqtisadi səmərəliliyə malik müasir texnologiyalara və insan kapitalına əsaslanan iqtisadiyyatın daha da sürətlə bərqərar olmasına xidmət edir. İqtisadi tərəqqi naminə sənayenin səmərəliliyinin artması üçün yeni texnologiyalar, yeni yanaşmalar və ixtiraların tətbiqi həlledici əhəmiyyətə malikdir. Yeni texnologiyalar və ixtiralar öz növbəsində elmi-texniki araşdırmalara, yaradıcı fəaliyyətə, bir sözlə, insan kapitalına aid dəyərlərdir. Rəqabət qabiliyyətli və innovativ sənaye müasir dünya bazarına çıxış üçün həlledici faktor kimi Azərbaycan Respublikasında yeni texnologiyaların gətirilməsi ilə bərabər, yerli

elmi-texniki araşdırma mərkəzlərinin də inkişaf etdirilməsində təkanverici amilə çevrilməlidir.

Ramiz Həsənov vurğulamışdır ki, müasir sənayenin rəqabətliliyini artırmaq investisiyaların həcmi ilə deyil, daha çox innovativliyin səviyyəsi ilə ölçülməlidir. Sənayenin səmərəliliyinə təsir edən bir çox iqtisadi-sosial faktorlar sırasında texniki ixtiralar, faydalı modeller, sənaye nümunələri əsas amillər kimi qiymətləndirilməlidir. Qeyd olunan intellektual komponentlər qeyri-maddi aktivlər kimi çıxış edərək istehsal proseslərinin səmərəliliyini artırmaqla bərabər, sənaye məhsullarına əlavə istehlak xüsusiyyətləri verir. Dunya bazarlarına daha da uğurlu nəticələr yol açır. Bu isə öz növbəsində əqli mülkiyyət obyektləri üzərində müstəsna halların qorunması mexanizminin, patent sisteminin rolunu günbəgün artırır.

Diqqətə çatdırılmışdır ki, patent sisteminin dünyada elmin, sənayenin, ümumiyyətlə, iqtisadiyyatın inkişafına stimullaşdırıcı təsirinin artırılması artıq sübut edilmişdir. Patent sistemi əqli fəaliyyət nəticəsi üzərində hüquqları müəyyən etməklə texniki səviyyənin rəqabət qabiliyyətini təmin edir. Uzunmüddətli elmi-texniki araşdırmalara yönələn investisiyalara zəmanətli şərait yaradır. Eyni zamanda, lisenziyalaşdırma mexanizmləri ilə patent sistemi texnologiyalarının ötürülməsi və bununla da digər tərəfdən yeni halların və innovasiyaların məlumat bazası kimi normativ rolunu oynayır.

Komitənin sədri diqqətə çatdırmışdır ki, əqli mülkiyyət hüquqları ixtiraçıya və ya elmi araşdırma mərkəzinə yaradıcı intellektual fəaliyyətindən mənfəət əldə etməyə zəmanət mexanizmidir. İxtiraçıların, patent sahiblərinin müvəffəqiyyətləri onların əqli mülkiyyət obyektlərinin təsərrüfatda, sənayedə tətbiq olunmasından asılıdır.

Azərbaycan Respublikasında ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş hüquqi dövlət quruculuğu nəticəsində əqli mülkiyyət hüquqlarının qorunması və səmərəli idarə olunması üçün müasir hüquqi-normativ baza yaradılmışdır. Nəticədə ölkə sənayesi ilə ixtiraçılar yeni texnologiyalar üzərində müstəsna hüquq obyektləri arasında münasibətlərin tənzimlənməsi, bununla da innovasiyaların sənayedə daha da geniş tətbiq edilməsi üçün bütün lazımi hüquqi

şərait yaradılmışdır. Prezident İlham Əliyev tərəfindən həyata keçirilən və qeyri-neft sektorunun inkişafına yönəldilən məqsədyönlü iqtisadi, siyasi kurs təcrübələrə və insan kapitalına hesablanan innovativ iqtisadiyyatın inkişafına xidmət edir. Cəmiyyətimizdə əqli müklkiyyətə iqtisadi faktor kimi artan maraq da bütün bunların əyani sübutudur.

Konfransda Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin sədri Kamran İmanov çıxış edərək bildirmişdir ki, bu tədbir Dünya Əqli Mülkiyyət Təşkilatının (DƏMT) baş direktoru F.Qarrinin Beynəlxalq Əqli Mülkiyyət Günü münasibətilə builki müraciətinin dili ilə desək, "aprelin 26-sı innovasiya və yaradıcılıqda əqli mülkiyyətin rolunu müzakirə etmək imkanıdır. DƏMT-nin bugünkü Beynəlxalq Əqli Mülkiyyət Gününün devizi kino sənayesinin inkişafına yönəldilir. Bununla yanaşı, Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə 2014-cü il "Sənaye ili" elan edilmişdir. Bu gün keçirilən konfrans da "Sənaye ili"nə həsr olunmuşdur.

Kamran İmanov vurğulamışdır ki, sürətlə dəyişən dünyada Azərbaycan getdikcə öz mövqelərini möhkəmləndirir və layiqli yerini tutur. Azərbaycan dövlətinin son illər əldə etdiyi uğurların ən mühüm zəmini Prezident İlham Əliyevin təfəkküründür və düşüncə tərzinin kreativliyi və müstəqilliyidir, gələcəyi görmək zənginliyidir. Prezident İlham Əliyevin yürütdüyü davamlı inkişafın "Azərbaycan modeli" bir sıra vacib amilləri, o cümlədən stabilliyi və iqtisadi inkişafi, social yönümlüyü və ədaləti, mədəni müxtəlifliyi və adət-ənənəyə sadiqliyi, demokratikləşmə və insan amilini, innovativlik və modernləşməni, biliklərə əsaslanan tərəqqini, informasiya-kommunikasiya texnologiyalari (İKT) və əqli mülkiyyətin prioritetliyini özündə cəmləşdirən modeldir. Konfransda "Kreativ industriyanın inkigafı", "Keçid iqtisadiyyatlı ölkələrə yeni texnologiyaların ötürülməsi", "Azərbaycan kinosu sənət və sənaye kimi", "Sənaye ili: yüksək texnologiyaların inkişafı" və "Azərbaycanda müəllif hüquqlarının qorunması və informasiya texnologiyalarının sənayesi" mövzularında məruzələr dinlənilmiş, ətraflı müzakirələr aparılmışdır.

"Respublika"
19 dekabr 2014-cü il

Müstəqillikdən sonra qazandığımız dostlar

Azərbaycan-Koreya əlaqələri

1918-1920-ci illərdə qazandığımız 23 ayın müstəqillik dadını tarix Azərbaycan xalqına bir də 1991-ci ildə qismət elədi. Artıq 23 ildir ki, xalqımız bu tarixin davamını yenidən yaşamaqdadır.

Lakin Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkədə baş verən hakimiyyət dəyişiklikləri xarici siyasətə də təsirsiz ötüşmürdü. Müstəqil xarici siyasət kursu formalaşdırmaq, onun əsas prioritetlərini, məqsəd və vəzifələrini, istiqamətlərini müəyyən etmək, dünya siyasəti müstəvisinə çıxmaq və beynəlxalq münasibətlər sisteminə qatılmaq gənc və təcrübəsiz dövlət üçün o qədər də asan bir iş deyildi. Müstəqilliyin ilk illərində ölkənin xarici siyasət kursunda və hökumətin fəaliyyətində ciddi nöqsanlar, ziddiyyətli qərarlar da özünü göstərirdi.Lakin 1995-ci ilin 12 noyabrında, Azərbaycan Respublikasının yeni Konstitusiyası qəbul edildikdən sonra ölkədə dövlət quruculuğu, qanunların qəbulu, daxili və xarici siyasətin təsniflatlaşdırılması həyata keçirildi. Azərbaycanın yerləşdiyi region geosiyasi, strateji və iqtisadi baxımdan dünyanın siyasi xəritəsində əhəmiyyət kəsb etməyə başladı.

Azərbaycanın xarici siyasət fəaliyyətinin formalaşması Heydər Əliyevin adı ilə bağlıdır. Məhz ulu öndərin prezidentliyi dövründə Azərbaycanın beynəlxalq münasibətlər sistemində iştirakı və özünəməxsus mövqelər qazanması üçün

lazımi tədbirlər görüldü və beynəlxalq aləmin Cənubi Qafqazda, Xəzər regionunda və Azərbaycanda maraq dairələri müəyyənləşdirildi.

Eyni zamanda Azərbaycan üçün də iqtisadi və siyasi göstəriciləri ilə önəm kəsb edən ölkələrə diqqət artdı. Belə ölkələrdən biri də Koreya Respublikası oldu.

Azərbaycanla Koreya arasında diplomatik əlaqələr müstəqilliyimizin ilk illərində, 1992-ci ildən qurulmağa başlayıb. Hər iki ölkə Asiyada Qarşılıqlı Fəaliyyət və İnam Tədbirləri üzrə Müşavirə çərçivəsində münasibətləri bu gün də inkişaf etdirir.

Haşiyə:

İkinci dünya müharibəsindən sonra, 1948-ci ildə SSRİ və ABŞ hərbi qüvvələrinin işğalı nəticəsində Koreya iki dövlətə - Şimali və Cənubi Koreya respublikalarına bölündü. Liberal partiyanın lideri Li Sın Man Koreya Respublikasının ilk prezidenti seçildi. Buna cavab olaraq Şimalda da Koreya Ali Xalq Məclisi yaradıldı. Nazirlər Kabinetinə başçılıq Kim İr Senə tapşırıldı. Beləliklə də Koreyanın iki yerə bölünməsi hüquqi baxımdan təsbit olundu.

Şərqi Asiyada Koreya yarımadasının cənub hissəsində yerləşən Koreya Respublikası Çin, Yaponiya və Şimali Koreya ilə həmsərhəddir. Sahəsi 100 min kvadrat kilometr, əhalisi 50 milyondan çoxdur. Paytaxt Seulda 9 895 217 nəfər əhali yaşayır.

Asiyada dördüncü ən böyük iqtisadiyyata malik olan Koreya yüksək həyat səviyyəsi ilə tanınır və "Böyük 20-lər" (G20) qrupunun üzvüdür. Koreya Respublikası hazırda 190-dək ölkə ilə diplomatik əlaqə saxlayır.

Yüksək inkişaf etmiş sənaye və iqtisadiyyata malik ölkə kimi Cənubi Koreya dünyada gəmiqayırma, polad emalı, avtomobil, elektron və eloktrotexnika istehsalına görə əsas yerlərdən birini tutur. Dünyada ən sürətli internet Cənubi Koreyadadır.

Seula ilk dəfə rəsmi səfəri Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov reallaşdırıb. 2005-ci ildəki bu səfər zamanı nazir Cənubi Koreya prezidenti No Mu Xenlə və koreyalı həmkarı Pan Ki Munla görüşərək İlham Əliyevin dəvət məktubunu Koreya Prezidentinə təqdim edib.

2006 və 2007-ci illərdə Koreya və Azərbaycan respublikaları prezidentləri Roh Moo Hyunun və İlham Əliyevin rəsmi səfərlərindən sonra Azərbaycan və Koreya arasında yüksək səviyyəli siyasi münasibətlərin, hərtərəfli əməkdaşlığın bünövrəsi qoyuldu, iqtisadi əlaqələr sürətli inkişaf mərhələsinə keçdi, 50-yə yaxın sənəd imzalandı. Öz növbəsində bu sənədlər Azərbaycan və Koreya arasında çoxşaxəli əməkdaşlıq üçün hüquqi baza yaratdı. Bu illərdə qarşılıqlı olaraq hər iki ölkədə səfirliklərin fəaliyyətə başlaması ölkələrimiz arasında əlaqələrin genişlənməsinə yeni imkanlar açdı. Qarşılıqlı maraq doğuran layihələri həyata keçirmək üçün ölkələrarası işçi qruplar və iqtisadi əməkdaşlıq üzrə komissiya təşkil edildi. 2006-cı ildə komissiyanın birinci, 2007-ci ildə ikinci iclası Bakıda, 2009-cu ildə isə üçüncü iclası Seulda keçirildi. Müvafiq protokollar imzalandı.

2007-ci ildə Milli Məclisin sədri Oqtay Əsədovun Koreyaya, 2008-ci ildə Koreyalı Baş nazir Han Seunq Sunun Azərbaycana, növbəti illərdə - 2010-cu ildə xarici işlər naziri Elmar Məmmədyarovun Koreyaya, 2012-ci ildə isə Koreya Respublikası Milli Assambleyasının sədri Park Hi Taenin Azərbaycana rəsmi səfərləri bu əlaqələrin daha səmərəli və işgüzar məcraya yönəlməsində əhəmiyyətli rol oynadı.

2012-ci ilin martında isə ölkə prezidenti cənab İlham Əliyev Seul Nüvə Təhlükəsizliyi Sammitində iştirak etmək üçün Koreyaya ikinci dəfə işgüzar səfər etdi. Bu səfər iki ölkə arasında etibarlı əməkdaşlığa xüsusı bir çalar verdi.

Hazırda paytaxtımızda Koreya Ticarətin və İnvestisiyaların Təşviqi Agentliyi (KOTRA) və Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (KOICA) nümayəndəliklərindən əlavə, “SK C&C”, “ULTRA Construction”, “Samsung”, “Daewoo”, “KON”,

"HEERIM" və "STX" kimi Koreya şirkətlərinin filialları fəaliyyət göstərir. Müqayisə üçün deyək ki, iki ölkə arasında 2006-cı ildə ticarət dövriyyəsinin həcmi 115 milyon dollar təşkil etdiyi halda, sonrakı il 216 milyon dollara qalxmışdır. Bu rəqəm 2009-cu ildə 273 milyon, 2010-cu ildə isə 375 milyon dollar olmuşdur. 2008-ci ildə isə bu əlaqə özünün pik nöqtəsinə çataraq, 859 milyon dollar təşkil etmişdir.

Azərbaycan üzrə mütəxəssislərin hazırlanması məqsədilə 2008-ci ildən Koreya Xarici Dillər Universitetində Azərbaycan dili tədris olunur. Azərbaycan Dillər Universiteti və Koreya Xarici Dillər Universiteti, Bakı Dövlət Universiteti və Koreya Politexnik Universiteti, Azərbaycan Texniki Universiteti və Koreya Politexnik Universiteti, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası və Koreya Milli Rəssamlıq Universiteti arasında əməkdaşlıq sazişləri imzalanmışdır.

SEBA Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyası İctimai Birliyi və Azərbaycan Səfirliyinin dəstəyi ilə Koreya Respublikasının Boryeong şəhərində yerləşən Geahva Sənət parkında Azərbaycan Respublikasının xalq rəssamı, akademik Ömər Eldarovun "Bölünmüş millət" adlı sənət əsəri ucaldılıb.

Azərbaycanın regionun aparıcı ölkəsinə çevrilməsi, əldə etdiyi yüksək iqtisadi inkişaf, siyasi sabitlik Koreya Respublikasında dövlətimizə qarşı marağın artmasına səbəb olmuşdur. Qarşılıqlı faydaya əsaslanan iqtisadi maraq, iqtisadi inkişaf təcrübəsinin mübadiləsi sahəsində əməkdaşlıq, Koreyanın müxtəlif qurumları tərəfindən Azərbaycan mütəxəssisləri üçün iqtisadiyyatın planlaşdırılması və idarə olunması, bazar iqtisadiyyatına keçid və sair kimi mövzular üzrə təlim və təhsil kurslarının təşkilimütəmadi xarakterdaşıyır.

Tikinti və nəqliyyat sahəsində Koreya Azərbaycanda avtomobil və dəmir yollarının inşası və yenidən qurulması, avtobus və lokomotivlərin satışı və intellektual nəqliyyat sisteminin yaradılması layihələrində iştirak edir. İnformasiya

texnologiyaları mütəxəssislərinin hazırlanması, sürətli internet layihələrini əhatə edən informasiya texnologiyaları sahəsində yüksək texnologiya və təcrübəyə malik Koreya şirkətləri Azərbaycanda həyata keçirilən "Elektron Hökumət" adlı Dövlət Proqramında fəal iştirak edir. Bu proqramın ən vacib məqsədlərindən biri təhsil sahəsində informasiya texnologiyalarının təşviqi, bu sahədə yüksək peşəkarlığa malik kadrların hazırlanmasıdır.

Ümumdünya Əqli Mülkiyyət Təşkilatında kifayət qədər təcrübəsi və bu təşkilatda önəmli töhfələri ilə seçilən Koreya Respublikası Azərbaycan üçün də əqli mülkiyyət (ƏM) sahəsində geniş münasibətlər müstəvisində əməkdaşlığa maraq doğuran ölkə sayıldığından ölkə Prezidenti cənab İlham Əliyevin 16 yanvar 2014-cü il sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi və Koreya Respublikasının Koreya Əqli Mülkiyyət Ofisi arasında Anlaşma Memorandumu"nun meydana gəlməsinə səbəb oldu. Azərbaycan Respublikası Hökuməti adından bu sənədi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Ramiz Həsənova verilməsi isə dövlətimizin xarici iqtisadi və mədəni siyasət prioritetlərində bu qurumun vacib yerlərdən birini tutduğunu önə gətirir. Adı çəkilən sərəncamın nəticəsi olaraq, 27 iyun 2014-cü ildə Koreyanın Decon şəhərində Memorandum imzalandı.

Memoranduma əsasən, dayanıqlı milli və qlobal iqtisadiyyatın qurulmasında, innovasiya və investisiya sahələrinin, sahibkarlığın inkişafında əqli mülkiyyətin, eyni zamanda onun yaradılması, qorunması və kommersiyalaşdırılmasında avtomatlaşdırma sisteminin əhəmiyyətinə xüsusi diqqət yetirən tərəflər qarşılıqlı olaraq, əqli mülkiyyət və avtomatlaşdırma sistemi sahələrində çalışan mütəxəssislərdən ibarət işçi qruplar yaradaraq, hər iki ölkəyə mütəxəssis səfərləri zamanı müxtəlif

təlim proqramlarının hazırlanması və həyata keçirilməsini reallaşdırırlar.

Qeyd edək ki, bu Memorandum çərçivəsində işlər artıq start götürüb. Koreya Respublikası tərəfdən ezam olunan mütəxəssislər Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində yaradılan kompüter zallarında nəzərdə tutulan treninqlərə başlayıb. Eyni zamanda sentyabr ayında Komitənin 15 nəfərlik nümayəndə heyəti Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (KOICA) Koreyada təşkil olunan "Əqli mülkiyyət siyasəti kursu" adlı təlim proqramı ilə tanış olmaq üçün iki həftəlik ezamiyyətdə olublar.

2014-cü il noyabrın 27-də Azərbaycan Respublikasına rəsmi səfərə gələn Koreya Respublikasının Baş naziri Çanq Honq Von ölkəmizdəki inkişafı görərkən belə demişdi: "Azərbaycanın son on ildə əldə etdiyi uğurlar inkişaf dinamikasının qorunacağına əminlik yaradır."

Koreya Respublikası əqli mülkiyyət sahəsində ən çox inkişaf edən ölkələrdən biridir. Bu ölkədə təbii sərvətlərin qıtlığı insan resurslarını inkişaf etdirməyin zəruriliyini ön plana çəkir. Şəffaf dövlət yaradılmalı,əhali üçün informasiya əldə etmək,patent haqqında məlumat almaq problemə çevrilməməlidir.

Koreya Əqli Mülkiyyət Ofisi (KİPO) əməkdaşlarının sayının 1560 nəfərə çatan Koreya Respublikasında(onların 892 nəfərini ekspertlər təşkil edir) kreativ iqtisadiyyata xüsusi diqqət yönəldilir və bununla bağlı əqli mülkiyyətin mühafizəsi üçün potensial artıma, əqli mülkiyyət sahəsində işçi yerlərin yaradılmasına, bu sahədə rəqabətin güclənməsi kimi faktorlara, ümumiyyətlə əqli mülkiyyətin inkişafı məsələlərinə çox böyük önəm verilir. Çünki elmi yeniliklərin, texnologiyaların artması ilə bahəm onlarla əlaqədar təxribatların və beynəlxalq cəkişmələrin də sayı artır.Adekvat olaraq kommersiya sirlərinin, texnoloji sirlərin mühafizəsi və onların yayılmasına görə tətbiq olunan cəzaların da sayı artır. KİPO-da yaradılan Arbitraj Komitəsi

vəKommersiya Sirlərinin Mühafizəsi mərkəzində patent sahibləri müxtəlif xidmətlərdən yararlanırlar.

Dekabrın 1-5 tarixlərində isə Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi(KOICA) tərəfindən ölkəmizə ezam olunan Koreya Tibb Universitetinin (KTU) müstəqil ekspertlərinin (qrupun rəhbəri Jae Vook Choi, KTU-nun professoru) Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət KomitəsininSənaye Mülkiyyəti Obyektlərinin Ekspertizası Mərkəzində ("AzPatent") olması və "Əqli Mülkiyyət Hüquqlarının İdarəetmə Sisteminin Avtomatlaşdırılması" layihəsinin başa çatması ilə bağlı layihənin ilkin hədəflərə çatdığını yoxlamaq və onun nəticələrinin qiymətləndirilməsindən ibarət olub. Əsas diqqət layihənin aktuallığına, effektivliyinə, səmərəliliyinə, təsiri və davamlılığına yönəldilib. KOICA-nın Azərbaycan nümayəndəliyinin iştirakı ilə həyata keçirilən bu tədbir Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin əməkdaşları tərəfindən yüksək səviyyədə təşkil olunub və tam dəstək görüb.

Hesab edirik ki, nəinki Çin və Yaponiyadan, eləcə də Avropanın ən inkişaf etmiş ölkələrindən heç də dala qalmayan, əksinə, bəzi sahələrdə onları üstələyən Koreya kimi ölkələrlə dostluq və əməkdaşlıq ölkəmizə ancaq fayda gətirə bilər.

Şərif Kərimli,
Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsinin Sənaye Mülkiyyəti Obyektlərinin
Ekspertizası Mərkəzinin (AzPatent)
İnformasiya təminatı şöbəsinin mütəxəssisi

"Sabah"
21 iyun 2014-cü il

Ümümdünya Əqli Mülkiyyət Təşkilatı və Azərbaycan

Ümümdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT, ingiliscə - WİPO) BMT-nin ixtisaslaşdırılmış hökumətlərarası beynəlxalq təşkilatı kimi Stokholm konvensiyasına uyğun olaraq 1967-ci ildə yaradılıb. Qərargahı Cenevrə şəhərində yerləşən ÜƏMT-nin Baş direktoru 2008-ci ildən Frensis Harridir. Azərbaycanın da üzvü olduğu bu təşkilatda 187 dövlət təmsil olunub.

ÜƏMT-nin rəsmi məqsədi iştirakçı ölkələrin yaratdığı ittifaqlar arasında inzibati qarşılıqlı fəaliyyət və dövlətlər arasında əməkdaşlıq yolu ilə əqli mülkiyyətin mühafizəsinə yardım göstərməkdir.

Ölkəmizdə son illər elm və texnikanın iqtisadiyyata uğurlu tətbiqi, innovativlik və modernləşmə, yeni texnoloji tərəqqi, informasiya-kommunikasiya texnologiyaları və əqli mülkiyyətin prioritetliyini özündə cəmləşdirən "Azərbaycan modeli"nin həyata keçirilməsi yolunda inamlı addımlar sabit iqtrsadi inkişafda ciddi irəliləyişlərə rəvac verib. Bu istiqamətdə dayanıqlı və məqsədyönlü inkişaf üçün bir sıra normativ-hüquqi aktlar qəbul olunub: "Patent haqqında", "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında","Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında", Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında", "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" və s.

Qeyd etmək lazımdır ki, ölkədə əqli mülkiyyətin mühafizəsi milli və beynəlxalq qanunlar əsasında həyata keçirilir. Azərbaycan ÜƏMT kimi nüfuzlu quruma üzv olmaqla bir sıra beynəlxalq

müqavilə və sazişləri imzalamış və bununla da tərəfdaş ölkələr qarşısında müvafiq öhdəliklər götürmüşdür.

Ölkəmiz bu günədək ÜƏMT-nin patent sistemi sahəsinə aid olan 11 konvensiya, saziş və müqaviləsinə qoşulmuş və üzv ölkələrlə sıx əməkdaşlıq əlaqələri yaratmışdır. Azərbaycan təşkilatda "Sənaye mülkiyyətinin qorunması haqqında" Paris Konvensiyası, "Nişanların beynəlxalq qeydiyyatı haqqında" Madrid Sazişi, , "Nişanların qeydiyyatı üçün əmtəə və xidmətlərin beynəlxalq təsnifatı haqqında" Nitsa Sazişi, o cümlədən Budapeşt Müqaviləsi, Lokarno Sazişi, Strasburq Sazişi, Haaqa Sazişinin Cenevrə Aktı, Nayrobi Müqaviləsi kimi beynəlxalq sənədlərin tələblərinə uyğun olaraq ən işgüzar və səmərəli fəaliyyət göstərən ölkələrdəndir.

2013-cü ilin 23 sentyabr - 2 oktyabr tarixlərində İsveçrənin Cenevrə şəhərində Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Baş Assambleyasının 51-ci sessiyasında ölkəmizi təmsil edən nümayəndə heyətinin rəhbəri, Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin (ASMPDK) sədri Ramiz Həsənovla ÜƏMT-nin Baş direktoru Frensis Qarrinin səfər çərçivəsində görüşü keçirildi. Elə bu vaxtdan da Azərbaycanla ÜƏMT arasında əlaqələr dinamik inkişaf fazasına qədəm qoydu. ASMPDK sədri Ramiz Həsənov Azərbaycanda əqli mülkiyyət hüquqlarının qorunması istiqamətində ÜƏMT ilə qurulmuş əməkdaşlığa və bu istiqamətdə təşkilat tərəfindən göstərilən dəstəyə görə əməkdaşlığın davamı kimi, ÜƏMT-nin Baş direktoru Frensis Qarrini ölkəmizə dəvət etdi.

ÜƏMT-nin baş direktoru F.Qarri dəvəti məmnunluqla qəbul etdi və yaxın zamanda Azərbaycana gələcəyini bildirdi. Onun sözlərinə görə, Azərbaycan Respublikasında əqli mülkiyyət hüquqlarının qorunması, sənaye mülkiyyəti obyektlərinin mühafizəsi, ümumilikdə patent sistemi infrastrukturunun müasir tələblər səviyyəsində qurulması istiqamətində son illər görülmüş işlər yüksək qiymətləndirilir.

Tədbirdə Azərbaycan Respublikasının Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Baş Assambleyasının əlaqələndirmə komitəsinə, proqram və büdcə komitəsinə üzv seçilməsi barədə qərar qəbul olundu. Əlaqələndirmə komitəsinə üzv olmaqla ölkəmiz təşkilatın baş direktorunun seçilməsi prosesində yaxından iştirak etmək və səs vermək hüququ qazandı. Proqram və büdcə komitəsində isə təmsil olunmaqla ÜƏMT-nin fəaliyyətində növbəti illər üçün hazırlanan tədbirlər planında, prioritet istiqamətlərin müəyyənləşdirilməsində, həmçinin büdcə layihələrinin müzakirələrində də söz sahibliyi imkanları əldə olundu.

2014-cü il aprelin 26-da Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin və Müəllif Hüquqları Agentliyinin birgə təşkilatçılığı ilə Beynəlxalq Əqli Mülkiyyət Günü münasibətilə "Sənaye ili" çərçivəsində təşkil edilən "Azərbaycan 2020: gələcəyə baxış. Əqli mülkiyyətin sənayenin inkişafındakı rolu" mövzusunda təşkil olunan konfransda çıxış edən Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Ramiz Həsənov bildirdi ki, Azərbaycanda son illərdə xüsusilə fərqlənən iqtisadi inkişaf templəri yerli sənayenin və ticarətin dinamik inkişafı nəticəsində əqli mülkiyyətin iqtisadiyyatdakı rolu günbəgün artmaqdadır. Prezident İlham Əliyevin 2014-cü ili "Sənaye ili" elan etməsi iqtisadi səmərəliliyə malik müasir texnologiyalara və insan kapitalına əsaslanan iqtisadiyyatın daha da sürətlə bərqərar olmasına xidmət edir. İqtisadi tərəqqi naminə sənayenin səmərəliliyinin artması üçün yeni texnologiyalar, yeni yanaşmalar və ixtiraların tətbiqi həlledici əhəmiyyətə malikdir. Yeni texnologiyalar və ixtiralar öz növbəsində elmi-texniki araşdırmalara, yaradıcı fəaliyyətə, bir sözlə, insan kapitalına aid dəyərlərdir. Rəqabət qabiliyyətli və innovativ sənaye müasir dünya bazarına çıxış üçün həlledici faktor kimi Azərbaycan Respublikasında yeni texnologiyaların gətirilməsi ilə bərabər, yerli elmi-texniki araşdırma mərkəzlərinin də inkişaf etdirilməsinə təkanverici amilə çevrilməlidir.

Ramiz Həsənov vurğuladı ki, müasir sənayenin rəqabətliliyini artırmaq investisiyaların həcmi ilə deyil, daha çox innovativliyin səviyyəsi ilə ölçülməlidir. Sənayenin səmərəliliyinə təsir edən bir çox iqtisadi-sosial faktorlar sırasında texniki ixtiralar, faydalı modellər, sənaye nümunələri əsas amillər kimi qiymətləndirilməlidir. Qeyd olunan intellektual komponentlər qeyri-maddi aktivlər kimi çıxış edərək istehsal proseslərinin səmərəliliyini artırmaqla bərabər, sənaye məhsullarına əlavə istehlak xüsusiyyətləri verir. Dünya bazarlarına daha da uğurlu nəticələr yol açır. Bu isə öz növbəsində əqli mülkiyyət obyektləri üzərində müstəsna halların qorunması mexanizminin, patent sisteminin rolunu günbəgün artırır.

Bütün bu rəsmi və işgüzar səfərlərin, müxtəlif görüşlərin nəticəsi olaraq, may ayında ÜƏMT-nin baş direktoru F.Qarri Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Ramiz Həsənovun dəvəti ilə ölkəmizə təşrif buyurdu və ali qonaq ölkə prezidenti tərəfindən qəbul edildi. 2014-cü il mayın 14-də Azərbaycan Respublikasının Hökuməti ilə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı arasında əməkdaşlıq haqqında Anlaşma Memarandumu imzalandı. Azərbaycan Respubliksının Prezidenti cənab İlham Əliyev bu Memarandumu 8 iyul 2014-cü il sərəncamı ilə təsdiq etdi.

Əqli Mülkiyyət sahəsində ikitərəfli əməkdaşlığın əhəmiyyətini və ÜƏMT-nin Azərbaycan Hökumətinə kömək etmək niyyətini əsas tutan Memarandum ölkəmizdə milli əqli mülkiyyət (ƏM) strategiyasının hazırlanması və həyata keçirilməsi, mütəxəssis hazırlığı və təlimlərin keçirilməsi, kontrafaktçılıq və piratçılıq sahəsində mübarizənin və ƏM hüquqları sisteminin gücləndirilməsi, beynəlxalq ekspertlərin iştirakı ilə elmi-praktik konfransların, simpoziumların təşkili, maarifləndirmə işlərinin genişləndirilməsi, dialoq və debatların təşkilini həyata keçirməklə ölkənin qlobal iqtisadiyyata daha sıx inteqrasiyasını təmin etmək məqsədini qarşıya qoyur.

Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi əqli mülkiyyət sahəsində çalışan əməkdaşların peşə hazırlığının təkmilləşdirilməsi, ixtisasartırma və yenidənhazırlanma məsələləri, yaradıcılıq fəaliyyətinin stimullaşdırılması, habelə əqli mülkiyyət sahələrinə dair elmi tədqiqatların aparılması, bu sahədə biliklərinin yüksəldilməsi məqsədi ilə ölkədaxili və beynəlxalq seminarlar, müşavirələr, görüşlər keçirir, müntəzəm təlim və tədris kursları təşkil edir.

Lakin təəssüflər olsun ki, bəzən geniş ictimaiyyət, eləcə də bir çox mətbuat orqanları məlumat almaq məhdudiyyəti yaradılan bəzi dövlət strukturlarının fəaliyyəti barədə çox səthi bilgilərə malik olduqlarından dərc etdikləri materiallarda naşılığa yol verir, qeyri-dəqiq informasiyalar yayırlar. Bu mənada ən böyük məsuliyyət qurumların mətbuat xidməti işçilərinin üzərinə düşür. Onlar mətbuat və ictimaiyyətlə dövlət qurumu arasında keçilməz sədd rolunu oynamaqdansa, vaxtlı-vaxtında təmsil etdikləri qurumun fəaliyyəti ilə bağlı lazımi bilgiləri yaymalıdırlar. Konkret halda isə əqli mülkiyyətə aid hüquqların qorunması ilə bağlı ictimaiyyəti yoxlanılmış və aktual informasiyalarla hərtərəfli məlumatlandırmaq və ən azı ibtidai anlayışlar vermək Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin müvafiq strukturlarının, eləcə də İnformasiya təminatı şöbəsinin əsas vəzifələrindən biri kimi uğurla həyata keçirilir.

***

Patent ixtira, faydalı model və sənaye nümunəsinə müəllifliyi və ilkinliyi təsdiq edir və onlardan istifadə etmək üçün müstəsna hüquq verir. Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən qurumlardan biri kimi Respublika Patent Fondunun işi nəinki mətbuat işçiləri, eləcə də geniş ictimaiyyət üçün böyük əhəmiyyət kəsb edir. Ölkə daxilində və xaricdə nəşr lunan patent ədəbiyyatını özündə əks etdirən Fond 1967-ci ildə Respublika Elmi-Texniki Kitabxanasının nəzdində yaradılıb. Fond 27 dildə dünyanın 35 ölkəsinin Beynəlxalq və Avropa patent idarələrinin sənədləri ilə komplektləşdirilib. Hazırda fondda 11 milyona yaxın ədəbiyyat toplanıb.

Azərbaycanda patentlər Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən verilir.

Patent hər hansı bir ixtiraya verilmiş məhdud tətbiq hüququna malik olan ən yüksək hüquq qoruyucusudur. O, əqli mülkiyyət sahəsinə daxil olan ixtira və ya sənaye modelinə müəlliflik hüququnu göstərən sənəd sayılır. Patentin yaşama müddəti patentləşdirilmiş obyektdən asılı olaraq 8-20 il arasında dəyişir.

Əqli mülkiyyət hüquqları - müəlliflik hüququnun obyekti olan əsərlərə, ifalara, fonoqramlara, yayım təşkilatlarının verilişlərinə, inteqral sxem topologiyalarına, məlumat toplularına, folklor nümunələrinə (ənənəvi mədəni nümunələrə), ixtiralara, faydalı modellərə, sənaye nümunələrinə, əmtəə nişanlarına, coğrafi göstəricilərə verilən hüquqlardır. Bu hüquqları qeyri-qanuni mənimsəmək istəyənlərin istehsal etdikləri məhsullar piratçılıq hesab olunur. Kontrafakt məhsul isə əmtəə nişanları, coğrafi göstəricilər və ya onları qarışdıracaq dərəcədə oxşar nişanlarla qeyri-qanuni mal istehsalı sayılır. Beynəlxalq standart eyniləşdirmə nömrələri (İSBN, İSMN, İSSN, İSAN və İSRC) - kitabların, not yazılarının, dövri nəşrlərin, audiovizual əsərlərin, audio və ya videoyazıların eyniləşdirilməsini təmin edən unikal rəqəmli kodlardır.

Müəllif hüquqları pozuntularına dair ən mühüm beynəlxalq razılaşma 1886-ci ildəki Bern Konvensiyasıdır. ABŞ 1988-ci ildə razılaşmanın ilkin halının Parisdə qəbul olunmasından 100 il sonra Bern Konvensiyasi İcra Aktıyla birlikdə bu razılaşmanı imzalayan 80-ci ölkə oldu.

2002-ci ildə Copyright and Trade Marks (Müəllif hüquqları və Əmtəə Nişanları) olaraq dəyişdirilən The Copyright, Designs and Patents (Müəllif hüquqları, Lahiyələr və Patentlər) (1988) qanunu hal-hazırda müəllif hüquqlarını müdafiə edən başlıca qanundur.

Şərif KƏRİMLİ,
Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi,
AzPatentin İnformasiya təminatı şöbəsinin mütəxəssisi

"Sabah"
Mart 2015-ci il

Koreya-Azərbaycan əməkdaşlığı davam edir

Azərbaycanın xarici siyasət fəaliyyətinin formalaşması, şəksiz ki, Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin prezidentliyi dövründə Azərbaycanın beynəlxalq münasibətlər sistemində iştirakı və özünəməxsus mövqelər qazanması üçün beynəlxalq aləmin Cənubi Qafqazda, Xəzər regionunda və Azərbaycanda maraq dairələri müəyyənləşdirildi. Eyni zamanda Azərbaycan üçün də iqtisadi və siyasi göstəriciləri ilə önəm kəsb edən ölkələrə diqqət artdı. Belə ölkələrdən biri də Koreya Respublikasıdır.

Asiyada dördüncü ən böyük iqtisadiyyata malik olan Koreya yüksək həyat səviyyəsi ilə tanınır və "Böyük 20-lər" (G20) qrupunun üzvüdür. Koreya Respublikası hazırda 190-dək ölkə ilə diplomatik əlaqə saxlayır.

Yüksək inkişaf etmiş sənaye və iqtisadiyyata malik ölkə kimi Cənubi Koreya dünyada gəmiqayırma, polad emalı, avtomobil, elektron və eloktrotexnika istehsalına görə əsas yerlərdən birini tutur. Dünyada ən sürətli internet məhz Cənubi Koreyadadır.

Azərbaycanın regionun aparıcı ölkəsinə çevrilməsi, əldə etdiyi yüksək iqtisadi inkişaf, siyasi sabitlik Koreya Respublikasında dövlətimizə qarşı marağın artmasına səbəb olmuşdur. Qarşılıqlı faydaya əsaslanan iqtisadi maraq, iqtisadi inkişaf təcrübəsinin mübadiləsi sahəsində əməkdaşlıq, Koreyanın müxtəlif qurumları tərəfindən Azərbaycan mütəxəssisləri üçün iqtisadiyyatın planlaşdırılması və idarə olunması, bazar iqtisadiyyatına keçid və sair kimi mövzular üzrə təlim və təhsil kurslarının təşkili mütəmadi xarakter daşıyır.

Ümumdünya Əqli Mülkiyyət Təşkilatında (WİPO) kifayət qədər təcrübəsi və bu təşkilatda önəmli töhfələri ilə seçilən Koreya Respublikası Azərbaycan üçün də əqli mülkiyyət sahəsində geniş münasibətlər müstəvisində əməkdaşlığa maraq doğuran ölkə sayıldığından ölkə Prezidenti cənab İlham Əliyevin 16 yanvar 2014-cü il sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi və Koreya Respublikasının Koreya Əqli Mülkiyyət Ofisi arasında Anlaşma Memorandum"una əsasən, dayanıqlı milli və qlobal iqtisadiyyatın qurulmasında, innovasiya və investisiya sahələrinin, sahibkarlığın inkişafında əqli mülkiyyətin, eyni zamanda onun yaradılması, qorunması və kommersiyalaşdırılmasında avtomatlaşdırma sisteminin əhəmiyyətinə xüsusi diqqət yetirən tərəflər qarşılıqlı olaraq, əqli mülkiyyət və avtomatlaşdırma sistemi sahələrində çalışan mütəxəssislərdən ibarət işçi qruplar yaratmış və hər iki ölkəyə mütəxəssis səfərləri zamanı müxtəlif təlim proqramlarının hazırlanması və həyata keçirilməsini reallaşdırmışlar.

Qeyd edək ki, bu Memorandum çərçivəsində çox önəmli işlər görülüb. Koreya Respublikası tərəfdən ezam olunan mütəxəssislər Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində (ASMPDK) yaradılan kompüter zallarında nəzərdə tutulan treninqlər keçirib. Ötən ilin sentyabrında Komitənin 15 nəfərlik nümayəndə heyəti Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (KOICA) təşkil etdiyi "Əqli mülkiyyət siyasəti kursu" adlı təlim proqramı ilə tanış olmaq üçün Koreyada iki həftəlik ezamiyyətdə olublar.

Koreya Respublikası əqli mülkiyyət sahəsində ən çox inkişaf edən ölkələrdən biridir. Bu ölkədə təbii sərvətlərin qıtlığı insan resurslarını inkişaf etdirməyin zəruriliyini ön plana çəkir. Şəffaf dövlət yaradılmalı, əhali üçün informasiya əldə etmək, patent haqqında məlumat almaq problemə çevrilməməlidir.

Koreya Əqli Mülkiyyət Ofisi (KİPO) əməkdaşlarının sayının 1560 nəfərə çatan Koreya Respublikasında (onların 892 nəfərini ekspertlər təşkil edir) kreativ iqtisadiyyata xüsusi diqqət yönəldilir və bununla bağlı əqli mülkiyyətin mühafizəsi üçün potensial artıma, əqli mülkiyyət sahəsində işçi yerlərin yaradılmasına, bu sahədə

rəqabətin güclənməsi kimi faktorlara, ümumiyyətlə, əqli mülkiyyətin inkişafı məsələlərinə çox böyük önəm verilir.

2014-cü ilin sonunda Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOICA) tərəfindən ölkəmizə ezam olunan müstəqil ekspertlərin Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Sənaye Mülkiyyəti Obyektlərinin Ekspertizası Mərkəzində (AzPatent) olması və "Əqli Mülkiyyət Hüquqlarının İdarəetmə Sisteminin Avtomatlaşdırılması" layihəsinin başa çatması ilə bağlı layihənin ilkin hədəflərə çatdığını yoxlamaq və onun nəticələrinin qiymətləndirilməsi işi mart ayının 8-20 tarixlərində yenidən diqqət mərkəzində gətirilib.

Layihənin aktuallığına, effektivliyinə, səmərəliliyinə, təsir və davamlılığına əsas önəm verən KOICA-nın Azərbaycan nümayəndəliyinin iştirakı ilə həyata keçirilən bu tədbir ASMPDK əməkdaşları tərəfindən yüksək səviyyədə təşkil olunub və mütəxəssislər tərəfindən tam dəstək görüb. 2012-ci ildən KOICA-nın ASMPDK-da yaratdığı patent sisteminin mövcud vəziyyətinin araşdırılması, sistemin funksiyalarının təkmilləşdirilməsi və istifadəçilərin sistemdən rahat şəkildə istifadə etmələri üçün ezam olunan mütəxəssis qrupu 2 həftə ərzində Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin əməkdaşları ilə işgüzar təmasda olmuş və Komitə işçilərini maraqlandıran müxtəlif sualların cavablandırılmasında yardımçı olmuşlar.

Növbəti belə görüş may ayına nəzərdə tutulub. Ümumiyyətlə, KOICA-nın ekspertləri sözügedən sistemin təkmilləşdirilməsi və istifadəsinin daha rahat olması məqsədilə ASMPDK-nın müvafiq strukturlarında cari ilin oktyabrınadək fəaliyyətlərini davam etdirəcəklər.

Şərif KƏRIMLI,
Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsinin Sənaye Mülkiyyəti Obyektlərinin
Ekspertizası Mərkəzinin (AzPatent)
İnformasiya təminatı şöbəsinin mütəxəssisi

"Respublika"
19 iyun 2014-cü il

Paytaxtımızda ECO-nun növbəti iclası

İyunun 15-16-da Bakıda Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin (ASMPDK) təşkilatçılığı ilə ölkəmizin də üzv olduğu İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Sənaye Mülkiyyəti üzrə Əlaqələndirmə komitəsinin 2-ci iclası keçirilmişdir.

Tədbirdə ECO Katibliyinin Kənd Təsərrüfatı, Sənaye və Turizm üzrə Araşdırmalar Mərkəzinin Sədri Əkbər Xudai, Baş Məsləhətçi Bəhram Heydəri, eləcə də Pakistanın Əqli Mülkiyyət Ofisinin Əmtəə nişanları üzrə Direktor müavini Çaudri Asfand Əli, Türkiyədən Patent İnstitutunun Beynəlxalq Əlaqələr İdarəsinin mütəxəssisi İsmayıl Gümüş, Qazaxıstandan Sənaye Mülkiyyəti sahəsində Dövlət Mülkiyyətinin Təşkili İstiqamətinin mütəxəssisi Dinarə Turubekova və Əqli Mülkiyyət Hüquqları üzrə mütəxəssis Nurgəldi Temirxan, Tacikistan İqtisadi İnkişaf və Ticarət Nazirliyi Milli Patent və İnformasiya Mərkəzinin Direktor müavini Tohir Xolikov, İrandan Sənaye Mülkiyyəti Hüquqlarının Prezidenti Məhəmməd Həsən Kyani və başqaları iştirak edirdi.

Toplantı iştirakçılarını Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin rəhbərliyi adından salamlayan sədr – ASMPDK-nınSənaye Mülkiyyəti Obyektlərinin Ekspertizası Mərkəzinin direktoru Mir Yaqub Seyidov dedi:

-ECO Avrasiya regionunun üç böyük müsəlman ölkəsi - Türkiyə, İran və Pakistan arasında 1964-cü ildə "İnkişaf Uğrunda Regional Əməkdaşlıq" adlı dövlətlərarası iqtisadi birlik kimi yaradılmış və sonradan bölgənin başqa ölkələrini də özünə cəlb

edərək çox mühüm regional iqtisadi təşkilata çevrilmişdir. 1992-ci ildə bu quruma yeni ölkələr - Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Özbəkistan da üzv oldular. ECO-nun genişləndiyi həmin gün təşkilatın təqvimində **"ECO günü"** kimi qeyd edilir.

Azərbaycan bu təşkilatın ən fəal üzvlərindən biri kimi təşkilata daxil olduğu gündən bəri üzv ölkələrin əksəriyyəti ilə iqtisadi, siyasi və digər beynəlxalq məsələlər üzrə tərəfdaşlıq münasibətləri yarada bilmiş, Türkiyə, İran, Əfqanıstan, Pakistan və Orta Asiya dövlətləri ilə özünün nəqliyyat, enerji, yükdaşıma, Şərq-Qərb arasındakı bağlılıq və digər sahələr üzrə tərəfdaşlıq münasibətlərini yaratmış, bu sahələr üzrə ən çox real layihələr ortaya qoyaraq onları həyata keçirən ölkə olmuşdur.

Dinamik iqtisadi inkişaf tempinə və möhkəm ictimai-siyasi sabitliyə malik olan Azərbaycan modern bir dövlətdir. Bunun əsasını, təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və cənab Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilən "İnkişafın Azərbaycan Modeli" təşkil edir.

Azərbaycan Şərq-Qərb, Cənub-Şimal nəqliyyat-kommunikasiya sistemində əsas əlaqələndirici ölkələrdən biri kimi, ECO dövlətləri ilə Xəzər dənizinin karbohidrogen ehtiyatlarının mənimsənilməsi və dünya bazarlarına çıxarılması sahəsində, eləcə də həmin ölkələrlə mədəni, sosial, siyasi sahələrdə əməkdaşlıq və tərəfdaşlıq edir. Bu dövlətlərlə bizim mədəni-mənəvi yaxınlığımız, xalqlarımızın ortaq milli-mənəvi dəyərləri, ortaq dini, dili, ortaq mədəniyyət bağlılıqları mövcuddur.

Bu gün bizim üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan- Dağlıq Qarabağla bağlı ECO-ya üzv olan ölkələrin mövqeyini yüksək qiymətləndirir və minnətdarlıqla qeyd etmək istəyirəm ki, bu mövqe müzakirə ediləcək sənədlərin də tərkibinə salınıb. Bildiyiniz kimi, uzun illərdir ölkəmizin beynəlxalq birlik tərəfindən tanınmış ərazi bütövlüyü pozulub, Ermənistan Azərbaycana qarşı hərbi təcavüz edib. Bizə qarşı etnik təmizləmə, soyqırım siyasəti aparılmışdır, nəinki Ermənistan ərazisində, eləcə də

işğala məruz qalan Azərbaycan ərazilərində milli-mədəni abidələrimiz, məscidlərimiz dağıdılmışdır.

Əlbəttə, bu işğal və ədalətsizlik bizim iqtisadiyyatımıza da çox böyük zərbə vurmuşdur. Ancaq bütün bunlarla yanaşı, Azərbaycan iqtisadiyyatı dinamik inkişafdadır, ümumi daxili məhsul ilbəil artmaqda davam edir.

Biz ECO-nun fəaliyyətinə çox böyük önəm verir və təşkilatın dünya miqyasında öz layiqli yerini tutaraq üzv olan ölkələrin böyük iqtisadi potensialını üzə çıxarmaqda onun rolunu yüksək qiymətləndiririk. Dünyada gedən qloballaşma siyasəti ECO-ya üzv olan ölkələr arasında Sənaye Mülkiyyəti üzrə Əlaqələndirmə Komitəsi çərçivəsində üzv dövlətlərin əməkdaşlıq əlaqələrinin inkişaf strategiyasına yeni yanaşmanın zəruriliyindən xəbər verir. İnkişaf etmiş ölkələrin inkişaf meylləri əsasən insan kapitalına söykənir. Bu baxımdan Sənaye Mülkiyyəti üzrə Əlaqələndirmə Komitəsi tərəfindən sənaye mülkiyyəti obyektlərinin yaradılması, istifadəsi, kommersiyalaşdırılması, transferi, innovasiyaların toplanması, sistemləşdirilməsi və üzv ölkələrdə yayılmasına kömək göstərilməsi mühüm əhəmiyyət daşıyır.

İşgüzar diskussiyalar şəraitində keçən iclasda üzv ölkələrin əqli mülkiyyət ofisləri üçün prioritet təşkil edən sahələrin və bu agentliklər arasında əlaqələndirmə mexanizmlərinin ayrı-ayrı ölkələrin mütəxəssisləri tərəfindən müzakirəsi böyük maraq kəsb etdi.


İran İslam Respublikasının nümayəndələrinin təklifi ilə növbəti iclasın Tehranda keçirilməsi qərara alındı.


Şərif KƏRIMLI,
Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsinin Sənaye Mülkiyyəti Obyektlərinin
Ekspertizası Mərkəzinin (AzPatent)
İnformasiya təminatı şöbəsinin mütəxəssisi



-Şərifi “Gənclik”dən nahaq ayırdın, Sabir bəy...
-Gəncliyimiz keçdi, indi bütün yollar “Azərbaycan”da birləşir, Məmməd bəy...











WİPO-nun tədbirində. Soldan ikinci: Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Ramiz Həsənov



WİPO-nun tədbirində. Soldan: Ş.Kərimli, AzPatentin direktoru M.Y.Seyidov və Naxçıvan nümayəndə heyətinin üzvü. 2015-ci il.



Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Sənaye Obyektlərinin Ekspertizası Mərkəzi (“AzPatent”) tabeliyində yaradılan Təlim kursunun iştirakçıları



Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin (ASMPDK) təşkilatçılığı ilə İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Sənaye Mülkiyyəti üzrə Əlaqələndirmə komitəsinin 2- ci iclasında



KOICA-nın əməkdaşları AzPatentin mütəxəssisləri ilə
görülən işləri təhlil edirlər

**KOICA's colleagues analyse the activities
with the specialists of Patent**



Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və
Patent üzrə Dövlət Komitəsinin Sənaye Mülkiyyəti Obyektlərinin
Ekspertizası Mərkəzində (AzPatent) ixtiraçı musiqiçilərlə
görüş. 2015-ci il



AzPatentin tədbirində. Soldan: Elxan Rüstəmov, İksoo (Koreya, KOİCA-nın nümayəndəsi), Ş.Kərimli və E.Müslümov



Koreyalıların tərcüməçisi Fidan xanım



SakPatentin əməkdaşı Ana Dalkişvili ilə. 2015-ci il



Koreya Respublikası
Republic of Korea




Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin bir qrup əməkdaşı Koreya Respublikasında xidməti ezamiyyətdə

A group of workers of the State Committee on Standardization, Metrology and Patent of the Republic of Azerbaijan on the official trip to the Republic of Korea

Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Sənaye Mülkiyyəti Obyektlərinin Ekspertizası Mərkəzinin (AzPatent) "Sənaye Mülkiyyəti" rəsmi bülleteninin növbəti sayının müzakirəsi zamanı











AzPatentin növbəti tədbirində



Mətbuat Şurasında qəzetlərdə dil problemi müzakirə edilərkən




Gürcüstan, Helati monastrı.




Helati monastrında
Gəncə qapısının saxlandığı yer.




Helati monastrı ətrafında. 2013-cü il.



Gürcüstan, Helati monastrının
həyətində



Gürcüstan, Kutaisi Tarix muzeyində
saxlanılan Gəncə qapısının lövhələri



Gürcüstan, Sxaltubo
Buz mağarasında



Borçalının payızı



Ötən günlərin nastolgiyası



Ş.Kərimli qızı və nəvələri ilə

Tələbələri ilə











Qızım Günay və nəvəm
Nəzrinlə İranda. 2000-ci il.



Təbrizli dostum Rəsulun
xalça emalatxanasında. Şəhriyar oteli,
2000-ci il.



Valideynlərimin yadigarları - 5 bacı, 2 qardaş: *Arxa cərgədə:* **Sağdan sola-** Xeyransa, Salatın, Gülnarə, Mahidə, Safirə. On cərgədə: Bəkir, Şərif



Borçalı ağsaqqalı
Ayvaz Dursun oğlu Həsənov



Borçalının xəritəsi



Krm. Baydar aşırımı (Baydarskiye vorota)

İctimai-siyasi qəzet

Sabah

9 iyul
2013-cü il
№ 07 (336)
Lisenziya: B-308
Tel: 432-23-80
(050) 328-04-51
Daxili: 4-45
Qiyməti 40 qəpik
Qəzet 1990-cı ildən çıxır

Sabah Сабах

ODLAR YURDU

“Sabah” qəzetinin xüsusi buraxılışı № 10 (214) 18 noyabr 2003-cü il


Ədəbi Jurnalist

“Sabah” qəzetinin xüsusi buraxılışı

TİTANİK SABAH

4-11 İYUL 1999-cu il №7(72) həftəlik qəzet Qiyməti 910 manat

Press Inform



-Molla əmi, bu dünya düzəlmir ki, düzəlmir...

"Respublika"
28 noyabr 2014-cü il

II Respublika Müsabiqəsi

Ən yaxşı ixtiraçı

İxtira insan beyninin və əməyinin məhsulu olmaqla bəşər övladının həyatını nizamlayır, rahatlıq yaradır və əməyi yüngülləşdirir. Lakin onların bəhrəsini milyonlar görsə də bəzən ixtira müəllifinə qarşı haqsızlıqlar olur, əməyi başqaları tərəfindən mənimsənilir, müasir terminologiya ilə desək, plagiatlıq baş verir, əsl müəllif unudulur.

Kütləvi informasiya vasitələrindən məlum olduğu kimi, İxtiraçılıq sahəsində nailiyyətlərə görə Respublika Müsabiqəsinin keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 31 avqust 2009-cu il tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Əsasnaməsinin 9.36 və 15.5-ci bəndlərini rəhbər tutaraq Komitə ixtiraların, yeni texnologiyaların yaradılmasının həvəsləndirilməsi, ixtiraçılıq fəaliyyətinin və innovasiyaların stimullaşdırılması, perspektivli patentlərin müəyyən edilməsi, istifadəyə təklif olunması üçün köməklik göstərilməsi, alimlərin, ixtiraçıların, mühəndis-texniki işçilərin və təsərrüfat subyektlərinin cəlb edilməsinə yardım göstərilməsi, ixtiraçılıq sahəsində təbliğatın genişləndirilməsi məqsədilə bu sahədə nailiyyətlərə görə II Respublika Müsabiqəsi elan edib.

Milyon il əvvəl insanlar ilk ixtiralarını edərək daşdan əmək alətləri və silah hazırlamağa başladılar. Təxminən 8 yüz min il əvvəl od əldə etdilər. 9-10 min il əvvəl isə taxılın kəşfi ilə əlaqədar əkinçilik başladı. Bundan sonra oraq, orağın dəstəyi, tiyəsi düzəldildi.

8-9 min il əvvəl ovçuların heyvanları əhliləşdirməsi nəticəsində heyvandarlığın əsası qoyuldu. Beləliklə, insanların geyimində dəri məmulatların istehsalına başlandı, yundan düzəldilmiş iplikdən toxuculuq sənayesi inkişaf etməyə başladı. Hindistanda pambığın kəşfi və III minillikdə çinlilərin baramadan ipək hazırlamaq üsulları isə... insanların bütün sonrakı həyat tərzində mühümroloynamağa başladı. Təxminən 3,5 min il qabaq Mesopotamiyada təkərin ixtirası maşınqayırma və nəqliyyat vasitələrinin yaranmasına gətirib çıxardı.

Və nəhayət, VIII əsrdə Çin əlkimyaçısı Sun Simyao tərəfindən barıtın ixtirası insanın özünün özünə qənim kəsilməsinin əsasini qoydu...

ABŞ-ın "Atlantic" jurnalı 12 məşhur alimə və tanınmış mühəndisə 50 ən böyük inqilabi ixtiranı müəyyən etmək və onları vaciblik sırası ilə düzmək üçün müraciət edib. Birinci yeri çap maşını, sonrakı yerləri elektrik, penisillin, yarımkeçiricilər, optik linzalar, kağız, daxiliyanma mühərriki, peyvənd, internet, buxar maşını və s. tutub. Təyyarə 15-ci, avtomobil 18-ci, əlifbanın yaradılması 25-ci, televiziyanın icadı isə 45-ci yerdə qərarlaşıb.

Bəs, Azərbaycanda ixtira və ixtiraçıların, onlara verilən patentlərin vəziyyəti nə yerdədir?

Fəxrlə demək lazımdır ki, Azərbaycan alimləri neft və kimya sənayesində, aqrar sahədə, yüngül və yeyinti sənayesində, səhiyyə və ictimai iaşədə, dənizdə və quruda inşaat-quraşdırma işlərində yüzlərlə yeniliyin, ixtiranın müəllifliyini qazanmışlar. Bununla da ölkə büdcəsinə milyonlarla manat əlavə vəsaitin daxil olmasına şərait yaratmışlar.

Azərbaycan Respublikası Prezidentinin 2014-cü ilin "Sənaye ili" elan edilməsi ilə əlaqədar 10 yanvar 2014-cü il tarixli Sərəncamına uyğun olaraq əqli mülkiyyətin iqtisadiyyatda günbəgün artmaqda olan rolunu daha da stimullaşdırmaq məqsədi ilə ölkəmizdə keçirilən bu müsabiqəAzərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin tədbirlər planına daxil edilmişdir.

Müsabiqə 2013-cü ildə dövlət qeydiyyatına alınan ixtira patentləri arasında "İlin Patenti" nominasiyası üzrə qalibi müəyyən edəcək. Kütləvi informasiya vasitələri nümayəndələrnin iştirakı ilə birinci, ikinci və üçüncü yerləri tutan qaliblərə müvafiq diplom, xatirə hədiyyələri və pul mükafatlarıtəqdim olunacaqdır.

Müsabiqəyə Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə məxsus olan və Azərbaycan Respublikasında qüvvəsi tanınan və 2013-cü ildə Avrasiya Patent İdarəsində qeydiyyata alınan Avrasiya patentləri də təqdim oluna bilər. Maraqlı hallardan biri də odur ki, bir patent sahibi hər il üç müxtəlif ixtira patenti ilə müsabiqədə iştirak edə bilər.

Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Mühəndislik Akademiyası, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən namizədliyi verilən tanınmış elm adamlarından, zəngin təcrübəyə malik görkəmli mütəxəssislərdən təşkil olunan Komissiya inanırıq ki, ötən ildəki kimi builki müsabiqədə dəən yaxşı ixtiraçını müəyyən edəcək. Yeri gəlmişkən, I Respublika Müsabiqəsində "Alkil-üçlü-alkil efirlərinin ion mayesi ilə selektiv təmizlənməsi üsulu" adlı ixtira patent sahiblərinə - AMEA-nın müxbir üzvü, kimya elmləri doktoru, professor Vaqif Abbasovun rəhbərlik etdiyi akademik Y.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun bir qrup əməkdaşına ən yüksək mükafatı – birinci yeri qazandırıb.

Müsabiqənin Təşkilat Komitəsinin sədri Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri **Ramiz Həsənov** bildirmişdir ki, cənab İlham Əliyevin 2014-cü ili "Sənaye ili" elan etməsi iqtisadi səmərəliliyə malik müasir texnologiyalara və insan kapitalına əsaslanan iqtisadiyyatın daha da sürətlə bərqərar olmasına xidmətedir. İqtisadi tərəqqi naminə sənayenin səmərəliliyinin artması üçün yeni texnologiyalar, yeni

yanaşmalar və ixtiraların tətbiqi həlledici əhəmiyyətə malikdir. Yeni texnologiyalar və ixtiralar öz növbəsində elmi-texniki araşdırmalara, yaradıcı fəaliyyətə, bir sözlə, insan kapitalına aid dəyərlərdir. Rəqabət qabiliyyətli və innovativ sənaye müasir dünya bazarına çıxış üçün həlledici faktor kimi yeni texnologiyaların gətirilməsi ilə bərabər, yerli elmi-texniki araşdırma mərkəzlərinin də inkişaf etdirilməsində təkanverici amilə çevrilməlidir.Sənayenin səmərəliliyinə təsir edən bir çox iqtisadi-sosial faktorlar sırasında texniki ixtiralar, faydalı modellər, sənaye nümunələri əsas amillər kimi qiymətləndirilməlidir. Bu komponentlər istehsal proseslərinin səmərəliliyini artırmaqla bərabər, sənaye məhsullarına əlavə istehlak xüsusiyyətləri verir,dünya bazarlarına daha da uğurlu nəticələrlə yol açır. Bu isə öz növbəsində əqli mülkiyyət obyektləri üzərində müstəsna halların qorunması mexanizminin, patent sisteminin rolunu günbəgün artırır.

Cənab Ramiz Həsənovun sözlərinə görə, ixtiraçıların, patent sahiblərinin uğurları onların əqli mülkiyyət nəticələrinin təsərrüfatda, sənayedə tətbiqindən asılıdır. Bu həm də ixtiraçıya və ya elmi araşdırma mərkəzinə intellektual fəaliyyətindən mənfəət əldə etməyə zəmanət mexanizmidir. Cəmiyyətimizdə əqli mülkiyyətə iqtisadi faktor kimi artan maraq da bütün bunların əyani sübutudur. Azərbaycanın yeniləşməsi və müasirləşməsində, eləcə də sosial göstəricilərin inkişaf tempində ən vacib amillərdən biri də insan faktorudur. Dövlət başçımızın məşhur "Qara qızılı insan kapitalına çevirək" şüarı məhz kreativliyə, yaradıcılığa, yenilikçiliyə və onları qoruyub stimullaşdıran, həvəsləndirən əqli mülkiyyətə verilən ən böyük dəstəkdir.

Ölkədəki iqtisadi nailiyyətlər Azərbaycanın inkişafı üçün möhkəm dayaqlar formaşlaşdırıb, cəmiyyətin intellektual və kreativ enerjisini ölkənin inkişafı üçün səfərbər edib. Bu uğurların formalaşdırdığı özül üzərində start götürən mədəni, iqtisadi modernləşmə siyasətinin nəticəsidir ki, bu gün Azərbaycan dünyanın ən sürətlə inkişaf edən və rəqabətədavamlı iqtisadiyyata

malikdir, beynəlxalq reytinqlərin hesabatlarında müsbət mənada daim öncül sırada dayanır. Azərbaycan hökumətinin iqtisadi inkişafın yeni mərhələsində həyata keçirdiyi iqtisadi siyasətin əsas istiqamətləri iqtisadiyyatın çoxvektorluluğu, maliyyə, valyuta və sosial sabitliyin gücləndirilməsi fonunda əhalinin pul gəlirlərinin artmasına, sosial yaşayış imkanlarının yaxşılaşmasına nail olmaqdan ibarətdir. Ölkədəki mövcud inflyasiya risklərinin qarşısını almaq və əhalinin real gəlirlərinə təsir imkanlarını minimuma endirmək bu siyasətin əsas bazislərindən biridir. İnsanların sosial yüksəlişinin təmin olunması, bütün vətəndaşların gələcək sosial həyatının gücləndirilməsi iqtisadi siyasətin əsas trendidir. Hökumət bütün vətəndaşların gələcək keyfiyyətli sosial yaşayışını təmin etmək üçün hazırda meydana çıxan bir sıra meylləri tamamilə aradan qaldırmaq niyyətindədir. Bu məqsədlə son dövrlər sosial sektorda gücləndirilmiş tədbirlər, xüsusilə də, müəssisə və təşkilatlarda işləyənlərin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər mühüm əhəmiyyət kəsb edir.

Builki Müsabiqəni önəmli edən cəhətlərdən biri də odur ki, əsası Ümummilli lider Heydər Əliyevin 1993-cü il tarixli müvafıq Fərmanı ilə qoyulanAzərbaycan Patent sisteminin20 illik yubileyi də məhz bu ilə düşüb. Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) birgə təşkilatçılığı ilə keçirilmiş "İnkişaf etməkdə olan ölkələrdə Əqli Mülkiyyət Hüquqlarının Aktual Problemləri" üzrə beynəlxalq konfrans da məhz yubileyə həsr olunmuşdu.

Konfrasda "AzPatent"in direktoru Mir Yaqub Seyidovun, ÜƏMT-ın nümayəndəsi M.Svantnerin, Avrasiya Patent İdarəsinin Prezidenti A.Qriqoryevin və digər iştirakçıların maraqlı məruzələri dinlənilmiş, geniş müzakirələr aparılmışdır.

"AzPatent"in direktoru M.Seyidovun verdiyi məlumata görə,Müsabiqə hər il müxtəlif nominasiyalarda əvvəlki ildə

qeydiyyata alınan və qüvvədə olan ixtira patentləri üzrə təşkil olunur.

Müsabiqədə iştirak etmək istəyən fiziki və hüquqi şəxslər bir sıra sənədləri təqdim etməlidirlər. Buraya təqdim olunan sənədlərin siyahısını özündə əks etdirən ərizə-təqdimat (Ərizə patent sahibi və ya etibarnamə əsasında onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanır); patentin əsli ilə birlikdə surəti; patentə məxsus ixtiranın bütün materialları (ixtiranın təsviri, düsturu, referatı, texnoloji sistemi, cizgiləri və s.); mümkün istifadə sahəsi göstərilməklə əhəmiyyəti, ixtiranın səmərəsi haqqında əsaslandırılmış məlumatlar; patent sahibi tərəfindən verilən səlahiyyəti təsdiqləyən Etibarnamə (zərurət olduqda); patentlə bağlı patent sahibi tərəfindən zəruri sayılan digər sənədlər daxildir. Müsabiqədə iştirak etmək istəyən səxslər sənədləri 4 dekabr 2014-cü il tarixinə kimi həftənin I - V günləri saat 14:30-dan 17:30-dək Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Sənaye Mülkiyyəti Obyektlərinin Ekspertizası Mərkəzinin (AzPatent) İnformasiya təminatı şöbəsinə (AZ 1009, Bakı şəhəri, Yasamal rayonu, Mirzə İbrahimov küçəsi 53) təqdim edə bilərlər.

İnanırıq ki, dövlət səviyyəsində təşkil olunacaq bu Müsabiqə bütün yaradıcı adamlarda öz əməyinin bəhrəsini görmək, onun ixtirasının nəinki doğma xalqına, eləcə də bütün bəşəriyyətə verə biləcəyi misilsiz faydanın şahidi olmaq kimi mənəvi zövq verəcək və gələcək axtarışlarında güclü bir stimul yaradacaqdır.

Şərif KƏRIMLI,
Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsinin Sənaye Mülkiyyəti Obyektlərinin Ekspertizası
Mərkəzinin (AzPatent) İnformasiya təminatı şöbəsinin mütəxəssisi

"Respublika" qəzeti,
"Yeni Sözçü" qəzeti,
02 iyul 2014-cü il

Azərbaycanda Patent Sistemi və onun inkişaf dinamikası

Əqli Mülkiyyət (ƏM) hüquqlarının qorunmasının təqribən 500 il tarixi var. Patentlə bağlı ilk qanun 1623-cü ildə Böyük Britaniyada, 1812-ci ildə isə Rusiyada qəbul olunmuşdur. Amerikada quldarlıq quruluşunu ləğv edən prezident Avraam Linkoln patentdən yararlanan ilk və hələ ki, son ABŞ prezidentidir. 22 may 1849-cu ildə Avraam Linkoln suyun dayaz və maneəli yerlərində gəminin qalxması üçün istifadə olunan qurğunu patentləşdirmişdir. O, iki fərqli istiqamətdə üzən gəmilərdən birində olarkən, gəmilərin maneəyə ilişib hərəkətini dayandırması zamanı elə bir mexanizm düşünmüşdü ki, bu qurğu həmin situsiyalarda gəmini qaldırmaq iqtidarında idi. Prezidentin aldığı patentin rəsmi qeydiyyat nömrəsi 6469 idi. Maraqlıdır ki, bu sənəd prezidentin ölümündən 132 il sonra - 1997-ci ildə aşkarlanmışdır.

Patent ixtira, faydalı model və sənaye nümunəsinə müəllifliyi və ilkinliyi təsdiq edir və onlardan istifadə etmək üçün müstəsna hüquq verir.

Müasir Azərbaycan tarixinin 30 ildən artıq bir dövründə respublikamıza rəhbərlik etmiş Heydər Əliyev bu sahədə də müstəsna xidmətlər göstərmişdir. Müstəqilliyin ilk illərində respublikada, digər sahələrdə olduğu kimi, əqli mülkiyyət sahəsində də dövlət siyasətinin aparılması, hüquqların tənzimlənməsi, beynəlxalq sistemə inteqrasiya və s. məsələlərin həlli ön plana çəkildi.

Patent sistemi öz fəaliyyətinə 1993-cü ildə Dövlət Elm və Texnika Komitəsinin tərkibində yaradılan Patent-Lisenziya İdarəsi

ilə başladı. Sonradan aparılan struktur dəyişikliyinə rəğmən Patent-Lisenziya İdarəsinin bazası və fəaliyyət dairəsi genişlənərək, Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 27 dekabr tarixli, 623 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi yaradıldı.

"Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 19 noyabr 2008-ci il tarixli Sərəncamı ilə Dövlət Agentliyinin bazasında Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi (ASMPDK) yaradılmışdır. Komitə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, tərəfdar çıxdığı beynəlxalq müqavilələri, müvafiq qanunları, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Nazirlər Kabinetinin qərar və sərəncamlarını və Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Əsasnaməsini rəhbər tutur. Komitə Azərbaycan Respublikasının texniki tənzimləmə, standartlaşdırma, metrologiya, uyğunluğun qiymətləndirilməsi, akkreditasiya, keyfiyyətin idarə edilməsi və sənaye mülkiyyəti obyektlərinin mühafizəsi sahələrində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

Azərbaycan Respublikası bu günədək Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT, beynəlxalq sənədlərdə - VİPO) patent sistemi sahəsinə aid olan 17 konvensiya, saziş və müqaviləsindən 11-nə qoşulmuş və sıx əməkdaşlıq əlaqələri yaratmışdır. 1995-ci ildə Avrasiya Patent Konvensiyasına qoşulan Azərbaycan Paris Konvensiyası, Madrid Sazişi, Budapeşt Müqaviləsi, Lokarno Sazişi, Nitsa Sazişi, Strasburq Sazişi, Haaqa Sazişinin Cenevrə Aktı, Nayrobi Müqaviləsi kimi beynəlxalq sənədlərin tələblərinə uyğun olaraq ən işgüzar və səmərəli fəaliyyət göstərən ölkələrdəndir. Məlumat üçün bildirək ki, 1995-

ci ildən ötən ilədək ölkəmizdə beynəlxalq aləmdə tanınan 7600-dən artıq patent mövcuddur, 58700 ədəddən artıq əmtəə nişanı isə müvafiq qanunlarla qorunur.

Milliyyətindən, dinindən, böyüklüyündən, xırdalığından asılı olmayaraq, müxtəlif xalqlar və ölkələrin yaradıcı nümayəndələri arasında elm, texnika, mədəniyyət, ədəbiyyat və digər sahələrdə inkişafın, tərəqqinin yolu ancaq qarşılıqlı əməkdaşlıqdan və ünsiyyətdən keçir. Ulu Öndərin məlum Fərmanı ilə artıq 13 ildir fəaliyyət göstərən Komitə bu dialektik qanunauyğunluğa öz iş prosesində daim ciddi önəm verir və əməkdaşlarının peşə hazırlığının təkmilləşdirilməsi, ixtisaslarının artırılması, habelə əqli mülkiyyət sahələrinə dair elmi tədqiqatların aparılması, bu sahədə biliklərinin yüksəldilməsi məqsədi ilə ölkədaxili və beynəlxalq seminarlar, müşavirələr, görüşlər keçirir, müntəzəm təlim və tədris kursları təşkil edir.

Belə kurslardan biri - Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Sənaye Obyektlərinin Ekspertizası Mərkəzi ("AzPatent") tabeliyində yaradılan Təlim Mərkəzinin beynəlxalq təcrübə nəzərə alınmaqla əqli mülkiyyət sahəsində maarifləndirmə, ixtisasartırma və yenidənhazırlanma məqsədi ilə təşkil etdiyi "Sənaye mülkiyyətinin mühafizəsi: Baza kursu" mövzusunda 2 aylıq təlim kursu artıq başa çatmışdır. Məqsəd Azərbaycanın patent sistemi sahəsində fəaliyyətin təkmilləşdirilməsi, onun maddi-texniki bazasının müasirləşdirilməsi, keyfiyyətin yüksəldilməsi üçün kadr təminatı yaratmaqdır.

Tədris prosesində **Sənaye Obyektlərinin Ekspertizası Mərkəzinin ("AzPatent") direktoru Mir Yaqub Seyidovun** Sənaye mülkiyyəti sahəsində əsas qanunvericilik aktları, beynəlxalq əməkdaşlıq, Beynəlxalq Patent Sistemi, Konvensiya İlkinliyi və onun təyin edilməsi, habelə Patent Ekspertizası şöbəsinin müdiri G.Rüstəmovanın İxtira və onun patentlə mühafizəsinin şərtləri və digər aktual mühazirələr dinlənilmişdir.

Əqli mülkiyyətin idarə olunması sahəsində kadrların ixtisasartırma tələblərinin ödənilməsini və yenidənhazırlanmasını həyata keçirmək üçün Mərkəz yerli və xarici alimlərin, elm və təhsil mütəxəssislərinin iştirakı ilə müxtəlif təlimlər, kurslar, konfranslar, dəyirmi masalar, görüşlər, treninqlər, seminarlar təşkil etmiş, əqli mülkiyyət sahiblərinin maarifləndirilməsi, onların hüquqi, iqtisadi informasiyalardan və resurslardan istifadə sahələrində, eləcə də perspektivli patentlərin tətbiqinə və yaxud xarici firma və ölkələrə satılmasına köməkliklər göstərilməsi məqsədilə reklamlardan, auksionlardan və sərgilərdən geniş istifadəsi üçün edilən maraqlı çıxışlarla yadda qalmışdır. Kursda Azərbaycan Milli Elmlər Akademiyasının müxtəlif institutlarından, Bakı Dövlət Universitetindən, Texniki Universitetdən, Tibb Universitetindən, Neft Akademiyasından, Milli Aviasiya Akademiyasından, Memarlıq və İnşaat Universitetindən, Azərbaycan Dövlət Pedaqoji Universitetindən, Sumqayıt Dövlət Universitetindən nümayəndələr iştirak etmişdir.

Tədrisin yekununda əldə etdikləri bilikləri və işgüzar keyfiyyətləri qiymətləndirmək məqsədilə iştirakçı dinləyicilərə müvafiq diplom və sertifikatlar verilmişdir.

Şərif KƏRİMLİ,
AzPatentin İnformasiya Təminatı şöbəsinin mütəxəssisi

“Respublika”,
26 may 2015-ci il

İxtiraçı musiqiçilər

Beynəlxalq Əqli Mülkiyyət Günü çərçivəsində WİPO-nun ölkəmizdə keçirilən silsilə tədbirləri bu günlərdə Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Sənaye Mülkiyyəti Obyektlərinin Ekspertizası Mərkəzində (AzPatent) davam etdirilmişdir. Dəyirmi masa formatında baş tutan tədbir qeyri-adi bir mövzuya həsr olunmuşdu.

Bildiyimiz kimi, Azərbaycanda milli-mənəvi sərvətlərin ən geniş yayılmış növlərindən olan musiqi sənəti ifaçılıq və musiqi alətlərinin istehsalı kimi bir-birini tamamlayan iki istiqamətdə pərvəriş tapmışdır. Ərazi baxımından çox da böyük olmayan ölkəmizdə doqquz iqlim qurşağının olması burada yaşayan insanların incəsənətə, mədəniyyətə, ədəbi-bədii əsərlərə öz çeşidli töhfəsini verməsinə səbəb olmuşdur. Nəticədə muğam və aşıq sənətində ustad sənətkarları mövcud musiqi alətləri təmin etməmiş və onların səs diapozonu daha təkmil, müxtəlif səs tembrlərinə uyğun daha əlverişli alətlərə ehtiyac olduğunu üzə çıxarmışdır. Qarabağ muğam məktəbinin banilərindən olan Qurban Pirimovun tarın pərdələrinə etdiyi əlavələr, Aşıq Ələsgərin sol əllə ifa etmək üçün düzəltdirdiyi saz, Borçalı aşıq məktəbinin ustad sənətkarlarından olan aşıq Kamandarın, azman sənətkar aşıq Ədalətin sazın təkmilləşdirilməsi yolunda və ifaçılıq formalarında etdikləri yeniliklər yeni məktəblərin yaranmasına rəvac vermişdir. Sevindirici haldır ki, yüzlərlə gənc bu gün həmin məktəblərin yetirməsidir.

Azərbaycanda təkcə dövlət quruculuğu sahəsində deyil, iqtisadiyyatda, siyasətdə, milli-mənəvi sərvətlərə münasibətdə

yüzlərlə yeniliklərə imza atmış Ulu Öndərimiz, hamının xatirindədir ki, el şənliklərində, konsert salonlarında, ədəbi-bədii tədbirlərdə mədəniyyət və incəsənət nümayəndələri ilə müxtəlif görüşlərdə bu sahənin inkişafına nə qədər diqqət yetirərdi. Hərtərəfli şəxsiyyət olan Heydər Əliyev ciddi dövlət başçısı olmaqla yanaşı, həm də kövrək qəlbli insan idi – həzin bir ifa onun qəlbini titrədirdi, gözəl bir tamaşa onu kövrəldirdi... Mən inanmıram ki, o, hansısa bir musiqiçinin qəlbinə toxunan bir ifadə işlədib. Musiqiçiyə, sənət adamına belə həssas münasibətin nəticəsidir ki, onu el şənliklərində görən incəsənət xadimləri daha da cuşə gəlir və öz məharətlərini bir az da qabarıq nümayiş etdirməyə can atırdılar.

Ölkəni, xalqı tanıtdırmaq baxımından dövlət siyasətinin aparıcı xətlərindən birinə çevrilən mənəvi sərvətlərin təbliği Ulu Öndərin varisi Prezident İlham Əliyev və onun xanımı Mehriban Əliyeva tərəfindən uğurla davam etdirilir.

Əqli mülkiyyətin atributlarından biri kimi həyatımızın müxtəlif sahələrində vüsətli canlanması müşahidə olunan ixtiraçılığa xüsusi diqqət ayıran Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin respublika patent sisteminin inkişafında müstəsna fəaliyyəti ilə tanınan Sənaye Mülkiyyəti Obyektlərinin Ekspertizası Mərkəzi (AzPatent) bu sahədə önəmli fəaliyyəti ilə ölkənin elmi potensialının rəğbətini qazanmışdır.

Dəyirmi masa arxasına toplaşan qonaqları - ixtiraçı musiqiçiləri və patent müvəkkillərini salamladıqdan sonra Mərkəzin direktoru Mir Yaqub Seyidov son illərdə incəsənət sahəsində baş verən yeniliklərdən, patent almış yeni musiqi alətlərindən bəhs etmişdir. Bu sahədə müvafiq patentlərə sahib olmuş Azərbaycan Milli Konservatoriyasının rektoru professor Siyavuş Kəriminin və milli musiqi alətlərinin təkmilləşdirilməsi laboratoriyasının müdiri Məmmədəli Məmmədovun təklif etdikləri yayla çalinan simli musiqi aləti “Bəm kaman”, “Balaban” (bir neçə növdə), Azərbaycan Respublikasinin əməkdar artisti,

dosent, patent sahibi Zakir Mirzəyevin "Azərbaycan qarmonu", patent sahibi İlham Nəcəfovun "Xromatik ney", patent sahibi Rəhman Ələsgərovun "Nəfəslə çalınan musiqi aləti Zurna", iddiaçı Adil Xəlilovun "Stereofonik simli musiqi aləti və onun hazırlanması texnologiyası" və başqa musiqi alətlərinin tətbiqi miqyası böyük marağa səbəb olmuş və bu, Azərbaycan musiqi incəsənətinin uğuru kimi dəyərləndirilmişdir. Sonda ixtiraçı musiqiçilərə AzPatent tərəfindən xatirə hədiyyələri təqdim edilmiş və onlar ixtira etdikləri musiqi alətlərini nümayiş etdirmək məqsədilə müxtəlif ifalar səsləndirmişlər.

Şərif KƏRIMLI,
AzPatentin İnformasiya təminatı şöbəsinin mütəxəssisi

Əcnəbi dillərdə

"Azernews" newspaper,
22-28 april 1998

Death of epileptic girl:

Doctor held responsible Shalala could have been saved…

Shalala Babashvova had her fill of watching Armenian-inflicted violations of human rights and fascistic agression. After it had culminated into the execution of her father by Armenian troops before her very eyes, she had caught epilepsy. She had stepeiitiy married and was pregnant. Together with her husband she had taken refuge In a hooteTtn Baku Together*with other refugees, On March 16, at about 17.00 hrs., she suffered from a new epileptic attack. Her younger sister and neighbour called for first aid.

The doctor of the first aid station N6 in the 6th km settlement FiruzaBagirzada made the first aid. And ... went away even not waiting for the patient to come to herself were waiting. Her mother and sister watched the patient for 12 hours. At 5-6 the next day they feeling her death-rattle they started crying for help. The first aid appeared again, and ... doctorIlyasHasanov said that it was already late.

On the 25th issue of our newspaper we have already exposed this refugee girl's tragic fate. It was her father's traqical death that

caused her disease and her consequent death. However,we were not informed in respect to several details of her death, nor did we know the names of those who were guilty of it. Thus, her death was to a substantial extent caused by our own people's lack of pity and negligence. Even those who used to show off supposedly driven by pity with the refugees' lot, today seem to have more important things on their minds. Even aid from abroad is being largely embezzled by people in high places and care for the displaced has become highly obsolete.

Some time ago, I decided to take a closer look into doctors' and other specialists' testimonies in relation to Shalala's death. The medical director of the involved first-aid station NazimHumbatov refrained from giving any comment. We reminded him about the Law of Azerbaijan Republic on officials' duty to provide mass media with correct information. His final decision was that he would not provide any information without special permission from the Ministry of Health.

Finally we understood that because of our critical attitude, no permission would come from the Health Ministry. Thus, without disposing of the least accreditation we came to the first aid station. After having spotted the physician who was on duty that fateful evening, we managed to extort the following reactions from her:

"I did my best and gave her three injections, patients with this disease react extremely retardedly to remedies. What else could I do? There was no point in me staying with her. Besides, her sister kept an eye on her. She had to call again seeing her sister not coming to herself."

- Mrs. Bagirzada, as I have heard, you have calmed down the people saying there is no rea son for anxiety. Besides, the patient would not completely come to herself after your injections. Didn't you realise that she was pregnant, and thereby was not an ordinary patient. You should have taken her to a hospital...

"The patient's condition did not require this. She was suffering from an attack of epilepsy. I even raised her eyelids and put her

neck to rest on the pillow. Her signs of life were normal."

One expert's opinion:

"If any patient in a state of epilepsy fails to respond in an adequate way to first aid she
should under all circumstances be taken to hospital straightaway. If her close relatives do not permit this, they should sign a written refusal.

It proved impossible to provide ourselves with more details on the affair during our conversation with the doctor - even if we stressed the need to make such cases of severe neglect known to the public.

"You journalists live on this" she said. In response to her expression I reminded her about her doctor's duty. I also told her about 009 emergency telephone number as used in the USA. I told her about responsibilities in cases or mortal danger of and about the duties of physicians and police in the USA whose first duty is to save people's lives. I also reminded her that it was our entier nation's duty of honour to protect the trampled rights of war-displaced. I said there were, unfortunately, ill-intentioned people both among doctors who are responsible for people's physical health and among.jour- nalists who are responsible for people's moral health.

The doctor's reaction to this suggestion was bluntly: "If you publish anything which could damage the image of my personal integrity I am going to sue you!"

I wonder what a human life is still worth in a country where moreal values are being undermined by such a cynical attitude, uttered by a doctor of all people whose personal pride seems to be of more value to her than the life of a pregnant woman. By writing this, I do not intend in any way to damage anyone's personal integrity. I simply consider it my duty to report what has happened.

Sharif Karimli

"Azernews" newspaper,
22-28 april 1998

American radio station has been broad casting with out licence

Radio Liberty taken off the air

During the soviet regime at the times of the cold war, we used to listen to Radio Liberty in secret. Today, no one can deny the significant role of Radio Liberty in the development of democratic ideas in Azerbaijan. It contributed a great deal to informing the world community of the January 20 slaughter in Baku and the bloodshed the joint Armenian-Russian armed forces committed in Karabakh. Both the authorities and the opposition in Azerbaijan have more than once dependent from this radio station's information in relation to the defence of their rights. During the bloody January days Mirza Khazafs soothing voice was the only heartwarming voice for Azeri people who found themselves isolated from the world community by the Russian army.

On April 9 the Cabinet of Ministers passed a resolution which determined the volume of taxes to be paid to the state in accordance with the implementation of the 3rd paragraph of the Presidential Decree of October 4, 1997. According to this resolution, Radio Liberty was required to get the corresponding licence from the Ministry of Information and Publication. In this connection, communication minister of Nadir Ahmadov sent a letter to Radio Liberty's main regional office in Prague.

In case they fail to obtain the necessary licence, Radio Liberty's transmission in Azerbaijan will be suspended.

As the radio station declared on April 16, the term for getting

its licence was too short and could not be met with in time.

On April 20 we were informed by the head of the Ministry for Information and Publications' mass media department, Mr. MadatMammadov, that so far Radio Liberty has failed to apply for a licence. "As to the Turkish "STV", "Channel-6", Russian "NTV", English "BBC" and other tele-radio companies, they have already got provisional permits in accordance with provision 39 of the Mass Media Law and continue their activities on these terms. But Radio Liberty has not even got such a permit.

We were informed today by the Ministry of Communication that transmission of Radio Liberty on medium wave have been disrupted as the term for application has already expired.

We would like to stress that Radio Liberty should indeed live up to the law if it wants to continue to operate in Azerbaijan. But then, both authorities and opposition ought to abide by the law as well. Unfortunately, we are often faced with cases of adjusting laws to self-interests.

Therefore, the row between Radio Liberty and the authorities is most likely to be taken up by opposition parties for their own political purposes regardless of its legal aspects.

Thus, opposition parties such as the PFPA, Mussavat, the NIPA have interpreted the authorities step as an effort to influence the forthcoming elections by creating an information black-out.

We do not intend to contradict these claims. However, in order to prevent the law from being abused for political reasons, both authorities and opposition should respect our wish: before imposing whatever measure, its possible echo should be taken into account. This is required by the interest of the people of Azerbaijan.

However, it looks like as things are we are likely to remain without Radio Liberty for a while...

Sharif Karimli

"Azernews" newspaper,
April 29 – May 05 1998

USA will not give İran ccess to Turkmenian gas

Turkmenistan President Saparmurad Niyazov to visit the USA April 23-25

The East-West Trans- Caspian gas pipeline is considered by the USA officials to be the best alternative. Turkmenistan occupies the fourth place worldwide after Russia, the United States and Iran. A grant worth $750,000 has been declared by the USA to the Turkmenistan government for preparation of technical and economic bases of the sub-Caspian **gas line, planned to be provided via Azerbaijan and Georgia to Turkey. Expenses for the realization of the project is estimated to S3 bln.**

"We are in need for a fertile to sow ur seeds on" said the ;ion chief of the USA State artment on the Caucasus and die Asia, Stephan Young, arding to him, since 1992 the USA assistance to menistan has reached SI40 indit can be further Increased.

President Clinton who is inter! in the extension of the relations between Turkmenistan and Western countries, the consolidation of its economy and the establishment of democratic institutions in Turkmenistan, will do his outmost not to increase the influence from Iran over Turkmenistan. Prezident Clinton's special assistant at the USA National Security Council for Russia, the Ukraine and Euroasian countries William Courtney, stated at his report on Februlary 4: "The gas line to be provided through Iran would be a danqerous tool for this country to have control over the economies of the Caucasus and the Middle Asia"

For this reason the USA is interested in the solution of any problem between Azerbaijan and Turkmenistan and supports the idea concerning the sectoral division of the Caspian.

However, the President S.Niyazov's recent report made at the Central Asian Institute of the J.Hopkins University during his visit to the USA wrote: "We approach this matter from an economic point of view and consider that…alternative variants are also needed. Therefore, we support the provision of multi-variant oiland gas pipeline from Turkmenistan's territory".

This statement contradicts the consultations of the USA's Minister of Energy Federica Penia with the state leaders of Caspian region and the agreements achieved by Turkish Prime Minister Masud Yilmaz in Baku and Ashgabat.

S. Niyazov's statement has caused inconvenience of the USA and Turkish governments as well.

As a result the memorandum on exploring the "Sardar" ("Kapaz") deposit by the USA's "Mobil" company and Turkmenistan to be signed on April 23, failed due to the standpoint of the USA.

Sharif Karimli

"Azernews" newspaper,
April 29 - May 05 1998

Georgian turks

Are Azeri relatives of our concern as they will be affected by the new oil pipeline
to go through Georgia to the Black Sea

Beginning from this issue we are going to present our readers a series of writings at their requests concerning Borchali and Ahiska (Meskhetian) Turks living beyond Azerbaijani and Turkish borders.
The region we are going to deal with has now become the object of strategical interests.
The oil pipeline to be provided to the west from the Caspian and the Great Silken route is to pass through this region.
Therefore the writings to be presented by the reporter Sharif Karimli will surely deserve your interests.

Borchali turks

In Borchali region located in the South-East of Georgia there live about 500,000 Azerbaijani Turks. "Borchali" (the Borsils) was the name of one of the biggest Turkic tribes known as Garapapags. The Garapapags in the first millennium b.c. used to live under the names of O g u z , G i p c h a k , Terekeme in a large territory including present Armenia and eastern Anatolia.

The book titled "The summary of Russian supremacy for the Caucasus" published in 1836 in Sanct-Petersburg read: "Borchali is bordered on the east with Signakh and Gazakh distances, on the sou:~ with Pambak and S'-'ake), on the west with the Turkey's Ahalsik nobilities..."

Borchali is rich in naturaj resources - gold, silver, copper, lead, manganese, marble and so on. It has fertile soil, and valuable forests and springs. The river Kura and its branches - Khram, Debed and

Alket flow through Borchali and are rich in rare fishes. These riches, have just been a source of trouble for this land. Borchali has long been a center of conflicts between Iran, Ottoman Empire and Russia. Shah Abbas, having suspected of possible relationship of this land with the Ottomans "had placed some tribes of Borchali in Gandja-Karabakh and Shirvan regions in 1604-1606 (academician Z.Bunyadov). In 1736 Nadir shah, the leader of Iranian army, because of his conflict with the ruler of GandjaZiyadoglu, charged the Kartli Kakheti kingdom (Georgia) with the ruling of Gazakh-Shamshaddin and Borchali region. Since that time the Borchali region remained in the content of Georgia and later it was devided between Georgia and Armenia. Later the fact of its being a part of Azerbaijan's territory was forgotten.

In mid the 18th Century when there appeared khanates in the territory of Azerbaijan, Borchali was announced a Sultanate. Its territory stretched from SinigKorpu to eastern Anatolia. In 1880 this sultanate was abolished and turned into the Borchali province. 93 percent of its population were Azerbaijani Turks, but the long wars between Iran, Turkey and Russia to turn this province into the circle of their influence caused a great part of the population to emigrate. Thus 800,000 families of Garapapag Turks were removed to Tabriz province after the Turkmanchay agreement was signed between Russia and Iran in February, 1828. Iranian and Turkish Armenians were domiciled in the native land of deportated Azerbaijanis.

These shifts were the first sketches of fargoing political plans, and the interests of Muslim Iran strangely coincided with that Christian Russia in this geopolitical plan: it was the plan aimed at disuniting and weakening Turkey by creation of Armenia. 50,873 out of them 86,537 people dwelling in Borchali province in 1826 were Azerbaijani Turks.

In 1989, 307,558 Azerbaijani Turks live in Georgia.

After the Russian Empire was replaced by the Russian Federation there started a more planned division of Borchali province and the deportation of its Azeri population.

(to be continued)

"Azernews" newspaper,
May 06 - 12 1998

Georgian turks

Azeri relatives attribute importance to the new oil pipeline through Georgia to the Black Sea

Borchali turks

(continued)

In 1918-1922 a great part of Borchali consisting of 8 provinces was granted to the newly established Armenian Republic by the Soviet Regime. As to the Ahiska (Meskhetian) Turks, they were exiled to Middle Asia. Armenians. Russians and Georgians were allocated their land. In 1921 the southern part of Borchali – the district of Lori and in 1922 present-dayprovinces of Noyembeyran, Allahverdi, Stepanavanand Kalinino were attached to Armenia.

In 1929 the province of Borchali was divided into three smaller entities: Borchali, Luxemburg and Boshkechid. But even the presence of a small province by the name of Borchali worried the Georgian Soviet Chauvinists of that time. Consequently they abolished the name Borchali and gave to the province a Georgian name - Marneuli. Later most Azeri names of its villages and settlements were changed into Georgian ones. This process continued till the death of Stalin in 1953.

During the 1970s, Armenian-inspired attempts of mass-deportations were undertaken. In June/July 1998, Georgians and Armenians who had taken on Georgian surnames since 1970, took on Azeris and Georgians in a wave of bloodshed which caused the authorities to bring in troops.

Militias and former President Gamsakhurdia's persecution detachments force a wedge between Marneuli and Bashkechid by driving the Azeris out of the town of Bolnisi (Luxemburg) and settlements located between Marneuli and Bashkechid. However, later political events in Georgia made the hard-liners postpone the Borchali question.

The authorities of Azerbaijan at the time took no countermeasures except for a half-hearted threat with an economic blockade in protest against the discrimination towards Borchalihave implemented regulations dealing with national and cultural questions. This has been achieved both thanks to the cordial relations between present state leaders of both countries - Heydar Aliyev and Edward Shevardnadze and driven by both countries' need of these countries to support one another and solve their problems in order not to fall into isolation. Today, both Azerbaijan and Georgia are well aware of the new danger threatening their indepenence and for the Caucasus' need to join forces in order to conjure that threat. As known, there is an aggressive state in the Caucasian region - Armenia, which continues to jeopardise the integrity of its neighbours to the north by claiming more and more land.

At present, Borchali Turks of Borchali follow developments in connection with Azeri oil with great interest and high hopes. Whereas others refer to those developments in terms of mere commerce, the Turks of Borchali see them mainly as a guarantee for their national integrity and security. The Turkic Silk Route of old which passes through Georgia is now being rehabilited.

(to be continued)

"Azernews" newspaper,
May 13 - 19 1998

Georgian turks

The importance of the new Georgian oil-link to the Azeris' distant cousins

Ahiska turks

Mskheti-Javakhireti is one of the areas of Georgia which contains a track of the planned oil pipeline is to go through. The provinces of Adigun, Akhalsikhe, Aspindza and Bogdani are situated in this area. Ahiska (Meskhetian) Turks used to live in these provinces until in November 1944 they were moved out by force.

For centuries Turks and Georgians have lived in this land in friendship in spite of their different religious.

According to the Adirna peace agreement of September 1828 between Russia and Turkey is territory was attached to Russia. In 1830-1831 part of Turkish population of the province were expelled to Erzurum, Turkey whereas 70,000 Turkish Armenians were granted the provinces of Ahiska, Akhirgelen and Borchali.

In 1915/'16 during World War I which opposed Russia and Turkey, Armenian nationalists started driving the Turks away from their homes.

After the Soviet regime was established in Georgia in 1921, ethnic conflicts eased down. New schools were opened in the provinces. In 1923, the local population was registered as Azeris after their distant cousins in the republic of Azerbaijan, and children started getting education in the Azeri language.

On two occasions, Stalin personally pushed for the Ahiska Turks to be registered as Georgians, but the move was strongly objected to.

In November 1944, Stalin and Beria made Paskevich' dream come true 113 years later.

On the outbreak of World War II 42,000 out of the 170,000 Ahiska Turks living in the area were sent to the front, and on November 15 1944 between 3 and 5 in the morning the Turkic population living in more than 220 villages were deported from their land by force. Those who resisted were shot on the spot. 50-60 people were put on lorries. Among the deported people were 118,000 Turks and 7000 Kurds. 17,000 children died under the terrible conditions of the 20-25 days long trip. Dead bodies and patients were piled up at stations. Once across the Ural, the disposal of dead bodies was no longer possible. They were being thrown out of the lorries along the road. People remained without food and drink. Numerousinfants had died with their mouths ontheir mothers'smilkless breast. Lessthan half of the people reached thefinal destination. The first stop was thein city of Dashand. There the peoplewere divided into groups to settledown in different provinces of MiddleAsia. Till 1947 37,000 people diedfrom hunger and harsh climatic conditions.As finally the war had ended invictory, 29,000 out of of 42,000Ahiska Turks who had been sent tothe war had died for the liberation oftheir country, while their deportedinfants were dying on the roads and innew settlements in Central Asia. 8Ahiska Turks were granted the titleHero of the soviet Union. Those whoreturned to their homeland wereshocked on seeing that their familiesand children had disappeared. Thosewho had survived the battle for Berlin,now went to Central Asia to find theirfamilies. After Stalin's death in 1956the USSR Supreme Soviet Presidium rehabilitated the rights of all deportedpeoples including the Turks. In 1956-64 Turks addressed to the SovietUnion, its officials and people's repsentatives, the Helsinki confereeand the UN hundreds of letters, ewrote 612 letters to LeniMausoleum.

In 1974, resolutions by the USSR Supreme Soviet granted the Turks deported in 1944 the right to return their homeland.

However, the resctions had been adopted under pn sure of international organisations and failed to materialise. In 1998 part of Ahiska Turks moved to Azerbaijan voluntarily and settled down in the province of Saatli.

DurinqGorbachov's glasnost period the system of mutual relations between soviet nations disintegrated. Those who suffered most by this policy most were once more the Turks who this time were forced to leave their homes in the province of Fergana in Uzbekistan. Hostilities between Turks and Uzbeks were provoked by Armenian saboteurs. At the same time Azerbaijan had to swallow an influx of Azeris deported from Armenia, on top of a new colony of Akshig Turks driven away from Fergana.

At present Ahiska Turks live inSaatli, Sabirabad, Beylagan, Guba,Khachmaz and Gandja provinces of Azerbaijan. The total number of Akshiq Turks scattered over the territory of the former Soviet Union is estimated at400-500,000. 40,000 of them live in Azerbaijan. Their passports mostly indicate Azeri, Uzbek, Caucasian, Georgian and other nationalities. Therefore the exact number of them is difficult to establish. After deportation all that reminded of their presence in Georgia was removed. In spite of numberous decisions granting them the right to return, no less numerous obstacles prevent them from doing so.

Sharif Karimli

"Azernews" newspaper,
06 -12 may 1998

Aliyev, Khocharian face-to-face:

Friendly words, hard feelings

The meeting of the presidents of Azerbaijan and Armenia was in the centerof attention during the CIS summit in Moscow.
As the latter is an inhabitant of Nagorno-Karabakh, the two are in fact compatriots.

However, those who expected a boiling scene were disappointed as the Azeri head of state fully kept his self-control. During the meeting at the President Hotel Mr. Aliyev congratulated the Armenian President Robert Kocharian on the occasion of this election and wished him successes in his job. He said: "I hope that peaceful negotiations between Azerbaijan and Armenia on the resolution of the Karabakh conflict in the framerwork of OSCE Minsk Group will continue on the basis of mutual understanding, and that we will not fail the opportunity."

It is not hard to imagine how awkward it must have been for a renowned politician to congratulate someone like Mr.Khocharian on the mile-stone in the latter's political carreer, and to shake hands with a man with the blood of thousands children and women of the Azeri Karabakh village of Khojaly on his hands. Unfortunately, according to the rules of politics villains can become kings. R. Kocharyan's idea of a possibility to obtain "...positive results through mutual relations and mutually accepted decisions leading to positive steps" according to his Azeri counterpart, should be seen in the light of "purely Armenian

thinking. At present, it requires clairvoyance to determine what he means when speaking about "good relations" and who is supposed to take the steps he refers to". Azerbaijan took this step long ago by accepted the optimal variant in regard to a solution of the Karabakh conflict at the Lisbon summit...

It is known that Mr.Khocharian has served the interests of those countries who intend to split up Azerbaijan in a much better way than he served his own nation. What he will do if his protectors back down on him remains anybody's guess...

Sharif Karimli

"Azernews" newspaper,
May 27 – June 2 1998

Azerbaijan People's Republic-80

On painstaking ways of statehood

After the Russian October Revolution, StepanShaumyan was appointed chairman of the Executive Committee of Baku, which was considered an indivisible part of Russia. The refusal of the Mussavat party to participate in a coalition consisting of Dashnak and Bolshevik forces resulted in the concentration of significant numbers of Armenian armed forces in Baku. On May 28 1918 the Democratic Republic of Azerbaijan was established in Northern Azerbaijan stretching from Nakhchivan in the south to Derbent in the north-east.

Bloody ethnic unrest in March 1918 which lasted until September virtually emptied Baku of its Azeri citizens and put the Armenians virtually in power.

Shaumian and his council embezzled huge amounts of oil which was transported to Astrakhan to serve communist Russia. On June 10, Shaumian ordered an attack on the republic's government's temporary headquarters.

Thanks to the help of the Turkish army the attack was reversed near the province of Goychay, where the enemy was defeated. The government forces of Azerbaijan carried out a counter attack on Baku on September 15 and entered the city. The British left on the eve of the government's victory and the capital was moved from Ganja to Baku. The national flag was raised for the first time in Baku on September 21. The first

session of the Azeri Parliament consisting of 120 deputies was opened on December 7 by M.E. Rasulzadeh. A.M.Topchubashov was appointed Parliament Speaker. Fatali Khan Khoyski was charged with the formation of a government.

By that time the territory of Azerbaijan Republic totalledto 97.3 thousand sq.km. An area of 15.8 thousand sq. km, populated by Azeris was disputed between Azerbaijan, Armenia and Georgia.

The Azeri government's initial measures were aimed at getting the country's economy going again, the oil industry in particular.

The export of grain, cotton, wooland so on was prohibited, customsservice was established on June 27,1918. Azerbaijani Turkic languagewas declared the state language andthe first secular University, the BakuState University, was opened. A national army was set up underdefence minister general Samadaga Mehmandarov to protect Azerbaijanfrom Denikin in the north, fromArmenian attacks in Zangezur in thesouth-west and from the so-called Soviet Republic of Mughan in the southeast. A military pact with Georgia facilitated the delivery of large amounts of weapons and other military equipment. In early 1920 the army of Azerbaijan consisted of 10,000 cavalry' and 30,000 infantry soldiers.

After its defeat in World War I, Turkey was forced to withdraw its troops from Azerbaijan.

The English Army in Baku was under the command of General Tomson. Azerbaijan's independence was now in danger. A delegation headed by A.M. Topchubashov was sent to the Paris Peace Conference. At last, on January' 11,1920 the Supreme Council of the Paris Peace Conference de facto recognized Azerbaijan. Consequently many countries opened their embassies and consulates in Baku.

By this time Soviet Russia hadalready set its eye Azerbaijan and

oilrich Baku in particular. Azeri communists who were in fact Russianagents met on February 11, 1920 andfounded Azerbaijan's Communist Party. Their purpose was to includeAzerbaijan into Russia through a staterevolution. Mikoyan used everyavailible means to obtain this goal.The uprising which broke out in Karabakh shortly afterwards was largely his work. On the other sidethe Armenian Republic sought to occupy the area since the very day of its establishment. Though Yerevanused to be populated mainly by Azeris, it was given to Armenia in order to provide the republic with acapital by the government ofAzerbaijan. Armenia ubsequently insisted on annexing Zangezur, Nakhchivan and Upper-Karabakh aswell. Armenians headed by Andranikinvaded Zangezur demolishing 200vilages and driving more than 100,000 Azerbaijanis from theirnative land.

Meanwhile, Lenin openly proclaimed the Kremlin's intention to occupy Baku. By the end of April the 11th Army of Soviet Russia was concentrated near Azerbaijan's boundaries. On April 25 it crossed the border and on April 28 it entered Baku. more under occupation. Mussavat leader M. Rasulzadeh went into hiding in the village of Lah;-d in the province of Ismayilli. Later he evacuated by his followers in Baku first to Finland and then to Turkey Prime Minister Fatali Khan Khoyski was killed by Armenian tenons'.; Many leaders of the extinct Republic were being pursued by the Sc..;: State, their families harrassed. Numerous leaders had to emigrate :: foreign countries, never to return. Rasulzadeh died on March 6,1955 in Ankara. His last words were "Azerbaijan, Azerbaijan, Azerbaijan."

Though short-lived the Democratic Republic gave the Azeri nation a notion of sovereigntv and national awareness. Withou: it, present-day independent Azerbaij an may not have reached its preser.: stage in terms of liberty and democracy as it has, seven years after its emergenceas a result of theUSSR's collapse.

Sharif Karimli

"Azernews" newspaper,
June 3 - 9 1998

Cenzor

HE LIVES ON SOME NEWSPAPERS OUT OF SOME HUNDREDS

Ever since scripture changed from inscriptions on rock and skins to printed word on paper, those who write have always had to live with those who struck their words out again. The tatters' unpleasant company has taken special form in our country both under tsarist and soviet occupation.

Censorship, the most devoted and authoritarian body to Tsarist Russia came to be known as Glavlit during the Soviet regime. But it remained all too loyal to imperialist policy. Hundreds of Azeri intellectuals who refused to comply with the existing oppression against the truth were forced into exile and to raise their voice against injustice through foreign media.

Independent democratic newspapers which started appearing in 1989-90 no less on Glavlit's hunting list. The censor's bureau largely consisted of people who remained fully dedicated to soviet ways of keeping society deaf and dumb: retired soviet propagandists, members of the obsolete communist party ranks.

Failed journalists, highranking military, political leaders , with the pretext of protecting state secrecy were in fact engaged in the search of "traitors" and "panturkists". Thus, the first democratic newspaper "Azerbaijan" which was first published in 1989, was the object of repeated attacks, numerous editions were confiscated and its journalists' homes searched.

The reason which made me recall our sins of old was my

meeting with one of those censors who used to be known for his mercilessness and brutality. The former censor wellknown among journalists was selling "Azadlig" and other opposition newspapers near the 28 May underground station. Of-course, selling newspapers has become a widespread occupation in the transitional period and one can see numerous teachers, journalists and other hapless people selling newspapers to keep their families going.

But what surprised me was the fact that our former censor was selling the very newspapers he used to crack down on as a censor. Furthermore, he was wholeheartedly recommending those newspapers. Only then I understood that a censor is also a human being. He also has a family to maintain, to feed and to clothe. I also understood that it was impossible to keep a devoted servant at the expence of 7-8 "shirvans" in the society which is quickly moving from dogmatism to pluralism.

Some censors still keep their job - or rather are forced to keep it. The reason is less loyalty to some state ideology than the sheer need to survive.

While preparing this writing concerning censorship the Initiative Group of Azerbaijan's Committee for Word and Press Freedom had its first meeting on May 27.

The meeting was attended by representatives of the Popular Front, Mussavat, People's Democratic, Socialist, Ahrar and National Democratic parties, Science Fund, as well as by the Institute for Democracy and Political Pluralism and the GanjAzer organization. The committee will protect word and press freedom, support the development of democratic processes and fight against political censorship, a press release says.

At first sight, this initiative seems to be important measure towards democratic progress. However, when we take a closer look at thdir authors, the cincerity of the initiatives gets Subject to

doubt.

Each party, from major ones to the most obscurantist, finance their own collections of newspapers, thus creating channels to divulge their own versions of the truth in respect to social and political developments in the country.

At present the number of members of parties tend to increase at the expense of real journalists. The former carry both party and journalist cards in their pockets while claiming that they are objective authors of neutral newspapers. They forget the fact that journalists should only carry a journalist card in their pockets and that the second card disgraces their objectivity.

Today we are right in opposing censorship. Journalists should but follow their consciences. Political censorship will naturally be liquidated only after a censorship of clean conscience is estblished in each person, and when the notions of “freedom" and “truth” are not interpreted in different ways.

Censorship is part of today's reality and mainly puts pressure upon opposition newspapers. But the opposition can not become free from its own self-censorship either, This” is a serious censorship although it is not carried out in an organized way. But in fact no press body of any opposition party is free. Its editor or journalist must either reckon with the party's whims or lose his job.

As long as the question of press freedom is treated without common principles, the authorities and the opposition will have their own "truth” and journalists will keep on carrying two cards in their pockets, and the wars of words will continue both in newspaper columns and in courtrooms. There is no freedom without justice and there is no justice without freedom.

Sharif Karimli

“Koreaherald” newspaper,
June 2015

The friends we gained after independence

Korea-Azerbaijan relations

In the year 1991, Azeri people could once again taste freedom once gained for 23 month between years 1918 and 1920. It is now 23 years since the day Azeri people gained their independence and they continue to live this history till the present day. However, he changes of authority in Azerbaijan that took place after gaining independence had their effect on Azerbaijan`s foreign policy. For a young and inexperienced country it was a tough task to form a foreign policy, to define its main directions, priorities, aims, duties and to participate in world politics as well as joining international relations system. In the first years of independence there have been serious faults and contradictory decisions in terms of foreign policy and government function. However, on 12 November 1995 the new Constitution of the Republic of Azerbaijan was approved and this led to arrangement of internal and external policy, government building strategy and approval of government regulations. From geopolitical, strategic and economic point of view Azerbaijan started acquiring its importance on world political map.

Azerbaijan owes the forming of its foreign policy to Mr. HaydarAliyev. It is during the presidency of our great leader, necessary steps were taken for Azerbaijan to gain its unique place in world’s international relations system and for international community to form its areas of interest in South Caucasus, the Caspian region and Azerbaijan. At the same time, more attention was given to countries that were important to Azerbaijan due to

their economic and political index. Korea was one of such countries. Diplomatic relations between the Republic of Azerbaijan and the Republic of Korea started to develop since the early years of independence – since 1992. Today both countries are developing theircooperation in the framework of Conference on Interaction and Confidence-Building Measures in Asia.

Note

After the World War II, in 1948 Korea was divided into 2 countries – North and South Korea as a result of Soviet Union and U.S. military forces. The leader of Liberal Party Mr. Rhee Syngman was selected the first president of the Republic of Korea. As a result of this,The Provisional People's Committee for North Korea was set up, headed by Kim Il-sung. Thus, division of Korea into 2 parts was approved from the legal point of view. The Republic of Korea is situated on the far eastern edge of Asia, bordering with China, Japan and North Korea with the square of 100 000 km. and with the population of more than 50 million. In the capital Seoul there are living 9 895 217 people.

With the fourth largest economy in Asia, the Republic of Korea is recognizing with the high living standards and member of G20. At the moment, the Republic of Korea has diplomatic relations with up to 190 countries.

As a country having a high developed industry and economy South Korea is in the first places in shipbuilding, steel, automobiles, electron and electro-technique in the world. The fastest internet connection in the world is in South Korea.

First official visit to Seoul was realized by the Minister of Foreign Affairs Mr.E.Mammadyarov. During that visit in 2005, minister presented President Mr. IlhamAliyev's invitation letter to Korea's President during the meeting with the President Mr. No Moo Hen and his Korean colleague Mr. Pan Ki Moon.

After the official visits of the presidents of the Republic of Azerbaijan and the Republic of Korea accordingly Mr. IlhamAliyev and Mr. Roh Moo Hyun high level political relations, comprehensive cooperation were launched, economic relations passed to the rapid growth phase, nearby 50 documents were signed. These documents created a juridical basis for cooperation between Azerbaijan and Korea in multiple fields. The opening of both embassies of Azerbaijan and Korea as a mutual in the past years, created a wide range of opportunities to develop relations between these two countries. In order to implement projects that are of mutual benefit, cross-country workgroups and a commission of economic cooperation was arranged. The first and the second meeting of this commission took place in Baku (2006 and 2007 accordingly) and the third meeting took place in Seoul in 2009. Corresponding protocols were signed.

The visit of the head of the parliament of Azerbaijan Mr. O.Asadov to Korea in 2007, the visit of Korean prime minister Mr. Han Seunq Sun to Azerbaijan in 2008, then in 2010 the visit of Minister of Foreign Affairs Mr. E.Mammadyarov to Korea and the visit of the speaker of Korean national assembly Mr. Park Hi Tae to Azerbaijan in 2012 played a big role in putting economic relations between two countries into more businesslike and efficient route. In March 2012 our president Mr. IlhamAliyev had a second business trip to Korea to participate in "Seoul Nuclear Security Summit". This trip added a special tone to trustworthy relationship between the two countries.

At the moment, in Azerbaijan, besides KOTRA (Korea Trade and Investment Promotion Agency) and KOICA (Korea International Cooperation Agency), branches of such Korean companies as "Daewoo", "KON", "HEERIM" and "STX" are functioning. As a comparison it is worth to mention that in 2007 trade turnover between the two countries summed up to 216 million as opposed to 115 million the previous year. This figure was 273 million dollars in 2009, whilst 375 million dollars in

2010. In the year 2008 this cooperation reached its highest point and summed to 859 million dollars.

In order to prepare specialists in Azerbaijan since 2008 at the State University of Foreign Languages Korea taught the Azerbaijani language. Between Azerbaijan University of Languages and Foreign Languages University of Korea, Baku State University and the Polytechnic University of Korea, Azerbaijan Technical University and the Korea Polytechnic University, Azerbaijan State Academy of Art and the National Art University of Korea had been signed an agreement on cooperation. With the support of the Public Association Cultural Exchange Association of Azerbaijan and Korea - SEBA and the Embassy of the Republic of Azerbaijan in the Republic of Korea the statue entitled "Shattered Nation" of People's Artist of Azerbaijan, academician Omar Eldarov has been established in the park Geahva Arts, located in Boryeong. The formation of Azerbaijan's leading state in the region, achieved high economic achievements, political stability have led the interest in Korea to Azerbaijan. Various structures of Korea regularly organize training and education for Azerbaijani specialists on the topic of economic interests, based on mutual benefit, cooperation in the exchange of experience in economic development, planning and management of the economy, the transition to a market economy and other topics.

In the field of Construction and Transportation Korea participates in projects such as the construction and reconstruction of roads and railways, buses and locomotives sale and creation of intellectualtransport system in Azerbaijan.

Korean companies with extensive experience in the field of high information technologies are actively involved in implementation of the state program "Electronic Government". An important objective of this program is to campaign information technology and training of highly qualified personnel.Republic of Korea, which has extensive experience in cooperation with WIPO

showed great interest in cooperation with Azerbaijan in the field of intellectual property, which contibuted of signing the Memorandum of Understanding between State Committee on Standardization, Metrology and Patent of the Republic of Azerbaijan and Korean Intellectual Property Office and this document was approved by the Decree of the President of the Republic of Azerbaijan dated 16 january 2014. Authority to sign the Memorandum on behalf of the government of the Republic of Azerbaijan was given to the Chairman of State Committee for Standardization, Metrology and Patent of the Republic of Azerbaijan Mr. Ramiz Hasanov.Which indicates a significant place of the Committee in foreign and cultural policy of the state.According to the Memorandum working groups composed of experts in the field of intellectual property and automation were set up, implemented training programs during the visits of experts to both countries.The work under mentioned Memorandum has been already launched. Korean experts visitid

Azerbaijan conducted in established in State Committee on Standardization, Metrology and Patent of the Republic of Azerbaijan Training Center trainings for specialists.In addition, 7 experts of the Committee were trained under "Intellectual Property Policy" Program in Korea organized by the KOICA.

Prime Minister of Korea Mr. Chang Honq Von, during his visit to Azerbaijan Nov. 27, 2014 after reviewing the development in the country said: “The success that reached Azerbaijan in recent years suggest that the dynamics of the development will be saved”.

The Republic of Korea is the one of the the best developed intellectual property countries.Lack of natural resources in the country developed the human resources.KIPO, numbering 1,560 stuff (892 of them are experts) pays special attention to the creative economy, including capacity building for the protection of intellectual property, competitiveness, creation of new work places and the development of IP in general.Because on a par with

the novelty and the development of technology number of violations of rights and international proceedings are growing. Number of penalties for violation of trade secrets, technology secrets increases.Patent holders can use the services of the Arbitration committee and Centar for the protection of trade secrets created at KIPO.

On 1-5 December was carried out visit of the independent experts composed of representatives of the Korean Medical University and KIPO (the head of the group Professor Jae Vook Choi) to check the achievement of the goals through the implementation of the project "Automation of intellectual property rights in Azerbaijan. Visit has beenfocused on the relevance, efficiency, effectiveness and duration of the project. The visit carried out under guidense of KOICA was organized by employees of Committee at a high level.

We believe that cooperation with Korea that stays in the same line with China and Japan, as well as the most developed countries of Europe, and even surpasses them on some criterias, will greatly benefit our country.

Mr. Sharif Karimli,

Specialist of Division of Information Providing of the Center of Industrial Property Objects Examination under the State Committee on Standardization, Metrology and Patent of the Republic of Azerbaijan.

"Sabah",
07 may 2014-cü il

Ayvaz Həsənovun xatirəsi yad olunmuşdur

Borçalı bölgəsinin Marneuli şəhərində görkəmli ictimai-siyasi xadim Ayvaz Dursun oğlu Həsənovun anadan olmasının 85 illiyinə həsr edilmiş tədbir keçirilmişdir.

Ötən əsrin 90-cı illərində Gürcüstanda baş vermiş hərcmərclik dövründə onun xalqın müdafiəsinə qalxdığını və ölkədə ayrıseçkilik toxumu səpməyə, azərbaycanlıları doğma yurdlarından didərgin salmağa cəhd göstərənlərə qarşı haqq səsini ucaltdığını bildirən Azərbaycanlıların Mədəniyyət Mərkəzinin rəhbəri Fazil Həsənov tədbirdə Ayvaz Həsənovun həyat və fəaliyyətindən söhbət açmışdır.

A.Həsənov gördüyü xeyirxah işlərlə yaddaşlarda əbədiləşmişdir. Marneuli şəhərində böyük bir küçəyə onun adı verilmiş, doğma kəndində onun büstü ucaldılmışdır.

Azərbaycanın Gürcüstandakı səfiri Azər Hüseyn Ayvaz Həsənovun dövlət, xalq qarşısındakı böyük xidmətlərini vurğulamış, onun ömür yolunun gənclərə örnək olduğunu qeyd etmişdir.

Gürcüstanın sabiq kənd təsərrüfatı naziri Bakur Qulua Ayvaz Həsənovun həmişə xalqına başucalığı gətirdiyini, yüksək vətəndaşlıq nümunəsi göstərdiyini bildirmişdir.

Diqqətə çatdırılmışdır ki, A.Həsənov yüksək təşkilatçılıq qabiliyyətinə malik idi. O dəfələrlə yüksək dövlət mükafatlarına layiq görülmüşdü.

Marneuli rayon İcra Hakimiyyətinin başçısı Merab Topçişvili, Marneuli rayonunun Sadaxlı kəndindəki 2 nömrəli məktəbin direktoru Adil Şərifov, Gürcüstan parlamentinin deputatı Azər Süleymanov və başqaları alim, təcrübəli təsərrüfatçı, vətənpərvər, qayğıkeş ailə başçısı A.Həsənovun xatirəsinin daim əziz tutulacağını qeyd etmişlər.

Sonda Ayvaz Həsənovun oğlu Dursun Həsənov atasının xatirəsini əziz tutanlara ailə üzvləri adından minnətdarlığını bildirmişdir.

Allahdan verilən pay

Ayvaz Dursun oğlu Həsənovun bütün ömrü xalqa xidmətdə keçib. Harada, hansı vəzifədə işləyibsə - xalqı, eli-obanı düşünüb. Ürəyində hələ də heç kimin bilmədiyi planlar və arzular qaldı. Onun istəyi müqəddəs Borçalımızdan çıxan hər bir övladı fəal, bilikli, savadlı bir şəxs kimi görmək idi. Onun içində mərdlik vardı, kişi kimi sözünün sahibi idi. Sözünün kəsəri qılıncdan da itiydi. Ona görə, onun tərəfindən deyilən hər söz yerinə yetməli idi. Bu, ona uğur gətirirdi. Artıq el-oba onun bu xasiyyətini bilirdi. Zahirən zəhmli, ciddi şəxs kimi görünən Ayvaz Dursun oğlu daxildə mehriban idi, təmkinli idi, səssiz duyğularına sahiblik edə bilirdi. İçində onu narahat edən minlərlə problemləri özü həll edirdi, sonra aşkara çıxarırdı. O, hər an içində kükrəyib-daşmağa çalışan fikir dalğalarını cilovlamağı bacarırdı. Cavanlığında Xram çayının sahilində dəlisov köhlən atları necə minib əhilləşdirməyi bacarırdısa, indi də müxtəlif vəzifələrdə ona əngəl olan bəzi bədxah adamlara qarşı hirsini cilovlamağı bacarırdı. Bu bacarıq onu daha da müdrikləşdirirdi. Bu müdriklik onu el içində sevdirmişdi. O, elin-obanın Ayvazı idi. Artıq onunla hamı hesablaşmağa başlayırdı. Bunu özü də hiss edirdi. Hiss edirdi ki, elin-obanın ona olan bu sevgisi, məhəbbəti Allahdan verilən bir paydır.

... O keçən gənclik illərindən neçə-neçə vəfalı-vəfasız illər ötüb. Bu illərin bəzisi ona uğur gətirib, bəzisi də onun gərgin zəhməti sayəsində yüksəlişə doğru addımladığı bir məqamda onu büdrədib. Lakin Ayvaz Dursun oğlu büdrəməyi özünə sığışdıran adam deyildi. Onda bir üsyankar, sözü üzə demək, layiqli cavab vermədən rahat olmaq və ən başlıcası xalqının adını ucaltmaq prinsipləri vardı. Ayvaz Dursun oğlu ellərin Ayvazı idi. Sinəsində şaqraq dağ şəlaləsi, çayları kimi arzuları vardı. Bir kasıb, bir çətinliyə düşən insan vardısa, ona kömək əlini uzadardı. O belə tərbiyə almışdı. Onun sevinci də, uğuru da elin hüsnünə şöhrət gətirirdi. Həmişə hara getsə, öz elini-obasını unutmazdı. Qurduğu, tikdiyi, saldığı tikililər hələ də xalqa xidmət edir. Onun saldığı

yollardan, körpülərdən insanlar arzularına çatmaq üçün gedib-gəlirlər. Ayvaz Həsənovun məsləhətləri, müdrikcəsinə söylədiyi kəlmələr hələ də ellər içində dolaşmaqdadır. Ayvaz ömrü bizi tərk edibsə, onun xoş xatirəsi, yerişi-duruşu, əzəməti yaddaşlara əbədi hopub. Hələ də yaşlı insanların arasında onunla bağlı şirin xatirələr, gənclər arasında isə müdrik bir insanın nəsihətləri, tövsiyələri yaşamaqdadır...

O, məğlub olmağı heç sevməzdi... Ayvaz Həsənov uzun müddət müxtəlif vəzifələrdə çalışıb. Gürcüstan Ali Sovetinin deputatı olub. Dəfələrlə Gürcüstan hökumətinin müxtəlif orden və medallarına layiq görülüb. Bu siyahını çox uzatmaq olar. Onu müxtəlif vəzifələrə təyin ediblər. Hətta qəsdlə onu ən geridə qalan təsərrüfatlara rəhbər göndərəndə belə o, "Sosializm yarışının qalibi" kimi ilin sonunda təsərrüfatın büdcəsində külli miqdarda vəsait olaraq dövlətin və hökumətin, ən başlıcası xalqın təşəkkürünü qazanırdı. Vaxtilə qəsdlə onu aşağı vəzifəyə, yəni geridə qalan sovxozlara direktor göndərən yüksək vəzifəli şəxslər indi məcbur olub onun vəzifəsini böyüdürdülər. Bax, beləcə Ayvaz Həsənov qalib kimi meydana daxil olurdu. Onun uzaqgörən insan olması və sözübütövlüyü həmişə Ayvaz müəllimə istədiyi uğuru verirdi. O, dəfələrlə təzyiqlərə də məruz qalıb. Lakin heç nə onu qorxutmayıb, ürəyində tutduğu fikirləri cəsarətlə həyata keçirməyi bacarıb Ayvaz müəllim. Ən başlıcası odur ki, o, həmişə qalib gəlməyi çox sevirdi, məğlub olmağı yox!

O, düşünməzdi ki, nə vaxtsa, bu vəfasız həyatdan köçəcək. Həyatın belə şirin olduğunu, onun ömür taleyinin belə tez sona çatmağını heç kim düşünməzdi. Heç kim ağlına gətirməzdi ki, bir vaxt gələcək Ayvaz Dursun oğlu həyatdan köçəcək və bu baş verəndə heç kim buna inanmaq istəməyəcək. Amma o, heykəlləşib, elinə-obasına qayıdanda hamı buna istər-istəməz inandı. Bu inamla, istəklə el onun pişvazına çıxmışdı. O gün onu qarşılamağa Borçalı elləri gəlmişdi, uzaq-uzaq ellərdən qonaqlar gəlmişdi. Azərbaycandan, Bakıdan yüksək vəzifədə çalışan insanlar gəlmişdi.

...O gün ziyarətinizə Azərbaycanın Xarici İşlər Nazirliyinin başçısı Elmar Məmmədyarov gəlmişdi, Ayvaz müəllim. Bir vaxt, yəni 1988-ci ildə o ilk dəfə Marneuliyə gələndə siz onu duz-çörəklə,

xoş diləklə, oğlunuz Ramizin yaxın dostu olaraq qəbul etmişdiniz. Elə bu gün də belə oldu. Sənin doğma evinin önündə heykəlləşən, ömür salnamənin bir parlaq səhifəsinin açılışında iştirak edirdi Elmar müəllim. Bütün Borçalı gəlmişdi bu mərasimə. Hamının sevinci-şadlığı dil ilə deyilmirdi. Ürəklərdə sonsuz bir nəğmə çağlayırdı. Heykəlləşən bir ömrün Borçalı tarixində yeni bir səhifəsi yazılmağa başladı həmin gün...

2010-cu ilin oktyabrın 15-i. Bu gün Borçalı tarixinə yazılan şanlı bir tarix idi. Sənin ziyarətinə hamı gəlmişdi. Cavan da, qoca da bu tədbirin açılışında iştirak edirdi. Gül-çiçək dəstələri, əklillər sənin sinəni bürümüşdü, Ayvaz müəllim! Həmin gün oğlun Ramiz Həsənov elə-obaya, gələn qonaqlara mərasimə qatıldıqları üçün minnətdarlığını bildirdi. Hiss edilirdi ki, onun ürəyi dağa dönüb. Kim belə ata ilə-ellər atası ilə fəxr etməzdi. Hələ Dursunun sevincini, həyəcanını görəsən kimsə duymuşdumu. Atası Ayvaz müəllim kimi hündürboylu iki qardaşın məsuliyyəti o gün daha çox hiss edilirdi. Hamının üzündə sevinclə birlikdə kədər də hiss edilirdi. Bildiyimə görə, Ayvaz Dursun oğlunun bəlkə də üzünü görməyən, onunla tanış olmayan gürcü ictimaiyyətinin nümayəndələri də onun haqqında xoş sözlər deyir, ən gözəl fikir və təbriklərini Ayvaz Həsənovun adına ünvanlayırdılar. Mənsə sakitcə, xəyalən Ayvaz Dursun oğlunun çalışdığı illərə qayıdırdım. Xəyalım o illərin zirvəsinə pərvaz edirdi. Uca-uca zirvələrdə qərar tutan Ayvaz Dursun oğlu ilə görüşürdü. O, bu gözəl ellərimizə yenə öz xeyir-duasını bildirirdi.

Sakitcə durub Ayvaz Dursun oğlunun xatirəsinə yazdığım bir şeirimin misralarını pıçıldayırdım.

***

Ayvaz Həsənov yenə də bizimlədir. Onun arzuları, tövsiyələri, düşündükləri həyata keçməkdədir. Bu arzular bu gün bizi sabahın, gələcəyin ən parlaq günlərinə aparır. O, ölməyib. O, yaşayır. Ürəklərdə yaşayır! Diləklərdə yaşayır! Nəvələrin, nəticələrin-gənclərin saf arzularında yaşayır! O, elin sevgisində yaşayır! O, şirin xəyallarda və röyalarda yaşayır! Onun mətinliyi, gücü-qüvvəti yenə

ellərimizə dayaqdır. Adı da, sanı da, dediyi samballı sözləri də hələ bizimlə birgə yaşayacaq! Biz hələ görkəmli el ağsaqqalı, ictimai xadim, gözəl ziyalı, alim və mətin bir insan olan Ayvaz Dursun oğlu Həsənovun neçə-neçə təntənəli yüzilliklərini keçirəcəyik. Onun xatirəsi, dediyi xoş kəlamlar, tövsiyyələr gələcək neçə-neçə nəsillərə ondan yadigar qalacaq.

Nizami Məmmədzadə,
"ZİYA" qəzetinin baş redaktoru.

Sən ellərin Ayvazısan!

Həzin-həzin çağlayır saz,
Düşünürəm bir az-bir az,
Köçdü Dursun oğlu Ayvaz,
Dünya, səni qara boyan!

Səsim, ünüm yetəmmədi,
Ağaclarım bitəmmədi,
Gözlərimdən itəmmədi,
Dünya, qıyma ona dayan!

Gecə-gündüz keşik çəkdi,
Torpağını biçdi, əkdi,
Onun adı gələcəkdi-
El-obaya oldu həyan.

Bu gün nəğmə deyir dilim,
De, dərdini necə alım,
Onu anır ağır elim,
Şirin gəlir mənə laylan.

Küləklərdən xəbər aldı,
Qarşımda bir lal sualdı,

Göymü çəkdi, sumu aldı,
Söylə dünya, eylə bəyan.

Bu dünyadan köçər hamı,
Etibarın dünya, bumu?
Nə yığıbsan izdihamı,
Yoxsa sənsən adam soyan?!

Səksən, doxsan, yüz gələcək,
Şöhrətini el biləcək,
Ogul-nəvə sevinəcək,
Varmı deyin məni duyan!

Dərdlərimi silənə bax,
Bu günə yox, dünənə bax,
Laləzardır Vətənə bax,
Parıldayır hər daş-qayan!

Heykəlin var yolun üstə,
Könül dərddən olub xəstə,
Layla çalır qolu üstə,
Oğlun-qızın: "Ata, oyan!"

Sən dillərin avazısan,
Həm qışısan, həm yazısan,
Sən ellərin Ayvazısan,
Bu ellərdir səni sayan,
Bu ellərdir səni sayan!

"Sabah",
07 may 2014-cü il

Borçalının cənubu da ermənilərə «hədiyyə edildi»

Borçalı mahalı dünyanın ən qədim insan məskənlərindən biridir. Qədim dövr mənbələri burada eradan əvvəl I minillikdə xəzərlərin əcdadları olan müşklərin yaşadıqlarını, eyni zamanda bu dövrdə iskit-kimmer tayfalarının burada məskunlaşdıqlarını qeyd edirlər. Erkən orta əsr pəhləvi mənbələri Borçalını «Qordman» (Qurd adamların yurdu), gürcü mənbələri «Qurdis xevi» (Qurd çalası), ərəb mənbələri Berşaliya və ya Börüçölü, Avropa səyyahları isə Turque Georgia, yəni Türk Gürcüstanı adlandırmışlar.

Borçalı mahalının ərazisi indiki Gürcüstan Respublikasının cənub-şərqini - Dmanisini (Başkeçid), Bolnisini (Bolus), Marneulini (Sarvan, Candar, Qızılhacılı), Qardabanini (Qaratəpə), Zalqanın (Barmaqsız) bir hissəsini, Rustavini (Bostanşəhər), indiki Ermənistan Respublikasının şimalını (Noyamberyan (Baranlı), Spitak (Hamamlı), Amasiya (Ağbaba), Stepanavan (Calaloğlu), Kalinino (Daşır)) əhatə etmişdir. Lakin istər çar Rusiyasının, istərsə də Sovet hakimiyyətinin dövründə Borçalının yaşı min illərdən bəri türk dilində olan yer adları süni şəkildə dəyişdirilmiş, qondarma adlarla əvəz edilmişdir.

Borçalı ərazisindən tapılan ilk müasir tipli insan mis-daş (eneolit) dövrünə aid edilir. Bu dövrə aid Samtavro adlanan qəbristanlıqdan tapılan kəllələr antropoloji cəhətdən Azərbaycan türklərinin Oğuz (Kaspi) irqi tipinə aid olunurlar. Oğuz (Kaspi)

tipinə aid edilən insan qalıqlarına həm də Cənubi Borçalı (indiki Ermənistan Respublikasının şimalı) ərazisindəki Şenqavit və Berkaber düşərgələrində rast gəlinmişdir.

Eramızın ilk illərində buntürklərin və kimmerlərin törəmələri olan kəmərlərin Makedoniyalı İskəndər tərəfindən buraya köçürülmüş iverlərlə apardıqları mübarizə ilə yanaşı, mənbələr II əsrdən başlayaraq Borçalıya əvvəlcə bulqarların, daha sonra isə hunların, savirlərin və onoğurların Borçalı ərazisində möhkəmlənmələri haqqında məlumat verirlər. 628-ci ildə Borçalı Göytürk xaqanlığının tərkibinə qatılmış, daha sonra isə Xəzər xaqanlığının nəzarətində olmuşdur.

Türk tayfalarının Borçalı ərazisində məskunlaşması Cənubi Qafqazın Ərəb xilafətinin tərkibində olduğu illərdə də davam edirdi. Xilafətin süqutu nəticəsində digər Azərbaycan ərazilərində olduğu kimi, Borçalıda da qədim dövlətçilik ənənələri dirçəldildi – Tiflis və Dumanis əmirlikləri yaradıldı. Bu əmirliklər adətən Sacilər, daha sonra isə Salarilər sülalələri tərəfindən idarə edilən Azərbaycana bağlı idilər.

Səlcuqluların Cənubi Qafqaza gəlişi ilə Cənubi Qafqazda , o cümlədən Borçalıda da İslam - Türk amilinin qəti şəkildə qələbəsinə gətirib çıxartdı. 1118-ci ildə Səlcuqlulara qarşı mübarizə aparmaq məqsədilə Abxaz - Kartvel hökmdarı David Baqrationi (Aqmaşanebeli) 40 min qıpçaq türkünü Borçalı və ona bitişik bölgələrə yerləşdirdi . 1121-ci ildə bu qıpçaqların köməyilə Didqori döyüşündə Səlcuqlu hərbi dəstə üzərində qələbə qazanan IV David Tiflis müsəlman əmirliyini ləğv etdi və Dumanisi əmirliyinin ərazisini işğal etdi. Bununla belə yerli əhalinin dini və etnik tərkibini nəzərə alan Baqratilər sülaləsindən olan gürcü hakimləri kəsdirdikləri pullarda Məhəmməd peyğəmbərin adını zərb etdirir, onların rəğbətini qazanmaq məqsədilə Cümə namazlarına gələrək xütbələrə qulaq asırdılar. Tiflisdə isə ümumiyyətlə donuz saxlamaq qadağan edilmişdi. IV David tərəfindən Tiflisə köçürülmüş xristian əhalisinin bir qismi 1226-cı

ildə Xarəzmşah Cəlaləddin tərəfindən qovuldu, qalanları isə İslamı qəbul etdi.

XIII əsrin 20-ci illərindən başlayan monqol hücumları 60-cı illərdə bütün Cənubi Qafqazın, o cümlədən Borçalının da Elxanilər dövlətinin tərkibinə qatılması ilə nəticələndi. Başqa monqol ulusu olan Qızıl Orda ilə Cənubi Qafqaz uğrunda mübarizə aparan Elxanilər, Qızıl Ordada hakimiyyətdə olan Bərkə xanın yanından qaçıb gələn monqol feodallarını Dumanisdə yerləşdirdilər.

XIV əsrin sonlarında Cənubi Qafqaza gələn Əmir Teymur 1386-cı ildə Borçalıdakı Yağlıca düzənliyində ordugah quraraq Borçalıda yaşayan qıpçaq ellərini özünə tabe etdi.

XV əsrin 20-ci illərindən Azərbaycan Qaraqoyunlu dövlətinin tərkibinə qatılan Borçalı, bu dövləti əvəz edən Ağqoyunluların xüsusi diqqət yetirdikləri bir bölgə idi. Ağqoyunlu Həsən Padşah və onun oğlu Sultan Yaqubun dövründə Borçalı ərazisində yerləşən, mühüm strateji məntəqə olan Ağcaqala daha da möhkəmləndirildi.

XVI əsrin I rübündən başlayaraq Osmanlı-Səfəvi müharibələrinin gedişində dəfələrlə əldən-ələ keçən Borçalı əsasən Səfəvilərin nüfuz dairəsində qalmış və Qarabağ bəylərbəyiliyinin tərkibində olmuşdur.

XIX əsrin əvvəllərindən Rusiya ağalığının bərqərar olması Borçalı, ümumiyyətlə Cənubi Qafqazın müsəlman əhalisi üçün əsl faciə oldu. Bölgənin zorla Osmanlı imperiyası və Qacar İranı ərazilərinə sürgün edilən müsəlman əhalisinin (Qarapapaqlar, Ulaşlı və s.) yerinə ermənilər, aysorlar və yunanlar yerləşdirildi ki, bu da Borçalının etnik tərkibini qismən də olsa dəyişdirdi.

Rusiyada Romanovlar sülaləsinin devrilməsindən sonra Qafqazda milli-azadlıq mübarizəsi daha da gücləndi. 1918-ci ilin mayında Cənubi Qafqazda müstəqil dövlətlər quruldu. Borçalı ziyalılarının Osmanlının himayəsi altında «Qarapapaq» dövləti qurmaq cəhdləri uğursuzluqla nəticələndi. Borçalı ilə bağlı Azərbaycan-Gürcüstan danışıqlarının getdiyi bir dövrdə erməni

siyasətbazları Borçalını qanlı müharibə meydanına çevirdilər. 17 dekabr 1918-ci ildə Borçalı uğrunda başlayan erməni-gürcü müharibəsi mahalın iki yerə bölünməsi ilə nəticələndi. Bu bölgü Cənubi Qafqazda Sovet rejimi bərqərar olduqdan sonra rəsmiləşdirildi. Borçalının cənub hissəsi Ermənistan Respublikasına «hədiyyə edildi».

Hazırda Ermənistana verilmiş Borçalı torpaqlarında bir nəfər də olsun yerli Azərbaycan türkü qalmamışdır. Keçən əsrin 80-90-cı illərində Gürcüstanın tərkibindəki Borçalı torpaqlarına Svanetiya köçkünlərinin yerləşdirilməsi, Qamsaxurdiya rejiminin qatı millətçilik siyasəti Borçalının axtoxton türk əhalisinin xeyli hissəsinin Azərbaycan Respublikasına və Rusiyaya köçmələrinə səbəb olmuşdur.

Borçalının xəritəsi



Qeyd:

2002-ci ilin siyahıyaalınmasına əsasən rayon mərkəzləri istisna olmaqla, Borçalı kəndlərində 311025 nəfər əhali yaşayırdı ki, onların da 152456-sı kişilər (49%), 158569-u (51%) isə qadınlar idi. Əhalinin etnik tərkibində azərbaycanlılar üstünlük təşkil edir (62,5%), gürcülər 28,4%-lə 2-ci, ermənilər 6,7%-lə 3-cü, berzenlər 1,5%-lə 4-cü yeri tuturlar.

"Sabah",
07 may 2014-cü il

Krım qədim türk yurdudur

Başıbəlalı Krımın tarixində bizim Azərbaycanın tarixinə bənzər məqamlar çoxdur. Bu yurd yeri də qədimdən üzübəri bir çox tayfaların, xalqların yürüşünə, qələbəsinə, məğlubiyyətinə şahidlik eləyib. Ancaq Krımı eradan əvvəlki qaranlıq minilliklərdən götürüb bugünkü günümüzə gətirib çıxaran tarix buranın həmişə bir türk yurdu olduğunu təsdiq edir.

Yaşı bilinməyən mağaraları, qədim insan məskənlərinin qalıqları, tarixi abidələri, həmçinin yumşaq iqlimiylə Krım bəşər mədəniyyətinin qədim yaşayış məskənlərindən biridir. Bölgənin ilk sakinlərinin kimlər olduqları da bəllidir. Tarixdə **tavrlar** kimi qalmış bu xalq haqqında yazan Herodotun, Tasitin, Strabonun, Ammianın əsərlərindən məlum olur ki, onlar yalnız Krımda yaşayaraq bu coğrafi ərazidən kənara çıxmayıblar. Sonradan bu ərazilərə kimmerlərin, skiflərin güclü axını nəticəsində Krım bu xalqların idarəsi altına düşür. Krımın doğma sakinləri skiflər və kimmerlərə qarışaraq assimlyasiya olduqlarından, tavrların türkdilli xalq olduğu aydınlaşır. Krımın onlarla tarixi abidələrindən biri olan qədim **Üçbaş** tavr yaşayış məntəqəsi də buna sübutdur.

Tarix boyu Krım müxtəlif xalqlar tərəfindən idarə edilmişdir. Kimmerlər bu yarımadanı e.ə. VII əsrdə məskun etdi, kimmerlərdən sonra skiflər Krımı aldı. Yerli kimmerlər bu səbəbdən dağlara köçürülüb təcridə uğradılar. Qədim yunanlara Krım tavr tayfalarının adı ilə məlum olub və yarımada ta XX əsrin əvvəllərinəcən həm inzibatlıqda, həm də ədəbiyyatda Tavrika və ya **Tavrida** kimi də tanınırdı.

E.ə. V əsrdə yunanlar burada ilk koloniyalarını saldılar. Sonralar burada Bosporus dövləti əmələ gəldi. Dövlət Roma

imperiyasının tabeliyində idi. Daha sonra qotlar, hunlar, bulqarlar, xəzərlər, Kiyev Ruslular, Bizanslılar, qıpçaqlar və monqollar buranı bir-birinin ardınca işğal etmişdilər. Eramızın XIII əsrində Cenovalı və Venesiyalı tacirlər Krımda bir neçə sahilyanı ticarət şəhər və qəsəbələri salmışdılar.

1441-ci ildə Girəy nəslindən Hacı xan Krımda xanlıq qurdu. Lakin 1475-ci ildə xan Mengli Girəyin İstanbulda girov saxlanmasından sonra xanlıq Osmanlı imperiyasından asılılığa düşdü. 1783-cü ildə Rusiya Krımı istila edir və xanlığın mövcudluğuna son qoyur. Yüz minlərlə Krım tatarı yarımadanı tərk edib Türkiyəyə köçdü. Beləliklə, bu xalq Krımda etnik çoxluqdan etnik azlığa döndü.

Sovetlərin ilk illərində Krım muxtariyyət əldə etdi. 1941-ci ildə Krım faşist hücumuna məruz qaldı və 1944-cü ildə işğalçılardan azad edildi. Muxtariyyət statusuna baxmayaraq, 1944-cü ildə yarımadanın, demək olar ki, bütün Krım tatarı, həmçinin yunan, bolqar, türk, erməni, italyan, azəri, çərkəz əhalisi hakimiyyət tərəfindən Orta Asiyaya sürgün edildi. 1945-ci ildə Krımın muxtariyyəti ləğv olundu.

19 fevral1954-cü ildə Nikita Xruşşovun təşəbbüsü ilə 27 min kvadrat kilometr ərazisi olan **Krım** vilayəti Rusiyanın tərkibindən çıxarılaraq Ukraynaya verilir. Ukraynanın Rusiyaya birləşdirilməsinin (1654) 300 illiyi münasibətilə Xruşşovun atdığı bu addım SSRİ-nin dağılmasından sonra Rusiya millətçilərinin kəskin etirazını doğurdu.

Sovet İttifaqının dağılışından sonra muxtariyyət bərpa olundu; vaxtilə sürgün edilən xalqlara qayıtmağa icazə verildi. Son 200 il ərzindəki kimi, bu günlər ruslar Krımda çoxluq təşkil edir. Qalan xalqlar – ukraynalılar, Krım tatarları, beloruslar, tatarlar, ermənilər və yəhudilərdir. Hazırda Krımda 1 969.8 min nəfər əhali yaşayır.

BAYDAR

Krım haqqında tarixi-publisistik bir yazı hazırlayarkən təsadüfən bu qədim türk yurdunda Baydar adı ilə xeyli yaşayış məskənlərinə, çaylara, dağlara, yer adlarına rast gəldim. Məsələ ondadır ki, Borçalının ən qədim kəndlərindən olan Baydar mənim doğulub boya-başa çatdığım ata-ana yurdumdur. Baydarın tarixi ilə bağlı bir neçə versiyalar mövcuddur.

Dünyada ən nəhəng kontinental imperiya yaratmış böyük monqol hökmdarı Çingizxanın oğlu Cağatayın (XIII əsr) **Baydar və Cuci** adlı iki övladı vardı. Baydar dəfələrlə İmperiyanın Qərb yürüşlərində (1236-1242) iştirak edib. Batı ilə birlikdə Kiyevi ələ keçirib. Əlahiddə korpusla Polşada döyüşüb, Krakovun işğalını həyata keçirib.

Versiyaların birinə görə, monqollar Krımı işğal etdikdən sonra Çingizxanın nəvələri öz xanlıqlarını genişləndirmək məqsədilə Qafqaza kəşfiyyat xarakterli yürüşlər etməyə başladılar. Onlar Cənubi Qafqazın bakirə dağlarına, dəniz kimi ləpələnən çəmənliklərinə, büllur bulaqlarına, zəngin çaylarına heyran qalmışdılar. Baydar xan öz dəstəsi ilə Aran Borçalısının Xram və Kür çayları vadisində, Yağlıca yaylasında məskunlaşdı, oranı mal-qara üçün qışlaq seçdi. Xram çayının sahilində olan bir obanın yanında yurd saldı. (Sonralar buranı Baydar adlandırdı.) Cuci isə Dağ Borçalısına üz tutdu. Bərəkətli, qapqara torpaqları olan, sərin, təmiz havası insanı bihuş edən Daşırda (Kalinino) Aran Borçalısındakı elatın yaylaq yerlərində köç qurdu və burada bir oymağın – Cuci kəndinin (Cücəkənd) binasını qoydu.

Tarixin çox sərt qanunları var. Müəyyən bir tarixi dövrdə yaşayan insanlar əsrlər boyu beyinlərindəki o dövrün tarixi

izlərini, qan yaddaşını heç vəchlə silə bilmirlər. İki qardaşın – böyük imperatorun nəvələrinin Borçalının dağ və aran hissələrində əsasını qoyduqları Baydar və Cücəkənd camaatı şəxsən mənim, mənim valideynlərimin, onların valideynlərinin və i.a. söylədiklərinə əsaslansaq, əsrlər boyu aranlı-dağlı ömür sürüblər, bir-birini öz doğmaları kimi itirib-axtarıblar. Dılları də, ləhcələri də, adət-ənənələri də, hətta antropoloji göstəriciləri də oxşar və eyni olub.

Bu iki kəndin camaatı arasında elə qohumluq əlaqələri olub ki, onun tarixini heç kəs müəyyənləşdirə bilməyib – onlar sadəcə mehriban və çox yaxın olublar...

Digər versiyaya görə, Baydar kəndinin əsası XIV əsrdə Krımdan didərgin düşən türk əsilli noqaylar tərəfindən qoyulub. 1360-cı ildə Ordada "Böyük Üsyan" alovlandı. Tayfalararası qanlı döyüşlərdə onlarla xan və hakimiyyətə iddialı insanlar bir-birini öldürdülər. Güc və nüfuz sahibi olan Krım xanı Mamay noqay tayfası Manqıtla düşmənçilik edirdi. Tarixi salnamələrə əsaslansaq, Mamay manqıtların Baydar adlı tayfasını məğlub edir və onları Qafqaza sürgün edir.

Qafqazda Baydarlıları yenə də dinc byraxmırlar. Bu dəfə onları başqa bir qəzəbli xan – Teymurləng (avropalılar ona Tamerlan deyirdilər) təhdid edir. Bu təhdidlərdən cana doyan Baydarlılar bir neçə on illər Qafqaz ətrafında köçərilik edir və nəhayət, tədricən oturaq həyata keçir və bu ərazilərdə bir neçə yaşayış məskəninin əsasını qoyurlar. Bunlardan biri də indiki Gürcüstan ərazisinin cənubunda yerləşən Borçalının Baydar kəndi idi.

Başqa bir versiyaya görə isə Baydarlılar Osmanlı imperiyasından köçürülmüşdü.

Maraqlıdır ki, Krımda Baydar adı ilə bağlı onlarla kənd və yer adları qalmaqdadır. Onlardan bəzilərini xatırlatmaq istəyirəm:

-Baydar – Polovinski rayonunun Kurqan vilayətində kənd.
-Baydar - Kuyedin rayonunun Perm vilayətində kənd.
-Baydar – Çerdınski rayonunun Perm vilayətində kənd.
-Baydar – Krımın Orlinoe kəndinin əvvəlki adı.

Krımın Simferopol rayonunda 1948-ci ilədək **Yeni Baydar** (hazırda Kolçuqin kənd soveti) kəndi mövcud idi. 2001-ci ilin siyahıyaalınmasına görə kənd əhalisinin sayı 1089 nəfər idi.

1954-1968-ci illərdə Simferopolun Kolçuqin, Bağçasarayın Tütünçülük və qədim tatar kəndi olan Caycurek (Sosnovka) kəndlərinin birləşməsi nəticəsində Yeni Baydar kəndi yaradıldı.

Krımda Baydar adı ilə bağlı olan onlarla kənd, çay, dağ vadisi, yayla və s. mövcuddur.

Baydar yaylası Krım dağlarının ətəyində yerləşir.

Baydar boğazı - Baydar aşırımı (Baydarskiye vorota) Baydar dərəsindən (Krımın İsveçrəsi) Krımın cənub sahilinə doğru uzanan və Krım dağlarından keçən dağ keçidində yerləşir. Çələbi dağı ilə Çxu-Bair dağı arasında yerləşir. Baydar aşırımında 1848-ci ildə Baydar Qapıları (Baydarskiye vorota) adlı gözəl arxitekturalı tikili inşa edilib.

Baydar Marneuli rayonu ərazisində, Xram çayının sahilində, Rustavi şəhərindən 11 km məsafədə, dağlar ətəyində, dəniz səviyyəsindən 330 metr yüksəklikdə yerləşir. Kənd Kürtlər, Aşağı Qullar, Yuxarı Qullar, Lejbədin, Qırıxlı, Böyük Muğanlı kəndləri ilə həmsərhəddir.

Zəruri qeyd:

Son vaxtlarda bəzi tarixçilər çox səhv olaraq "Baydar" adını "Padar" adı ilə eyniləşdirib guya bu sözün assimilyasiya olunduğunu iddia edirlər və onların İrandan köçdüklərini söyləyirlər. Necə olur ki, Padar adı ilə Azərbaycanda onlarla yer və kənd adı mövcud olduğu halda, Borçalının "Baydar"ı və Qaxın "Baydarlı"sı dəyişməz qalıb?

Filologiya elmləri doktoru, Gürcüstan Milli Akademiyasının həqiqi üzvü, dəyərli dostum Şurəddin Məmmədlinin "Gürcüstan azərbaycanlıları Gürcüstanda" adlı çox qiymətli toplusunda Gürcüstanda azərbaycanlıların tarixi-coğrafi durumuna nəzər salınır, çağdaş dövrə aid statistik-ensiklopedik bilgilər inzibati-

ərazi məntəqələri (əsasən kəndlər) müstəvisində diqqətə çatdırılır. Müəllif Baydar kəndi haqqında belə yazır:

"BAYDAR kəndi – Borçalı çökəyində, Xram çayının sol sahilində, rayon mərkəzindən 11 km cənub-şərqdə, dəniz səviyəsindən 330 m yüksəklikdə. Toponim ağ hunlar tirələrindən Padar tayfasının, qədim Baydar türk qövmü ilə ilgili ola bilər (bu tayfa adı indi monqollarda, Krım tatarlarında, başqırdlarda, qazaxlarda qalıb). Kəndin adına "Baydareli" şəklində 16-cı əsrin məxəzlərində rastlaşırıq. 18-ci əsrdə kənd ayrıca Baydar sultanlığının mərkəzi olub. Əhalisi: 1870-ci ildə 61 ailədə 409 nəfər; 1918-ci ildə 528 nəfər; 1926-cı ildə 160 ailədə 582 nəfər; 2002ci ildə 270 ailədə 1236 nəfər (636 kişi, 600 qadın). Məktəbin tarixi 1921-ci ildən götürülür; indi Osman Çobanov adına Baydar orta məktəbi (169 şagird) fəaliyətdədir. Məşhurları: şair Leyli Əzizbəy qızı, ağsaqqallar Mehdi ağa Sultanov, Sultan nənə, Əhməd Çobanov, veteran müəllim Paşa Sultanov, aşıq Dəllək Söyün, Molla Mikayıl, jurnalist Şərif Kərimli, ictimaiyətçi Osman Çobanov və b."

Ş.Məmmədlinin təqdim etdiyimiz məlumatları kifayət qədər əhatəli olmasa da (xüsusilə məşhurları barədə) ilk mənbə kimi əhəmiyyətlidir. – ***Ş.Kərimli.***

Kitabın içindəkilər

Qalammıram bu dünyada 3
Vətəni unutma, ay oğul! 4
Ana, atamiza salam de bizdən! `.....9
Baydar kəndi 10
Köhnə kişilər 13
QONAQ 16
Sayğısızlıq 21
Türkiyənin bölgədə yeri və rolu *(ABŞ və B.Britaniya mətbuatının materialları əsasında)* *23*

Gürcüstan – Qərbin ikili standart siyasətinin yeni qurbanı 30

"Azərbaycan" özü bir cəbhə idi 53
"Sabah" qəzeti "Keyfiyyətə görə Beynəlxalq Qızıl Ulduz" (International Star Award for Quality) mükafatı laureatı oldu 61
Dənizə yol burdan başlanır 62
Rəşid Yusifov 65
ЭВМ на службе междугородной 69
Eldar Göyçaylı 72
Vurğunluq 76
Rəşid Pəhləvanla görüş 79
Onun bahadırlıq sənəti 82
"Aman ayrılıq!" 85
"Yazıçı" təqdim edir 90
Славен Карабах богатырями! 92

Poeziya yollarında 96
Anam qocalır
Dəniz niyə mavidir?..
Ələ qələm alanda 101
Möcüzələrin yolu gerçəkliyə qovuşur 108
Onları unutmayaq 105

"Sabah" bu gün və sabah 110
Gözün aydın, "Azərbaycan!" 111
Bəlkə də qırğın baş verməzdi 112
Üzü sabaha gedirik 114
50 yaşın imtahanı 117
O, xalçanı məğlubiyyətsiz tərk etdi 120
Tarixi keçmişi dərk etmədən gələcəyə üz tutmaq mümkün deyil 123
Əbdürrəhman Vəzirovdan redaksiyaya qəfil zəng 130
Borçalıdan gələn var 141
Jurnalist ömrü 147
"Azərbaycan" qəzetinin 25 illik yubileyi 150
Mən belə dünyanın nəyini sevim?!" 157
Qaz vurub qazan doldururlar 159
""Tellayı" cal, Əjdər əmi!" 162
Milli, mənəvi qarant 164
Lefortovo zindanında anladıqlarım 168
Uğurunuz xeyir olsun, Əhməd müəllim! 174
"Biz yoxlamanı özümüz istəmişik" 180
Sizin böyük dostunuz 183
Qura bilmirsənsə, qoru 188
Yardim göndərilir 194
Rəşid Pəhləvan 195

Etiraf...

Yubileyə həsr edilmişdir.....197
Son zəng 198
Əmək şöhrət gətirir 199
Əməksevər mexanizator 201
Yaxşı başlanğıc 202
Mənim ilk müəllimim 204
Traktorçu müğənni 206
Həmişə birinci 208
Komsomol avanqard olmalıdır 209

Çin Xalq Respublikası 210
Dünyada sözdən uca heç nə yoxdur! 210

Etibar Məmmədov: "Hökumətə müxalif mövqedə durmaq olar, ancaq düşmən mövqedə yox!" 216

"Əllərimin qədrini dustaq ikən bilmişəm" 222

Xəlil Rza Ulutürk. Əjdaha mağarasında mübarizə 224

Cavabsız qalan suallar 230
Ağzını başı boyda açmış xırdaca balıqların dərdidir mənim dərdim... 223
1 oktyabr ÇXR-in yaranmasının 45-ci ildönümüdür 236
İtirilən nəslin harayı 241
Bələdiyyə seçkiləri, Çəmbərəkənd və makler deputatlar 244
Elmin işığını sönməyə qoymayaq 247
"Dubay toyuğu yeyəndən pəhləvan olmaz" 249

Firudin Cəlilov: "Bu sifarişi İqrar Əliyevə kim verib: Rusiya, yoxsa İran?" 251

Ana, atamiza salam de bizdən! 258
Ötən və itən illərin şeirləri 263
Azərbaycan 2020: Gələcəyə baxış 267
Azərbaycan-Koreya əlaqələri 270
Ümümdünya Əqli Mülkiyyət Təşkilatı və Azərbaycan 277
Koreya-Azərbaycan əməkdaşlığı davam edir 283
Paytaxtımızda ECO-nun növbəti iclası 286
Ən yaxşı ixtiraçı 289
Azərbaycanda Patent Sistemi və onun inkişaf dinamikası 295
İxtiraçı musiqiçilər 299

Əcnəbi dillərdə

Doctor held responsible Shalala could have been saved 302
Radio Liberty taken off the air 305
USA will not give İran ccess to Turkmenian gas 307

Georgian turks

Borchali turks 309
Ahiska turks 313

Friendly words, hard feelings 316
On painstaking ways of statehood 318
Cenzor 321
Korea-Azerbaijan relations 324

Ayvaz Həsənovun xatirəsi yad olunmuşdur 330
Allahdan verilən pay 331
Borçalının cənubu da ermənilərə «hədiyyə edildi» 336
Krım qədim türk yurdudur 340
Baydar 342

ŞƏRİF KƏRİMLİ
ÖTƏN İLLƏRİN HARAYI
(*Seçilmiş publisistik əsərlər)*

ÜÇ CİLDDƏ
II cild

E-mail: kerimli-sherif@mail.ru
(050) 3280451

«Elm və Təhsil» nəşriyyatının direktoru:
professor Nadir MƏMMƏDLİ

Kompüter dizayneri: Zahid Məmmədov
Texniki redaktor: **Rövşanə Nizamiqızı**
Korrektor: Fidan Kərimli

Çapa imzalanmış **26.06.2015**
Şərti çap vərəqi **22.** Sifariş № **205**
Kağız formatı **60x84 1/16**
Tiraj **500**

Kitab **«Elm və Təhsil»** nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib çap olunmuşdur
E-mail: nurlan1959 @gmail.com
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi, 8/4



Şərif Həmid oğlu Kərimli 1954-cü il iyunun 22-də Marneuli rayonunun Baydar kəndində anadan olub. 1972-ci ildə Baydar orta məktəbini və 1977-ci ildə Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsin bitirdikdən sonra «Yazıçı» və «İşıq» nəşriyyatlarında redaktor, şöbə mudiri vəzifələrində çalışıb. 1987-ci ildən 1989-cu ilədək «Gənclik», «Molodost» jurnalında məsul katib, redaktor müavini vəzifələrində işləyib.

1989-cu il oktyabrın 5-dən, qəzetin ilk sayından 1995-ci ilədək «Azərbaycan» qəzetində əvvəlcə məsul katib, baş redaktor müavini və nəhayət, baş redaktor vəzifəsinə yüksəlib.

Şərif Kərimli təkcə Azərbaycanın ictimai-siyasi, social-mənəvi olaylarına işıq tutmaqla kifayətlənməmiş, həyatının və yaradıcılığının əsas leytmotivinə, qayəsinə, mənasına çevirdiyi Borçalı və Azərbaycan-Gürcüstan dostluğu ideyasını bu ölkələrdə çıxan qəzetlərlə yanaşı, dünyanın tanınmış, nüfuzlu, yüksək tirajlı ingilisdilli qəzetlərində də («Novoe russkoe slovo» (ABŞ-da çıxır), «Nezavisimaya qazeta» (Rusiya), «İslami Birlik» (İran), «Sabah» (Turkiyə)) yazmış, təbliğ etmiş və şəxsən özü də bu amala sadiq qalmışdır.

Şərif Kərimli dəfələrlə Borçalı problemini ən yüksək rəsmi səviyyələrdə diqqətə çatdırmış, Azərbaycan və Gürcüstan prezidentləri ilə görüşmüş və bu məsələ ilə bağlı soydaşlarımızın arzu və istəklərini ifadə edən təkliflər vermişdir.

Şərif Kərimli yüzlərlə siyasi-publisistik məqalə ilə yanaşı, «Rəşid Pəhləvan», «Sali Süleyman», «Pəhləvan Müsəllim», «Qaytarılan köç karvanı», «8712 nömrəli əsir», «Gürcüstan: ikili standart siyasətinin yeni qurbanı» kimi maraqlı bədii və bədii-publisistik kitabların müəllifidir.